# FİKİR DAMLALARI

Seyyid Əli Əkbər Ocaq Nejad

SEYYİD ƏLİ ƏKBƏR OCAQ NEJAD

# FİKİR DAMLALARI

## (MÖVLUDLAR, ŞƏHADƏTLƏR VƏ FƏZİLƏTLİ GÜNLƏRİ)

*Tbilisi 2017*

**Seyyid Əli Əkbər Ocaq Nejad**

# Fikir damlaları kitabı

**Tərtib edən: Mehrab Xəlilov**

**Redaktor: Seyid Əliəsgər Behbudlu**

**Kompüter tərtibatçısı: Elvin Bayramov**

***Hörmətli oxucu!***

***Kitab Seyyid Əli Əkbər Ocaq Nejadın mövludlar, şəhadətlər, müqəddəs və fəzilətli günlər barədə müxtəlif illərdə söylədiyi xütbələr əsasında tərtib olunmuşdur.***

*Gürcüstan Müsəlmanları İdarəsi 2017*

# MÖVLUDLAR

## HƏZRƏT PEYĞƏMBƏR (S) VƏ İMAM SADİQİN (Ə) MÖVLUDU
## (Peyğəmbərin (s) üç xüsusiyyəti)

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَالْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَنْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِي الْقاسِمِ مُحَمَّدٍ وَعَلى اَهلِ بَيْتِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ سِيَّما بَقِيَّةِ اللهِ فِي الأَرَضِين، وَاللَّعنُ عَلى أَعدائِهِم أَجمَعِين اِلى قِيامِ يَوْمِ الدِّينِ.

Rəbiüləvvəl ayının 17-də iki mübarək və şərafətli insanın mövlud günüdür. Bəşəriyyətin hidayətində, mənəviyyat və ruhaniyyətində onların hər ikisinin çox böyük rolu olmuşdur. Onlardan biri Xatəmül-ənbiya (Peyğəmbərlərin sonuncusu) Məhəmməd Mustafa (s), digəri isə altıncı imamımız Həzrət Cəfər ibn Məhəmməddir (ə).

Həzrət Məhəmməd (s) yer üzündə bəşəriyyətə izzət, hidayət, dünya və axirət səadəti bəxş edən, insanları mənəviyyata dəvət edən və Allah-təalanın yer üzündə yaratdığı ən şərafətli şəxsiyyətdir.

İslam Peyğəmbərindən (s) qabaq Həzrət İsa Məsih (ə) peyğəmbərlik etmişdir. Həzrət İsa (ə) qısa müddət peyğəmbərlik etdikdən sonra düşmənləri tərəfindən təqib olunmağa başladı. Allah-təala onu göylərə ucaldaraq Öz dərgahında saxladı və istədiyi vaxt onu yerə qaytaracaqdır. Hədislərə əsasən, on ikinci İmamımız (ə.c) zühur etdikdən sonra Allahın əmri ilə Həzrət İsa Məsih (ə) də yerə enəcək və onun əsas köməkçisi və nümayəndələrindən biri olacaqdır.

Həzrət İsanın (ə) qeybə çəkilməsindən təxminən beş yüz il ötdü. Bu beş yüz il ərzində insanlar mənəvi cəhətdən pozulub yolu həddən artıq azdılar. İnsanlıq tamamilə yox olub aradan getmişdi. İslam Peyğəmbərindən (s) qabaqkı tarixə nəzər saldıqda insan həqiqətən də xəcalət çəkir. Belə ki, o dövrün tarixini oxuyarkən həddi-büluğa çatmayan bir uşaq “nə oxuyursan?” – deyə soruşduqda, adam cavab verməyə söz tapmır. Yəni belə bir dövr idi ki, insanlıqdan, ümumiyyətlə, əsər-əlamət

qalmamışdı. Əgər tarixin həmin səhifələrindən danışası olsaq, buna uzun müddət sərf etmək lazım gələrdi. Odur ki, o döv-rdən nümunə olaraq bir səhifəyə diqqət yetirək.

Həzrət Peyğəmbərdən (s) öncə insanlar bir-biri ilə demək olar ki, vəhşi prinsiplər əsasında rəftar edirdilər. Onlar elə bir səviyyədə idilər ki, məsələn, Səfa dağının başında əli qılınclı bir nəfər ayaqlarını uzadaraq təkəbbürlə camaata meydan oxuya-oxuya deyirdi: "Kimin mənə bir söz deməyə cürəti çatar? Kim mənə "ayağını uzadıb oturma" – deyə bilər?" Və o, bu sözlərlə də özünü qoçu və güclü hesab edirdi. Digər bir tərəfdən ondan daha səviyyəsizin birisi ona yaxınlaşıb deyirdi: "Mən deyə bilərəm." Sonra da həmin adam qılıncını çəkib yerdə oturanın ayaqlarını doğrayırdı.

Beləcə, iki qəbilənin adamları arasında müharibə başlayırdı. Elə oradaca onlar bir-birilərini qırmağa başlayırdılar. Səfa dağının ətəyi isə qan gölünə çevrilirdi. Belə qırğınların əksəriyyəti iki nadan və cahilin səviyyəsiz hərəkəti nəticəsində baş verirdi. O dövrdə insanların düşüncə və təfəkkür tərzi belə idi. Onlar elə bir səviyyədə yaşayırdılar ki, Allah-təalanın bəxş etdiyi qız övladını özlərinə gözükölgəlilik və başıaşağılıq kimi qəbul edirdilər. Elə buna görə də dünyaya gəlmiş məsum qız övladlarını aparıb diri-diri torpağa basdırırdılar.

Həzrət Peyğəmbər (s) öz peyğəmbərlik missiyasını həyata keçirməyə başladıqdan sonra camaat yavaş-yavaş dəyişməyə başladı. Bəziləri keçmişdəki pis əməllərinə görə peşman olub Həzrət Peyğəmbərdən (s) tövbə və s. kimi çıxış yollarını öyrənirdilər.

Bir ərəb Həzrət Peyğəmbərin (s) hüzuruna gəlib dedi: "Ya Rəsulallah (s), mənim kiçik bir qızım var idi. Bir gün onu gəzməyə aparmaq bəhanəsilə təzə paltarlarını geyindirdim. O, ata deyə-deyə əlimdən tutub mənimlə birgə evdən çıxdıq. Mən onu danışdıra-danışdıra çöllüyə apardım. O, yolda mənimlə çox şirin-şirin söhbət edirdi. Yeri qazıb qızı ora qoydum. Mən torpağı onun üstünə tökdükcə, o da hey "ata, ata" – deyib məni çağırırdı. Lakin onun bu çağırışına heç bir əhəmiyyət verməyib diri-diri torpağa basdırdıqdan sonra evə qayıtdım. Ey Allahın Peyğəmbəri (s), mən o vaxtlar

tutduğum işdən çox peşman olmuşam. Nə edim ki, Allah məni bağışlasın?”

Həzrət Peyğəmbər (s) buyurdu: “Anan sağdırmı?” Dedi: “Xeyr, dünyasını dəyişib.” Həzrət Peyğəmbər (s) soruşdu: “Xalan sağdırmı?” Dedi: “Bəli.” Həzrət Peyğəmbər (s) buyurdu: “Get, ömrünün axırına qədər ona qulluq et. O, sənə ana əvəzidir. Əgər o, sənin üçün dua etsə, bəlkə Allah onun duasına xatir səni bağışlayar?”

Bəli, qeyd etdik ki, İslam Peyğəmbərindən (s) öncə insanlıq belə bir müdhiş vəziyyətdəydi. Günahsız körpə qızları diri-diri torpağa basdırırdılar. Tarixin belə acı və ağrılı hadisələri həqiqətən də insanı narahat etməyə bilmir. Yaşadığımız dövrə gəldikdə isə, indi bəzi cəhətlərdən keçmiş dövrlərlə müqayisədə daha pis və daha acınacaqlıdır. O zamanlar bir kişi öz qızını öldürərdi, amma indiki zamanda bir nanəcib milyonlarla körpəni öldürür. Bundan daha dəhşətlisi isə odur ki, milyonlarla insan onun bu hərəkətini görür, amma nədənsə susurlar.

Allah-təala insanların yaşadığı ağır və acınacaqlı bir dövrdə Həzrət Peyğəmbəri (s) dünyaya bəxş etdi və onun əli ilə də bütün bəşəriyyətə nicat verdi. Onun dünyaya gəlməsiylə adamlar, millətlər və xalqlar insanlığın nə demək olduğunu anlamağa başladılar. Həzrət Məhəmməd (s) dünyaya gəldiyi zaman bir çox möcüzələr baş verdi. O, dünyaya göz açan zaman Kəbənin ətrafındakı bütlərin hamısı başıaşağı çevrildi, Kəsra sarayının eyvanı titrədi, tavanı dağıldı və navalçaları yerə töküldü. Həmçinin bir gecənin içində Savə gölü qurudu, minillik (min ildə bircə dəfə də olsun sönməyən) fars atəşgahı söndü. Həmin gün padşahların qəlbinə bir vəlvələ düşdü.

Amənə xanım deyir: “Məhəmmədi (s) dünyaya gətirərkən gördüm ki, onun nuru göylərə ucalır. Elə bu zaman qulağıma belə bir səs gəldi: “İnsanların ağası dünyaya gəldi. Uşağın adını Məhəmməd (s) qoy!”

Hədislərdə belə nəql olunur ki, Həzrət Məhəmməd (s) dünyaya gələndə İblis ucadan nalə çəkdi və şeytanlar nə baş verdiyini öyrənmək istədikdə dedi: “Vay olsun sizə! Gecə elə bir böyük hadisə

gördüm ki, yeri və göyləri dəyişdi! İsanın (ə) qeybə çəkilməsindən sonra ən böyük hadisə baş verib, qalxın göylərə və nə baş verdiyini öyrənin.”

Şeytanlar bir şey öyrənə bilmədilər və geri qayıtdılar. Bu zaman İblis Məkkədən nur saçdığını və mələklərin ora toplaşdığını gördü. Məkkəyə üz tutduqda Allahın ən yaxın mələyi Cəbrayıl (ə) İblisin yolunu kəsdi. İblis ondan nə baş verdiyini soruşanda Cəbrayıl (ə) belə cavab verdi: “İnsanların ən fəzilətlisi dünyaya gəldi!” İblis soruşdu: “Onda mənim bir payım var?” Cəbrayıl (ə) buyurdu: “Xeyr!” İblis soruşdu: “Bəs onun ümmətində payım olacaq?” Cəbrayıl (ə) dedi: “Bəli.” İblis Cəbrayılla (ə) söhbət etdikdən sonra qayıdıb öz zürriyyətlərini başına topladı və belə dedi: “Yarandığım gündən bəri belə bir müsibət baş verməmişdi. Bu gecə sonuncu Peyğəmbər dünyaya gəlib. Bizim onun ümmətinə təsir göstərməyimiz və onları yoldan çıxarmağımız çox çətin olacaq. Səbəbi isə budur ki, onun ümməti bir-birini yaxşı əməllərə dəvət edib, pis əməllərdən çəkindirəcəkdir.”

## İslam Peyğəmbərinin (s) üç əsas xüsusiyyəti

Həzrət Məhəmmədin (s) peyğəmbərlik missiyasının digər peyğəmbərlərdən fərqli olaraq üç mühüm və əsas xüsusiyyəti vardır. Birincisi budur ki, İslam Peyğəmbərinin (s) dini bəşəriyyətin ümumi bir dinidir. Allah-təala onu irqindən və dilindən asılı olmayaraq bütün insanlar üçün göndərmişdir. Qurani-kərimdə “Səbə” surəsinin 28-ci ayəsində Həzrət Peyğəmbərə (s) xitabən belə buyurulur:

وَمَا أَرْسَلْنَاكَ إِلَّا كَافَّةً لِلنَّاسِ بَشِيرًا وَنَذِيرًا

–Ya Rəsulum! Biz səni *(təkcə öz qövmünə deyil)* bütün insanlara *(cənnətlə)* müjdə verən, *(cəhənnəm əzabı ilə)* qorxudan bir peyğəmbər olaraq göndərdik.

İslam Peyğəmbəri (s) ilahi əmrin təbliğ olunmasına Ərəbistandan və ərəblərin içindən başlamasına baxmayaraq, Həzrət (s) bütün insanlar üçün göndərilmişdi. Onun sözləri bütün bəşəriyyətə aiddir. Peyğəmbər

(s) ərəb dilində danışmasına baxmayaraq, onun kəlamları zaman və məkanla məhdudlaşmır. O, əgər yüz nəfərin qarşısında çıxış edərək söz deyirsə, onun bu sözləri təkcə həmin yüz nəfərə aid deyildir. Yəni hamıya, hər bir kəsə aiddir. Necə ki, Allah-təala “Ənam” surəsinin 19-cu ayəsində Həzrət Peyğəmbərin (s) dilindən belə buyurur:

وَأُوحِيَ إِلَيَّ هَٰذَا الْقُرْآنُ لِأُنْذِرَكُمْ بِهِ وَمَنْ بَلَغَ

–Bu Quran mənə vəhy olunub ki, onun vasitəsilə *(həm)* sizi və *(həm də)* bəşər nəslinin kökü kəsilənədək onun çatdığı hər bir kəsi cəhənnəm atəşindən qorxudum.

Bu ayədən açıq-aydın şəkildə görürük ki, İslam Peyğəmbəri (s) ümumbəşəri peyğəmbərdir. Onun sözləri, fikirləri bütün insanlara şamildir. Əgər kimsə onun ərəb olmasına irad tutursa, həmin şəxsin cavabı budur: “Allah Peyğəmbər (s) göndərirsə, deməli o, dünyanın hansısa bir yerində dünyaya gəlməli, bir yerdə yaşamalı və bir dildə də danışmalıdır. Əgər Azərbaycanda olsaydı və azəri türkcəsində danışsaydı, o zaman irad tutacaqdılar ki, nə üçün Azərbaycanda? Təbii məsələdir ki, hər insan bir yerdə dünyaya gəlməli və bir dildə danışmalıdır. Buna görə də Allahın Peyğəmbəri(s) hansı dildə danışmasından asılı olmayaraq onun sözləri bütün insanlara şamil olur.”

وَمَا أَرْسَلْنَا مِن رَّسُولٍ إِلاَّ بِلِسَانِ قَوْمِهِ لِيُبَيِّنَ لَهُمْ فَيُضِلُّ اللهُ مَن يَشَاء وَيَهْدِي مَن يَشَاء وَهُوَ الْعَزِيزُ الْحَكِيمُ

–Biz hər bir peyğəmbəri *(hətta peyğəmbərlik dairəsi digər dillərdə olan insanları əhatə etmiş olsa da belə)* yalnız öz qövmünün dilində göndərdik ki, həqiqətləri onlara bəyan etsin.

İslam Peyğəmbərinin (s) ikinci xüsusiyyəti bundan ibarətdir ki, onun gətirdiyi din əbədidir. Keçmiş peyğəmbərlərin dini özündən sonra gələn peyğəmbərin dininə qədər qüvvədə qalırdı. Amma İslam Peyğəmbəri (s) bütün özündən əvvəlki peyğəmbərlərin peyğəmbərliyinə son qoyduğu üçün gətirdiyi din də əbədidir və əbədi olaraq qüvvədə qalacaqdır. Onun kitab və şəriəti bütün peyğəmbərlərin kitablarına və şəriətlərinə son qoydu. Yəni özündən əvvəl gələn peyğəmbərlərin şəriətini ləğv etmiş və özündən sonra da heç bir

peyğəmbərin gəlməyəcəyini təkidlə xəbər vermişdir. “Əhzab” surəsinin 40-cı ayəsində belə oxuyuruq:

مَّا كَانَ مُحَمَّدٌ أَبَا أَحَدٍ مِّن رِّجَالِكُمْ وَلَكِن رَّسُولَ اللَّهِ وَخَاتَمَ النَّبِيِّينَ وَكَانَ اللَّهُ بِكُلِّ شَيْءٍ عَلِيمًا

–Məhəmməd *(səlləllahu ələyhi və alihi və səlləm)* sizlərdən heç birinin atası deyildir. Lakin *(O,)* Allahın Rəsuludur və peyğəmbərlərin sonuncusudur. Və Allah həmişə hər bir şeyi biləndir.

Bu ayədən də açıq-aydın şəkildə görürük ki, Həzrət Məhəmməd (s) həm özündən əvvəlki peyğəmbərlərin peyğəmbərliyinə son qoyur, həm də özündən sonra heç bir peyğəmbərin gəlməyəcəyini bəyan edir.

Həzrət Peyğəmbər (s) “Təbuk” müharibəsinə gedərkən Həzrət Əlini (ə) Mədinədə öz yerinə təyin etdi. O, Həzrət Peyğəmbərə (s) dedi: “Ey Allahın Rəsulu! Məni öz yerinə qoydun (məni özündən ayırdın), halbuki mən heç bir müharibədə səndən ayrılmamışam.”

Allahın Rəsulu (s) buyurdu:

يا عَلِيّ اَلا تَرْضى اَنْ تَكُونَ مِنّي بِمَنْزِلَةِ هارُونَ مِنْ مُوسى اِلاّ اَنَّهُ لا نَبِيَّ بَعْدِى

–Ya Əli! Razı olmazsanmı ki, səninlə mənim nisbətim Harunla Musanın nisbəti kimi olsun? Bu fərqlə ki, məndən sonra bir peyğəmbər yoxdur. *(Yəni sən də Harun kimi peyğəmbərlikdən savayı bütün başqa məqamlara sahibsən!)*

İslam Peyğəmbərinin (s) üçüncü xüsusiyyəti budur ki, onun gətirdiyi din keçmiş dinlərlə müqayisədə ən mükəmməl bir dindir ki, Allah onu insanlara bəxş etmişdir. İslam əbədi olaraq hamı üçün nazil olan bir din olduğundan, əlbəttə ki, kamil olmalıdır. Yəni insanların kamilləşməsi üçün kifayət edən dindir. Deməli, İslam dini hər bir şeyi özündə ehtiva edir. İslam ona görə mükəmməl bir dindir ki, çatdırılması lazım olan hər bir şeyi insanlara çatdırmışdır. “Ənam” surəsinin 59-cu ayəsində oxuyuruq:

وَلَا رَطْبٍ وَلَا يَابِسٍ إِلَّا فِي كِتَابٍ مُّبِينٍ

– Kainatda yaş-quru *(yaşdan quruya)* elə bir şey yoxdur ki, bütün aydınlığı ilə bu kitabda olmasın!

İnsana lazım olan hər bir məsələyə Quranda toxunulmuşdur. Əgər oxusalar, araşdırma aparsalar və qulaq assalar, istədiklərini İslam dinində tapacaqlar. Elm inkişaf etdikcə, alimlər tədqiqatlar apardıqca baxıb görürlər ki, onların elmi nəzəriyyələrinin kökü Quranda vardır. Bu axırlara qədər tibb elmində alimlər belə bir qənaətdə idilər ki, yenicə doğulan körpə bircə dəfə anasının südü ilə qidalansa, bu, onun üçün kifayət edər. Sonra başqa qidalardan istifadə edə bilər. Amma bəzi alimlər də uşağın ən azı altı ay ana südü ilə qidalanmasını zəruri hesab edirdilər. Onların fikrincə, altı aydan sonra isə körpə ana südü yeməsə də olar. Lakin son vaxtlarda Amerika alimlərinin elmi tədqiqatları nəticəsində onlar belə bir qənaətə gəlib bütün insanlara elan etdilər ki, körpə iki il kamil şəkildə anasından süd əmməlidir.

Amma 1400 il bundan əvvəl Qurani-kərimdə bu məsələyə də işarə olunmuş və tam aydın şəkildə insanlara çatdırılmışdır. “Bəqərə” surəsinin 233-cü ayəsində belə buyurulur:

وَالْوَالِدَاتُ يُرْضِعْنَ أَوْلاَدَهُنَّ حَوْلَيْنِ كَامِلَيْنِ لِمَنْ أَرَادَ أَن يُتِمَّ الرَّضَاعَةَ

–Analar öz övladlarına iki il tamam süd verməlidirlər. Bu *(göstəriş),* körpənin süd əmmə müddətini kamil etmək istəyən kəs üçündür.

Amma təəssüflər olsun ki, bu gün insanlar Quranla çox az maraqlanırlar. Hansısa Qərb və yaxud Amerika aliminin sözlərini dinlədikdə isə heyrət və təəccübə gəlirlər. Amma Qurandan həmin məsələni oxuduqda onu köhnəlmiş söz, fikir kimi qəbul edirlər.

İslam dini bəşəriyyətə gərək olan bütün məsələləri və sualları cavablandırmışdır. Din alimlərimiz, xüsusilə fəqihlər hər bir suala cavab vermişlər. İslam alimləri dünya alimlərinin bütün suallarına cavab verməyə həmişə hazırdırlar. Bu da İslam dininin mükəmməlliyinin və onun əbədi olmasının göstəricisidir. Bütün şəriət məsələlərinə diqqət yetirdikdə oradan da anlamaq olur ki, İslam dini mükəmməl və əbədidir.

حَلاَلُ مُحَمَّدٍ حَلاَلٌ إِلَى يَوْمِ الْقِيَمَةِ، وَ حَرَامُهُ حَرَامٌ إِلَى يَوْمِ الْقِيَمَةِ

–Məhəmmədin halalı qiyamət gününə qədər halal, haramı isə qiyamət gününə qədər haramdır!

Yəni İslam Peyğəmbərinin (s) gətirdiyi şəriət qiyamətə qədər yaşayacaqdır.

Dünya aləmində elə bir elmi məsələ yoxdur ki, İslam dini onun barəsində söz açmasın. Məsələn, astronomiya elmi ilə bağlı onu qeyd edə bilərik ki, keçmiş zamanlarda insanlar elə düşünürdülər ki, günəş sistemi və yer kürəsi hərəkətsizdir. Bir zamanlar xristian dünyasında Ptolomey kimi bir alim dünyaya bildirdi ki, kim Yer kürəsinin hərəkət etdiyini iddia etsə, onun dilini kəsmək lazımdır. Çünki o, Yer kürəsinin sabit qaldığını iddia edirdi. Beləcə, hər kim Yer kürəsinin hərəkət etdiyini deyirdisə, onu cəzalandırırdılar. Qaliley də həmin alimlərdən biri idi ki, Yer kürəsinin hərəkətdə olduğunu sübut etmişdi. Onu da edam etmək istəyərkən fikrini dəyişərək deyir ki, mən sözümü geri götürür və tövbə edirəm. Onun üçün kağız-qələm gətirirlər və o, tövbəsini yazılı şəkildə təqdim edir. Hazırda onun tövbə etməsi ilə bağlı yazdığı mətn müxtəlif kitablarda qeyd olunmuşdur.

Qurani-kərim nazil olduqdan sonra bu müqəddəs kitab insanlara bütün elmlər haqda açıq-aydın şəkildə məlumatlar çatdırdı. Məsələn, "Nəml" surəsinin 88-ci ayəsində belə oxuyuruq:

وَتَرَى الْجِبَالَ تَحْسَبُهَا جَامِدَةً وَهِيَ تَمُرُّ مَرَّ السَّحَابِ

–Dağları görüb onları hərəkətsiz və donmuş zənn edərsən. Halbuki onlar buludun keçdiyi kimi hərəkət edərlər.

Əlbəttə, Quranda elmi məsələlərin bəyan edilməsi barədə çox bəhs etmək olar. Lakin hazırda əsas mövzumüz İslam dininin əbədiliyi və mükəmməlliyi barədədir.

Əgər İslam dini hamı üçün, bütün bəşəriyyət üçün əbədi və mükəmməl bir dindirsə, deməli, heç bir ağıl sahibi Həzrət Peyğəmbərin (s) dünyasını dəyişməsi ilə bu dinə son qoyulmasını qəbul etməz. Həzrət Peyğəmbər (s) Allah tərəfindən din gətirib, bu dini müdafiə etmək üçün qanlar tökülüb, müharibələr baş verib, müsəlmanlar çox əziyyətlər

çəkiblər. Heç ola bilərmi ki, Həzrət Peyğəmbər (s) dünyasını dəyişərkən desin ki, bundan sonra özünüz istədiyinizi edin? Əlbəttə ki, bu mümkün deyildir. Əbədi bir din üçün əbədi rəhbər lazımdır. Necə ola bilər ki, Həzrət Musa (ə) müvəqqəti olaraq ümmətindən ayrılıb dağa gedərkən qardaşı Harunu öz yerinə canişin təyin edirsə, əbədi bir din gətirən İslam Peyğəmbəri (s) dünyadan həmişəlik olaraq ayrılarkən öz yerinə canişin qoymasın? Aydın məsələdir ki, Həzrət Peyğəmbər (s) özündən sonra İslam ümmətinə və dinə bir rəhbər təyin etmişdir. Çünki Allahın dini rəhbərsiz və yer üzü heç bir vaxt höccətsiz qalmayacaqdı. Həzrət Peyğəmbər (s) Allahın əmri ilə Əli ibn Əbu Talibi (ə) öz yerinə canişin təyin etmiş və ondan sonrakı imamların adını da bir-bir sadalamışdır. Sonuncu imam barədə isə belə buyurmuşdur:

لَو لَم يَبقَ مِنَ الدُّنيا إلاّ يَومٌ واحِدٌ، لَطَوَّلَ اللهُ ذلِكَ اليَومَ حَتّى يَخرُجَ رَجُلٌ مِن وُلدِي فَيَملَؤُها عَدلاً وَ قِسطا كَمَا مُلِئَتْ ظُلْمًا وَجَوْرًا

–Əgər dünyanın sonuna yalnız bircə gün qalmış olsa belə Allah o günü övladlarımdan biri zühur edənə qədər uzadacaq. Sonra o, yer üzünü zülmlə dolduğu kimi, ədalətlə doldurar.

## Vəhdət həftəsi

İslam Peyğəmbəri (s) Əhli-şiə məzhəbindən olan bir çox alimlərin apardıqları tarixi araşdırmalara əsasən, rəbiüləvvəl ayının 17-də, əhli-sünnə alimlərinin əksəriyyətinin verdiyi məlumata görə isə ayın 12-də dünyaya gəlmişdir. Hətta şiə alimlərinin bir qismi Həzrət Peyğəmbərin (s) rəbiüləvvəl ayının 12-də dünyaya gəldiyini söyləmişdir. Buna görə də İslam dünyasının rəhbərliyini öhdəsinə götürən böyük alimlər bir araya gələrək müzakirələr aparmışlar. Xüsusilə İmam Xomeyni (r) rəbiüləvvəl ayının 12-dən 17-dək olan günləri "vəhdət həftəsi" kimi elan etmişdir. Neçə illərdir ki, müsəlmanlar bu günləri vəhdət həftəsi kimi qeyd edirlər. Hər ildə bir dəfə konfrans təşkil edilir və dünyanın müxtəlif ölkələrindən alimlər həmin tədbirə dəvət edilirlər.

Xüsusilə yaşadığımız əsrdə müsəlmanların ən vacib əməllərindən biri məhz bu vəhdətin qorunub saxlanılması və daha da möhkəmləndirilməsidir. Çünki indiki dövr keçmişdəki kimi deyil. O vaxtlar müsəlmanların hərəsi bir fikirdə olmasına baxmayaraq, hər kəs öz fikrinə əməl edirdi. Bəzi imkanlı adamlar vəzifəyə nail olduqda bir-birindən intiqam alırdılar. Amma onların vəziyyəti bugünkü kimi deyildi. Bu gün dünyanın imkanlı, fasiq, özlərini dünyaya hakim bilən şərəfsiz dəllalları müsəlmanları bir-birinin üstünə qaldırmaqla məşğuldurlar. Onlar sünni-şiə məsələsini ortaya ataraq məzhəblər arasında təfriqə salmaqla müsəlmanları bir-birinə qırdırmağa çalışırlar.

İndiki dövrün müsəlmanları iki yüz il bundan qabaqkı insanlar deyillər. Artıq hər bir kəs bilir ki, müsəlmanları savaşdırmaq üçün nə qədər pullar xərclənir. Məgər Peyğəmbərin (s) karikaturalarını çəkib onu təhqir edən "adamlar" bu işi özbaşına görürlərmi? Aydındır ki, onlara bu işləri gördürənlər vardır. Məgər Samirra şəhərini xaraba qoyub imamların qəbrini dağıdanlar bu işi özbaşına görmüşdülərmi? Onlar İmamların (ə) qəbirlərini dağıdıb bu işi Əhli-sünnənin üstünə atdılar. Halbuki həmin məscidləri dağıdanlar nə sünni və nə də şiə idilər. Onlar bu işi görməklə aranı qızışdırıb məzhəblər arasında təfriqə salaraq müsəlmanları bir-birinin canına salmaq niyyətindədirlər. Amma müsəlmanlar bilirlər ki, bütün bunlar qəddar və hiyləgər düşmənlərin əməlləridir.

Həcc ziyarəti zamanı firqəsindən asılı olmayaraq Məkkədə bütün müsəlmanların hamısı bir pişnamazın arxasında dayanaraq namaz qılırlar. Hətta şiə alimləri, xüsusilə İmam Xomeyni (r) vaxtilə fətva vermişdi ki, Həcc zamanı hamı namazı Məscidül-həramda qılmalıdır. Möhürsüz də olsa pişnamaza iqtida edib camaat namazında iştirak etməlidir. Hətta kim mehmanxanada bir neçə nəfərlə birgə camaat namazı qılsa, namazları batildir. O, bu günü görür və vəhdətin zəruriliyini bildiyindən belə bir fətva vermişdi. O istəyirdi ki, firqəsindən asılı olmayaraq bütün müsəlmanlar vəhdət yaratsınlar.

Çünki xüsusilə indiki zamanda müsəlmanlara hər bir zamandan daha çox vəhdətə və birliyə ehtiyac vardır.

Təkcə çağdaş dövrün alimləri deyil, keçmiş dövrlərin alimləri də müsəlmanların vəhdəti naminə çalışmışlar. Seyid Cəmaləddin Əsədabadi şiə aləminin görkəmli alimlərindən biri idi. Onunla eyni bir dövrdə Şeyx Məhəmməd Əbduh adlı əhli-sünnə alimi yaşayırdı. Təxminən 150 il bundan əvvəl məhz onlar "Ürvətül-vüsqa" jurnalını təsis etmişdilər. Həmin jurnalın əsas mövzusu da məhz elə vəhdətlə bağlı olmuşdur. Onlardan birini zindana saldılar, digərini isə sürgün etdilər. Sonra Şeyx Şəltutla Ayətullah Bürucerdi bir araya gələrək vəhdət barədə müzakirələr təşkil edərək müxtəlif kitablar yazdılar. Onlar bütün dünya müsəlmanlarının vəhdəti naminə çox işlər gördülər. Beləcə, müsəlmanlar yetərincə inkişaf edərək böyük nailiyyətlərə imza atdılar.

Hazırkı dövrümüzün alimləri, o cümlədən İmam Xomeyni (r) və ondan sonra isə Ayətullah Xameneyi dünya müsəlmanlarının vəhdətini olduqca zəruri amillərdən hesab edərək bütün müsəlmanları vəhdətə və birliyə dəvət etdilər. Ümumiyyətlə, firqəsindən asılı olmayaraq bütün müsəlmanlar öz əqidəsində olmaqla yanaşı, həm də bir-biri ilə səmimi münasibətlərdə olub vəhdət yaratmalıdırlar. Bu isə o demək deyildir ki, sünni dönüb şiə və yaxud şiə dönüb sünni olsun. Hər bir kəs öz əqidəsində qalmaqla yanaşı, bir-birinə can deyib, can eşitməli, bir-birinə hörmət bəsləməli, qardaşlıq etməli və bir müsəlman kimi vəhdətdə yaşamalıdırlar.

İmam Sadiqin (ə) zamanında bəzi müsəlmanlar ayrı-ayrı məzhəblərdən olmalarına baxmayaraq, bir-biri ilə qardaş kimi rəftar edərdilər. Hətta iki alim eyni bir mağazada şərik kimi işləyərək bir-birini əvəz edərdilər. Bəzən dükanda şiə alim olarkən əhli-sünnədən birisi içəri daxil olub onun şərikini soruşduqda, o deyərdi: "Nə lazımdırsa soruş, sənə cavab verim." Həmin şəxs şəriət məsələsi ilə bağlı soruşduqda, şiə alim əhli-sünnənin yazdığı şəriət məsələlərinə uyğun olaraq ona cavab verərdi. Bəzən də şiə həmin dükanda olmadıqda və şiələrdən olan müsəlmanlar gəlib digər alimdən şəriət

məsələsi ilə bağlı bir  sual verdikdə, o da şəriki şiə aliminin adından onlara cavab verərdi.

Odur ki, hər bir dövrdə ixtilaf toxumu səpənlər və ixtilaf düşməsinə gətirib çıxaran söhbətlər edənlər kimdənsə mənfəət və xeyir güdmüşlər. Onlara bu kimi işləri həyata keçirmək üçün təbiidir ki, müəyyən "mükafat"lar da verirmişlər.

Həm Həzrət Peyğəmbər (s), həm məsum İmamlar (ə) və həm də alim və müctəhidlərin istəyi budur ki, dünyanın hər bir yerində yaşayan müsəlmanlar bir-biri ilə səmimi olub vəhdətdə və qardaş kimi yaşasınlar. Beləcə, onları istəməyənlər və müsəlmanlara düşmən kəsilənlər həmişə məyus olmuşlar.

# HƏZRƏT FATİMEYİ ZƏHRANIN (S.Ə) MÖVLUDU

## NURANİYYƏT

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. الحَمدُ للهِ حَمدًا كَبِيرا وَ اَشكُرهُ كَثِيرا وَ سُبحانَ اللهِ بُكرَةً وَأَصِيلا وَالصَّلاةُ وَ السَلامُ عَلى رَسُولِهِ وَحَبِيبِه اَلَّذِي اَرسَلَهُ شَاهِدًا وَمُبَشّرًا وَنَذِيرًا وَدَاعِيًا إِلَى اللَّهِ بِإِذْنِهِ وَسِرَاجًا مُّنِيرًا وَعَلى عِترَتِهِ المعصومين اَلَّذِينَ اَذهَبَ اللهُ عَنهُمُ الرِّجس وَطَهَّرَهُم تَطهِيرا وَاللَّعنُ الدّائِمِ عَلى أَعْدائِهِمْ أَجْمَعِينَ اِلى قِيامِ يَوْمِ الدِّينِ.

Cəmadiyəlaxır ayının 20-si Həzrət Fatimeyi Zəhranın (s.ə) dünyaya göz açdığı əlamətdar bir gündür. Həmin gün o xanımın cisminin dünyaya gəlməsinə baxmayaraq, Allah-təala onun nurunu xilqətdən (bütün yaradılışdan) öncə yaratmışdır. Bütün yaradılmışların hamısı o xanıma minnətdar olmalıdır. Çünki Allah-təala bütün xilqət aləmini o nurun bərəkətinə görə yaratmışdır. Odur ki, Fatimeyi Zəhranın (s.ə) mövludu münasibətilə bütün müsəlmanları, o xanıma dilləri, ədəbləri, qələmləri, yazıları, elmləri, abırları, iffət və qeyrətləri ilə ehtiram və hörmət bəsləyənləri səmimi-qəlbdən təbrik edirəm. Allah bu əziz gündə bütün möminlərə və Əhli-beyti (ə) sevənlərə, şərəf və izzət axtaranlara Öz rəhmət və bərəkətini nazil etsin.

Allah-təala "Hədid" surəsinin 28-ci ayəsində belə buyurur:

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَآمِنُوا بِرَسُولِهِ يُؤْتِكُمْ كِفْلَيْنِ مِن رَّحْمَتِهِ وَيَجْعَل لَّكُمْ نُورًا تَمْشُونَ بِهِ وَيَغْفِرْ لَكُمْ وَاللَّهُ غَفُورٌ رَّحِيمٌ

–Ey iman gətirənlər! Allahdan qorxun və Onun Peyğəmbərinə *(Məhəmmədə(s))* iman gətirin ki, sizə Öz mərhəmətindən iki pay əta etsin və onun vasitəsilə yol *(dünyada ictimai həyat yolunu, məhşərdə isə cənnət yolunu)* getməyiniz üçün bir nur versin.

Bu barədə bir mətləbi müəyyən qədər izah edib diqqətinizə çatdırmaq istərdim. Həmin mətləbin müqəddiməsi belədir ki, kamil insanlar üçün üç növ nuraniyyəti təsəvvür etmək mümkündür.

## 1. Xilqət nuru

Bu üç nuraniyyətin birincisi insanın xilqətindəki nurdur. Allah-təala "Sad" surəsinin 72-ci ayəsində bu barədə belə buyurur:

فَإِذَا سَوَّيْتُهُ وَنَفَخْتُ فِيهِ مِن رُّوحِي

–Elə ki, onun bədəninin yaradılmasını tamamladım, Öz ruhumdan ona üfürdüm.

Allahın Öz ruhundan üfürməsi yalnız və yalnız insan barəsindədir. İnsandan savayı başqa yaradılmışların heç biri barəsində belə bir sözə rast gəlmək mümkün deyil. Allahın insana Öz ruhundan üfürməsi insanın zatındakı şərafətə dəlalət edir. Bu məsələ yaxşı və ya pis adam olmasından asılı olmayaraq, bütün insanlara aiddir. Alimlər deyirlər ki, hər bir varlıq iki cür keyfiyyətə malikdir. Biri onun zatına, elmi terminlərlə desək, onun növünə aiddir. İkinci keyfiyyət isə onun öz hərəkət və niyyətinə aiddir. Eləcə də insanın birinci keyfiyyəti onun şüurlu varlıq olmasıdır. Yəni Allah-təala insanı ağıllı yaratmışdır. Allah insana ağıl bəxş etməklə onu bütün canlılardan fərqləndirmişdir. Həmçinin digər canlıları insanın xidmətində və insanı da onlara hakim qərar vermişdir. Qurani-kərimin "İsra" surəsinin 70-ci ayəsində oxuyuruq.

وَلَقَدْ كَرَّمْنَا بَنِي آدَمَ وَحَمَلْنَاهُمْ فِي الْبَرِّ وَالْبَحْرِ وَرَزَقْنَاهُم مِّنَ الطَّيِّبَاتِ وَفَضَّلْنَاهُمْ عَلَى كَثِيرٍ مِّمَّنْ خَلَقْنَا تَفْضِيلاً

–Biz Adəm övladını şərəfli və hörmətli etdik, onları suda və quruda *(gəmilərə, heyvanlara və başqa nəqliyyat vasitələrinə)* mindirib sahib etdik, özlərinə *(cürbə-cür nemətlərdən)* təmiz ruzi verdik və onları yaratdığımız məxluqatın çoxundan xeyli üstün etdik.[1]

Bu ayədə də insanın zati şərafət və kamalından söz açılır. Burada söhbət hansısa peyğəmbərdən, yaxud müqəddəs insandan və ya hansısa pis insandan getmir. Dünyada nə qədər insan varsa və nə qədər insan yaradılıbsa, hamısına aiddir. Allah-təala insan olaraq yaratdığı bu varlığı

---

[1] İsra surəsi, 70-ci ayə.

şərəfli və hörmətli yaratmışdır. Yəni bu kamillik və kəramət insanın zatında mövcuddur.

Allah-təala insanı yaratdıqdan sonra mələklərə əmr verdi ki, hamılıqla ona səcdə etsinlər. Bütün mələklər də Allaha itaət edib ona səcdə etdilər. Xilqət aləmində insandan savayı başqa elə bir varlıq yoxdur ki, mələklər ona səcdə etsinlər. Bu şərafət yalnız və yalnız insana məxsusdur. Həmçinin Allah-təala yaratdığı bütün məxluqların içərisində yalnız insanı yaratdığına görə Öz-özunə əhsən demişdir.

**2. Hidayət nuru**

İnsan üçün təsəvvür olunan ikinci nuraniyyət hidayət nurudur. Əvvəl qeyd olunan ayəyə əsasən, bu nuraniyyətin iki şərti vardır. Həmin şərtlərdən biri insanın dərin, geniş iman və məfkurəsi, ikincisi isə inam və imanını əməldə göstərməsidir. Yəni insanın təqvalı olmasıdır. Əqidə və iman insanın özünə yol seçməsidir. Təqva isə insanın seçdiyi imanını əməldə göstərməsidir. İmanına əməl edən şəxs təqvalı insandır. Ona təqvalı insandır deyilməsinə isə heç bir ehtiyac yoxdur. Bu kifayət edər ki, azan verildikdə durub namazını qılsın. Yaxud ramazan ayında oruc tutması, özünü günahlardan saxlaması onun təqvalı olmasına dəlalət edir. Əgər bir insan ramazan ayı ilə şəvval ayında fərq qoyursa, deməli təqvalı adamdır. Əgər cavan bir oğlan küçədə yol gedərkən bəzənmiş bir qadınla rastlaşdıqda başını aşağı salaraq yoluna davam edirsə, deməli təqvalı adamdır.

Züleyxa həmişə özünü bəzəyib Yusifin (ə) diqqətini cəlb etmək istəyirdi. Amma Yusif (ə) ona əhəmiyyət vermirdi. Günlərin birində Züleyxa ona dedi: “Yeddi ildir ki, sənin diqqətini özümə cəlb etmək üçün barmaqlarımın ucunda gəzirəm, nə üçün mənə baxmırsan? Heç olmasa bircə dəfə mənə baxsan nə olar?” Yusif (ə) dedi: “Ona görə ki, əgər sənə baxsam, pərdə arxasında (mənəviyyat aləmində) mənə göstərilənləri bir daha görə bilmərəm.”

Təqvalı insan odur ki, imanına sadiq qalaraq bütün bədən üzvlərini, özünü haramlardan saxlaya bilsin. Təqva elə bir şeydir ki,

onu danışmaqla təqdim etmək olmaz. Təqva insanın əməlində görünməlidir. İmam Həsən Əskərinin (ə) yaxın dostlarından biri deyir: “Günlərin birində Həzrətin (ə) evinə getmişdim. Gördüm ki, əlində kağız və qələm tutaraq məktub yazır. “Bismillahir-Rəhmanir-Rəhim” kəlməsini yazmışdı ki, elə bu zaman azan verildi. İmam (ə) əlindəki kağız və qələmi bir kənara qoyaraq namaza başladı. Mən də iqtida edərək onunla birgə namaz qıldım. Namazı qurtardıqdan sonra gəlib həmin kağız və qələmi götürdü və məktubun davamını yazmağa başladı.” İmam (ə) həmin vaxt dili ilə demədi ki, azan verilən zaman namaz qılmaq lazımdır. Sadəcə olaraq öz əməli ilə bunun əhəmiyyətini başa saldı.

Beləliklə, insanın öz imanına əməli surətdə riayət etməsinə təqva deyilir. Deməli, hidayət nurunun iki şərti vardır. Biri iman, digəri isə təqvadır. Bu nur o zaman hasil olar ki, insanın təqvası olsun. Təqva olmasa, insan heç bir vaxt hidayət nurunu əldə edə bilməyəcək.

Abdullah ibn Sənan deyir: “Günlərin birində İmam Sadiqdən (ə) soruşdum: Ey Allahın höccəti, mələklər üstündür, yoxsa insan? İmam (ə) sualımın cavabında buyurdu: Sənin soruşduğun bu sualı Əmirəlmöminin Həzrət Əlidən (ə) də soruşdular. Həzrət (ə) onların cavabında belə buyurmuşdur:

إنَّ اللهَ عَزَّوَجَلَّ رَكَّبَ فِي المَلائِكَةِ عَقْلاً بِلا شَهوَة، وَ رَكَّبَ فِي البَهَائِمِ شَهْوَةً بِلا عَقل، وَ رَكَّبَ فِي بَنِي آدَمَ كِلتَيهِما. فَمَنْ غَلَبَ عَقْلُهُ عَلَى شهْوَتِهِ وهُوَ أَعْلى مِنَ المَلاَئِكَةِ، ومَنْ غَلَبَت شَهْوتهُ عَلى عَقلِهِ وهُوَ اَدنى مِنْ البهَائِمِ

–Allah-təala mələkləri ağıldan formalaşdırmış və onlara şəhvət qüvvəsi verməmişdir. Heyvanları şəhvətdən yaratmışdır və onlara ağıl verməmişdir. Amma bəni-adəmi (*insanı)* həm ağıl, həm də şəhvətlə formalaşdırmışdır. Beləliklə, kimin ağlı şəhvətinə qalib gəlsə, o insan mələklərdən üstündür. Həmçinin kimin şəhvəti ağlına qalib gəlsə, o, heyvandan da əskikdir.”

İnsanın daxilində ağılla şəhvət daim mübarizədədir. Onun qiymətini də bu mübarizənin nəticəsi müəyyənləşdirəcək. Əgər

insanın ağlı bu mübarizədə qələbə çalsa, dəyəri, qiyməti, şərafəti mələklərdən üstün olacaqdır.

Aşura günü Həzrət Əbülfəzl (ə) özünü Fəratın suyuna yetirdi. Tuluqu doldurduqdan sonra ovcunu su ilə doldurub dodaqlarına yaxınlaşdırdı. İçmək istəyərkən çadırlardakı susuz körpələr yadına düşdü. Suyu ovcundan boşaldıb içmədi. Əgər o, sudan içsəydi belə heç bir kəs onu qınamazdı. Lakin Həzrət Əbülfəzl (ə) özünə rəva görmədi ki, İmam Hüseynin (ə) özü və balaları susuz ola-ola həmin sudan içsin. Beləcə, onun bu hərəkəti tarixə yazıldı.

*Ey Əbülfəzl, ey rəisi zümreyi əhli-vəfa,*
*Əbdi Saleh mənsəbin Allah sənə etmiş əda,*
*Nəhr aldın, içmədin su, nəfsinə aləm fəda,*
*Su kənarında susuz səqqa, salam olsun sənə!*

Su olmadığı halda susuzluğa dözərək məcburi qaydada su içməməyin nə dəyəri və qiyməti ola bilər. Amma susuz halda çayın içində dayanıb İmam Hüseynin (ə) özünü və onun çadırlardakı suzuz balalarını xatırlayaraq həmin sudan içməməyin dəyər və qiyməti tamamilə başqadır. Nəfslə mübarizənin qiyməti Əbülfəzlin (ə) qiymətidir. Həzrət (ə) daxilindəki mübarizədə beləcə uğurla qələbə qazandı.

*Cövhəri qeyrət tələb etsən əgər Abbasə bax,*
*İstəsən ruhi şücaətdən xəbər Abbasə bax.*
*Şəmsi görmək istəsən mövla Hüseynə qıl nəzər,*
*Keçsə zehnindən əgər taysız qəmər Abbasə bax.*
*Bilməyirsən gər bəşər üstün yaranmış, ya mələk,*
*Sən də mələklə birlikdə ey bəşər, Abbasə bax.*

Beləliklə, əgər insan imanına əməli surətdə riayət edib təqvalı olarsa, nəticədə Allahdan mükafatını alacaqdır. Mükafatının nə olduğu isə elə həmin ayədə (“Hədid” surəsinin 28-ci ayəsində) bəyan edilmişdir.

يُؤْتِكُمْ كِفْلَيْنِ مِن رَّحْمَتِهِ وَيَجْعَل لَّكُمْ نُورًا تَمْشُونَ بِهِ وَيَغْفِرْ لَكُمْ وَاللَّهُ غَفُورٌ رَّحِيمٌ

–Sizə Öz mərhəmətindən iki pay *(dünyada və axirətdə)* əta etsin və onun vasitəsilə yol *(dünyada ictimai həyat yolunu, məhşərdə isə cənnət yolunu)* getməyiniz üçün bir nur versin.

İnsanın əldə etdiyi bu iman və təqvanın nəticəsində Allah-təala ona elə bir nur bəxş edər ki, onunla rahat yol gedər. Qədimdə kənd yerlərində zülmət qaranlıqda yol getmək üçün əl fənərləri olardı. Bu fənərlərin vasitəsilə insan ayağının altını və ətrafını rahat görər və çala-çuxurlara düşmək təhlükəsi olmazdı. Allahın insana bəxş etdiyi hidayət nuru da belədir ki, insan getdiyi yolda rahat addımlaya bilir. "Yunis" surəsinin 9-cu ayəsində belə buyurulur.

إِنَّ الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ يَهْدِيهِمْ رَبُّهُمْ بِإِيمَانِهِمْ

–Şübhəsiz, iman gətirib yaxşı işlər görən kəsləri Allah-təala imanlarına görə hidayət edər.

Bu ayədən də açıq-aydın görürük ki, Allah insanı imanına, paklığına və təqvasına görə hidayət edir. Allah Yusifi (ə) onun iman, paklıq və təqvasına görə hidayət etdi. Belə ki, onu günaha sövq etdikdə Allaha pənah aparıb zindana düşməyi günah etməkdən üstün tutdu. "Yusif" surəsinin 33-cü ayəsində belə oxuyuruq:

قَالَ رَبِّ السِّجْنُ أَحَبُّ إِلَيَّ مِمَّا يَدْعُونَنِي إِلَيْهِ

–*(Yusif)* dedi: "Ey Rəbbim, mənim üçün zindan bunların məni dəvət etdiklərindən daha xoşdur."

Allah-təala Yusifin (ə) bu hərəkətinə görə həm onu saxladı, həm dəyərini artırdı, həm hamıya tanıtdırdı, həm peyğəmbər seçdi, həm də onu bütün dünyaya nümunəvi bir insan kimi təqdim etdi.

Hədislərdə belə nəql olunur ki, dünyada fasiq və günahkar olmuş oğlanı qiyamət günü məhşərə gətirib soruşacaqlar: "Nə üçün günah (zina) edirdin?" O da bəhanə gətirib deyəcək: "İlahi, mənə cavanlıq, gözəllik və imkan vermişdin. Günah etməyə şərait yarandıqda özümü saxlaya bilmirdim." Ona cavab olaraq Həzrət Yusifi (ə) məhşərə gətirib deyəcəklər: "Biz buna səndən daha çox gözəllik, şərait və

imkan yaratmışdıq. Amma o, bütün bunlara baxmayaraq, Allaha sığınaraq özünü günahlardan saxlayırdı."

**3. Vilayət nuru**

İnsana hidayət nuru bəxş olunduqdan sonra azmadan üçüncü nuraniyyəti əldə edənədək yolu gedə biləcəkdir. Hidayət nurunun vəzifəsi odur ki, insanı üçüncü nuraniyyətə çatdırsın. Bunu daha asan başa düşmək üçün kiçik bir misalı diqqətinizə çatdırmaq istərdim. Məsələn, hansısa bir dövlət məmuru ölkənin paytaxtından digər şəhər və rayonlara getmək istədikdə yol polisi onu müşayiət edir. Hamıya məlumdur ki, dünyada hər bir şəhər, rayon və məntəqənin öz polis işçiləri olur. Yəni polis əməkdaşları arasında kimin hansı məntəqəyə nəzarət etməsi məsələsi öncədən müəyyənləşdirilmişdir. Həmin məmur digər rayon və ya şəhərə çatdıqda onu müşayiət edən polis əməkdaşları məmuru müvafiq məntəqənin polisinə təhvil verdikdən sonra geri qayıdırlar. Həmin rayonda da yerli polislər məmuru müşayiət edirlər və beləliklə, dövlət məmuru hər bir rayon və ya şəhərə çatdıqda polislər onu müşayiət etmə vəzifəsini bir-birinə həvalə edirlər.

Beləliklə, insana hidayət nuru verildikdə bu nur insanı çaşmağa və yoldan çıxmağa qoymayacaq. Həmin nuraniyyət insanı aparıb üçüncü nura (vilayət nuruna) təhvil verəcəkdir. Burada vilayətin mənasını ümumi şəkildə götürsək, Allah, Peyğəmbər (s) və onun canişini (vəsi) ilə səmimi olmağa deyilir. Onların hamısı nurdur və aralarında heç bir zülmətə yol verilməz. Onlarla səmimi olmaq üçün insan özü də nur olmalıdır. İnsan özü nur olmasa, nura qovuşa bilməz. İnsanın günah edə-edə Allahla səmimi olması mümkün deyil. İnsan halal-harama riayət etmədən Allahla səmimi ola bilməz. Bir sözlə desək, nura qovuşmaq üçün nur olmaq gərəkdir.

Quran ayələrinə diqqət yetirdikdə bir çox ayələrdə nurun bariz nümunələrinə rast gəlmək olar. Məsələn, "Nur" surəsinin 35-ci ayəsində oxuyuruq:

اللَّهُ نُورُ السَّمَاوَاتِ وَالْأَرْضِ

–Allah göylərin və yerin nurudur.

Quranın nur olması barədə "Nisa" surəsinin 174-cü ayəsində belə buyurulur:

وَأَنزَلْنَا إِلَيْكُمْ نُورًا مُّبِينًا

–Və sizin üçün aşkar və aydınlıq gətirən bir nur *(Quran)* nazil etdik.

Digər səmavi kitabların da nur olması barədə belə oxuyuruq:

إِنَّا أَنزَلْنَا التَّوْرَاةَ فِيهَا هُدًى وَنُورٌ

–Həqiqətən, Biz onda hidayət və nur olan Tövratı nazil etdik.[2]

وَآتَيْنَاهُ الإِنجِيلَ فِيهِ هُدًى وَنُورٌ

–Və ona içində hidayət və nur olan İncil verdik. [3]

Allahın göndərdiyi peyğəmbərlər də nurdur. Xüsusilə Həzrət Məhəmməd (s) həm özü nurdur, həm də hər yerə nur saçır. Necə ki, "Əhzab" surəsinin 45-46-cı ayələrində oxuyuruq:

يَا أَيُّهَا النَّبِيُّ إِنَّا أَرْسَلْنَاكَ شَاهِدًا وَمُبَشِّرًا وَنَذِيرًا. وَدَاعِيًا إِلَى اللَّهِ بِإِذْنِهِ وَسِرَاجًا مُّنِيرًا

–Ey Peyğəmbər, həqiqətən, Biz səni *(dünyada ümmətin əməllərinə şahid olub və axirətdə şəhadət vermək üçün)* bir şahid və müjdəçi və qorxudan *(kimi)* göndərdik.

Və həmçinin Allahın *(yaradılış)* izni *(və nəsib etdiyi uğurları)* ilə Ona tərəf dəvət edən və aydın və nur saçan bir çıraq *(olaraq göndərdik).*

Odur ki, hər kəs özünü bu nurlara qoşmaq istəyirsə, mütləq özü də nur olmalıdır. İnsan günah etməklə heç bir vaxt bu nuraniyyətə yaxın düşə bilməz. Bir insanın haram yeyə-yeyə nuraniyyət qazanması və nura qovuşması mümkün deyildir.

Günlərin birində Həzrət Peyğəmbər (s) Abuzərə buyurdu: "Ey Abuzər, cənnətə daxil olmaq istəyirsənmi?" Abuzər dedi: "Bəli, ya Rəsulallah, istəyirəm." Həzrət (s) buyurdu:

---

[2] Maidə surəsi, 44-cü ayə.

[3] Maidə surəsi, 46-cı ayə.

فَاقْصرْ مِنَ الْأَمَلِ وَ اجْعَلِ الْمَوْتَ نصْبَ عَيْنَيْكَ وَ اسْتَحِ مِنَ اللَّهِ حَقَّ الْحَيَاءِ. قَالَ: قُلْتُ يَا رَسُولَ اللَّهِ كُلُّنَا نَسْتَحِي مِنَ اللَّهِ. قَالَ: لَيْسَ ذَلِكَ الْحَيَاءَ وَ لَكِنَّ الْحَيَاءَ مِنَ اللَّهِ أَنْ لَا تَنْسَى الْمَقَابِرَ وَ الْبِلَى وَ تَحفَظ الْجَوْفَ وَ مَا وَعَى وَ الرَّأْسَ وَ مَنْ حَوَى وَ مَنْ أَرَادَ كَرَامَةَ الْآخِرَةِ فَلْيَدَعْ زِينَةَ الدُّنْيَا فَإِذَا كُنْتَ كَذَلِكَ أَصَبْتَ وَلَايَةَ اللَّهِ

–Elə isə arzularını qısa et, ölümünü həmişə gözlərinin qarşısında saxla və Allahdan lazımınca həya et.

Abuzər dedi: “Ya Rəsulallah, biz hamımız Allahdan həya edirik.”

Həzrət Peyğəmbər (s) buyurdu: “Allahdan həya etmək bu mənanı ifadə edir ki, yəni qəbrini və orada çürüməyi yaddan çıxarmayasan. Qəbirdə insanın başına nələr gələcəyini həmişə xatırlayasan. Qarnını haramlardan, başını və başında olanları (fikir və düşüncələrini, yaxud gözlərini, gulaqlarını, dilini) günahlardan qoruyasan. Kim axirətin uca məqamını qazanmaq istəyirsə, dünyanın zinətlərindən uzaqlaşsın. Əgər belə olsan (dediklərimə riayət etsən) Allahın vilayətinə nail olacaqsan.”

Odur ki, əgər insanın əlinin, ayağının, qulağının, dilinin, boğazının ixtiyarı özündə olsa və özünü günahlardan saxlaya bilsə, Allahın vilayətinə yaxınlaşmış olar. Ariflərin birindən soruşdular ki, sən bu məqama necə nail olmusan? O dedi: “Qəlbimin qapısında dayanıb Allahdan başqasının oraya daxil olmasına icazə vermədim.”

Ən böyük arifin kim olduğunu bilmək istəyənlər Hüseyn ibn Əliyə (ə) baxsın. O elə bir arif insan idi ki, qılıncların onu tikə-tikə doğramasına razı oldu, amma qəlbinə Allahdan başqasının daxil olma-sına razı olmadı. Oxların qəlbinə sancılmasına icazə verdi, amma o qəlbə günahların daxil olmasına heç bir vəchlə razı olmadı. İmam Hüseyn (ə) Yezid kimi şərəfsiz bir insana beyət etməyi böyük günah bilirdi. Qılıncların onu doğramasına razı oldu, amma Yezidə beyət etməyə heç vaxt razılaşmadı.

Allahın yer üzündə iki ev və hərəmi vardır. Onlardan biri Kəbə, digəri isə möminlərin qəlbidir. Kəbəyə (Məscidül-hərama) murdar insanın daxil olması qadağandır. Kafirə, aybaşı xəstəliyi olan qadına,

boynunda qüsl olan insana ora daxil olmağa icazə yoxdur. Eləcə də mömin insan heç bir vaxt razı olmaz ki, qəlbinə murdar (günah) daxil olsun. Çünki mömininin qəlbi Allahın hərəmidir və buna görə də mömin Allahdan başqa heç bir şeyin ora daxil olmasına icazə verməməlidir.

Beləliklə, insan Allahın vilayətinə nail olduqdan sonra ona cənnətə daxil olmağa icazə veriləcək. Çünki vilayət nuru insanı birbaşa cənnətə aparar. Burada bir ayəni nəzərə çatdırmaq istərdim ki, etdiyimiz bu söhbətlərin nəticəsi də həmin ayədə bəyan olunur. Allah-təala "Təhrim" surəsinin 8-ci ayəsində belə buyurur:

يَوْمَ لَا يُخْزِي اللَّهُ النَّبِيَّ وَالَّذِينَ آمَنُوا مَعَهُ نُورُهُمْ يَسْعَى بَيْنَ أَيْدِيهِمْ وَبِأَيْمَانِهِمْ

–O gün Allah Öz Peyğəmbərini və onunla birlikdə iman gətirənləri xəcil etməz. Onların nuru qəbirdən *(haqq-hesab mərkəzinə qədər)* önlərində və sağ tərəflərində hərəkət etməkdədir.

Qiyamət günü münafiqlər möminlərin əzəmət və nuraniyyətini gördükdə onlardan yardım istəyəcəklər. "Hədid" surəsinin 12-13-cü ayələrində belə oxuyuruq:

يَوْمَ تَرَى الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ يَسْعَى نُورُهُم بَيْنَ أَيْدِيهِمْ وَبِأَيْمَانِهِم بُشْرَاكُمُ الْيَوْمَ جَنَّاتٌ

تَجْرِي مِن تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا ذَلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ

–Mömin kişi və qadınların nurlarının qabaqlarında və sağ tərəflərində irəlilədiyini görəcəyin gün *(onlara)* "bu gün sizə altından çaylar axan, əbədi qalacağınız cənnət və bağlarla müjdə olsun" *(deyiləcəkdir).* Bu, həmin böyük uğur və qurtuluşdur!

يَوْمَ يَقُولُ الْمُنَافِقُونَ وَالْمُنَافِقَاتُ لِلَّذِينَ آمَنُوا انظُرُونَا نَقْتَبِسْ مِن نُّورِكُمْ قِيلَ ارْجِعُوا وَرَاءكُمْ

فَالْتَمِسُوا نُورًا...

*(Həmin)* o gün ki, münafiq kişi və qadınlar iman gətirənlərə deyəcəklər: "Bizə görə *(bir az)* dayanın və möhlət verin və ya bizə tərəf baxın ki, nurunuzdan işıq götürək." Onlara deyiləcək: "Geriyə *(dünyaya)* qayıdın və *(orada)* nur axtarın."

Söhbətimizin sonunda vilayət nurunun fatehi, nümunəvi insan kimi Həzrət Fatimeyi Zəhranı (s.ə) misal çəkmək olar. Xanım Fatimeyi Zəhra (s.ə) bu mərhələdə ən yüksək dərəcədə dayanan bir

şəxsiyyətdir. Buna görə də o xanımın nurundan bəhrələnmək üçün daim onun adına məclislər qurulacaqdır. Fatimeyi Zəhra (s.ə) mehrabın qarşısında dayanıb ibadət edən zaman o mehrabdan göylərə nur ucalardı. Göydəki ulduzlar yerə nur saçdığı kimi, onun da nuru göyləri işıqlandırardı.

Xanım Fatimeyi Zəhranın (s.ə) nuraniyyəti barədə dərin mənaya malik olan hədislərdən biri belədir: "İmam Rza (ə) buyurur: "Orucluğun axırıncı günü Həzrət Əli (ə) hilalın (yeni Ayın) çıxıb-çıxmadığını müəyyənləşdirmək üçün evdən çıxıb səmaya baxırdı. Elə bu zaman Xanım Zəhra (s.ə) da evdən çıxıb onun yanında dayandı. Həzrət Əli (ə) bir neçə dəfə Ayın çıxacağı yerə baxıb başını aşağı saldı. Sonra xanıma buyurdu: "Zəhracan, sən evə keç. Çünki sənin nuraniyyətin Ayı görməyimə imkan vermir."

Həzrət Peyğəmbərin (s) vəfatından sonra cənnətin huriləri Xanım Zəhranın (s.ə) evinə get-gəl edir və onun üçün cənnət nemətlərindən gətirərdilər. Salman Farsi deyir: "Bir gün Xanım Zəhranın (s.ə) evinə getdim. İçəri daxil olduqda xanım mənə baxıb gülümsədi. Sonra mənə bir neçə xurma verdi. Mən o xurmaları alıb evə apardım və yedim. O gündən sonra hara gedirdimsə, məndən soruşurdular: "Özünü hansı ətirlə ətirləmisən?"

Günlərin birində Xanım Zəhraya (s.ə) dedim: "Sizin mənə verdiyiniz o xurmalardan sonra məndən həmişə gözəl ətir qoxusu gəlir və camaat məndən hansı ətirdən istifadə etdiyimi soruşur." Xanım Fatimeyi Zəhra (s.ə) buyurdu: "Ey Salman, bilirsənmi, o xurmalar hardan gəlib? Onları hurilər cənnətdən mənim üçün gətirmişdilər. O xurmalar mənim burada etdiyim zikrlərə görə cənnətdə yaranan xurma ağaclarının meyvələridir."

Belə bir nuraniyyəti əldə etməyin bircə yolu var və o da bundan ibarətdir ki, insan qəlbində Allahdan başqasına yol verməsin. İnsan bu dünyada hər nə iş görür görsün, amma günah etməsin. Hər nə yeyir yesin, amma haram yeməsin. Bir sözlə desək, insan öz paklığını və nuraniyyətini qoruyub saxlaya bilsə, vilayət nurunu qazanmış olar. Belə bir insana comərd insan deyilir.

Günlərin birində Musa Peyğəmbər (ə) Allahla münacat edərkən soruşdu: “İlahi, camaat arasında comərd (fütüvvət) sözünü tez-tez eşidirəm. Bu sözün mənası nədir?” Allah-təala onun cavabında buyurdu: “Ey Musa, Mən səni yaradarkən bir ruh vermişəm. O ruhu sənə verəndə pak-pakizə, təmiz və şəffaf idi. Bir gün sən o ruhu Mənə qaytaracaqsan. Fütüvvət odur ki, həmin ruhu Məndən aldığın kimi, Özümə qaytarasan. Əgər onu mənə təmiz və nurani halda qaytara bildinsə, comərd adamsan.”

# HƏZRƏT ƏLİNİN (Ə) MÖVLUDU

## (Həzrət Əlinin (ə) əxlaqı)

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ لِلهِ رَبِّ الْعالَمِينَ وَالصَّلاةُ وَالسَّلامُ عَلَى رَسُولِ اللهِ الأَمِين وَعَلى آلِهِ الطّاهِرِينَ سِيَّما بَقِيَّةِ اللهِ فِي الأَرَضِين، وَاللَّعنُ عَلى أَعدائِهِم أَجمَعِين اِلى قِيامِ يَوْمِ الدِّين

Həzrət Əlinin (ə) dünyaya gəldiyi rəcəb ayının 13-ü müsəlmanlar üçün böyük bir bayramdır. Həzrət Əli (ə) yeganə insandır ki, Allahın evi olan müqəddəs Kəbə evinin içində dünyaya göz açmışdır. İmam Əli (ə) İslam Peyğəmbərinin (s) canişini olmaqla yanaşı, həm də bütün bəşəriyyətin möhtərəm öndəri, layiqli imamı olmağa ləyaqəti çatan bir şəxs idi. Xoş o insanların halına ki, elə bir şəxsiyyəti özlərinə imam seçərək ona itaət edir və onun ardınca gedirlər. Bu münasibətlə bütün dünya müsəlmanlarını, şərəfli və azad insanları təbrik edirəm. Allahdan diləyim budur ki, Həzrət Əlinin (ə) ehtiramına xatir bu dünyada və axirətdə lütf və mərhəmətini hamımıza inayət etsin.

### Həzrət Əli (ə) kimdir?

Burada çox yaxşı olardı ki, İmam Əlinin (ə) şərafət və fəzilətləri barədə Quran ayələri və Həzrət Peyğəmbərin (s) kəlamlarından əlavə, həm də onun öz dilindən səslənən fikirlərə də diqqət yetirək. Əlbəttə, insanın öz-özünü tərif etməsi yaxşı hal sayılmır. Amma Quranın "Allahın sizə verdiyi nemətlərdən danışın" kimi ayələrinə istinad etdikdə bəzən insanın özündən bəhs edib tanıtdırmasında xoşagəlməz bir halın olmadığını da görürük. Həm də bəzi elə həqiqətlər vardır ki, insan özünü tanıtdırmasa, onlar pərdə arxasında qalmış olar. Nəticədə ziyanı bu olar ki, insanlar həqiqətdən uzaq düşərlər. İş o yerə gəlib çatar ki, saqqalın tükünün ağlığı insanın qəlbinin ağlığından çox olar. Belə olduqda insanların və xalqların böyük bir hissəsi çaşqınlığa düşər, yaxud yollarını azaraq həqiqətdən uzaqlaşarlar. Bunun qarşısını almaq üçün bəzən insan özünü mütləq

tanıtdırmalıdır. Həzrət Peyğəmbər (s) və Əhli-beyti (ə) müxtəlif hadisələr zamanı bu işi görərək hamını xəbərdar etmişlər ki, insanlar çaşqınlığa düşməsinlər. O cümlədən Həzrət Əlinin (ə) də öz xüsusiyyətləri barədə buyurduğu kəlamlar olmuşdur. Bu bəhsimizdə çox yaxşı olar ki, Həzrətin (ə) əxlaqı barədə söz açaq.

**Əxlaqın əhəmiyyəti**

Həzrət Əlinin (ə) əxlaqı barədə söz açmazdan öncə qısaca da olsa əxlaqın əhəmiyyətindən bəhs etmək istərdik. Əxlaq bütün insanlar üçün zəruri və önəmli məsələlərdən biridir. Sual oluna bilər ki, əxlaqın insan cəmiyyəti üçün hansı zərurəti vardır? Bu sualın cavabı ilə bağlı çoxlu kitablar yazılmış və əxlaqın insan cəmiyyətində böyük rola malik olması haqda geniş müzakirələr aparılmışdır. Həmçinin əxlaqın əhəmiyyəti barədə fikirlər irəli sürülmüşdür. Məlumdur ki, insan müəyyən qüdrətə, enerjiyə, təfəkkürə və gücə malik olan bir varlıqdır. Həmçinin insanların daxilində onları o tərəf bu tərəfə sürükləyən müxtəlif istək və meyillər də mövcuddur. Bundan əlavə, insanlar ictimai məxluq olduğundan birində olan istək və meyillər digərlərində də vardır. Buna görə də həmin istək və meyillər bəzən də cəmiyyətdə yaşayan insanlar arasında cürbəcür fitnə-fəsadların yaranmasına gətirib çıxarırdı. Bəzən də bu meyil və istəklər çox böyük fəlakətlərə səbəb olurdu. Bütün bunlar isə nəhayət, əxlaq elmi adlanan yeni bir elmin yaranmasını zəruriləşdirirdi. Alimlər və mütəfəkkirlər qarşılarına məqsəd qoymuşdular ki, doğru danışmaq, verilən sözün üstündə dayanmaq, əmanətdarlıq və s. kimi əxlaqi məsələlər əsasında müzakirələr apararaq əxlaqi məsələlərin genişləndirilməsinə və təkmilləşdirilməsinə nail olsunlar. Beləcə, yavaş-yavaş insan cəmiyyətində əxlaq elmi deyilən bir elm meydana gəlməyə başladı.

Əlbəttə, bir daha qeyd etmək istərdim ki, bu barədə çox geniş şəkildə bəhs etmək və müzakirələr aparmaq olar. Biz isə qısaca da olsa əxlaq elminin zəruriliyindən söz açdıq. Əxlaq elminin zəruriliyini Həzrət Əli (ə) bircə cümlə ilə belə şərh etmişdir. Həzrət (ə) buyurur:

لَو كُنّا لا نَرْجُوا جَنَّةً، وَلا نَخْشَى نَارًا ولِا ثَواباً وَلا عِقَاباً لَكَانَ يَنْبَغِي لَنَا أَنْ نَطْلُبَ مَكَارِمَ الأَخْلاقِ، فَإِنَّهَا تَدُلُّ عَلَى سَبِيلِ النَّجَاةِ

–Heç cənnətə ümid etməsəydik və cəhənnəmdən qorxmasaydıq, savab və əzab olmasaydı belə yenə də gözəl əxlaqi dəyərlərə yiyələnməli idik. Çünki səadət və nicat yolu məhz əxlaqi dəyərlərdədir.

Həzrət Əli (ə) digər bir hədisdə isə belə tövsiyə edərək buyurmuşdur:

علَيكُم بمَكارِمِ الأخْلاقِ فإنّها رِفْعَةٌ، و إيّاكُم و الأخْلاقَ الدَّنِيَّةَ فإنّها تَضَعُ الشَّرِيفَ و تَهْدِمُ المجْدَ

–Əxlaqi dəyərlərə yiyələnin, çünki yüksəlişə səbəb olur. Pis xislətlərdən *(əxlaqsızlıqdan)* uzaq olun, çünki bunlar yaxşı insanları alçaldır və böyüklüyü aradan aparır.

## Həzrət Əlinin (ə) əxlaqı

Həzrət Əlinin (ə) həyatına diqqət yetirdikdə açıq-aydın görünür ki, o, İslam Peyğəmbərindən (s) sonra ən əxlaqlı və yüksək əxlaqi keyfiyyətlərə malik olan bir insandır. İmam Əli (ə) hər bir əxlaqi məsələdə nümunəvi şəxsdir. Buna nümunə olaraq Həzrətin (ə) iki əxlaqi keyfiyyətindən qısaca söz açmaq istərdik.

### 1. Həzrət Əlinin (ə) təqvası

İmam Əlinin (ə) əxlaqi keyfiyyətlərindən biri onun təqvalı olmasıydı. Həzrətin (ə) çıxışlarına, xütbələrinə və s.-ə diqqət yetirdikdə görürük ki, hər bir çıxışında, xütbəsində müxtəlif ibarələrlə təqvadan söz açır və insanlara bu əxlaqi keyfiyyəti tövsiyə edirdi. Xüsusilə xütbələrinin birini sırf təqvaya və təqvalı insanın xüsusiyyətlərinə həsr etmişdir. “Həmmam” adı ilə məşhur olan həmin xütbə İmamın (ə) “Nəhcül-bəlağə” əsərinin 184-cü xütbəsidir.

–Rəvayət edilib ki, Əmirəlmöminin əleyhissalamın Həmmam deyilən abid səhabə və ardıcıllarından biri o Həzrətə dedi: “Ey Əmirəlmöminin, pəhrizkarları *(onların sifətlərini)* mənə elə vəsf et ki, onları görmüş kimi olum.” İmam əleyhissalam onun cavabında duruxdu və gec tərpəndi. *(Çünki cavabı gecikdirməyi daha məsləhət bilirdi.)* Sonra qısa şəkildə buyurdu: “Ey Həmmam, sən özün Allahdan qorx və yaxşı işlər gör ki *(Qurani-kərimin “Nəhl” surəsinin 128-ci ayəsində buyurulur)*: «إِنَّ اللّهَ مَعَ الَّذِينَ اتَّقَواْ وَّالَّذِينَ هُم مُّحْسِنُونَ» – “Allah pəhrizkarlar və yaxşı işlər görənlərlədir.”[4] Həmmam bu cavaba qane olmadı *(öz istəyində israr etdi)* və nəhayət, Həzrəti and verdirdi. Buna görə də Həzrət Allaha həmd və şükr edib Peyğəmbərə *(səlləllahu əleyhi və alih)* salam göndərdikdən sonra buyurdu:

–Eyib və nöqsan sifətlərdən pak və uzaq olan Allah məxluqatı yaradarkən onların itaət və bəndəliyindən ehtiyacsız, günah və itaətsizliklərindən qorxusuz və amanda idi. Çünki günahkarların itaətsizliyinin Ona bir ziyanı yoxdur və tabe olanların itaəti Ona bir xeyir gətirmir *(bəlkə itaətə əmr etmək və itaətsizlikdən çəkindirməkdə məqsəd bəndələrin özlərinin mənfəət əldə etmələridir)*. Buna görə də ruzi və asayiş vasitələrini onların arasında böldü və dünyada hər bir kəsi *(hikmət və məsləhət əsasında yoxsulluq və varlılıq, yaxşılıq və pislik kimi layiq bildiyi)* bir mərtəbədə yerləşdirdi. Pəhrizkarlar dünyada fəzilətlərə malikdirlər *(başqalarından üstündürlər)*. *(Çünki)* danışıqları doğruluğa əsaslanır *(Allahın və Peyğəmbərin razılığına müvafiq şəkildə danışırlar)*, geyimləri ortadır (*həyatlarında ifrata varmaq və ya həddən aşağı olmaq yoxdur)* və *(xalq arasında)* təvazökarlıqla davranarlar.[5]

---

[4] Sənə lazım olan şey təqva – Allahdan qorxmağı öz şüarın etmək və yaxşı işlər görməkdir. Sənə bundan artıq bir şey lazım deyil.

[5] Çünki Allah Qurani-kərimin “İsra” surəsinin 37-ci ayəsində buyurur: «وَلاَ تَمْشِ فِي الأَرْضِ مَرَحًا إِنَّكَ لَن تَخْرِقَ الأَرْضَ وَلَن تَبْلُغَ الْجِبَالَ طُولاً» – “Yer üzündə təkəbbürlə yol getmə. Çünki sən heç vaxt (ayaqlarınla) yeri yara bilməz və heç vaxt (boynunu nə qədər uzatsan da) boyca dağlara çata bilməzsən.”

Onlar Allahın onlara rəva bilmədiyi şeyə göz yumar *(harama mürtəkib olmaz)* və onlara xeyir verən elmə qulaq verərlər.[6] Çətinlik zamanı başqalarının asayiş və rahatlıqda olduqları kimidirlər *(ilahi təqdirə boyun əyərək Allahın istədiyinə razıdırlar və onlar üçün çətinilklə rahatlıq birdir)*. Əgər Allahın onlar üçün (dünyada) müəyyənləşdirdiyi əcəl olmasaydı, savab şövqü və əzabın qorxusundan canları bir göz qırpımı belə bədənlərində qalmazdı. Onların nəzərində Allah böyük, Ondan başqası isə *(hər nə olmasından asılı olmayaraq)* kiçikdir. Onların cənnətə yəqin və inamları onu sakinlərinin rahatlıq içində olmalarını görən şəxsin yəqin və inamı kimidir.

Həmçinin oda imanları onu sakinlərini əzaba düçar halda görən şəxsin imanı kimidir. Qəlbləri qəmgin, zərər-ziyanları təhlükəsiz *(hamı onların zərər-ziyanından xatircəm və qorxusuzdur, çünki başqalarını incitmək və hər bir günahın mənşəyi dünyanı sevməkdir ki, onların da ona meyilləri yoxdur)*, bədənləri *(oruc tutmaq, çoxlu ibadət və bəndəlik etmək və qənaət nəticəsində)* arıq, *(dünyadakı)* istəkləri az *(naçarlıqdan möhtac olduqlarından artıq bir şey istəmirlər)* və nəfsləri pak və təmizdir *(şəhvət arxasınca getmirlər). (Dünyada olan)* bir neçə qısa günü səbirlə başa çatdırarlar və onun arxasınca həmişəlik rahatlığı *(sonsuz cənnət nemətini)* əldə edərlər. Bu iş Rəbblərinin onlar üçün hazırladığı çox qazanclı və mənfəətli bir ticarətdir.

*(Onlar özlərini ibadət və bəndəliyə hazırladıqları üçün Allah da səadətə qovuşmaq yolunu onlara göstərib.)* Dünya onlara üz tutdu *(öz mal və bər-bəzəyini onlara göstərdi)*, onlar isə ondan üz döndərdilər *(ona göz yumdular)*; onları çətinliklərə əsir etdi, onlar isə canlarını qurban verərək *(onun çətinliklərinə dözdülər və sonda)* özlərini ondan qurtardılar. Gecə olanda *(namaz üçün)* ayaq üstə duraraq Quranın ayələrini diqqət və düşüncə ilə oxuyarlar və onu oxumaq və

---

[6] Allah və Peyğəmbərin qəzəbinə səbəb olan boş sözlərdən uzaq olarlar. Necə ki, Qurani-kərimin “Furqan” surəsinin 72-ci ayəsində buyurulur: «وَالَّذِينَ لَا يَشْهَدُونَ الزُّورَ وَإِذَا مَرُّوا بِاللَّغْوِ مَرُّوا كِرَامًا» – “Allahın bəyənilmiş bəndələri o kəslərdir ki, faydasız və əyyaşlıq məclislərində, nahaq və batil sözlər danışılan və ya çirkin işlər görülən yerlərdə iştirak etməz, orada olmazlar və boş və xoşagəlməz bir şeylə qarşılaşdıqları zaman uzaqlaşaraq keçər və durmazlar.”

barəsində düşünməklə özlərini qəmləndirərlər. Onun vasitəsilə öz dərdlərinə əlac etməyə çalışarlar *(Quranı oxumaq və ona əməl etməklə qiyamətin əzab və çətinliklərindən nicat tapmaq istəyərlər)*. Beləliklə, şövqə gətirən və ümidverici *(yaxşı əməl sahiblərinin mükafatını bəyan edən)* bir ayə ilə rastlaşanda ona tamah salarlar və şövqlə ona baxarlar, sanki ayənin barəsində xəbər verdiyi mükafat onların gözləri önündədir və onu görürlər.

Həmçinin qorxu və vahimə olan *(pis əməl sahiblərinin cəzasından danışan)* bir ayə ilə rastlaşanda qəlblərinin qulaqlarını ona elə açarlar ki, sanki cəhənnəmin *(onun əhlinin)* nalə və fəryadları qulaqlarının dibindədir. *(Allah qarşısında rüku etmək üçün)* qamətlərini əyər və *(səcdə etmək üçün)* alın, əllərinin içi, diz və barmaqlarının uclarını yerə qoyaraq Allah-təaladan özlərinin *(qiyamət əzabından)* azad olmalarını istəyərlər. Gündüz olanda isə səbirli, alim, yaxşı əməlli və pəhriz-kardırlar. Qorxu *(Allah qorxusu)* bədənlərini yonulmuş oxların nazikliyi kimi arıqladıb. Görən onların xəstə olduqlarını güman edər, halbuki heç bir xəstəlikləri yoxdur *(bəlkə əzabın qorxusundan arıqlayıblar)*, *(onlardan eşitdiyi sözləri başa düşmədiyi üçün)* sərsəri və dəli olduqlarını deyər, halbuki dəli deyildirlər, bəlkə böyük iş *(qiyamətin fikri)* fikirlərini qarışdırıb. Özlərinin az işlərindən razı olmurlar və çoxu çox saymırlar.

Beləliklə, özlərini *(itaətdə səhlənkarlıq gümanı ilə)* günahlandırarlar və öz əməllərindən qorxarlar *(ki, məbada bəyənilməyə)*. Əgər onlardan birini *(yaxşı əməlinə görə)* tərifləsələr, barəsində deyilənlərdən qorxar və deyər: "Mən özümü başqalarından daha yaxşı tanıyıram və Rəb-bim məni mənim özümdən də yaxşı tanıyır. Allahım, *(özündənrazılığa səbəb olan bu)* deyilənlərə görə məni cəzalandırma, məni onların güman etdiklərindən də üstün et və onların bilmədikləri günahlarımı bağışla!"

Pəhrizkarların birinin nişanəsi budur ki, sən onu din işində güclü, yumşaqlıq və gözəl xasiyyətlilikdə uzaqgörən, imanda yəqin sahibi, elmdə *(elm axtarışında)* həris, səbirlilikdə alim, zənginlikdə mötədil *(israf etməyib varını yersiz xərcləməyən)*, ibadət və bəndəlikdə təvazökar

görərsən və o, yoxsulluq və imkansızlığında bəzənmiş görünər *(ki, heç kəs onun yoxsulluğundan xəbərdar olmasın)*.[7]

Onlar çətinlikdə səbirli, halal axtaran, hidayət və qurtuluşda şad, tamah və hərislikdən uzaqdırlar. *(Beləsi)* yaxşı işlər görməsinə baxmayaraq, qorxu içindədir. Gecə, onun səy və təlaşı *(Allah-təalanın nemətlərinə görə)* şükür etməyə sərf olunur. Gündüz istəyi Allahı zikr etmək və yada salmaqdır. Gecəni öz qəflətindən qorxan halda *(ki, məbada vəzifələrində səhlənkarlıq etmiş olar)* başa vurar və gündüz Allahın lütf və mehribançılığından *(onu müsəlman və Məhəmmədə və Məhəmməd əhli-beytinə tabe olanlardan etməsindən)* şad və sevincək olar. Əgər nəfsi meyli olmadığı şeydə ona qarşı itaətsizlik etsə *(ibadət və bəndəlikdə çətinliklə ram olsa, o da)* nəfsin sevdiyi şey barəsindəki istəyini yerinə yetirməz. Onun gözünün işığı əbədi olan şeydir və çiyrəndiyi qalmayan şeydir *(gözünü axirətə dikib və dünyaya arxa çevirib)*. O, səbri elmlə və sözü əməl ilə qarışdırır. *(Çünki elm və ağla əsaslanmayan səbir və əməl ilə birgə olmayan söz xoşagəlməzdir.)* Onu arzusu qısa *(məhdud)*, səhv və xətası az, qəlbi təvazökar, nəfsi qane, yeməyi az, işi asan, dini qorunmuş, şəhvət və istəyi yox və qəzəbi yatırılmış görərsən. Xalq onun yaxşılığına göz dikib və pisliyindən rahat və xatircəmdir.

Əgər *(Allah və Peyğəmbərdən)* qafil və xəbərsiz insanlar içərisində olsa xəbərdarların zümrəsində sayılar. *(Çünki onun qəlbi Allahı zikr etməklə məşğuldur.)* Əgər xəbərdarların içərisində olsa qafillərdən sayılmaz.[8] Ona zülm edəni bağışlayar, onu məhrum edənə yaxşılıq və ehsan edər və ondan ayrılana birləşər. Söyüş söyməkdən və çirkin sözdən uzaqdır və sözü mülayim olar. Ondan xoşagəlməz bir iş görünməyib və bəyənilən işi aşkardır. Onun yaxşılığı üz tutub və pisliyi arxa çevirib. Çətinliklərdə vüqarlı və dözümlü, acı anlarda səbirli, dinclik və rahatlıqda şükür edəndir. Nifrət etdiyi kimsəyə zülm etməz və sevdiyi şəxsə görə günaha düşməz. *(Öz nəfsi istəklərinə*

---

[7] Necə ki, Qurani-kərimin "Bəqərə" surəsinin 273-cü ayəsində buyurulur: « لِلْفُقَرَاء الَّذِينَ أُحصِرُواْ فِي سَبِيلِ اللّهِ لاَ يَسْتَطِيعُونَ ضَرْبًا فِي الأَرْضِ يَحْسَبُهُمُ الْجَاهِلُ أَغْنِيَاء مِنَ التَّعَفُّفِ تَعْرِفُهُم بِسِيمَاهُمْ لاَ يَسْأَلُونَ النَّاسَ إِلْحَافًا وَمَا تُنفِقُواْ مِنْ خَيْرٍ فَإِنَّ اللّهَ بِهِ عَلِيمٌ» – "Allah yolunda ibadət və bəndəliklə məşğul olan, ticarət etmək üçün yer üzündə hərəkət edə bilməyən yoxsullar iffətli və (mənən) zəngindirlər. Belə ki, nadan onların varlı olmalarını zənn edər. Sən onları üzlərinin nişanələri ilə tanıyarsan ki, xalqdan israrla bir şey istəməzlər. Allah sizin mallarınızdan onlara verdiklərinizi bilir."

[8] Çünki o, Allahı zikr etməkdə təkcə dil ilə kifayətlənmir, bəlkə onun qəlbi dili ilə birdir.

*tabe olan və zalım insanların əksinə olaraq sevmək və ya nifrət bəsləmək onun öz şəri vəzifəsini yerinə yetirməsinə mane olmur.)* Şahid gətirilməmişdən qabaq haqqı qəbul edər.[9]

Ona tapşırılan şeyi zay etməz və yadına salınan şeyi unutmaz. Heç kəsi xoşagəlməz ləqəblərlə *(kafir, fasiq, münafiq və çirkin kəlmələrlə)* çağırmaz və qonşuya ziyan vurmaz. İnsanların başına gələn acı hadisələrə sevinməz. Batil və nahaq yola qədəm qoymaz və haqq yoldan kənara çıxmaz. Əgər sakit otursa, sakitliyi onu qəmləndirməz və əgər gülsə, gülüş səsi ucalmaz. Ona zülm edilsə, Allah onun intiqamını alana kimi səbir edər. Nəfsi onun əlindən əzab və çətinliyə düçardır. *(Çünki onun istəklərinə zidd davranır.)* Xalq onun əlindən rahatlıqdadır. *(Çünki xalqı incitmək nəfsi istəklərə tabe olmaq nəticəsində mümkündür.)* Axirət işində özünü əziyyətə salar və xalqı özündən *(öz işindən)* dincliyə çatdırar. Onun şəxslərdən uzaqlaşması *(dünyapərəstlərə)* rəğbətinin olmamasına və *(onlardan)* uzaq olmasına görədir. Tanışlarla yaxın olması *(Allah adamları ilə)* xoşrəftar və mehriban olmağa görədir. Uzaqlaşmasının səbəbi özündən razılıq və özünü böyük tutmaq deyil və yaxınlaşması *(ikiüzlü adamlarda olduğu kimi)* hiylə və kələk yolu ilə deyil.

Bu xütbəni nəql edən deyir: *(Söz bu yerə çatanda)* Həmmam özündən getdi və elə həmin özündən getməklə də dünyadan köçdü. Sonra Əmirəlmöminin əleyhis-salam buyurdu: "Bilin! Vallah onun üçün bundan *(belə bir hadisənin baş verməsindən)* qorxurdum. Daha sonra buyurdu: Düzgün nəsihətlər əhlinə belə *(təsir)* edir."

Osman ibn Hüneyf Ənsari İmam Əlinin (ə) Bəsrədəki nümayəndəsi idi. Həzrət (ə) onun imkanlıların birinin toy məclisində iştirak etdiyini eşitdikdə Osmana bir məktub yazdı. Həmin məktub "Nəhcül-bəlağə"nin 45-ci məktubudur ki, sənədin bir hissəsində belə deyilir:

---

[9] Çünki şahid inkar edilərkən gətirilir, haqqı inkar etmək yalançılıqdır. Yalançılıq təqva və pəhrizkarlığa ziddir.

و قد بلغه أنه دعي إلى وليمة قوم من أهلها فمضى إليها أَمَّا بَعْدُ يَا ابْنَ حُنَيْفٍ فَقَدْ بَلَغَنِي أَنَّ رَجُلًا مِنْ فِتْيَةِ أَهْلِ الْبَصْرَةِ دَعَاكَ إِلَى مَأْدُبَةٍ فَأَسْرَعْتَ إِلَيْهَا تُسْتَطَابُ لَكَ الْأَلْوَانُ وَ تُنْقَلُ عَلَيْكَ الْجِفَانُ وَ مَا ظَنَنْتُ أَنَّكَ تُجِيبُ إِلَى طَعَامِ قَوْمٍ عَائِلُهُمْ مَجْفُوٌّ وَ غَنِيُّهُمْ مَدْعُوٌّ فَانْظُرْ إِلَى مَا تَقْضَمُهُ مِنْ هَذَا الْمَقْضَمِ فَمَا اشْتَبَهَ عَلَيْكَ عِلْمُهُ فَالْفِظْهُ وَ مَا أَيْقَنْتَ بِطِيبِ وَجْهِهِ فَنَلْ مِنْهُ أَلَا وَ إِنَّ لِكُلِّ مَأْمُومٍ إِمَاماً يَقْتَدِي بِهِ وَ يَسْتَضِيءُ بِنُورِ عِلْمِهِ أَلَا وَ إِنَّ إِمَامَكُمْ قَدِ اكْتَفَى مِنْ دُنْيَاهُ بِطِمْرَيْهِ وَ مِنْ طُعْمِهِ بِقُرْصَيْهِ أَلَا وَ إِنَّكُمْ لَا تَقْدِرُونَ عَلَى ذَلِكَ وَ لَكِنْ أَعِينُونِي بِوَرَعٍ وَ اجْتِهَادٍ وَ عِفَّةٍ وَ سَدَادٍ

–Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: ey Hüneyfin oğlu, mənə xəbər çatıb ki, Bəsrə gənclərindən biri səni toy süfrəsinə dəvət edib və sən tələsik həmin süfrəyə doğru getmisən. Sənin üçün növbənöv ləzzətli yeməklər istənilib və qarşına böyük kasalar gətirilib. Sənin kasıb və yoxsullarını qovan, varlıları isə dəvət edən bir camaatın qonaqlığına getməyini güman etməzdim. Buna görə də bu yeməkdən dişlədiyinə diqqət et. *(Halal və ya haram olması)* sənə məlum olmayan şeyi at (*yemə).* Qazanılma yollarının pak olmasını *(halal və düz yolla əldə edildiyini)* bildiyin şeyi ye.

Bil ki, tabe və ardıcıl olan hər bir şəxsin bir imam və başçısı var ki, ona tabe olur və onun elminin nuru ilə aydınlıq axtarır. *(Hər bir ardıcıl danışıq və davranışının düzlüyünü öz imamından öyrənir. Sən də gərək öz imamına tabe olub onun ardınca gedəsən.)* Bunu da bil ki, sizin imamınız öz dünyasından iki köhnə paltarla *(yəni bədəni başdan-ayağa kimi örtən qumaş köynək və şalvarla)*, yeməklərdən isə *(iftar və obaşdanlıq və ya nahar və şam üçün)* iki tikə çörəklə kifayətlənib. Sizin bu cür etmək qüdrətiniz yoxdur. Amma *(heç olmasa)* mənə pəhrizkarlıq, çalışqanlıq, iffətlilik və düzlüklə kömək edin.

طُوبَى لِنَفْسٍ أَدَّتْ إِلَى رَبِّهَا فَرْضَهَا وَ عَرَكَتْ بِجَنْبِهَا بُؤْسَهَا وَ هَجَرَتْ فِي اللَّيْلِ غُمْضَهَا حَتَّى إِذَا غَلَبَ الْكَرَى عَلَيْهَا افْتَرَشَتْ أَرْضَهَا وَ تَوَسَّدَتْ كَفَّهَا فِي مَعْشَرٍ أَسْهَرَ عُيُونَهُمْ خَوْفُ مَعَادِهِمْ وَ تَجَافَتْ عَنْ مَضَاجِعِهِمْ جُنُوبُهُمْ وَ هَمْهَمَتْ بِذِكْرِ رَبِّهِمْ شِفَاهُهُمْ وَ تَقَشَّعَتْ بِطُولِ اسْتِغْفَارِهِمْ ذُنُوبُهُمْ أُولئِكَ حِزْبُ اللَّهِ أَلَا إِنَّ حِزْبَ اللَّهِ هُمُ الْمُفْلِحُونَ فَاتَّقِ اللَّهَ يَا ابْنَ حُنَيْفٍ وَ لِتَكْفِفْكَ أَقْرَاصُكَ لِيَكُونَ مِنَ النَّارِ خَلَاصُكَ

–Xoş o adamın halına ki, qayıdış *(qiyamət günü)* qorxusu gözlərini oyaq saxlayan, yanlarını yataqlardan uzaqlaşdıran, dodaqları yavaş-

yavaş Rəbblərini zikr edən və istiğfarın *(bağışlanmaq istəyinin)* çoxluğundan günahları *(dağınıq buludlar kimi)* dağılmış dəstənin içərisində Rəbbinin vacib etdiklərini əda edir, çətinliklərdə dözümlüdür, gecələr yuxu və mürgü qalib gələnə kimi yuxudan uzaqdır *(və yuxu və mürgü qalib gələndə isə)* yeri öz döşəyi və əlini yastığı edir! *Qurani-kərimin "Mücadilə" surəsinin 22-ci ayəsində buyurulur:* "Onlar Allahın firqəsidirlər. Bilin ki, Allahın firqəsi – məhz onlar nicat tapıb əbədi səadətə qovuşanlardır."[10]

Buna görə də ey Hüneyfin oğlu, təqvalı ol *(Allahdan qorx), qarın otarmaqla məşğul olma*. Gərək bir neçə tikə çörəklə kifayətlənəsən ki, o, sənin oddan qurtulmağına səbəb olsun.

Həzrət Əli (ə) "Nəhcül-bəlağə"nin 191-ci xütbəsində (Müaviyənin fikirlərinin daha dolğun və gördüyü tədbirlərin Həzrətin (ə) tədbirlərindən daha yaxşı olduğunu güman edən kəsin zənninin səhv olması barədə) belə buyurur:

وَاللهِ مَا مُعَاوِيَةُ بِأَدْهَى مِنّي، وَلكِنَّهُ يَغْدِرُ وَيَفْجُرُ، وَلَوْلاَ كَرَاهِيَةُ الْغَدْرِ لَكُنْتُ مِنْ أَدْهَى النَّاسِ، وَلَكِنْ كُلُّ غُدَرَة فُجَرَةٌ، وَكُلُّ فُجَرَة كُفَرَةٌ، وَلِكُلِّ غَادِر لِوَاءٌ يُعْرَفُ بِهِ يَوْمَ الْقِيَامَةِ. وَاللهِ مَا أُسْتَغْفَلُ بالْمَكِيدَةِ، وَلاَ أُسْتَغْمَزُ بالشَّدِيدَةِ.

–Allaha and olsun ki, Müaviyə məndən zirək deyil, bəlkə o, vəfasızlıq, xəyanət, hiyləgərlik edib, günah və itaətsizliklə məşğuldur.[11] Əgər hiyləgərlik və vəfasızlıq xoşagəlməz olmasaydı *(Allah ona əzab müəyyənləşdirməsəydi)*, mən insanların ən zirəngi olardım. Amma *(bilin ki,)* bütün hiylə və vəfasızlıqlar günahdır və hər bir günah itaətsizlikdir (və küfrdür). Qiyamət günü hiyləgər və əhd-peymanını pozmuş hər bir kəs üçün bir bayraq və nişanə olar və o, onunla tanınar *(günahı üzə çıxaraq onu oda aparar)*. Allaha and olsun ki, mən *həmişə onların məkr və hiylələrindən xəbərdar olduğum üçün* qəflətə düşüb diqqətsizlik etmirəm ki, barəmdə kələk və hiylə işlətsinlər. Odur ki, çətinliklər və problemlər qarşısında aciz qalmır və zəif düşmürəm.[12]

---

[10] «أُوْلَئِكَ حِزْبُ اللَّهِ أَلَا إِنَّ حِزْبَ اللَّهِ هُمُ الْمُفْلِحُونَ»

[11] Bütün işlərdə hiylə və kələk işlədir və əhd-peymanına vəfa etmir. Buna görə də nadanlar elə bilirlər ki, bu, onun zirəklik və alimliyindən irəli gəlir.

[12] Çünki hamıdan daha güclüyəm. Lakin Allah və Peyğəmbərin göstərişlərinə tabe olmaq üçün onların razılıqları olmayan şeylərdən üz döndərirəm. Bu, başqasının nəzər və düşüncəsinin

Həzrət Əli (ə) təqva məsələsində çox dəqiq bir insan idi. Həzrət Əli (ə) Həzrət Peyğəmbərdən (s) sonra təqvaya olduğu kimi riayət edən və bunu təkidlə hamıya tövsiyə edən ilk şəxs olmuşdur. Həzrət Əlinin (ə) təqva barədə buyurduğu kəlamları oxuduqda insan heyrətlənir və qorxuya düşür. İnsan öz-özünə deyir ki, əgər təqvalı və mömin insan belə olmalıdırsa, bəs onda mən kiməm?

### 2. Həzrət Əlinin (ə) zahidliyi

Həzrət Əlinin (ə) əxlaqi keyfiyyətlərindən biri də onun zahidliyi idi. Zahidlik, qısaca desək, dünyaya rəğbət göstərməmək mənasındadır. Belə ki, məsələn, bəzən insanda elə xəstəliklər olur ki, ona bir yemək gətirdikdə yeməyə baxarkən ürəyi bulanır. Nə qədər dadlı və xoşu gələn yemək olsa da belə xəstəlik üzündən həmin yeməyə meyil göstərmir. Bu insan yemək barəsində zahiddir. Yəni müvəqqəti də olsa yeməyə heç bir rəğbət göstərə bilmir. Zahidlik odur ki, insan dünyaya qarşı laqeyd olsun və ona rəğbət göstərməsin. Sanki dünyadan küsmüş bir insan kimidır və belə bir insana heç bir kəsin gücü çatmaz. Xüsusilə hakimiyyətdə ola-ola dünyaya rəğbət göstərməyən bir insan daha qüdrətli insandır. Çünki hakimiyyətdə pul, güc, qüdrət, şəhvət və hər cür imkan və şərait olduğundan bütün bunlara qarşı laqeyd olmaq, yəni onlara diqqət yetirməmək çox böyük bir insanın işidir.

Həzrət Əli (ə) zahidliyin ən yüksək zirvəsində yer tutmuş bir şəxsiyyətdir. O, hakimiyyəti elə bir dəyərsiz şey hesab edirdi ki, belə bir hal tarix boyu heç bir kəsdə görünməmişdir.

Abdullah ibn Abbas deyir:

قَالَ عَبْدُ اللَّهِ بْنُ عَبَّاسٍ دَخَلْتُ عَلَى أَمِيرِ الْمُؤْمِنِينَ عليه السلام بِذِي قَارٍ وَهُوَ يَخْصِفُ نَعْلَهُ فَقَالَ لِي مَا قِيمَةُ هَذَا النَّعْلِ فَقُلْتُ لَا قِيمَةَ لَهَا فَقَالَ عليه السلام وَاللَّهِ لَهِيَ أَحَبُّ إِلَيَّ مِنْ إِمْرَتِكُمْ إِلَّا أَنْ أُقِيمَ حَقّاً أَوْ أَدْفَعَ بَاطِلا

---

məndən üstün və güclü olmasına dəlalət etmir. Çünki o, şeytana və nəfsi istəklərinə tabedir. Mən isə hər bir işdə Allahı nəzərdə tuturam.

–Döyüşə gedən zaman Ziqarda *(Bəsrə yaxınlığında bir yer)* İmamın yanına getdim. Gördüm ki, Həzrət çarıqlarına yamaq vurmaqla məşğuldur. Dedim: "Ya Əmirəlmöminin, camaat səbirsizliklə səni gözləyir, amma sən çarıqlarını yamayırsan?" Həzrət cavab verməyib öz işini davam etdirdi. Çarıqları yamadıqdan sonra onları cütləyib yerə qoydu və soruşdu: "İbn Abbas, bu çarıqların bazarda nə qədər qiyməti olar?" Dedim: "Ya Əli, onları heç bir kəs almaz. Çünki çox köhnə və yamaqlı çarıqlara kim qiymət qoya bilər?" Həzrət buyurdu: "Allaha and olsun, bu çarıqlar mənim üçün sizlərə rəhbərlik və əmirlik etməkdən daha qiymətlidir. Lakin mən əmirliyi və hakimiyyəti ona görə qəbul etdim ki, haqqı sübut edim, batili aradan götürüm."

Həzrət Əli (ə) dünyaya o qədər biganəydi ki, hətta ona qarşı nifrətini belə gizlətməyərək buyururdu:

وَاَللَّهِ لَدُنْيَاكُمْ هَذِهِ أَهْوَنُ فِي عَيْنِي مِنْ عِرَاقِ عُرَاقِ خِنْزِيرٍ فِي يَدِ مَجْذُومٍ

–Allaha and olsun ki, sizin bu dünyanız mənim gözümdə cüzam xəstəliyinə tutulmuş şəxsin əlində olan ətsiz donuz sümüyündən də aşağı səviyyədə və dəyərsizdir.[13]

Həmçinin Həzrət (ə) dünyanın onun gözündə nə qədər dəyərsiz olmasına dair başqa bir misalla belə buyurur:

دُنْيَاكُمْ هَذِهِ أَزْهَدَ عِنْدِي مِنْ عَفْطَةِ عَنْزٍ

–Sizin bu dünyanız mənim üçün dişi keçinin asqırığı *(burnunun suyu)* qədər dəyərsizdir.

Həzrət Əli (ə) nəfsini tamamilə məğlub edərək ayağının altına qoymuşdu. Belə ki, onun nəfsi bircə quru çörək gördükdə sevinərdi. Çünki nəfsini idarə etmək tamamilə onun öz əlində idi. Osman ibn Hüneyfə yazdığı məktubunda bu barədə belə buyurur:

---

[13] Cüzam insanın ətinin və bədən üzvlərinin tökülməsinə səbəb olan bir xəstəlikdir və o, xəstəliklərin ən pisidir. Bu kəlam Həzrətin (ə) dünyaya son dərəcədə nifrət etməsinə bir dəlildir. Kim Həzrətin (ə) Həzrət Peyğəmbərlə (s) birgə olduğu, habelə guşənişinlik etdiyi və zahirən xilafətə çatdığı dövrdəki hallarına nəzər salıb düşünsə, bu sözün sirrini dərk edər.

وَايْمُ اللهِ ـ يَمِيناً أَسْتَثْنِي فِيهَا بِمَشِيئَةِ اللهِ عَزَّوَجَلّ ـ لاَرُوضَنَّ نَفْسِي رِيَاضَةً تَهَشُّ مَعَها إِلَى الْقُرْصِ إِذَا قَدَرتْ عَلَيْهِ مَطْعُوماً، وَتَقْنَعُ بِالْمِلْحِ مَأْدُوماً

–Allaha and olsun – Allahın iradə və istəyini istisna edib and içirəm[14] – nəfsimi elə tərbiyə edəcəyəm ki, yavanlığına bir tikə çörək tapanda sevinərək təəccüblənsin, duzla yavanlıq etməyə qane olub uyğunlaşsın.

Həzrət Əli (ə) nəfsini öz əlində tamamilə cilovlamaqla yanaşı, həm də bu kəlamları ilə bizə öyrədir ki, nəfsi istəklər heç bir vaxt insandan əl çəkməyəcək. Buna görə də onun istəklərini verməyin. Əgər insan nəfsani istəklərini yerinə yetirsə, o, daha da çox istəyəcəkdir. Alimlər misal çəkərək demişlər ki, nəfs pişik kimidir. Ona bir ciyər tikəsi atdıqda, insandan əl çəkməyib yenə də istəyəcək. Buna görə də nəfsi tərbiyə edib boğmaq üçün onu istəklərindən məhrum etmək lazımdır.

وَ مِنْ خَبَرِ ضِرَارِ بْنِ ضَمْرَةَ اَلضَّابِيِّ حَمْزَةَ اَلضَّبَائِيِّ عِنْدَ دُخُولِهِ عَلَى مُعَاوِيَةَ وَ مَسْأَلَتِهِ لَهُ عَنْ أَمِيرِ اَلْمُؤْمِنِينَ ع قَالَ فَأَشْهَدُ لَقَدْ رَأَيْتُهُ فِي بَعْضِ مَوَاقِفِهِ وَ قَدْ أَرْخَى اَللَّيْلُ سُدُولَهُ وَ هُوَ قَائِمٌ فِي مِحْرَابِهِ قَابِضٌ عَلَى لِحْيَتِهِ يَتَمَلْمَلُ تَمَلْمُلَ اَلسَّلِيمِ وَ يَبْكِي بُكَاءَ اَلْحَزِينِ وَ هُوَ يَقُولُ يَا دُنْيَا يَا دُنْيَا إِلَيْكِ عَنِّي أَ بِي تَعَرَّضْتِ أَمْ إِلَيَّ تَشَوَّفْتِ لاَ حَانَ حِينُكِ هَيْهَاتَ غُرِّي غَيْرِي لاَ حَاجَةَ لِي فِيكِ قَدْ طَلَّقْتُكِ ثَلاَثاً لاَ رَجْعَةَ فِيهَا فَعَيْشُكِ قَصِيرٌ وَ خَطَرُكِ يَسِيرٌ وَ أَمَلُكِ حَقِيرٌ آهِ مِنْ قِلَّةِ اَلزَّادِ وَ طُولِ اَلطَّرِيقِ وَ بُعْدِ اَلسَّفَرِ وَ عَظِيمِ اَلْمَوْرِدِ

–İmam Əli əleyhissalamın ən yaxın və yaxşı səhabələrindən olmuş Zərar ibn Zəmrə Zibabinin nəql etdiyi rəvayətdə deyilir ki, o, Müaviyənin yanına gələn zaman və Müaviyə ondan Əmirəlmöminin barədə soruşanda belə deyib: “Mən onun gecə öz zülmət pərdələrini sərəndə bəzi yerlərdə ibadət etməsini görməyimə şəhadət verirəm. O Həzrət *(Allahın qorxusundan)* ibadət mehrabında dayanıb saqqalını əli ilə

[14] Necə ki, Allah-təala bu cür etməyi əmr edib. Qurani-kərimin “Kəhf” surəsinin 23-24-cü ayələrində buyurulur: «وَلَا تَقُولَنَّ لِشَيْءٍ إِنِّي فَاعِلٌ ذَلِكَ غَدًا إِلَّا أَن يَشَاء اللَّهُ» – “Və heç bir şey barəsində heç vaxt “Mən onu sabah edəcəyəm” demə! Ancaq “İnşallah (əgər Allah istəsə, Allah qoysa) edəcəyəm”, - de.

tutub ilan çalmış adam kimi qıvrılır, qəm-qüssəyə düçar olmuş şəxs kimi gözyaşı tökür və dünya barəsində belə buyururdu:

–Ey dünya, ey dünya, məndən gözünü çək *(Uzaqlaş məndən!)* *(Aldatmaq qəsdi ilə)* özünü mənə təqdim edir və göstərirsən? Yoxsa mənə meyil salıb məni istəyirsən? Sənin *(aldatma)* vaxtın yaxınlaşmayacaq və sənin arzun nə qədər də uzaqdır! Məndən başqasını aldat ki, mənim sənə ehtiyacım yoxdur. Sənin talağını üç dəfə vermişəm *(sənə göz yummuşam)* ki, onda qayıdış yoxdur. Beləliklə, sənin həyatın qısa, əhəmiyyətin az, arzun isə alçaqdır. Əfsus ki, azuqə *(ibadət və bəndəlik)* az, yol uzun, səfər *(axirət səfəri)* uzaq və daxil olunacaq yer *(qəbir, bərzəx və qiyamət)* isə çətindir.

Əlbəttə, bunu da bilmək lazımdır ki, Həzrət Əli (ə) kasıblıq və yoxsulluq üzündən nəfsi ilə mübarizə etmirdi. Onun hər bir iş görməyə qüdrəti var idi, lakin bu işi heç bir vaxt görmədi. Necə ki, Osman ibn Hüneyfə yazdığı məktubun bir hissəsində də bu məsələyə belə işarə edir:

وَلَوْ شِئْتُ لاَهْتَدَيْتُ الطَّرِيقَ، إِلَى مُصَفَّى هذَا الْعَسَلِ، وَلُبَابِ هذَا الْقَمْحِ، وَنَسَائِجِ هذَا الْقَزِّ، وَلكِنْ هَيْهَاتَ أَنْ يَغْلِبَنِي هَوَايَ، وَيَقُودَنِي جَشَعِي إِلَى تَخَيُّرِ الاْطْعِمَةِ . وَلَعَلَّ بِالْحِجَازِ أَوِ بِالْيَمَامَةِ مَنْ لاَطَمَعَ لَهُ فِي الْقُرْصِ، وَلاَ عَهْدَ لَهُ بِالشِّبَعِ . أَوْ أَبِيتَ مِبْطَاناً وَحَوْلِي بُطُونٌ غَرْثَي وَأَكْبَادٌ حَرَّى

–Əgər istəsəm yolumu bu balın saf və təmizinə, buğda çörəyinin xalisinə və bu ipək paltarın toxunulmuşu istiqamətinə sala bilərəm. Amma Hicazda *(Məkkə, Mədinə və onun digər şəhərlərində)*, yaxud *(Yəmən şəhərlərindən olan)* Yəmamədə kiminsə *(imkansızlıqdan)* bir tikə çörəyə ümidsiz olması və tox yatdığı vaxtı yadından çıxarması ehtimalı ola-ola nəfsi istəklərin mənə qalib gəlməsi və hərisliyin çoxluğunun məni yeməyi seçməyə vadar etməsi məndən necə də uzaqdır!

"Nəhcül-bəlağə"nin 200-cü xütbəsində də bir daha bu məsələyə işarə edilmişdir. Həmin xütbədə belə deyilir:

من كلام له ع بالبصرة و قد دخل على العلاء بن زياد الحارثي و هو من أصحابه يعوده فلما رأى سعة داره قال: مَا كُنْتَ تَصْنَعُ بِسِعَةِ هَذِهِ الدَّارِ فِي الدُّنْيَا وَأَنْتَ إِلَيْهَا فِي الْآخِرَةِ كُنْتَ أَحْوَجَ وَبَلَى إِنْ شِئْتَ بَلَغْتَ بِهَا الْآخِرَةَ تَقْرِي فِيهَا الضَّيْفَ وَتَصِلُ فِيهَا الرَّحِمَ وَتُطْلِعُ مِنْهَا الْحُقُوقَ مَطَالِعَهَا فَإِذاً أَنْتَ قَدْ بَلَغْتَ بِهَا الْآخِرَةَ. فَقَالَ لَهُ الْعَلَاءُ: يَا أَمِيرَ الْمُؤْمِنِينَ أَشْكُو إِلَيْكَ أَخِي عَاصِمَ بْنَ زِيَادٍ قَالَ وَمَا لَهُ قَالَ لَبِسَ الْعَبَاءَةَ وَتَخَلَّى عَنِ الدُّنْيَا. قَالَ عَلَيَّ بِهِ فَلَمَّا جَاءَ: قَالَ يَا عُدَيَّ نَفْسِهِ لَقَدِ اسْتَهَامَ بِكَ الْخَبِيثُ أَ مَا رَحِمْتَ أَهْلَكَ وَوَلَدَكَ أَ تَرَى اللَّهَ أَحَلَّ لَكَ الطَّيِّبَاتِ وَهُوَ يَكْرَهُ أَنْ تَأْخُذَهَا أَنْتَ أَهْوَنُ عَلَى اللَّهِ مِنْ ذَلِكَ. قَالَ يَا أَمِيرَ الْمُؤْمِنِينَ هَذَا أَنْتَ فِي خُشُونَةِ مَلْبَسِكَ وَجُشُوبَةِ مَأْكَلِكَ. قَالَ: وَيْحَكَ إِنِّي لَسْتُ كَأَنْتَ إِنَّ اللَّهَ تَعَالَى فَرَضَ عَلَى أَئِمَّةِ الْعَدْلِ أَنْ يُقَدِّرُوا أَنْفُسَهُمْ بِضَعَفَةِ النَّاسِ كَيْلَا يَتَبَيَّغَ بِالْفَقِيرِ فَقْرُهُ.

–İmam Əli əleyhissalam Bəsrədəki səhabələrindən olan Əla ibn Ziyad Harisi xəstə olduğu zaman onun yanına gələndə evin genişliyini görüb buyurur: “Dünyada bu evin genişliyi ilə nə edəcəksən? Halbuki sən onun genişliyinə axirətdə daha çox möhtacsan. *(Çünki bu evdə bir neçə gündən artıq qalmayacaqsan. O birində isə həmişəlik qalacaqsan.)* Bəli, əgər bu evin genişliyi ilə axirət evinin genişliyini də əldə etmək istəyirsənsə, onda qonaq qəbul edərək qohum-əqrabanla əlaqədə ol, ondan şəriətin *(xüms, zəkat, sədəqə və digər vacib və müstəhəb)* haqlarını ver ki, belə olan halda bu evin genişliyi ilə axirət evinin genişliyini də qazanasan.”

Sonra Əla Həzrətə (ə) dedi: “Ey Əmirəlmöminin, qardaşım Asim ibn Ziyaddan sənə şikayət edirəm. “Həzrət (ə) buyurdu: “Nə üçün?” Dedi: “O, *(tərkidünya rahiblər kimi)* cod paltar geyinərək dünyadan uzaqlaşıb.” Həzrət (ə) buyurdu: “Onu mənim yanıma gətirin.” Asim ibn Ziyad gələndə Həzrət (ə) ona belə buyurdu: “Ey özünün düşməni! Murdar və xəbis *(şeytan)* səni avara edib *(və səni bu yola sövq edərək onu sənin gözündə gözəlləşdirib)*. *(Təklik və dərvişliyi öz peşən etməklə)* arvad-uşağına rəhm etmirsən? Belə güman edirsən ki, Allah pak şeyləri

sənə halal edib, amma sənin onlardan bəhrələnməyini xoşlamır?[15] Sən Allahın bir nemәti sənə halal edərək sənin ondan bəhrələnməyini istəməməsindən aşağısan. Çünki bu peyğəmbərlərin və onların canişinlərinin məqamıdır.”

Asim dedi: “Ey Əmirəlmöminin, mənim işim səninki kimidir, sənin də paltarın cod, yeməyin isə bərk və dadsızdır!”

Həzrət (ə) buyurdu: “Vay olsun sənə! Mən sənin kimi deyiləm. Mən məmləkətin hakimiyəm. Çünki Allah-təala haqq rəhbər və imamlara özlərini yoxsullarla bir tutmağı vacib edib ki, yoxsul və kasıbın qəm-qüssəsi onu sıxıb narahat etməsin.”

[15]Halbuki Qurani-kərimin “Əraf” surəsinin 32-ci ayəsində buyurulur: « قُلْ مَنْ حَرَّمَ زِينَةَ اللهِ الَّتِيَ أَخْرَجَ لِعِبَادِهِ وَالْطَّيِّبَاتِ مِنَ الرِّزْقِ» – “De ki: Allahın Öz bəndələri üçün yaratdığı zinəti və təmiz ruziləri kim haram buyurmuşdur?”

# İMAM RZANIN (Ə) MÖVLUDU
# (İmam Rzanın (ə) kəlamları)

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَالْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَنْبياءِ وَالْمُرْسَلِينَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِي الْقاسِمِ مُحَمَّدٍ وَعَلى اَهلِ بَيْتِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ سِيَّما بَقِيَّةِ اللهِ فِي الأَرَضِين، وَاللَّعنُ عَلى أَعدائِهِم أَجمَعِين اِلى قِيامِ يَوْمِ الدِّين.

Zilqədə ayının 11-i İmam Rzanın (ə) mövludu günüdür. Bu əziz və mübarək gün münasibətilə bütün İslam dünyasında Həzrət Peyğəmbəri (s) və Əhli-beyti (ə) sevənləri təbrik edir, hamıya Allah-təaladan mərhəmət və məğfirət diləyirəm. Allah-təala bizi dünyada və axirətdə onların şəfaətindən məhrum etməsin.

Çox yaxşı olardı ki, İmam Rzanın (ə) buyurduğu mübarək kəlamlardan birinə diqqət yetirək.

قَالَ عَلِيّ بن مُوسَى الرِّضا(ع): لا يَسْتَكمِلُ عبدٌ حقيقةَ الإيمانِ حتّى تكونَ فيه خِصالٌ ثلاثٌ : التَّفَقّهُ في الدِّينِ، و حُسْنُ التَّقديرِ في المِعيشةِ، و الصَّبرُ علَى الرَّزايا.

–İmam Rza (ə) buyurmuşdur: “Bəndə *(bu)* üç xüsusiyyətə yiyələnməyincə imanı kamilləşməz: dində elm *(düşüncə),* dolanışığın düzgün tənzimlənməsi və çətinliklər qarşısında səbirli olmaq.”

İman odur ki, insan Allahın varlığını, qüdrətini ürəkdən qəbul edib Onun qarşısında təslim olsun və Həzrət Peyğəmbərin (s) nübüvvətini qəlbən təsdiqləsin. Həmçinin yəqin bilsin ki, bu dünyanı dəyişdikdən sonra Allahın izni ilə torpaqdan qalxıb qiyamət səhnəsinə gətiriləcəkdir. Allah-təala insana kitab nazil etmiş və həyatın tərzini, yaşamağın qaydasını, dünyanın mənasını həmin kitabda aydın surətdə bəyan etmişdir. Qeyd olunan məsələlərə inanmağa iman deyilir ki, onun da müəyyən mərhələləri və dərəcələri vardır. Buna görə də İmam Rza (ə) buyurur ki, hər kim imanını mükəmməlləşdirmək istəyirsə, həmin şəxs mütləq üç xüsusiyyətə malik olmalıdır. Əks-təqdirdə imanı kamil olmayacaq.

**1. Dini elmlərə yiyələnmək**

İmanın kamil olmasının birinci xüsusiyyəti odur ki, insan qəbul etdiyi dini tanısın və elmlərini öyrənsin. Çünki dünyada insanlar arasında kor-koranə heç bir şey qəbul olunmadığı kimi, iman da qəbul olunmaz. Əgər dünyada on manatlıq bir şey kor-koranə qəbul edilmirsə, qiyamət günü insandan imanı kor-koranə necə qəbul edərlər? Hər bir məsələdə araşdırma aparıldığı kimi, insan qəbul etdiyi din və imanının barəsində də araşdırmalar, tədqiqatlar aparmalıdır.

Məsələn, bazarda işləyən bir insan tanıdığı bir şəxsə yaxınlaşıb deyir: "Filankəs məni sənin yanına göndərib və mənə əlli manat pul verməyini xahiş edir." Həmin şəxs təbii məsələdir ki, birdən-birə həmin pulu ona vermir. Əvvəlcə bir araşdırma apararaq o şəxsi göndərən digər şəxslə əlaqə yaradır və tam arxayın olduqdan sonra pulu həmin adama verir. Əgər bir insan əlli manata görə araşdırma aparıb yəqinliyə çatmaq istəyirsə, bəs necə ola bilər ki, kor-koranə iman gətirsin və öz dini barədə araşdırma apararaq elm əldə etməsin? Elə olmamalıdır ki, qiyamətin əzəmətli səhnəsində insandan imanı barədə soruşduqda desin ki, ata-babam necə etmişdirsə, mən də elə etmişəm. İnsan mütləq imanı barədə araşdırma aparıb dini elmləri öyrənməlidir. İnsana dünyada ömür də elə bunun üçün verilmişdir ki, imanını kamilləşdirsin. Amma təəssüflər olsun ki, biz başımızı başqa işlərlə qatmışıq və əsas məqsəd yaddan çıxıb. Odur ki, insan öz dininin elmlərinə dərindən yiyələnməlidir.

Həzrət Peyğəmbərin (s) zamanında bəzi müharibələr də olurdu ki, bütün müsəlmanların həmin müharibələrdə iştirak etməsinə ehtiyac olmurdu. Bəzən də Həzrət Peyğəmbər (s) özü Mədinədə qalar və bir qrup müsəlmanlar döyüşə gedərdilər. Lakin buna baxmayaraq müsəlmanlar həmin döyüşlərdə iştirak etməyə can atardılar. Allah-təala "Tövbə" surəsinin 122-ci ayəsini nazil edərək belə buyurdu:

وَمَا كَانَ الْمُؤْمِنُونَ لِيَنفِرُواْ كَآفَّةً فَلَوْلاَ نَفَرَ مِن كُلِّ فِرْقَةٍ مِّنْهُمْ طَآئِفَةٌ لِّيَتَفَقَّهُواْ فِي الدِّينِ

وَلِيُنذِرُواْ قَوْمَهُمْ إِذَا رَجَعُواْ إِلَيْهِمْ لَعَلَّهُمْ يَحْذَرُونَ

–Ehtiyac olmadıqda möminlərin hamısı birdən *(cihada, döyüşə)* çıxmamalıdır. Heç olmasa hər tayfadan bir qrup insan *(elm öyrənmək, sonra da onu dindaşlarına öyrətmək üçün)* qalmalıdır ki, camaat *(döyüşdən)* qayıtdığı zaman onları *(Allahın əzabı ilə)* qorxutsun. Bəlkə onlar çəkinsinlər!

İslamda ayə və hədislərə diqqət yetirdikdə görürük ki, cihaddan şərəfli bir şey və şəhadətdən şərəfli bir ölüm yoxdur. Cihadın üstünlüyü və fəzilətləri barədə çox ayələr və hədislər vardır. Lakin bütün bu fəzilətləri ilə bərabər, onu tərəzinin bir gözünə, elmə yiyələnib nadanları bircə addım elmə yaxınlaşdırmağı o biri gözünə qoysaq, təbiidir ki, elm ağır gələcəkdir.

Dünyanın hər bir yerində elm öyrənmək vacib əməllərdən biri sayılır. Lakin İslam dini bundan əlavə, bir məsələni də vacib buyurur. İnsanların elm öyrənməsinin vacibliyi irəli sürülməklə yanaşı, alimlərin də elm öyrətməsinin zəruriliyi təkidlə buyurulmuşdur. Döyüşlərin birində səhabələr bir neçə nəfəri Həzrət Peyğəmbərin (s) hüzuruna gətirdilər. Həzrət Peyğəmbər (s) soruşdu: "Bunlar kimdir?" Dedilər: "Ya Rəsulallah, bunlar mömin və sənə səmimi-qəlbdən iman gətirənlərdir." Həzrət Peyğəmbər (s) onlardan soruşdu: "Qəbul etdiyiniz dindən və gətirdiyiniz imandan nə əldə etmisiniz?" Onlar dedilər: "Ya Rəsulallah, bəla və müsibətlər qarşısında səbir etməyi, asayişdə və rahatlıqda olarkən Allaha şükür etməyi və Allahın qəzasına (bizim barəmizdə nə təqdir edərsə ona) razı qalmağı əldə etmişik." Həzrət Peyğəmbər (s) buyurdu:

حُلَماء عُلَماء وَ كَادُوا مِنَ الفِقهِ أَن يَكُونُوا اَنبِياءَ

–Bunlar elə helmli və elmli insanlardır ki, elm və düşüncələri ilə az qalır ki, peyğəmbərlərin dərəcələrinə çatsınlar.

İslamda elmə və alimə o qədər dəyər verilmişdir ki, alimin yuxusunun savabı səhərə qədər ibadət edən savadsız insandan daha çoxdur. Görəsən elmə İslamdan daha çox dəyər verən din varmı? Quranda min ayədə elm barəsində söz açılmışdır. Hədislərə diqqət yetirdikdə isə elmin savab və fəzilətləri barədə saysız-hesabsız kəlamlar

nəql olunmuşdur. Hədislərdə belə nəql olunur ki, əgər alim hər hansı bir qəbiristanlığın yanından keçərsə, Allah-təala onun hörməti şərafətinə həmin qəbiristanlıqda dəfn olunanların hamısını bağışlayar. Əlbəttə, qeyd etmək lazımdır ki, burada söhbət həqiqi mənada imanlı alimdən gedir.

قَالَ رَسُولُ اللهِ(ص): لا يَفقَه الرَّجُلُ كُلَّ الفِقه حَتّى يَرَى النّاسَ أَمثَالَ الأَباعِرِ، فَلا يَحفِلُ بِوُجُودِهِم، وَلا يُغَيّرُهُ ذَلكَ كَما لا يُغَيّرُهُ وُجُودُ بَعِيرٍ عِندَه، ثُمَّ يَرجِعُ هُو إِلى نَفسِهِ فَيَكُونُ أَعظَمَ حَاقِرٍ لَهَا

–İnsan digər *(bütün)* insanları ürəyində dəvə kimi düşünməyincə elmin *(islamşünaslığın)* hamısına *(yüksək dərəcəsinə)* yiyələnə bilməyəcək. Belə ki, onların olduğu yerdə heç bir qorxu və dəyişkənliyi olmasın. Dəvələrin yanında onun halında dəyişiklik olmadığı kimi, insanların yanında da heç bir dəyişikliyi olmasın. Sonra öz nəfsinə *(nəfsani istəklərinə)* bir nəzər yetirsin və onu hər şeydən əskik və alçaq hesab etsin.

Yəni insan ibadət edərkən ətrafında minlərlə dəvə olsa da belə heç bir vaxt düşünməz ki, hansısa dəvə onun necə ibadət etdiyini tərifləsin. Buna görə də Həzrət Peyğəmbər (s) bu misalla insanları başa salır ki, fəqih və alim o şəxsdir ki, ibadət edərkən bütün insanları həmin dəvələr kimi hesab etməklə elm və islamşünaslığın yüksək zirvəsinə çata bilər. Kiminsə tərifi və yaxud tənqidi onun halında və imanında zərrə qədər dəyişikliyə səbəb olmamalıdır. Öz nəfsinə gəldikdə isə, onu hər şeydən əskik hesab edərək ayağının altına atmalıdır. Hər bir işdə öz istədiyi yox, Allahın razılığı öndə olmalıdır. Necə ki, İmam Hüseynin (ə) hər bir işi Allahın razılığına görə idi. Elə buna görə də Allahın yolunda hər bir şeyindən keçdi. Hətta son anlarında belə Allahla münacat edərək deyirdi: “İlahi, sənin rasılığın üçün.”

*Güldən də gözəl güllərimin rəngi saralsın,*
*Yatsınlar tikanlıqda gülüstan əvəzində.*
*Əkbər başı münşəqq olur-olsun, nə sözüm var,*
*Dilsiz balam əmsin oxu püstan əvəzində.*

*Kaş yüz on dörd ola oğlum mənim Allah,*
*Qurban verim hər sureyi Quran əvəzində.*

Odur ki, minlərlə savadsız abidlə müqayisədə bircə alim və fəqihin məqamı daha uca və daha yüksəkdir. Şeytan isə həmin abidlərlə müqayisədə məhz o alimdən daha çox qorxur və narahat olur.

قَالَ رَسُولُ اللهِ(ص): فَقِيهٌ وَاحِدٌ اَشَدُّ عَلى إِبلِيس مِن اَلفِ عَابِدٍ

–Həzrət Peyğəmbər (s) buyurur: “Bir fəqih *(alim)* şeytan üçün min abiddən daha ağırdır (*yoldan çıxarılması çətindir)*.”

Abidi yoldan çıxarmaq şeytan üçün asandır. Lakin bircə imanlı alimi yoldan çıxarmaq üçün minlərlə şeytan çalışıb plan qururlar.

Mərhum Ayətullah Şeyx Ənsari Nəcəf şəhərində yaşayan ən böyük fəqih və müctəhidlərdən biriydi. Onun şəxsiyyəti barəsində çox danışmaq olar.

Şeyx Ənsarinin tələbələrindən biri deyir ki, Şeyxin dərslərinə qatılırdım, amma heç bir şey anlamırdım. Bir gün Həzrət Əmirəl-mömininə (ə) təvəssül etdim ki, dərsləri anlaya bilim. Həmin gecə yuxuda Həzrət Əlini (ə) gördüm. Mənə yaxınlaşıb qulağıma “Bismillahir-Rəhmanir-Rəhim” dedi. Səhərisi gün dərsdə bütün mətləbləri başa düşə bildim.

Günlər keçdi və mən dərslərdə müvəffəqiyyətlər əldə etməyə başladım. İş o yerə gəlib çatmışdı ki, Şeyxin sözlərinə iradlar da tutur, öz fikirlərimi söyləyirdim. Bir gün həmin hadisə baş verdikdən sonra Şeyx Ənsari (r) dərsi bitirib minbərdən enəndən sonra mənə yaxınlaşıb qulağıma dedi: “Oğlum, sənin qulağına “Bismillahir-Rəhmanir-Rəhim” oxuyan mənə “Vələzzalinə” kimi oxuyub.”

Alimlərdən biri deyir: “Gecələrin birində yuxuda Şeyx Ənsarini gördüm, bütün müctəhidlərin hamısı ona baş əyirdi.”

Şeyx Ənsari ən böyük müctəhidlərdən biriydi ki, ona külli miqdarda xüms və zəkat gətirərdilər. O da həmin pulları alıb beytülmala yığar və onları şəriətə uyğun qaydada paylayardı. Bütün

bunlara baxmayaraq, özünün maddi vəziyyəti elə də yaxşı deyildi. Amma gözünün ucu ilə belə beytülmala baxmazdı.

Onun tələbələrindən biri deyir: “Bir gecə yuxuda gördüm ki, şeytan əlində tutduğu zənciri Şeyxin boynuna salıb onu özünə sarı çəkmək istəyir. Lakin Şeyx ayağa qalxan kimi həmin zəncir qırılıb yerə tökülür. Şeytan səhərə qədər çalışıb onu zəncirlə bağlamaq istəyir, lakin Şeyx bütün zəncirləri qırır. Səhər yuxudan oyanıb onun yanına getdim. Dedim ki, sizə xüsusi bir sözüm var. O, icazə verdikdən sonra dedim: “Ağa, sizi yuxuda pis görmüşəm.” Sonra isə gördüyüm yuxunu ona danışdım. O isə buyurdu: “Yuxunu düz görmüsən. Mənim həyat yoldaşım hamilə idi və gecə onun ağrıları başladı. Mənimsə onu həkimə aparmağa imkanım yox idi. Ona görə də istədim beytülmaldan həkimə vermək üçün pul götürüm. Səhərədək bir neçə dəfə beytülmala tərəf gedib-qayıtdım. Amma cürət edib ona əl vurmadım. Şükürlər olsun Allaha ki, beytülmala toxunmadım. Buna görə də şeytanın zəncirlərini qırdım. Sənin gördüyün yuxunun yozumu belədir.”

Nasirəddin şah günlərin birində Nəcəf şəhərinə gəlir. Ayətullah Şeyx Ənsarinin böyük alim və təqvalı bir insan olduğunu, həmçinin külli miqdarda beytülmala (xüms-zəkat məsələlərinə) nəzarət etdiyini bildiyi üçün onunla görüşmək istəyir. Beləliklə, Şeyxin ziyarətinə yollanır. Ora çatdıqda görür ki, onun evi köhnə bir daxmadan ibarətdir. İçəri daxil olduqda isə görür ki, evin döşəməsinin yarısına köhnə palaz sərilib, yarı hissəsi isə quru döşəmədir. Amma həmin köhnə palazın üstündə elə bir şəxsiyyət əyləşib ki, günəş kimi nur saçır. Sanki günəş göydən yerə enmişdir.

Nasirəddin şah Şeyxə baxıb deyir: “Ağa, sənin çox böyük himmət və əzmkarlığın var.”

Şeyx Ənsari soruşur: “Himmət və əzmkarlığımı nədə görürsən?”

Nasirəddin şah deyir: “Dünyadan keçməyində. Bu qədər var-dövlət, beytülmal əlindən gəlib keçir, amma qara qəpiyə də əl vurmursan.”

Şeyx Ənsari deyir: "Əgər elədirsə, sən məndən də himmətli və əzmkarsan."

Nasirəddin şah təəccüblə soruşur: "Ağa, mənim himmət və əzmkarlığım nədədir?"

Şeyx Ənsari deyir: "Sən də axirətindən keçmisən."

Odur ki, şeytan ən çox fəqih və alimləri yoldan çıxarmağa çalışır. Elə buna görədir ki, bir alim dünyasını dəyişərkən mələklər ağlayır, şeytan isə sevinir.

İslamda, qeyd etdiyimiz kimi, elm və alimə çox böyük əhəmiyyət verilmişdir. Buna görə də İmam Rza (ə) buyurur ki, imanının kamilləşməsini istəyən hər bir müsəlman ilk növbədə elmli və islamşünas olmalıdır.

**2. Dolanışığın düzgün tənzimlənməsi**

İmamın (ə) buyurduğuna əsasən imanını kamilləşdirmək istəyən şəxsdə ikinci əsas xüsusiyyət bu olmalıdır ki, dolanışığını və həyatını düzgün şəkildə tənzimləsin.

**3. Çətinliklər qarşısında səbirli olmaq**

Üçüncü xüsusiyyət isə çətinliklər qarşısında səbirli olmaqdır. Allah Bəni-İsrailə onların səbirlərinə görə nemət bəxş etmişdir. Necə ki, "Əraf" surəsinin 137-ci ayəsində buyurulur:

وَتَمَّتْ كَلِمَتُ رَبِّكَ الْحُسْنَى عَلَى بَنِي إِسْرَآئِيلَ بِمَا صَبَرُواْ

–Səbir etdiklərinə görə Rəbbinin İsrail övladına verdiyi gözəl sözlər *(vədlər)* tam yerinə yetdi.

Həmçinin onları səbirlərinə görə o qədər ucaltdı ki, sonda onları rəhbər etdi. Necə ki, "Səcdə" surəsinin 24-cü ayəsində belə buyurulur:

وَجَعَلْنَا مِنْهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا لَمَّا صَبَرُوا وَكَانُوا بِآيَاتِنَا يُوقِنُونَ

–Səbir etdikləri və ayələrimizə ürəkdən inandıqları üçün Biz onlardan *(İsrail oğullarından)* əmrimizlə *(insanlara)* haqq yolu göstərən rəhbərlər təyin etmişdik.

Burada sual oluna bilər ki, sözügedən “səbir” kəlməsində məqsəd nədir? Ümumiyyətlə, səbir üç qisimdir. Birincisi, çətinliklər və müsibətlər qarşısında səbir etmək, ikincisi, Allaha itaət və ibadətdə səbir etmək, üçüncüsü isə günahlar qarşısında səbir edib onlardan çəkinməkdən ibarətdir.

İnsan bütün həyatı boyu qarşısına çıxan müsibətlərə dözüb səbir edərək haram və günaha düşmədikdə çox böyük savab və mükafat əldə edər.

قَالَ البَاقِرُ(ع): لَو يَعلَمُ المؤمنُ ما لَهُ في المِصائبِ مِنَ الأجرِ لَتَمَنّى أن يُقَرَّضَ بِالمِقارِيضِ

–Əgər mömin müsibət və bəlalara səbir etdiyinə görə necə mükafatlanacağını bilsəydi, qayçı ilə tikə-tikə doğranmasını arzu edərdi.

Ühüd döyüşündə Həzrət Peyğəmbərin (s) əmisi Həmzəni (ə) öldürərək əl- ayağını kəsdilər. Bundan əlavə, onun sinəsini yarıb ciyərini də çıxartmışdılar. Döyüşdən sonra Həzrət Peyğəmbər (s) əmisinin cənazəsinin yanına gəldi və onun bu halını gördükdə ağladı. Elə bu vaxt Həmzənin bacısı (Peyğəmbərin (s) bibisi) Səfiyyənin oraya yaxınlaşdığını görən Allahın Rəsulu (s) onun oğlu Zübeyrə işarə etdi ki, anasının cənazəyə yaxınlaşmasına imkan verməsin. Zübeyr tez qaçıb anasını sakitləşdirərək onu həmin yerdən uzaqlaşdırmağa çalışdı. Səfiyyə ona dedi: “Bilirəm, məni nə üçün qardaşımın cənazəsinə baxmağa qoymursan. Bilirəm ki, qardaşımın əl-ayağını kəsiblər. Amma mən səbir edib dözəcəyəm. Çünki o, Allah yolunda şəhid olmuşdur və mən də Allaha görə səbir edəcəyəm.” Həzrət Peyğəmbər (s) Səfiyyənin bu sözlərini eşitdikdə Zübeyrə işarə etdi ki, onu buraxsın.

Bu bir müsibətə səbir etməkdir ki, Allah-təala səbir edən insana böyük əcr və mükafat verər. Bundan əlavə, vacib əməlləri yerinə yetirməkdə də insan səbirli olmalıdır. Məsələn, isti havada oruc tutmaq elə də asan deyil. Amma bunun üçün insan Allaha xatir səbir etməlidir. Həmçinin insanın qarşısına böyük haram və günahlar

çıxdıqda insan Allahın rizayətinə xatir səbir edib onlardan keçməyi bacarmalıdır.

Odur ki, imanın kamilliyinə çatmaq üçün insanda mütləq bu üç xüsusiyyət olmalıdır.

Musa ibn Yəsar deyir: “İmam Rza (ə) Xorasana gedərkən mən də Həzrətlə (ə) gedirdim. Xorasana çatar-çatmaz birdən ağlamaq səsi eşitdik. İmam (ə) mənə baxıb buyurdu: “Gəlin səs gələn tərəfə gedək. O tərəfə getdikdə gördük ki, bir cavan oğlan dünyasını dəyişib və qadınlar onun üçün ağlayırlar. İmam (ə) dəvənin üstündən yerə düşüb həmin dünyasını dəyişmiş oğlanı ana balasını qucaqladığı kimi bağrına basdı. Sonra isə belə buyurdu: “Hər kim həqiqi möminlərin cənazəsini dəfn olunana qədər müşayiət etsə, Allah həmin şəxsi bağışlayar.” Beləcə, biz həmin cavan oğlanın cənazəsini qəbrə kimi müşayiət etdik. Onu qəbrə qoyduqda İmam (ə) onun başı üzərində dayanıb buyurdu: “Qəbir sənə mübarək olsun! Cənnət sənə mübarək olsun!”

Mən İmamdan (ə) soruşdum: “Ey Peyğəmbər övladı, siz bu məmləkətə birinci dəfədir gəlirsiniz. Sizi burada tanıyan yoxdur. Haradan bildiniz ki, bu yaxşı insandır?” İmam (ə) buyurdu: “Məgər bilmirsənmi bizim şiələrimizin əməllərini həftədə iki dəfə bizə təqdim edirlər? Əgər əməlləri yaxşı olsa, şad olarıq və onun üçün belə dua edərik. İlahi, onun yaxşı əməllərini artır. Amma əməlləri pis olsa, Allahdan onun bağışlanmasını diləyərik. Mən bu oğlanı yaxşı tanıyıram. Onun əməllərini dəfələrlə mənə təqdim ediblər. Siz Allahın vacib buyurduqlarına əməl edin, qalan işlərinizi biz düzəldərik.”

*Allah-təala bizi Həzrət Peyğəmbərdən (s) və Əhli-beytindən (ə) ayrı salmasın. İnşallah!*

## İMAM MEHDİNİN (Ə.C) MÖVLUDU
## (Həzrət Mehdinin (ə.c) dünyaya gəlməsi)

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلْمُتَّقِينَ وَالصَّلاةُ وَالسَّلامُ عَلى سَيِّدِنَا وَ سَيِّدِ الْمُرْسَلِيْنَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى آلِهِ الطّاهِرِينَ سِيَّما بَقِيَّةِ اللهِ فِي الأَرَضِين، وَاللَّعنُ الدّائِم عَلى أَعْدائِهِمْ أَجْمَعِينَ اِلى قِيامِ يَوْمِ الدِّينِ.

Şəban ayının 15-i on ikinci imamımız Həzrət İmam Mehdinin (ə.c) mövlud günüdür. Bu münasibətlə bütün dünyanın əhli-beytsevərlərini səmimi-qəlbdən təbrik edirəm.

Tarixdə üç böyük şəxsiyyətin dünyaya gəlməsi gizli surətdə baş vermişdir. Onların ikisinin dünyaya gəlişi Quranda, üçüncüsünün gəlişi isə hədis və tarixi mənbələrdə qeyd olunmuşdur.

### Həzrət İbrahim Peyğəmbər (ə)

Qeyd olunan həmin şəxsiyyətlərdən biri Həzrət İbrahim Peyğəmbərdir (ə). O, böyük şəxsiyyət, dahi və müstəsna bir insan idi. Həzrət İbrahim (ə) ikinci böyük və şəriət sahibi olan peyğəmbər idi. Onun risalət və peyğəmbərliyi bütün dünyanı əhatə etmişdi. O, Nuh Peyğəmbərdən (ə) min il sonra dünyaya gəlmişdi. Həzrət İbrahim (ə) İslam Peyğəmbərinin (s) otuzuncu babasıdır. Onun adı Quranda altmış doqquz dəfə təkrar olunmuş və iyirmi beş surədə onun haqqında söz açılmışdır.

Babil Dəclə və Fərat kimi iki böyük çayın arasında yerləşən bir şəhərdir. Bir zamanlar həmin şəhərin Nəmrud adlı bir hökmdarı var idi. Burada azğın və mənəviyyatsız insanlar yaşayırdılar. Həzrət İbrahimin (ə) Azər adlı bir əmisi var idi. O, nücum elmini çox yaxşı bilirdi. Günlərin birində o, Nəmruda yaxınlaşıb dedi: "Mən nücum elmindən belə qənaətə gəlmişəm ki, sənin məmləkətində bir uşaq dünyaya göz açacaq və sonda sənin səltənətini dağıdacaq."

Bu söhbətdən sonra təsadüfən Nəmrud yuxuda görür ki, parlaq bir ulduz göydə süzərək gəlib Günəşə və Aya üstün gəlir. Yuxudan ayıldıqda isə çox narahat olur və tez yuxuyozanları çağırıb yuxusunu

onlara danışır. Onların hərəsi bir söz deyir, lakin bu sözlər Nəmrudu qane etmir. Axırda başqa bir yuxuyozanı çağırırlar. O, Nəmrudu dinlədikdən sonra deyir: "Yaxın gələcəkdə bir uşaq dünyaya gələcək və sənin səltənətini dağıdacaq."

Nəmrud qorxuya düşür və tez-tələsik iki göstəriş verir. Birincisi, əmr verir ki, qadınları kişilərdən ayırsınlar. Qadınları evdə, kişiləri isə çöllərdə saxlayırlar. Nəmrud bunu etməklə istəyirdi ki, münəccim və yuxuyozanların dediyi həmin körpə ana bətninə düşməsin.

Tarix Həzrət İbrahimin (ə) atası idi. Necə oldusa həmin ərəfələrdə bir gecə Tarix həyat yoldaşı Buna xanımla görüşdü və məhz o gecə İbrahimin (ə) nütfəsi ana bətninə düşdü.

İkincisi, Nəmrud bütün mamaçalara göstəriş vermişdi ki, hansı evdə oğlan uşağı dünyaya gəlsə, ona xəbər versinlər. Beləcə, kimin oğlan uşağı dünyaya gəlsəydi, onu dərhal öldürməliydilər.

Beləliklə, doqquz ay başa çatdıqdan sonra Buna xanımı ağrı tutdu. O, çöldə bir mağarada daldalanıb Allahın əmri ilə İbrahimi (ə) elə oradaca dünyaya gətirdi. Bu minvalla anası onu on üç il mağarada saxladı. On üç ildən sonra Həzrət İbrahim (ə) Allahın əmri ilə şəhərə çıxdı və ilahi əmri icra etməyə başladı. Sonda Nəmrudun qorxduğu həmin iş baş verdi və Həzrət İbrahimin (ə) əli ilə onun qurduğu səltənət və hakimiyyət dağıldı.

**Həzrət Musa Peyğəmbər (ə)**

Dünyaya gəlişi gizli şəkildə olan şəxsiyyətlərdən ikincisi Həzrət Musa Peyğəmbərdir (ə). Həzrət Musa (ə) üçüncü böyük peyğəmbər idi ki, o da kitab və şəriət sahibidir. Allah-təala onu da bütün dünyaya peyğəmbər təyin etmişdi. Həzrət İbrahimdən (ə) beş yüz il sonra dünyaya gəlmiş və iki yüz qırx il ömür sürmüşdür. Həzrət İbrahim (ə) onun beşinci babasıdır. Quranda Musa Peyğəmbərin (ə) adı 143 dəfə zikr olunur. Otuz dörd surədə də onun barəsində söz açılmışdır.

Bəni-İsrailin zamanında fironlar hökmranlıq edirdilər. Onlar hakimiyyətdə bir-birini əvəz etmişlər. Birinci firon Upofus idi ki, Həzrət Yusifin (ə) zamanında hökmranlıq edirdi. İkinci fironun adı

Ramzes idi ki, ona I Ramzes deyirdilər. Ondan sonra II Ramzes fironluq etmişdir. Həzrət Musa (ə) II Ramzesin zamanında dünyaya gəlmiş və ondan sonra, yəni Minfitahın dövründə Allah-təala tərəfindən mübarizəyə başlamışdır. Deməli, Həzrət Musanın (ə) mübarizə apardığı firon II Ramzes yox, onun oğlu idi.

Qeyd etməliyəm ki, II Ramzesin zamanında insanları iki təbəqəyə ayırmışdılar. Aşağı təbəqədə sibtilər, yuxarı təbəqədə isə qibtilər qərar tuturdu. Sibtilər yoxsullardan və qullardan ibarət idi ki, Bəni-İsrail də onların cərgəsində idi. Qibtilər isə quldarlar, varlılar, vəzifəlilərdən ibarət idi və fironlar bu nəsillərdən seçilirdilər.

Gecələrin birində II Ramzes yuxuda görür ki, Şamdan Misirə bir od gəlib qibtilərin özlərini və evlərinin hamısını yandırıb külə döndərdi. Çox narahat və qəm-qüssə içində yuxudan ayılıb münəccimləri və yuxuyozanları hüzuruna çağırtdıraraq yuxusunu onlara danışır. Onların hərəsi bir söz deyir. Axırda yuxuyozanların içərisində olan peşəkar və yaşlı bir qoca deyir: “Gördüyün bu yuxu çox təhlükəli bir yuxudur. Tezliklə Bəni-İsraildən bir övlad dünyaya gələcək ki, sənin taxt-tacını dağıdacaq, səni və sənin tərəfdarlarının hamısını məhv edəcəkdir. Münəccimlər bir yerə toplaşıb həmin uşağın nütfəsinin bağlandığı gecəni də təyin etdilər.

Firon tarixdə Nəmrud kimi bir padşahın da başına belə bir hadisənin gəldiyini eşitmişdi. O, bir il kişiləri arvadlarından ayırmışdı ki, onun səltənətini məhv edəcək insan dünyaya gəlməsin. Buna görə də Firon göstəriş verir ki, həmin gecə bütün kişiləri arvadlarından ayırsınlar. Firon Nəmrudun belə bir iş gördüyünü bilirdi. Lakin ağlına da gəlmədi ki, Nəmrud bu işi görməklə heç bir nəticə əldə edə bilməmişdi. Beləliklə, Fironun əmri ilə qadınları kişilərdən ayırdılar və yenicə dünyaya gəlmiş yetmiş min körpəni öldürdülər.

Bütün bunlara baxmayaraq, Allahın iradəsi həyata keçdi. Çünki Allahın iradəsini və istəyini heç bir kəs poza bilməz.

İmran Həzrət Musanın (ə) atası idi. O, Fironun sarayında qoruqçu işləyirdi. Həmin gecə Yukabid (İmranın həyat yoldaşı) ona yemək aparmışdı. Bir az əyləşib söhbət etdikdən sonra Allahın iradəsi ilə elə

oradaca (Fironun sarayının kənarında) və həmin gecə Musanın nütfəsi bağlandı. İmran Yukabidə dedi: "Deyəsən Fironun yuxusunun yozumu zamanı deyilən həmin uşaqdır ki, bu gecə bizim tərəfimizdən nütfəsi bağlandı."

Artıq Musanın dünyaya gəlməsinə az qalırdı. Uşağın dünyaya gəlməsi yaxınlaşdıqca Yukabidin həyəcanı daha da artırdı. Ona görə də qorxurdu ki, Fironun adamları bundan xəbər tutsalar, uşağı öldürəcəklər. Yukabidin bir mamaça tanışı var idi. Onunla görüşüb vəziyyəti ona danışdı və bildirdi ki, uşaq dünyaya gələndə ona kömək etsin. Bu söhbəti də sir olaraq saxlamağı xahiş etdi.

Musa (ə) dünyaya gələrkən Allah-təala onun camalına bir nur bəxş etdi. Bu nurdan göylərə də nur saçırdı. Mamaça heyrət içində donub qalmışdı. Odur ki, Musanın (ə) anasına dedi: "Dostluğumuza baxmayaraq, mən bu məsələni Firona xəbər verəcəkdim. Çünki canımdan qorxurdum. Fikirləşirdim ki, sonra xəbər tutsalar, mənim üçün böyük təhlükə yarana bilər. Lakin bu uşağın məhəbbəti və nuru qəlbimə elə doldu ki, daha heç bir kəsə bu haqda bir kəlmə də deməzəm. Bu uşağın başından bir tükün əskik olmasını belə istəmirəm. Mən artıq onu bir ana kimi sevirəm."

Yukabid də onun bu sözlərindən sonra çox rahatlaşdı. Həmin vaxt məmurlar mamaçanın o evə tez-tez gedib-gəlməsindən xəbər tutub şübhələnmişdilər. Onlar dərhal axtarış aparmaq üçün İmranın evinə tökülüşdülər. Musanın (ə) anası işin bu yerdə olduğunu gördükdə uşağı bir parçaya büküb yanar təndirin içinə atdı. Məmurlar evə basqın etdilər və hər yeri axtarmağa başladılar. Təndirin ağzını açdıqda isə gördülər ki, təndir yanır. Bir şey tapmadıqlarına görə naümid geri qayıtdılar. Lakin mamaçanın bu evə nə üçün tez-tez gəlib-getdiyini öyrənmək istədilər. Yukabid dedi: "Mən onunla çoxdandır ki, tanışam. Buna görə də bir-birimizin evinə tez-tez gedib-gəlirik."

Məmurlar çıxıb getdikdən sonra Yukabid uşağı təndirə atdığını xatırlayanda huşu getdi. Özünə gəldikdən sonra təndiri açdıqda gördü ki, Musa (ə) odun içində parçanın arasında sağ-salamatdır. Allah-təala odu Musa (ə) üçün gülüstana çevirmişdi.

Həzrət Musanın (ə) möcüzələri dünyaya gəldiyi günlərdən başlamışdır. Yukabid uşağı təndirdən götürüb bağrına basdı. O, Musaya (ə) üç ay süd verdi və hətta süd əmdiyi müddətdə də belə bu uşağın

səsini heç bir qonşu eşitmədi. Allah ona elə bir mərhəmət əta etmişdi ki, həmin müddətdə bircə dəfə də olsun ağlamadı və səsini kimsə eşitmədi. Allah-təala Musanın (ə) anasına belə vəhy etdi. “Qəsəs” surəsinin 7-ci ayəsində buyurulur:

وَأَوْحَيْنَا إِلَى أُمِّ مُوسَى أَنْ أَرْضِعِيهِ فَإِذَا خِفْتِ عَلَيْهِ فَأَلْقِيهِ فِي الْيَمِّ وَلَا تَخَافِي وَلَا تَحْزَنِي إِنَّا رَادُّوهُ إِلَيْكِ وَجَاعِلُوهُ مِنَ الْمُرْسَلِينَ

–Biz Musanın anasına sirli və sürətli bir şəkildə ilham verdik: “Onu əmizdir, elə ki, ondan ötrü *(Fironun adamlarının ondan xəbər tutmalarından)* qorxdun, onu *(bir sandığın içərisinə qoy və)* dəryaya at. Qorxma və qəmgin olma, şübhəsiz, Biz onu sənə qaytararıq və özünü də şəriət sahibi olan peyğəmbərlərdən edərik.”

Musanın (ə) anasının ürəyi sakitləşdi və bildi ki, Allah bu uşağı sağ-salamat qoruyub saxlayacaqdır. O, elə həmin vaxt başa düşdü ki, bu, Fironun yuxuda gördüyü həmin uşaqdır. Fironun adamları artıq bu məsələdən xəbər tutmuşdular. Yukabid təhlükə ilə qarşılaşdığını gördükdə uşağı bir sandığın içinə qoyub çaya buraxdı. Sandıq gözdən itənə qədər suyun üzündə üzdü. Beləcə, onlar uşağı Allahın öhdəsinə buraxdılar.

Fironun həyat yoldaşının adı Asya xanım idi. Onun ata babası Bəni-İsraildən idi və o, camaat arasında möhtərəm bir qadın kimi tanınmışdı. Onların Ənisa adlı bir qızı var idi və o, xəstə yatırdı. Bütün həkimlər onu müalicə etməyə çalışsalar da dərdinə dərman tapılmırdı. Münəccimlərdən biri onlara demişdi ki, suyun içindən bir insanın gəlməsini gözləyin. Qədəmləri sizin evinizə dəyəcək və onun ağzının suyu bu uşağın dərmanı olacaqdır.

Günlərin birində Firon həyat yoldaşı ilə birgə eyvanda əyləşib Nil çayına baxa-baxa istirahət edirdilər. Birdən suyun üzərində bir sandıq gördülər. Əmr verdilər ki, həmin sandığı sudan çıxarıb saraya gətirsinlər. Məmurlar sandığı Fironun sarayına gətirdilər. Sandığı açdıqda gördülər ki, böyük bir oğlan uşağıdır. Firon dərhal bu uşaqdan şübhələndi və onu öldürmək qərarına gəldi. Asya xanım dedi: “Bu uşaq çox böyükdür və sənin yuxundan qabaq dünyaya gəlmiş bir uşağa oxşayır. Münəccimlər də demişdilər ki, dənizdən bir insan çıxacaq və onun ağzının suyu bizim qızımızın dərdinin dərmanı olacaq. Deyəsən, bu, həmin insandır. Həm də çox yaxşı olar ki, bunu saxlayıb özümüzə övlad edək.”

Onlar Musanın (ə) ağzının suyundan öz xəstə qızlarına vurdular və qız dərhal şəfa tapıb sağaldı.

Beləcə, Musa (ə) Fironun evində böyüyüb boya-başa çatdı. Allahın iradəsi ilə Fironun qorxduğu həmin hadisə baş verdi və onun səltənəti Musanın (ə) əli ilə dağıldı.

**Həzrət İmam Mehdi (ə.c)**

İmam Mehdinin (ə.c) dünyaya gəlməsi də Həzrət İbrahim (ə) və Həzrət Musanın (ə) dünyaya gəlməsi kimi gizli baş vermişdir.

Həkimə Xatun (s.ə) İmam Həsən Əskərinin (ə) bibisi idi. O deyir: "Bir gün axşam İmamın (ə) evində qonaq idim. Evə getmək istəyirdim ki, mənə buyurdu: "Bibican, bu gecəni bizdə qal. Səhərə yaxın bu evdə bir uşaq dünyaya gələcək." Mən İmamın (ə) həyat yoldaşı Nərgiz xanıma baxdım, amma onda hamiləlik əlaməti görmədim və təəccüblə İmamdan (ə) bu sirri mənə açmasını xahiş etdim. İmam Həsən Əskəri (ə) gülümsəyərək buyurdu: "Sübh açılarkən onun hamiləliyi sənə aydın olar."

Səhərə yaxın yenə də Nərgiz xanımda heç bir əlamət hiss etmədim. Yavaş- yavaş qəlbimdə bir şəkk-şübhə yaranmağa başladı. Elə bu zaman İmam (ə) mənim yanıma gəlib buyurdu: "Bibican, şəkk etmə." Sonra əlimdən tutub Nərgiz xanımın otağına apardı. İçəri daxil olduqda gördüm ki, o, hamiləliyin axırıncı günü kimi görünür və uşaq dünyaya gətirmək istəyir. Tez onu bağrıma basıb ürək-dirək verməyə başladım. İmam (ə) mənə buyurdu: "Bibican, "Qədr" surəsini oxu." Nərgiz xanım başqa otağa keçdi. Üstündən azacıq keçmişdi ki, İmam (ə) buyurdu: "Bibican, onun yanına get."

Mən içəri daxil olduqda gördüm ki, körpə dünyaya gəlib və səcdə halındadır. Diqqətlə qulaq asdıqda gördüm ki, səcdədə bu cümlələri söyləyir. "Şəhadət verirəm ki, Allahdan başqa heç bir məbud yoxdur. Şəhadət verirəm ki, mənim cəddim Allahın Rəsuludur. Şəhadət verirəm ki, atam Əmirəlmöminin Allahın Rəsulunun vəsisi və canişinidir."

Sonra bir-bir imamların adlarını çəkdi. Öz adına çatdıqda belə dedi: “Pərvərdigara! Mənə vədə verdiklərini həyata keçir. Məni işlərimdə sabitqədəm edib, yer üzünü mənim vasitəmlə haqq və ədalətlə doldur.”

İmam Həsən Əskəri (ə) məni çağırıb buyurdu: “Bibican, uşağı gördünmü?” Ərz etdim: “Bəli.” İmam (ə) buyurdu: “Elə isə uşağı mənə gətir.” Mən uşağı götürüb İmamın (ə) yanına aparanda gördüm ki, qolunda bu ayə yazılıb.

جَاء الْحَقُّ وَزَهَقَ الْبَاطِلُ إِنَّ الْبَاطِلَ كَانَ زَهُوقًا

–Haqq gəldi, batil yox oldu. Çünki batil yoxluğa məhkumdur![16]

İmam (ə) onu məndən alıb bağrına basdıqdan sonra uşağa bu ayəni oxudu:

وَنُرِيدُ أَنْ نَمُنَّ عَلَى الَّذِينَ اسْتُضْعِفُوا فِي الْأَرْضِ وَنَجْعَلَهُمْ أَئِمَّةً وَنَجْعَلَهُمُ الْوَارِثِينَ

–Biz isə istəyirdik ki, o yerdə zəif düşüb əzilənlərə mərhəmət göstərək, onları öndə gedənlər və varislər edək.

Uşaq beş yaşına çatdıqda atası İmam Həsən Əskəri (ə) şəhid oldu. Çox adam onun cənazə namazını qılmağa can atırdı. Lakin gördülər ki, birdən qapılar açıldı və beş yaşlı bir uşaq içəri daxil olub atasının kənarında dayanaraq cənazə namazını qıldı.[17]

İmam Mehdi (ə.c) atasından sonra Allahın yer üzündə sonuncu höccətidir. Hazırda qeyb dövrünü yaşayır ki, hicri qəməri təqvimi ilə bu gün (2006-cı ildə) 1172 yaşı vardır. Həzrət (ə.c) h.q. tarixi ilə 255-ci ildə dünyaya göz açmış və 260-cı ildə (camaatın gözündən) qeybə çəkilmişdir. O, 70 il kiçik qeybdə yaşamış və bu müddət ərzində 4 nəfər naib – Osman ibn Səid, Məhəmməd ibn Osman, Hüseyn ibn Ruh və Əli ibn Məhəmməd Seymuri vasitəsilə camaatla əlaqə saxlamışdır. Əli ibn Məhəmməddən sonra İmam (ə.c) özü camaat arasında göründü və ondan sonra böyük qeyb

---

[16] İsra surəsi, 81-ci ayə.

[17] Bir imam dünyasını dəyişdikdə onun cənazə namazını digər imamdan başqa heç bir kəs qıla bilməz.

dövrü başladı. Onun böyük qeybi bu günə qədər hələ də davam edir və Allahın əmrini gözləyir. Allah nə vaxt əmr etsə, həmin vaxt zühur edəcəkdir.

İmam (ə.c) qeybə çəkilməsini İshaq ibn Yaqubun vasitəsilə bütün müsəlmanları agah etdi. İmama (ə) məktub yazaraq ondan sonra dini məsələlərdə kimə müraciət etmələri və s. barədə suallar vermişdilər. İmam (ə.c) da həmin suallara belə cavab yazmışdır:

الغيبة للطوسي عن إسحاق بن يعقوب . في تَوقيعٍ وَرَدَ إلَيهِ بِخَطِّ الإمامِ المنتَظَرِ «عج»، عَن طَريقِ مُحَمَّدِ بنِ عُثمانَ .: أمَّا الحَوادِثُ الواقِعَةُ، فَارجِعوا فيها إلى رُواةِ حَديثِنا، فَإِنَّهُم حُجَّتي عَلَيكُم، وأَنَا حُجَّةُ اللهِ عَلَيكُم.

–Tusinin “əl-Qeybə” kitabında *(Məhəmməd ibn Osman tərəfindən çatdırılan İmam Zamanın xətti ilə yazılmış məktubun mətni İshaq ibn Yəqub tərəfindən nəql edilir):* “Sizin üçün baş verəcək hadisələr barədə bizim hədis ravilərimizə müraciət edin ki, onlar mənim höccətimdirlər. Mən isə Allahın sizin üçün höccətiyəm.”

فَأمّا مَن كانَ مِن الفُقَهاءِ صائِنا لِنَفسِهِ حافِظا لِدينِهِ مُخالِفا على هَواهُ مُطِيعا لِأمرِ مَولاهُ فَلِلعَوامِّ أن يُقَلِّدُوهُ

–Camaat təqvalı, dinin keşiyində dayanan, öz nəfsani istəklərinə müxalif olan və öz mövlasına *(imamına)* itaət edən fəqihlərdən hər hansı birinə təqlid edə bilər.

Deməli, İmam Mehdi (ə.c) qeybə çəkilərkən öz yerində bir sıra xüsusiyyətlərə malik olan alimləri təyin etmişdir ki, o, zühur edənədək müsəlmanlar həmin alimlərdən birinə təqlid etməlidirlər. Onun zühur edəcəyi vaxt isə məlum deyil. Bu iş Allahın əmrindən asılıdır. Allahın əmri gəldikdə isə o həzrət zühur edib zülmün kökünü kəsərək yer üzünü ədalətlə dolduracaqdır.

Allah-təala “Ənbiya” surəsinin 105-ci ayəsində belə buyurur:

وَلَقَدْ كَتَبْنَا فِي الزَّبُورِ مِنْ بَعْدِ الذِّكْرِ أَنَّ الْأَرْضَ يَرِثُهَا عِبَادِيَ الصَّالِحُونَ

–Həqiqətən, Biz (*Lövhi-məhfuzdan sonra bütün səma kitablarında*), Zikrdən *(Musanın Tövratından)* sonra *(Davudun)* Zəbur (un)da *(və bu kitabların hamısından sonra Quranda)* yazdıq və qərara

aldıq ki, bu yerin varisi *(sahibi, hakimi və bərəkətlərindən tam istifadə edən)* Mənim saleh bəndələrim olacaqlar *(və bunları qəsbkarların və zalım rəhbərlərin əlindən alıb ədalət imamları və onların canişinlərinə ötürəcəklər).*

Firqəsindən asılı olmayaraq bütün kitablarda Həzrət Peyğəmbərdən (s) belə nəql olunmuşdur ki, on ikinci imam zühur edərkən Həzrət İsa Peyğəmbər (ə) də göydən yerə enib İmam Mehdiyə (ə.c) beyət edəcək və camaat namazında o həzrətə iqtida edəcəkdir.

Həmçinin hədislərdə nəql olunur ki, İmam Mehdi (ə.c) Həzrət İsaya (ə) pişnamaz durmağı təklif etdikdə İsa (ə) geri çəkilərək deyəcək: “Allah imamətə və pişnamaz olmağa səni layiq görüb. Buna görə də səndən qabağa keçmək olmaz.”

Həzrət İsa (ə) İmam Mehdinin (ə.c) müavini olacaq. İmam (ə.c) məsihiyyət aləmini Həzrət İsa (ə) vasitəsilə İslama dəvət edəcəkdir.

İmam (ə.c) zühur etdikdən sonra dünyada bütün insanların hamısı İslam dinini qəbul edəcək və yer üzündə elə bir insan olmayacaq ki, “La ilahə illəllah” deməsin.

Həzrət Peyğəmbər (s) buyurmuşdur: “İmam Mehdi (ə.c) zühur etdikdən sonra yer üzündə “La ilahə illəllah” deməyən bir insan qalmayacaq.”

Bundan əlavə, haqları əllərindən alınmış və zəif düşmüş insanlar yer üzündə hakim olacaqlar. Allah-təala “Qəsəs” surəsinin 5-ci ayəsində belə buyurur:

وَنُرِيدُ أَن نَّمُنَّ عَلَى الَّذِينَ اسْتُضْعِفُوا فِي الْأَرْضِ وَنَجْعَلَهُمْ أَئِمَّةً وَنَجْعَلَهُمُ الْوَارِثِينَ

–Biz *(isə)* istədik ki, o yerdə *(məmləkətdə)* zəif salınmışlara mərhəmət göstərək və onları *(camaata)* imam, *(yer üzünə)* varis edək.

Həzrət Əli (ə) bu ayənin şərhində buyurmuşdur ki, ayədə işarə olunmuş kəslər Həzrət Peyğəmbərin (s) Əhli-beytidir. Necə ki, “Nəhcül-bəlağə”də 200-cü kəlamda belə buyurur:

لَتَعْطِفَنَّ الدُّنْيَا عَلَيْنَا بَعْدَ شِمَاسِهَا عَطْفَ الضَّرُوسِ عَلَى وَلَدِهَا وَتَلَا عَقِيبَ ذَلِكَ وَنُرِيدُ أَنْ نَمُنَّ عَلَى الَّذِينَ اسْتُضْعِفُوا فِي الْأَرْضِ وَنَجْعَلَهُمْ أَئِمَّةً وَنَجْعَلَهُمُ الْوارِثِينَ.

**–Dünya pisxasiyyətli və dişləyən dəvənin öz balasına tərəf qayıtması kimi bizə *(Məhəmməd Əhli-beytinə)* qayıdaraq mehribanlıq edəcək. *(O Həzrət)* bunun arxasınca bunu *("Qəsəs" surəsinin 5-ci ayəsini)* oxudu: "Biz *(isə)* istədik ki, o yerdə *(məmləkətdə)* zəif salınmışlara mərhəmət göstərək və onları *(camaata)* imam, *(yer üzünə)* varis edək."**

*Allah-təaladan diləyirik ki, İmam Mehdinin (ə.c) zühurunu tezləşdirsin və bizi də o həzrətin əsgərlərindən və yardımçılarından qərar versin. İnşallah!*

# ŞƏHADƏT VƏ VƏFAT GÜNLƏRİ

### HƏZRƏT PEYĞƏMBƏR (S) VƏ İMAM HƏSƏNİN (Ə) ŞƏHADƏTİ GÜNÜ

## İNSANIN DİN VƏ İMANINA ZİYAN VERƏN AMİLLƏR

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَ الْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَ نْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِی الْقاسِمِ مُحَمَّدٍ وَعَلى اَهلِ بَيْتِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ سِيَّما بَقِيَّةِ اللهِ فِي الأَرَضِين، وَاللَّعنُ عَلى أَعدائِهِم أَجمَعِين اِلى قِيامِ يَوْمِ الدِّين.

Hər bir şəxs imanına ziyan vuran amillər barədə araşdırma aparmalı və həmin amilləri aradan qaldırmalıdır. Əks-təqdirdə insanın iman və mənəviyyatı müxtəlif təhlükələrə məruz qalaraq get-gedə zəifləyəcək və aradan gedəcəkdir. Belə olduqda isə nəfs və şeytan qələbə çalar, insan dünya və axirətdə ziyana uğrayar. Bildirdik ki, bir çox amillər və yollar vardır ki, insanın imanını zəiflədib məhv edir.

**1. Köksüz iman**

İnsanın imanını zəiflədib dinini aradan aparan əsas amillərdən birincisi imanının köksüz olmasıdır. Yəni iman göbələk kimi köksüz olmamalıdır, çünki onu tez qoparmaq olar. Əgər bir şəxsdə imanın kökü olmasa, o, bütün ziyanlara məruz qala və imansız ölə bilər, eləcə də qarşıya çıxan hər bir hadisədə imandan çıxa bilər.

Qurani-kərimə diqqət yetirdikdə köksüz imanların müxtəlif formalarına rast gələ bilirik. Məsələn, onlardan biri dildə olan imandır. Yəni burada bəzi insanların yalnız dildə Allaha iman gətirməsi nəzərdə tutulur. Onu da qeyd etmək lazımdır ki, din və iman üç hissədən ibarətdir. Bir hissəsi əqidə (üsuliddin, yəni dinin əsasları), ikincisi əxlaq, üçüncüsü isə ehkamdan ibarətdir. Bunların üçünün birləşməsindən din yaranır. Din elə bir tələbat və ya ehtiyacdır ki, hər an insana gərək olur. Bundan fərqli olaraq, məsələn,

elmin ayrı-ayrı sahələrinə diqqət yetirdikdə görürük ki, onlar həmişə insana lazım olmur.

Məsələn, tibb elmi yalnız insan xəstələnərkən ona gərək olur. İnsan evdə rahat və problemsiz əyləşdikdə tibb elmi ona lazım deyil. Lakin hər hansı bir xəstəlik baş verdiyi zaman istər-istəməz tibb elminə ehtiyac duyulacaq. Amma İslam dini hər an insana lazımdır. Əyləşməyin halal və haramı var, gəzməyin halal və haramı var, baxmağın, qulaq asmağın, yeməyin, içməyin, nəfəs almağın və hər bir hərəkətin halalı və haramı vardır. İslam hər an ona görə lazımdır ki, insan hər hansı bir hərəkəti edərkən onun icazəli və yaxud icazəsiz olduğunu bilsin.

Bütövlükdə İslami dəyərləri heç bir yerdə ondan ayırmaq olmaz. Məsələn, insan bir işi, bir əməli məsciddə İslami dəyər kimi qəbul etdiyi halda, həmin işin, yaxud əməlin dəniz kənarında İslami dəyər sayılmadığını düşünə bilməz. Bir qadın məsciddə hicabla əyləşirsə, bu, mənəvi dəyər sayılır. Ona görə də kimsə elə düşünməsin ki, dəniz kənarında hicab dəyər sayılmır. Hicab məsciddə dəyər sayıldığı kimi, dəniz kənarında da, eləcə də başqa yerlərdə dəyər olaraq qalır.

İnsan elə başa düşməməlidir ki, yalnız çətinliyə düşərkən Allaha ehtiyacı olur. İstər çətinlikdə, istərsə də rahatlıqda olsun, insanın həmişə Allaha ehtiyacı var. İslamı heç bir məkanda və ya zamanda insandan ayırmaq olmaz. Əgər ayrılsa, o zaman insan imansız olacaq. Buna görə də hər bir yerdə insan öz imanını möhkəm qoruyub saxlamalıdır. Çünki iman hər bir yerdə insanın dəyəri hesab olunur. Odur ki, iman təkcə dildə Allahı qəbul etməklə tamamlanmır. Bunun üçün düşüncə və əməl də gərəkdir. Allah-təala "Həcc" surəsinin 11-ci ayəsində belə buyurur:

وَمِنَ النَّاسِ مَن يَعْبُدُ اللَّهَ عَلَى حَرْفٍ فَإِنْ أَصَابَهُ خَيْرٌ اطْمَأَنَّ بِهِ وَإِنْ أَصَابَتْهُ فِتْنَةٌ انقَلَبَ عَلَى وَجْهِهِ خَسِرَ الدُّنْيَا وَالْآخِرَةَ ذَلِكَ هُوَ الْخُسْرَانُ الْمُبِينُ

–İnsanlardan eləsi var ki, Allaha birtərəfli *(dildə)* qaydada ibadət edir. Buna görə də əgər həmin şəxsə bir xeyir *(sərvət, cansağlığı və məqam)* yetişsə, ona arxayınlaşar və əgər bir sınağa çəkilsə *(mal və*

*canına bir zərər-ziyan dəysə)* üz döndərərək qayıdar. Belə olan şəxs öz dünya və axirətində ziyana uğramışdır. Budur həmin açıq-aşkar ziyan!

İnsan dildə Allahın vəhdaniyyətini qəbul etməklə yanaşı, əqlən və qəlbən də iman gətirməlidir. Nə qədər ki, İslam insanın qəlbinə daxil olmayıb, həmin insan hər an ziyana düşə bilər. Çünki dildəki imanın kökü yoxdur. Əgər iman dildən ağıla keçsə, o zaman insan bir mərhələ də yüksəlmiş olacaqdır.

Günlərin birində Həzrət Peyğəmbər (s) səhabələrlə birgə gedərkən savadsız qoca bir qarının cəhrədə yundan ip hördüyünü görür. Həzrət Peyğəmbər (s) həmin qarıya yaxınlaşıb soruşur: "Sən Allahın varlığını necə başa düşürsən?" Qoca qarı işlətdiyi cəhrədən əlini çəkdikdə cəhrə də dayanır. Sonra üzünü Həzrət Peyğəmbərə (s) tutub deyir: "Ya Rəsulallah, bu, kiçik bir cəhrədir, bunun hərəkətə gəlməsi mənim vasitəmlə olur. Mən əlimi onun dəstəyindən çəkən kimi dayanır. Bu kiçik cəhrəni hərəkətə gətirən mənəm, necə ola bilər ki, bu böyüklükdə bir kainat öz-özünə hərəkət etsin? Mən yəqin bilirəm ki, bu kainatı hərəkətə gətirən bir qüvvə vardır. Mən bu qüvvəyə Allah deyirəm."

Həzrət Peyğəmbər (s) üzünü səhabələrinə tərəf çevirib buyurur: "Mən sizin də belə bir əqidəyə malik olmağınızı istərdim."

Bu iman ağıl və məntiqə əsaslanan bir imandır ki, insan əqli dəlillər vasitəsilə Allaha iman gətirir. Yəni insan artıq dilin etirafından bir pillə yüksələrək ağlın etirafında qərarlaşmışdır. Üçüncü mərhələ isə Həzrət Yusif Peyğəmbərin (ə) imanı kimi qəlbdə qərar tutan imandır. Həzrət Yusifin (ə) imanı belə idi ki, pərdənin arxa tərəfi ilə ön tərəfini eyni görürdü. Artıq onu heç bir şeylə yoldan çıxarmaq mümkün deyildi. Buna görə də imanın kökü qəlbdə qərar tutsa, onu heç bir yolla çıxarmaq mümkün olmayacaqdır.

Şəbib ibn Rəbi münafiq və ikiüzlü insanlardan biri idi. O zamanlar Səccah adlı bir qadın peyğəmbərlik iddiası edirdi. Şəbib baxıb gördü ki, əgər bu qadın özünə tərəfdar toplasa, vəziyyəti yaxşı olacaq. Bunu düşünərək gedib həmin qadına qoşuldu və onun azançısı oldu. Səccahın

işlərinin baş tutmadığını gördükdə isə gəlib İslam dinini qəbul etdi. O, bütün hadisələrə də müdaxilə edərək özünü siyasətçi kimi göstərir və öz mövqeyini bildirirdi. Beləcə, Həzrət Peyğəmbərdən (s) sonra bir-bir bütün xəlifələrə beyət etdi. Həzrət Əlidən (ə) sonra (İmamı öldürən) xəvaricə beyət etdi. Sonra tövbə edərək gəlib İmam Həsənə (ə) beyət əli uzatdı. İmam Həsən (ə) şəhid olduqdan sonra gedib Ömər ibn Sədə beyət etdi və İmam Hüseynlə (ə) müharibə edənlərə qoşuldu. İmam Hüseyn (ə) şəhid olduqdan sonra gedib Muxtar Səqəfiyə beyət etdi. Özü İmam Hüseynin (ə) qatillərindən biri olduğu halda vəziyyətdən çıxmaq üçün Muxtara qoşuldu. Hicrətin 70-ci ilində isə elə münafiq kimi də öldü.

Odur ki, əgər iman yalnız dildə olsa, o zaman insan münafiq olaraq qalacaqdır. Ona görə də hər bir insan dininə, imanına ziyan gələ biləcəyi yerləri yaxşı tanımalı və onların qarşısını almalıdır. İnsan evə oğrunun haradan daxil ola biləcəyini ehtimal etdikdə həmin yerləri möhkəm bağladığı kimi, imanına xələl gətirən amillərin də qarşısını eləcə kəsməlidir.

Bəni-İsraildə riyakar və ikiüzlü bir şəxs yaşayırdı. Günlərin birində dua edib istədi ki, Allahın yanında olan məqamını ona göstərsin. Bir gün yuxuda ona dedilər ki, sənin bizim yanımızda zərrə qədər də olsa məqam və fəzilətin yoxdur. Soruşdu: “Axı nə üçün?” Dedilər: “Çünki etdiyin xeyir əməlləri dilinə gətirib ona-buna danışırsan.” Yuxudan ayılıb səhvini başa düşdü və imanına zərər gələn qapını bağladı.

Beləliklə, möminin ən ümdə vəzifəsi budur ki, imanına ziyan vuran amilləri aradan qaldırsın.

### 2. Xüsusi insanların imandan çıxması

İnsanın dinini təhlükəyə atıb imanını zəiflədərək aradan qaldıran əsas amillərdən ikincisi xüsusi insanların imandan çıxmasıdır. Yaxud belə deyək ki, xüsusi insanların imanı zəiflədikdə və onlar yoldan çıxdıqda rəiyyətin də dindarlığı və imanı təhlükə altına düşər. Burada xüsusi insanlar dedikdə isə, İslam dininə rəiyyətdən daha yaxın olanlar və camaata İslam dinini öyrədən şəxslər nəzərdə tutulur.

Onlar rəiyyətlə Allah arasında olan vasitəçilərdir. İnsanlar Allahın kəlamını onların dilindən eşidir. Din aləmində də bu insanlara xüsusi insanlar ("xəvas") deyilir. Allah-təala "Bəqərə" surəsinin 44-cü ayəsində belə buyurur:

أَتَأْمُرُونَ النَّاسَ بِالْبِرِّ وَتَنسَوْنَ أَنفُسَكُمْ وَأَنتُمْ تَتْلُونَ الْكِتَابَ أَفَلاَ تَعْقِلُونَ

–*(Səmavi)* kitabı oxumağınıza baxmayaraq, camaata yaxşılığı əmr edir, özünüzü isə unudursunuz?! Heç fikirləşmirsiniz?!

Həzrət Peyğəmbər (s) İbn Məsuda vəsiyyət edərkən belə buyurdu:

يا ابنَ مَسعُود! لا تَكُونَنّ مِمّن يَهدِي النّاسَ إِلى الخَير وَهُوَ غَافِلٌ عَنهُ

–Ey Məsudun oğlu, insanları xeyrə dəvət edib özləri ondan qafil *(uzaq)* olanlar kimi olmayın! Sonra Peyğəmbər (s) "Bəqərə" surəsinin 44-cü ayəsini oxudu.

Həzrət Peyğəmbər (s) buyurur: "Merac gecəsi gördüm ki, bir dəstə insanın dodaqlarını oddan hazırlanmış qayçı ilə kəsirlər. Cəbrayıldan onların kim olduğunu soruşduqda belə dedi:

خُطَبَاءُ أَهْلِ الدُّنْيَا كَانُوا يَأْمُرُونَ النَّاسِ بِالْبِرِّ وَيَنْسَوْنَ أَنْفُسِهِمْ وَهُمْ يَتْلُونَ الْكِتَاب

–Bunlar dünya əhlinin xətibləridir. Onlar Quran oxuyub insanları yaxşılıqlara dəvət etdikləri halda, özlərini unutmuşdular *(camaata dediklərinə özləri əməl etmirdilər)."*

Odur ki, camaat dinə əməl etməyi, habelə imanın yollarını xüsusi insanlardan, alimlərdən və dinşünaslardan öyrənirlər. Əgər onlar yolu azsalar, insanların imanları təhlükə altına düşəcək. Əgər camaat, xüsusilə, yenicə imana gələnlər Allahdan, Peyğəmbərdən (s), dindən, imandan və təqvadan danışan insanın haram və günah işlər etdiyini gördükdə dindən soyuyur və elə başa düşürlər ki, onların danışdıqlarının hamısı boş-boş sözlərdir.

Ümumiyyətlə, camaatı dinə, imana və təqvaya dəvət edənlər çox diqqətli olmalı və öz hərəkətlərinə fikir verməlidirlər ki, başqaları ondan nümunə götürə bilsinlər. Yəni öz dediklərinə ilk növbədə özləri riayət etməlidirlər. Həzrət Peyğəmbərin (s) bütün hərəkətləri insanlar üçün

örnək və nümunədir. O həzrət insanları Allaha tərəf dəvət edərkən ilk növbədə qohum-əqrəbasından başlamışdır. Həzrət Peyğəmbərin (s) ətrafında olanların bir dəstəsi onun qohum-əqrəbası, digərləri isə başqa-başqa ailələrdən idilər. Həzrət Peyğəmbər (s) öz qohum-əqrəbasına belə buyurdu:

وَاللهِ الّذِي لا إِلهَ إِلاّ هُو إِنّي رَسولُ اللهِ إِلَيكُم خاصَّةً و إِلَى النّاسِ عامَّةً

–Allaha and olsun! O Allaha ki, Ondan başqa heç bir məbud yoxdur! Mən Allah tərəfindən sizin üçün xüsusi, camaat üçün ümumi olaraq göndərilmişəm.

Yəni Həzrət Peyğəmbər (s) camaatı dinə dəvət etdikdə camaat onun yaxınlarına və qohum-əqrəbasına da baxırdı. Təbiidir ki, qohumların onun çağırışlarına və göstərişlərinə əhəmiyyət vermədiyini gördükdə isə camaat da bütün bunlara əhəmiyyət verməyəcəkdi. Buna görə də Allah-təala Qurani-kərimdə Həzrət Peyğəmbərin (s) həyat yoldaşlarının ehkamını digər qadınlardan fərqləndirir. Çünki onlar həmişə Həzrət Peyğəmbərin (s) məhzərində olduqları üçün daha diqqətli olmalıdırlar. Nümunə üçün "Əhzab" surəsinin 30, 31-ci ayələrinə diqqət yetirək:

يَا نِسَاء النَّبِيِّ مَن يَأْتِ مِنكُنَّ بِفَاحِشَةٍ مُّبَيِّنَةٍ يُضَاعَفْ لَهَا الْعَذَابُ ضِعْفَيْنِ

–Siz, ey Peyğəmbərin zövcələri! Sizdən hansı biriniz açıq-aşkar çirkin bir iş görsə, *(axirətdə)* onun əzabı ikiqat artacaqdır.

وَمَن يَقْنُتْ مِنكُنَّ لِلَّهِ وَرَسُولِهِ وَتَعْمَلْ صَالِحًا نُّؤْتِهَا أَجْرَهَا مَرَّتَيْنِ

–Sizdən hər kim Allahın və Onun Rəsulunun müqabilində təvazökarlıq və itaətkarlıq göstərsə və saleh əməl etsə, onun mükafatını ikiqat verərik.

Əgər kimsə Həzrət Peyğəmbərin (s) həyat yoldaşının çirkin bir iş gördüyünü müşahidə edib imandan çıxsa, bu əmələ görə onlara ikiqat əzab veriləcək. Biri özünün çirkin iş gördüyü üçün, ikincisi isə başqalarının da yoldan çıxmasına səbəb olduğuna görə. Həmçinin yaxşı işlərə görə də mükafat ikiqat artırılacaqdır.

Əlbəttə, onu da qeyd etməliyik ki, cəmiyyətdəki seyidlər, alimlər və dindarlar da çox diqqətli olmalı və öz məsuliyyətlərini başa düş-

məlidirlər. Əgər bir nəfər camaat arasında dindar kimi tanınırsa və onun əməllərinə baxan camaatın imanı zəiflədikdə həmin mömin şəxsə ikiqat əzab veriləcəkdir. Əksinə camaatın imanı çoxaldıqda isə həmin dindara ikiqat mükafat vəd olunur. Çünki camaatın imanının zəifləməsinə və ya güclənməsinə səbəb olmuşdur. Buna görə də əgər cəmiyyətdəki xüsusi insanlar yollarını azsalar, həmin yerdə yaşayan insanların imanları da təhlükəyə düşəcəkdir. Necə ki, hədislərdə də buyurulmuşdur: "Alim fəsad (günah və pozğunluq) etsə, aləm də fəsada düşər."

**3. Dində və imanda ifrat və təfritə yol vermək**

İnsanın imanının zəifləyib dininin təhlükəyə düşməsinə səbəb olan üçüncü əsas amil onun iman və əməlində ifrata, yaxud təfritə yol verməsidir. Ümumiyyətlə, hər bir işin ifrat və təfriti vardır. "İfrat", yəni həddən yuxarı, "təfrit" isə həddən aşağı deməkdir. Eləcə də İslam dinində hədlər vardır. Mümkündür ki, insan namazda və digər ibadətlərdə ifrata və ya təfritə yol versin. İslam dinində həddi o tərəfə, ya bu tərəfə aşmağa icazə verilmir. Yəni insanın dində həddən yuxarı və aşağı getməsi qadağandır. Məsələn, Həcc, Kərbəla və Məşhəd ziyarətləri çox fəzilətli, bəyənilmiş və müqəddəs əməldir. Amma bunun da bir həddi vardır ki, ifrat etmək olmaz. Əgər bir insanın ailəsinə baxması kimi vacib işləri qala-qala tez-tez ziyarətə gedirsə, bu yolverilməzdir. Əgər tez-tez ziyarətə getməklə ailənin hüququ pozularsa, bu da artıq ifratdır. Sədəqə və digər vacib və müstəhəb əməllər də belədir. Məsələn, Allah-təala hicab barədə Həzrət Peyğəmbərə (s) göstəriş verərək belə buyurur:

يَا أَيُّهَا النَّبِيُّ قُل لِّأَزْوَاجِكَ وَبَنَاتِكَ وَنِسَاءِ الْمُؤْمِنِينَ يُدْنِينَ عَلَيْهِنَّ مِن جَلَابِيبِهِنَّ

–Ey Peyğəmbər, öz zövcələrinə, qızlarına və möminlərin zövcələrinə de ki, örpəklərini örtsünlər.

Qadının hicab örtməsinin də bir həddi vardır ki, bunda da ifrata və ya təfritə yol vermək olmaz. İmam Sadiqdən (ə) soruşdular: "Ey Peyğəmbər (s) övladı, hicabın həddi barədə nə deyə bilərsiniz? Qadın necə hicab örtməlidir?"

İmam (ə) buyurdu: “Üz və əllər istisna olmaqla, bütün bədən örtülməlidir.”

Əgər bir qadın bundan daha artıq hicablanırsa, uzaqdan baxanı qorxudacaq dərəcədə örtünürsə, deməli ifrat etmişdir. Həmçinin əgər bədəninin bir hissəsini hicab məqsədi ilə bürüyüb, digər hissəsini örtmürsə, yaxud hicab bağlamaq məqsədilə yalandan başına bir örtük atıb qolları və ayaqlarını örtmürsə, deməli təfritə yol vermişdir.

Odur ki, dinin hər bir məsələsində ifrat və təfrit etmək yoldan azmaq deməkdir. Necə ki, Həzrət Əli (ə) buyurmuşdur:

اَليَمِينُ وَ الشِّمَالُ مَضَلّة وَ الطَّرِيقُ الوُسْطى هِى الجادَّة

–Düz yol insan üçün Allah tərəfindən müəyyən olunmuş orta yoldur.

İnsanın bu yolda sağa və ya sola aşması onu zəlalətə aparıb çıxarar. Yeganə nicat yolu Allahın insan üçün müəyyən etdiyi yolun ortası ilə getməkdir.

Adam var ki, naməhrəm qadınla danışıb onun dərdini dinlədikdən sonra ürəyi onun halına yanır. Onun dərdinə əlac etmək üçün əlindən gələni edir. Qadında da yavaş-yavaş ona qarşı məhəbbət yaranır və bu gedişlə axırda həmin oğlanın ailəsini dağıdır. Həyatda dəfələrlə belə halların şahidi olmuşuq. İslam dinində hətta naməhrəm qadına salam vermək belə bəyənilmir. Hətta naməhrəmlə həddindən artıq danışmaq və zarafatlaşmağa da icazə verilmir. Çünki bütün bu işlərin sonu haram və günaha gətirib çıxarır.

Əbu Bəsir deyir: “Tələbələrə Quran dərsi keçirdim. Qız tələbələrdən biri ilə bir məsələnin üstündə (heç bir qərəzli niyyət olmadan) yüngülcə zarafat etdim. Bir gün İmam Sadiqin (ə) hüzuruna getmişdim. İmam (ə) mənə baxıb buyurdu: “Nə üçün Quran dərsi verdiyin xanımla zarafatlaşdın?” İmamın (ə) bu sözlərini eşidib xəcalətimdən başımı aşağı saldım. İmam (ə) buyurdu: Bir daha belə iş görmə.”

İslamda şəhvət məsələsində halal yollar var. Hətta bu halal yollarda da belə ifrat və təfritə yol verməyin sonu insanın yoldan

çıxmasına səbəb olar. Bəziləri bu kimi halal yollardan istifadə edərək şəhvət məsələsində həddi aşırlar. Şəhvətin bir həddi var ki, hətta şəriət qaydalarına uyğun olaraq onu icra edərkən həddi aşdıqda da belə insanı imandan çıxarar. Əgər müvəqqəti nikah şəriətdə halal sayılırsa, onun da şərtləri və müəyyən yerləri var. Amma insanın ailəsi ola-ola başqa fikirlərə düşməsi ifratdır. Həmçinin bəziləri də təfritə yol verərək tamamilə şəhvətə yaxın düşmür və hətta evlənmək belə istəmirlər.

Dinin bütün məsələlərində qabağa keçmək və geridə qalmaq düzgün hesab edilmir. Yaşadığımız yerlərdə gördüyümüz işlərdə diqqətli olmalıyıq ki, ifrat və təfritə yol verməyək. Hətta əzadarlıq etməyin də bir həddi var. Bu hədləri İmam Baqir (ə), İmam Sadiq (ə) və digər məsum imamlarımızın hərəkətlərində müşahidə etmək olur. Xanım Zeynəb (s.ə) İmam Hüseynin (ə) ilk əzadarı olmuşdur. Buna görə də əzadarlıq edənlər onlardan nümunə götürməli, bu məsələdə də ifrat və təfritə yol verməməlidirlər. İmam Hüseynə (ə) əzadarlıq etmək insana əcr, savab, nuraniyyət bəxş edər. Amma bu əzadarlıqda da həddən çıxmaq və yaxud bir kənarda dayanaraq əzadarlıq edənlərə tərs-tərs baxmaq düzgün deyildir. Ümumiyyətlə, kimin nə deməsindən asılı olmayaraq, dinin bir həddi vardır ki, bu həddi o tərəf bu tərəfə aşmaq olmaz.

Hətta Əhli-beytə (ə) məhəbbət bəsləməyin də bir həddi var. İmamların həyatı ilə tanış olduqda görürük ki, imamlar həmişə onlara qarşı məhəbbətdə həddi aşanların qarşısını almağa çalışmışlar. Məsələn, İmam Rzadan (ə) bir nümunəyə diqqət yetirək.

Əba Səlt deyir: “Bir gün İmam Rzaya (ə) ərz etdim: “Ey Peyğəmbər övladı, camaat arasında şayiə gəzir ki, guya bütün insanların sənin bəndə və qulların olduğunu söyləyirsən.” İmam Rza (ə) əllərini göyə qaldıraraq dedi: “Ey yeri-göyü yaradan Allah, Sən bilirsən ki, nə mən, nə də ata-babalarım belə bir iddia etməmişik. Bizim hamımızın şərafəti Sənə bəndə və qul olmağımızda və Sənə səcdə etməyimizdədir.”

Sonra İmam Rza (ə) şayiələrin doğru olmadığını söyləyərək camaata həqiqəti başa salmaq üçün mənə belə buyurdu: “Əgər bu camaatın hamısı mənim qullarımdırsa, bəs onda mən bu qulları kimə satacağam?”

Həmçinin İmamın (ə) barəsində təfrit edənlər də olmuşdur və İmam (ə) buna da öz etirazını bildirmişdir. Xorasanda bir nəfər İmam Rzanın (ə) hüzuruna gəlib etiraz məqsədilə dedi: “Nə üçün belə təzə və gözəl paltarlar geyinmisiniz?” İmam Rza (ə) buyurdu: “Əgər təzə və gözəl paltar geyinmək pis olsaydı, Quranda Yusif Peyğəmbərin (ə) təzə və gözəl paltar geyinməsinə etiraz edilərdi.”

Sonra İmam “Əraf” surəsinin 32-ci ayəsini oxudu:

قُلْ مَنْ حَرَّمَ زِينَةَ اللهِ الَّتِيَ أَخْرَجَ لِعِبَادِهِ وَالْطَّيِّبَاتِ مِنَ الرِّزْقِ قُلْ هِي لِلَّذِينَ آمَنُواْ فِي الْحَيَاةِ الدُّنْيَا خَالِصَةً يَوْمَ الْقِيَامَةِ كَذَلِكَ نُفَصِّلُ الآيَاتِ لِقَوْمٍ يَعْلَمُونَ

–De: “Allahın Öz bəndələri üçün yaratdığı zinətləri və pak ruziləri kim haram etmişdir?!” De: “Onlar *(həmin zinət və pak ruzilər)* dünya həyatında iman gətirən kəslər üçündür *(hərçənd ki, kafirlər də onlarla şərikdirlər),* qiyamət günü isə yalnız onlara *(möminlərə)* məxsus olacaqdır.” Biz Öz ayələrimizi bilən dəstə üçün beləcə ətraflı bəyan edirik.

Odur ki, İslam dinini qəbul edən şəxs onu olduğu kimi qəbul etməli və olduğu kimi də əməl etməlidir. Kiminsə öz fikirlərini dinin əməllərinə aid etməsinə isə icazə verilmir.

### 4. Əxlaqi dəyərlərin aradan getməsi

İnsanın imanının zəifləyib təhlükəyə düşməsinə səbəb olan dördüncü əsas amil əxlaqi dəyərlərin aradan getməsidir. Əgər insan əxlaqi cəhətdən özünə fikir verməsə, əxlaqi dəyərlərə yiyələnməsə, imanı da tədricən zəifləyəcək və dini aradan gedəcəkdir.

قَالَ عَلِيٌّ(ع): آفَةُ الدِّينِ: الحَسدُ و العُجْبُ و الفَخْرُ

–Həzrət Əli (ə) buyurmuşdur: “Dinin afəti *(bəla və zərəri)* paxıllıq, özündənrazılıq və qürrələnməkdir.”

آفَةُ الدِّينِ سُوءُ الظنّ .

–Başqası barədə pis fikrə düşmək dinin afətlərindəndir.

فَسادُ الدِّينِ الطَّمَعُ.

–*Tamah dinin fəsadlarındandır.*

فسادُ الدِّينِ الدنيا.

–Dinin fəsadı dünyadır *(dünyaya bağlanmaqdır).*

قَالَ الصَّادِقُ(ع): لا دِينَ لِمَن لا عَهدَ له.

–İmam Sadiq (ə) buyurmuşdur: "Əhdə vəfa etməyənin dini yoxdur."

Əxlaq alimləri insanın imanına ziyan vuran rəzil xüsusiyyətlər barədə nəql olunmuş bütün hədislərin məcmusunu üç hissəyə bölmüşlər. Yəni bütün bu xüsusiyyətlərin hamısının kökündə üç əsas məsələ durur.

**a) Nəfsi istəklər**

Əgər insan nəfsi istəkləri ilə mübarizə apara bilməsə, imanı təhlükə altına düşəcək. Musa Peyğəmbərin (ə) dövründə Bələm Baura adlı bir alim yaşayırdı. Bəzən Musa Peyğəmbər (ə) onu öz nümayəndəsi kimi başqa əyalətlərə təbliğat aparmağa göndərərdi. Hətta bu alim o dərəcəyədək gəlib çatmışdı ki, duaları da müstəcab olurdu. Bütün bunlara baxmayaraq, Firon onu ələ aldı və yavaş-yavaş imandan çıxardı. Özünü o yerə gətirib çıxartdı ki, axırda Həzrət Musanın (ə) əleyhinə mübarizə aparmağa başladı. Onun bu hala gəlib düşməsinin səbəbi nəfsani istəklərinə tabe olması idi. Allah-təala "Əraf" surəsinin 176-cı ayəsində onun barəsində belə buyurur:

وَلَوْ شِئْنَا لَرَفَعْنَاهُ بِهَا وَلَـكِنَّهُ أَخْلَدَ إِلَى الأَرْضِ وَاتَّبَعَ هَوَاهُ فَمَثَلُهُ كَمَثَلِ الْكَلْبِ إِن تَحْمِلْ عَلَيْهِ يَلْهَثْ أَوْ تَتْرُكْهُ يَلْهَث ذَّلِكَ مَثَلُ الْقَوْمِ الَّذِينَ كَذَّبُواْ بِآيَاتِنَا فَاقْصُصِ الْقَصَصَ لَعَلَّهُمْ يَتَفَكَّرُونَ

–Əgər istəsəydik, həmin ayələrin vasitəsi ilə onu*(n məqamını)* mütləq ucaldardıq. Lakin o, alçaqlığa meyil edərək yerə ürək bağladı və öz nəfsi istəklərinə tabe oldu. Buna görə də onun hekayəti (o) susuz və ya yorğun itin hekayətinə bənzəyir ki, ona hücum etsən də dilini çıxarar, boşlasan da dilini çıxarar *(bu şəxsi qorxutmağınla nəsihət etməyin də birdir).* Bu, Bizim ayələrimizi təkzib etmiş dəstənin məsəlidir. Odur ki, bu hekayəti nəql et, bəlkə düşündülər.

**b) Dünyaya bağlılıq**

Dünyaya ürək bağlayan hər bir insanın imanı zərər görəcəkdir. Bu barədə də kifayət qədər ayə və hədislər vardır. Dünyaya ürək bağlamağın sonu imandan çıxmaqla nəticələnəcək. Amma bunu belə də başa düşmək lazım deyil ki, insan dünyadan əl çəkib yalnız axirət üçün çalışmalıdır. İnsanın təbii olaraq dünyası da olmalıdır, amma ona ürəkdən bağlanmamalıdır. Allah-təala insana həm dünya, həm də axirət vermişdir. Dünyaya bağlanıb axirəti unutmaq, həmçinin axirəti düşünüb dünyadan tamamilə əl çəkməklə insan məqsədə çatmaz.

Səhabələrdən biri xəstələnmişdi. Həzrət Peyğəmbər (s) ona baş çəkib halını soruşduqda o, belə cavab verdi: “Ya Rəsulallah, özüm Allaha dua edib xəstələnmək istədim ki, elə bu xəstəliklə də günahlarımın kəffarəsi bu dünyada ikən çıxsın və cəzası qiyamətə qalmasın.” Həzrət Peyğəmbər (s) buyurdu: “Nə üçün öz dilinlə Allahdan xəstələnməyini istəyirsən? Nə üçün öz dünyanı xəstəliklə başa vurmaq istəyirsən? Sən Allahdan həm dünya, həm də axirət afiyətini istəməlisən, xəstəlik yox. Dua edərkən belə deməlisən: İlahi, həm dünyada, həm də axirətdə mənə yaxşılıqlar inayət et.”

Həmin səhabə Həzrət Peyğəmbərin (s) buyurduğu kimi, Allaha dua edib sağaldı.

Odur ki, İslam dinində dünya ilə axirəti bir-birindən ayırmağa icazə verilmir. Sadəcə olaraq dünyaya bağlılıq və ya axirətdən uzaq düşmək insanın imanını təhlükə altına salır.

**c) Şeytan**

İnsanın yoldan çıxarılmasında və imanının əlindən alınmasında üçüncü əsas rol oynayan şeytandır. Şeytan barədə uzun-uzadı söhbət etmək olar. Amma bəhsimizə uyğun olaraq qısaca onu demək olar ki, insan şeytanın bütün oyunlarından və tələlərindən xəbərdar olmaqla yanaşı, ömrünün axırına kimi onunla mübarizəni davam etdirməlidir. Əgər insan onunla mübarizə aparmasa, axırda şeytan onun imanını tamamilə əlindən alacaq. Çünki şeytan Allaha bəndəlik edən insanları yoldan çıxartmaq üçün and içmişdir. Buna görə də o, hər bir fürsətdən istifadə edərək bu işi davam etdirir. Onun da özünəməxsus müxtəlif yolları vardır. Belə ki, şeytan bəzi insanlara birbaşa olaraq pozğun işlər görməyi əmr edir. Bəzi insanları yalandan vədlər verməklə dolayı yollarla aldadır. Bəzi insanları vəsvəsə edərək azdırır. Bir sözlə desək, hərəni bir vasitə ilə yoldan çıxarır.

Günlərin birində Həzrət Musa (ə) Allahla münacat etməyə gedirdi. Yolda bir nəfər onun qarşısına çıxıb dedi: "Ya Musa, mən günahkar bir bəndəyəm. Allahdan mənim bağışlanmağımı dilə." Musa Peyğəmbər (ə) onun sözlərini Allaha çatdıracağına söz verdi. O, Allahla münacat etdikdən sonra dedi: "İlahi, yolda bir nəfər məndən xahiş etdi ki, Səndən onu bağışlamağını diləyim." Allah-təala buyurdu: "Ey Musa, bilirsənmi o kimdir? O, şeytandır. Ona de ki, gedib Adəmin qəbrinə səcdə etsin və mən də onun tövbəsini qəbul edim."

Həzrət Musa (ə) qayıtdıqda şeytanı görüb dedi: "Əgər sən Adəmin qəbrinə səcdə etsən, Allah səni bağışlayar." Şeytan dedi: "Mən Adəmə heç sağlığında səcdə etmədim, indi onun qəbrinə səcdə edim? Bunu etməyəcəyəm. Amma mənimlə Allah arasında vasitəçi olduğun üçün sənə bir neçə şey öyrədəcəyəm. Biri budur ki, qəzəbləndiyin zaman səbirli ol. Çünki mən həmişə qəzəblənən insanın yanında olaram. İkincisi budur ki, dini və haqqı müdafiə edən hərbçilər cəbhədə olan zaman mən onların ailələrini, övladlarını və evlərini yadlarına salıb yavaş- yavaş döyüşməkdən soyudub geri

qaytararam. Üçüncüsü isə naməhrəm oğlanla qızın bir yerdə olduğu vaxt mən onların qəlbinə girib vəsvəsə edərəm.[18] Dördüncüsü budur ki, mənim ardımca gəlmək üçün dünyanı insanların gözündə bəzəyərəm.”

Şeytan həmişə çalışır ki, insanları yoldan azdırıb imanlarının son damlasına qədər əllərindən alsın. O, hər gün hiylə və tələlərindən istifadə edərək bu işləri görməkdədir. Bəzən onun gördüyü böyük işlər tarixlərə düşmüşdür. Məsələn, onun Fironla söhbəti maraqlı hekayətlərə çevrilmişdir.

Firon allahlıq iddiası edirdi. Günlərin birində bir nəfər əlində bir salxım üzümlə onun yanına gəlib dedi: “Əgər sən Allahsansa, bu üzümü mirvariyə çevir. Əgər dediyimi etsən, sənə iman gətirəcəyəm.” Firon üzümü ondan alıb içəri keçdi. Nə edəcəyini bilmirdi. Fikrə dalmışdı ki, şeytan insan surətinə girərək onun qapısını döydü. Firon içəridən səsləndi: “Qapını döyən kimdir?” Şeytan dedi: “Bu nadana baxın! Çöldə qapını döyənin kim olduğunu bilmir, amma allahlıq iddiası edir.” Firon qapını açdı. Şeytan içəri girib soruşdu: “Nə olub?” Firon dedi: “Bir nəfər bu üzümü mənə gətirib dedi ki, əgər bunu mirvariyə çevirsən, sənə iman gətirəcəyəm.” Şeytan üzümü ondan aldı. İsmi-Əzəmi oxuyub üzümə üfürdü. Elə bu zaman bir salxım üzüm mirvariyə çevrildi. Firon təəccüblə dedi: “Sən çox böyük adamsan.” Şeytan kim olduğunu ona bildirdikdən sonra dedi: “Məni belə bir üstünlüklə heç bəndəliyə də qəbul etmədilər. Sənsə bu nadanlığınla allahlıq iddiası edirsən.” Firon ondan soruşdu: “Bəs nə üçün Adəmə səcdə etmədin?” Şeytan (məntiqsiz və əsassız olsa da) ona dedi: “Bilirdim ki, onun nəslindən sənin kimi axmaq insanlar dünyaya gələcək.”

[18] Vəsvəsə şeytanın ən əsas işlərindən biridir. Adəmlə Həvvanı da vəsvəsə ilə yoldan çıxarmışdı. Necə ki, “Əraf” surəsinin 20-ci ayəsində oxuyuruq: فَوَسْوَسَ لَهُمَا الشَّيْطَانُ - Beləliklə, o ikisinə (Adəmlə Həvvaya) vəsvəsə etdi…

Belə rəvayətləri oxumaq o demək deyil ki, şeytan təkcə o zamanlar insanları yoldan çıxarırdı. Şeytan hər gün belə işlər görür. Kimini birbaşa, kimini vəsvəsə edərək, kimini dünyanı gözündə zinətləndirməklə yoldan azdırır. Şeytan insanın son nəfəsinə qədər ondan əl çəkmir. Hədislərdə belə nəql olunur ki, can verən insana su içirin. Əgər içməsə belə dodaqlarını isladın. Çünki o anda insana susuzluq gələrkən şeytan əlində bir qab su tutub deyir: "İmanını versən, sənə bu sudan içirərəm."

Odur ki, əgər insan nəfsani hissləri ilə mübarizə etməyi, dünyaya bel bağlamamağı və şeytana aldanmamağı qarşısına məqsəd qoysa və bu yolda daim çalışsa, əlbəttə ki, imanını qoruyub saxlamış olacaqdır.

## HƏZRƏT PEYĞƏMBƏR (S) VƏ İMAM HƏSƏNİN (Ə) ŞƏHADƏTİ

## HƏYAT VƏ DİRİLİK

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ السَّلامُ عَلى رَسُولُ الله اَمِينِ اللهِ عَلى وَحْيِه وَ عَزائِمِ اَمْرِهِ اَلْخاتِمِ لِماسَبَق وَالْفاتِحِ لِمَسْتُقْبِل وَالْمُهَيْمِنِ عَلى ذلِكَ كُلِّه السَّلامُ عَلى وَصِيِّهِ اَمِيرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ الزَّهْراءِ سَيِّدَةِ نِساءِ الْعالَمِين السَّلامُ عَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين السَّلامُ عَليهِم وَ رَحْمَةُ الله وَالَّعْنَ عَلى أَعْدا ئِهِمْ أَعْداء الله اِلى يَوْمِ لِقاءِ الله

أَعُوذُ بِالله مِنَ الشيطانِ الرَّجِيم. يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اسْتَجِيبُواْ لِلهِ وَلِلرَّسُولِ إِذَا دَعَاكُم لِمَا يُحْيِيكُمْ

Səfər ayının 28-i Yer kürəsində bəşəriyyətin ən şərəfli və ən üstün bir insanı olan İslam Peyğəmbəri (s) dünyasını dəyişmişdir. Allaha qovuşmaq o həzrətin ən böyük arzularından biri idi. Bu hüznlü, qəmli gün münasibətilə İslam ümmətinə başsağlığı verir və Allahdan hamıya izzət, əcr, nuraniyyət və mərhəmət diləyirəm.

Allah-təala "Ənfal" surəsinin 24-cü ayəsində möminlərə xitab edərək belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اسْتَجِيبُواْ لِلهِ وَلِلرَّسُولِ إِذَا دَعَاكُم لِمَا يُحْيِيكُمْ

–Ey iman gətirənlər, sizi sizə həyat verən şeyə tərəf dəvət edən zaman Allahın və Onun Peyğəmbərinin çağırışını qəbul edin…

Allah-təala bu mübarək ayədə möminləri dəvət edir. Ümumiyyətlə, dəvətdə həmişə üç məsələ nəzərdə tutulur: dəvət edən, dəvət olunan və dəvətin məqsədi. Ayədə bu üç məsələ çox aydın şəkildə bəyan olunur. Dəvət olunanlar iman gətirənlərdir, dəvət edən isə Allah və Onun Peyğəmbəridir (s). Həyat bəxş edən bir şeyə dəvət edirlər. Yəni möminlər elə bir şeyə dəvət olunurlar ki, onların həyat və diriliyi oradadır. Belə olduqda mümkündür ki, hər bir kəsin fikrinə belə bir sual gəlsin. Əgər Allah və İslam Peyğəmbəri (s) insanları həyat və diriliyə dəvət edirsə, məgər İslamdan öncəki insanlar ölü idilərmi? Bu suala aydınlıq gətirmək üçün ilk növbədə

həyatın mənasını bilmək lazımdır. Gəlin baxaq görək, ayədə işlənmiş həyat hansı mənanı kəsb edir. Quranda həyat sözü bir neçə mənada işlənmişdir. Nümunə üçün bir neçəsinə diqqət yetirək.

**Bitkilərin həyatı**

Quranda həyatın bir mənası bitkilərin həyatına aiddir. Bitkilər qış vaxtı quruyur və bahar gəldikdə onlara yenidən həyat verilir. Qış vaxtı qurumuş ağac budaqlarını azacıq əydikdə qırılıb yerə düşür. Lakin baharda torpağa can gəldikdə görürük ki, bitkilər də canlanmağa başlayır. Dünən əyib sındırdığımız ağac bu gün artıq sınmır. Doğrudur, budağını əyir, lakin onu sındırmaq olmur. Çünki dünən qupquru cansız bir vəziyyətdə olsa da, bu gün canlanıb qüvvətlənmişdir. Allah-təala "Hədid" surəsinin 17-ci ayəsində bitkilərin həyatı barədə belə buyurur:

اعْلَمُوا أَنَّ اللَّهَ يُحْيِي الْأَرْضَ بَعْدَ مَوْتِهَا

–Bilin ki, həqiqətən Allah yeri ölümündən sonra dirildir.

**Heyvanların həyatı**

Quranda işlənmiş həyat kəlməsinin başqa bir mənası heyvanlar barəsindədir. Heyvanların həyatı bitkilərin həyatından tamamilə fərqlidir. Allah-təala "Fussilət" surəsinin 39-cu ayəsində Həzrət Peyğəmbərə (s) xitabən belə buyurur:

وَمِنْ آيَاتِهِ أَنَّكَ تَرَى الْأَرْضَ خَاشِعَةً فَإِذَا أَنزَلْنَا عَلَيْهَا الْمَاء اهْتَزَّتْ وَرَبَتْ إِنَّ الَّذِي أَحْيَاهَا لَمُحْيِي الْمَوْتَى إِنَّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

–Onun *(tövhid və qüdrət)* nişanələrindən *(biri də)* budur ki: Sən yeri quru və ölmüş görürsən. Onun üzərinə *(yağış, qar və dolu şəklində)* su endirdiyimiz zaman canlanar və *(həm özü, həm də yetirdiyi bitkilər)* qalxar. Həqiqətən, onu *(yeri və qurumuş bitkiləri)* diriləndən, şübhəsiz, ölüləri *(də)* dirildəcəkdir. Çünki O, hər şeyə qadirdir.

Dünyada gördüyümüz havada uçan, suda üzən, torpağın üstündə sürünən, torpağın altında və üstündə yaşayan bu qədər heyvanlara

kim həyat vermişdir? Onlar öz-özünə yaranmışdır? Əlbəttə ki, onların hamısını yaradan əzəmətli və uca Allahdır. Yaratdığı elə bir heyvan yoxdur ki, öz dilində Allahla danışmasın. Onlar öz hallarına və dillərinə uyğun şəkildə Allaha zikr etməklə məşğuldurlar. Necə ki, "Cümə" surəsinin 1-ci ayəsində oxuyuruq:

يُسَبِّحُ لِلَّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ

–Göylərdə və yerdə nə varsa *(hamısı)* Allaha daim *(dil və hal ilə)* zikr edir.

Günlərin birində Həzrət Musa (ə) yer qazarkən külüng daşa dəyir. Daş iki yerə bölünür və içindən kiçik bir qurd çıxır. Həzrət Musa (ə) təəccüblə deyir: "İlahi, bu qurdu daşın arasında nə üçün yaratmısan? Bunun hikmət və məsləhəti nədir?" Allah-təala buyurur: "Ey Musa, sən ömründə bircə dəfə soruşdun ki, bu qurdu nə üçün yaratmısan? Amma bu qurd isə gündə yetmiş dəfə Məndən soruşur ki, Musanı nə üçün yaratmısan?"

Bu rəvayəti söyləməkdə məqsədim odur ki, hər bir canlı özünəməxsus şəkildə və öz dilində Allahla söhbət edir, Onu zikr edir və hətta sual verib Allahdan cavab alırlar. Quranda təkcə "Cümə" surəsində deyil, bir çox başqa surələrdə də yerdə və göylərdə olanların hamısının Allaha zikr etmələri barədə söz açılmışdır.

Odur ki, heyvanların da bir aləmi vardır ki, bitkilərə həyat verən Allah heyvanlara da həyat verir. Heyvanların da həyatı və ölümü Allahın əlindədir. Qurana diqqət yetirdikdə neçə yerdə heyvanların ölümündən sonra onların dirildilməsi barədə söz açıldığını görürük. Üzeyir Peyğəmbərin (ə) ulağının, Əshabi-kəhfə məxsus itin, Həzrət İbrahimin (ə) doğrayıb tikələrini dağlara atdığı dörd quşun Allah tərəfindən yenidən dirildilməsi haqda rəvayətlər dediklərimizi açıq-aydın şəkildə bəyan edir.

### Mənəvi həyat

Quranda bəyan olunan həyat sözünün üçüncü mənası yuxarıda qeyd olunan iki həyatdan tamamilə fərqli bir həyatdır. Bu həyat insanlarla

bağlıdır və mənəvi, əqli həyat mənasındadır. Allah-təala “Ənam” surəsinin 122-ci ayəsində belə buyurur:

أَوَ مَن كَانَ مَيْتًا فَأَحْيَيْنَاهُ وَجَعَلْنَا لَهُ نُورًا يَمْشِي بِهِ فِي النَّاسِ كَمَن مَّثَلُهُ فِي الظُّلُمَاتِ لَيْسَ بِخَارِجٍ مِّنْهَا

–Heç *(küfrlə)* ölü olub *(hidayət edərək)* diriltdiyimiz, sonra insanlar arasında gəzmək üçün özünə bir nur verdiyimiz kəs zülmət içində qalıb oradan çıxa bilməyən kimsə kimi ola bilərmi?

Deməli, hidayət olunmaq həyat deməkdir. Hidayət olunmayan insan diri də olsa ölüdür. Cəhalət içərisində yaşayan insan dirilərin arasında olmasına, yeyib- içməsinə, ev-eşik sahibi olmasına baxmayaraq, ölüdür. Necə ki, Həzrət Əli (ə) buyurmuşdur:

فَالصُّورَةُ صُورَةُ إِنْسَانٍ وَ اَلْقَلْبُ قَلْبُ حَيَوَانٍ لاَ يَعْرِفُ بَابَ اَلْهُدَى فَيَتَّبِعَهُ وَ لاَ بَابَ اَلْعَمَى فَيَصُدَّ عَنْهُ وَ ذَلِكَ مَيِّتُ اَلْأَحْيَاءِ

–*S*urəti insan surəti, qəlbi isə heyvan qəlbidir. Hidayət qapısını və doğru yolu tanımır ki, *(ona qədəm qoyub)* onun ardınca getsin. Nadanlıq və korluq qapısını tanımır ki, ondan uzaqlaşsın. O, dirilərin arasında bir ölüdür.

Əgər insan hidayət olunarsa, ölülərin cərgəsindən ayrılır və həyat sürən insanların sırasına daxil olur. Cəhalət aləmində yaşayan insan nuraniyyət aləmində yaşayan insanla eyni deyildir. Allah-təala hidayət etdiyi insana nur bəxş etmişdir ki, o, həmin nurun vasitəsilə yol gedə bilsin. Halbuki həmin adam cahillik vaxtında ayağının altını belə görə bilmirdi. Başqa canlılardan heç bir fərqi yox idi, halal-harama fikir verməzdi, ağzına gələn sözləri deyərdi, gördüyü hər bir mənzərəyə baxardı. Bəzən də başqa canlıların ondan daha yaxşı olduğu nəzərə çarpırdı. Çünki heyvan belə hər suyu içmir və ya hər yeməyi yemir. Lakin o, halal və harama, murdar və təmizə baxmadan qarşısına çıxan hər bir şeyi yeyib içirdi. Belə insanlar cəmiyyətdə yaşamalarına baxmayaraq, sanki ölü hesab olunurlar. Buna görə də Allah-təala onları hidayət edərək həyat və dirilik bəxş edir. Bu kimi

adamlar hidayət olunduqdan sonra keçmişlərini yada saldıqda xəcalət çəkirlər.

Günlərin birində tanıdığım böyük şairlərdən biri özü ilə bağlı əhvalatı mənə danışaraq dedi: “Cavanlığımda müxtəlif şeirlər yazmışdım. Şeirlərimin əksəriyyəti isə demək olar ki, zahiri gözəlliyə dair məfhumlardan ibarət idi. Bir müddətdən sonra Allah-təala məni hidayət etdi və bundan sonra mən əsl şeirin mənasının nə olduğunu anladım. Şeir və şairliyin həqiqi mənasını başa düşdükdən sonra yenidən yazmağa başladım. Yazdığım yeni şeirlər sanki insan beyninin məhsuluna oxşamırdı. Elə bil ki, şeirlərimi mələklər mənə ilham edirdi.

Soruşdum: “Bəs cavanlığında yazdığın şeirləri nə etdin?”

Dedi: “Hamısını cırıb zibil qutusuna atdım.”

Dedim: “Yaxşı iş görməmisən. Sən onların üzərində illərlə zəhmət çəkmisən. Onları ədəbi nümunələr kimi istifadə etmək olardı. Nə üçün onları heyif etdin?”

Dedi: “Onların adını belə eşitmək istəmirəm. Çünki o şeirlərə baxanda cahillik dövrünə məxsus günlərimi xatırlayır və xəcalət çəkirdim. Buna görə də hamısını cırıb atdım.”

Bu əhvalatı danışmaqda məqsədim dünən cahillik aləmində öz əməllərindən həzz alan bir insanın hidayət olunduqdan sonra dünənki əməllərindən xəcalət çəkdiyini bir daha çatdırmaq idi.

Azərbaycanda tanıdığım möminlərdən biri mənə belə dedi: “Neçə il bundan əvvəl birinci dəfə idi ki, Kərbəlaya ziyarətə getmişdim. Orada neçə gün qalacağımı bilmirdim. Kərbəla şəhərinin girəcəyində ürəyimdən belə bir niyyət keçirdim ki, bu şəhərdə qaldığım günlərdə su içməyəcəyəm. Niyyətimi dilimə də gətirib şəhərə daxil oldum. Dörd gün orada qaldım. Allahın mərhəməti ilə bu dörd gün ərzində bircə dəfə də olsa susuzluq hiss etmədim. Yemək vaxtı bir neçə tikə yemək yeyirdim, amma su, çay, şirə və mayelərdən istifadə etmirdim. İmam Hüseynin (ə) hərəminə daxil olduqda oranın əzəmətinin şahidi oldum. Mən haram musiqi alətlərindən birinin ifaçısı idim. Orada bir əllərimə, bir də İmam Hüseynin (ə) məqbərəsinə baxdım. Məqbərəyə

yaxınlaşıb əllərimi onun üzərinə qoyub dedim: “Bir daha bu əllər haram musiqi alətinə dəyməyəcək.”

Oradan çıxıb Həzrət Əbülfəzlin (ə) hərəminə getdim və Kərbəla ələmdarını da ziyarət etdim. Onun kəsilmiş qolları yadıma düşdü və o gündən bəri nə vaxt əllərimə baxıramsa, keçmişimdən xəcalət çəkirəm. Dua edərkən belə əllərimi göyə qaldırmıram ki, gözüm əllərimə  sataşar və öz keçmişimdən utanaram.”

Həqiqətən də hidayət olunduqdan sonra insanın aləmi tamamilə dəyişilir. Məsələn, bir nəfər təyyarəyə minib xarici ölkəyə səfər edir. Təyyarənin içindəki ab-hava ilə müqayisədə həmin adam təyyarədən düşərkən sanki başqa bir aləmə düşdüyünü hiss edir. Eləcə də cahillik elə bir aləmdir ki, hidayət olunan insan bu aləmdən çıxıb tamamilə başqa bir aləmə daxil olur. Hidayət aləmində olanlarla cahillik aləmində olanların fərqlərindən biri də budur ki, hidayət olunanlar onları başa düşür, amma cahillik aləmində olanlar hidayət olunanları başa düşmürlər.

Həzrət Əli (ə) dünyaya baxıb belə buyurardı: “Dünya, məni qorxudursan? Məni aldatmağa çalışırsan? Elə bilirsən ki, mən səni tanımıram? Allah məni sənin haramlarından çəkindirdi, mən isə sənin halallarından da çəkindim.”

İslam Peyğəmbəri (s) insanları hidayət etmək üçün əlindən gələni əsirgəməzdi. Bəziləri ona iman gətirib hidayət olundu, amma bəziləri öz cahilliklərində qaldılar. Həzrət Peyğəmbər (s) onları doğru yola, hidayət yoluna və həyata dəvət etdikdə onlar o həzrəti təhqir edir və ona daş atırdılar. Həzrət Peyğəmbər (s) onlara baxıb təəccüblə gülümsəyirdi. Ühüd müharibəsində daşla vurub Həzrətin (s) dişini sındırarkən Allahın Rəsulu (s) üzünün qanını təmizləyə-təmizləyə belə buyurdu:

كَيفَ يُفْلِح قَومٌ خَضَبُوا وَجهَ نَبِيّهِم بِاالدَّم وَ هُوَ يَدعُوهُم اِلى رَبِّهِم

–Öz peyğəmbərlərinin üzünü qana boyayan bir qövm necə nicat tapa bilər? Halbuki o *(Peyğəmbər)* onları Allaha sarı çağırır.

Məgər gülməli deyilmi, Həzrət Peyğəmbər (s) onları cənnətə dəvət edərək cəhənnəmdən uzaqlaşdırdığı bir halda vurub onun dişini sındırırlar. Həzrət Peyğəmbər (s) onları başa salırdı ki, cəhənnəm oduna dözə bilməyəcəksiniz. Gəlin sizin əlinizdən tutub cənnətə aparım. Lakin onlar Həzrət Peyğəmbəri (s) başa düşmək istəməyib öz cahilliklərindən əl çəkmədilər.

Arif insanlar, mənəviyyat və haqq yolda olanlar, məqsədə doğru addımlayanlar, dünya və axirətin mənasını düzgün başa düşənlər cahillik aləmində olanların halını başa düşürlər. Lakin cahillər onları heç cür başa düşə bilmirlər.

**Əbədi həyat**

Quranda işlənmiş həyat sözünün dördüncü mənası əbədi həyata işarədir. Bu aləm insanın dünyasını dəyişdikdən sonra görəcəyi bir aləmdir. “Fəcr” surəsinin 24-cü ayəsində onların barəsində belə oxuyuruq:

وَجِيءَ يَوْمَئِذٍ بِجَهَنَّمَ يَوْمَئِذٍ يَتَذَكَّرُ الْإِنسَانُ وَأَنَّى لَهُ الذِّكْرَى. يَقُولُ يَا لَيْتَنِي قَدَّمْتُ لِحَيَاتِي

–Və cəhənnəmin *(məhşər meydanına)* gətiriləcəyi gün – məhz o gün insan xatırlayacaqdır. Lakin bu xatırlamağın ona nə faydası?! O, “Kaş ki, mən öz *(əbədi)* həyatım üçün əvvəlcədən *(yaxşı əməllər)* göndərmiş olaydım!” – deyər.

İnsan orada başa düşəcək ki, dünya körpü kimi bir şey imiş. Amma mən dünyaya yapışıb qalmışdım. Belə bir günün mənim üçün olacağını heç düşünmürdüm. Dünyada mənə nə qədər deyirdilərsə, hamısını boş sözlər hesab edirdim.

Buna görə də əbədi həyatı öz gözləri ilə gördükdən sonra dünyada bu həyat üçün hazırlıq işləri görmədiyindən çox peşman olacaq və bu peşmançılığın da ona heç bir faydası olmayacaqdır.

**Nəticə**

Qeyd olundu ki, Quranda həyat sözü bir neçə mənada işlənmişdir. Bəhsimizə uyğun olaraq burada sadəcə həyatın dörd mənasını nümunə üçün qeyd etdik. Əsas sözümüz bəhsin nəticəsindədir.

İslam tarixinə diqqət yetirdikdə açıq-aydın şəkildə müşahidə etmək olur ki, ondan əvvəlki dövr cahillik dövrü adlandırılmışdır. Bütün tarixçilər öz kitablarında həmin dövrün adını cahillik dövrü kimi qələmə almışlar. Hətta Villiam Ceyms Dürant kimi amerikalı tədqiqatçı alim də bunu öz kitabında yazmışdır.

İslam dini nazil olduqdan sonra insanları cahillikdən ayıraraq onlara ağıl, düşüncə, mənəviyyat, iman, qüdrət və hürriyyət bəxş etdi. Cahillik dövründə insanların həyatı heyvani həyat idi. İnsan surətində yaşasalar da belə mənəviyyat, ağıl, düşüncə və s. kimi keyfiyyətlərə malik olmadıqlarından digər canlılartək həyat sürürdülər. İslam dini onlara mənəviyyat və s. kimi yüksək insani məziyyətləri bəxş edərək həyatın mənasını başa saldı.

Həzrət Peyğəmbər (s) İran şahlarından olan III Yəzdigürdə məktub yazaraq onu öz nümayəndələri ilə ona çatdırdı. Allahın Rəsulunun (s) nümayəndələrinin gətirdiyi məktubu qəbul edən şah onlardan soruşdu: “Sizin peyğəmbərinizin məqsədi nədir?”

Onlar Həzrət Peyğəmbərin (s) məqsədini şaha başa salaraq dedilər:

لِيُخْرِجَ العِبَادَ مِنْ عِبَادَةِ العِبَاد اِلَى عِبَادَةِ الله، وَمِن ضِيقِ الدُّنيَا إِلَى سعَةِ الآخِرَة، وَ مِن جَورِ الأَديَان إِلى عَدلِ الإِسلام

–Onun məqsədi budur ki, Allahın bəndələrini bəndələrə ibadət etməkdən çəkindirib, Allaha ibadət etməyə və dünyanın darlığından axirətin genişliyinə, *(keçmiş və təhrif olunmuş)* dinlərin zülmündən İslamın ədalətinə yönəltsin.

Cahillik odur ki, insan bu aləmi yaradanın əzəmətini bir kənara qoyaraq daşa, xurmaya və yaxud öz əli ilə düzəltdiyi bütlərə ibadət etsin. Cahillik odur ki, insan bu dünyanı əbədi və həmişəlik bilsin. Əgər bu dünya əbədi olsaydı, peyğəmbərlər burada qalardılar. Əgər

bu dünya əbədi olsaydı, şahlar və fironlar da bu dünyada qalardılar. Əgər bu dünya əbədi olsaydı, bir zaman dünyaya meydan oxuyanlar yenə də hökmranlıq edərdilər.

Həzrət Əli (ə) buyurur:

وَ إِنَّ لَكُمْ فِى الْقُرُونِ السَّالِفَةِ لَعِبْرَةً! أَيْنَ الْعَمَالِقَةُ وَ أَبْنَاءُ الْعَمَالِقَةِ؟ أَيْنَ الْفَرَاعِنَةُ وَ أَبْنَاءُ الْفَرَاعِنَةِ؟ أَيْنَ أَصْحَابُ مَدَائِنِ الرَّسِّ الَّذِينَ قَتَلُوا النَّبِيِّينَ، وَ أَطْفَؤُوا سُنَنَ الْمُرْسَلِينَ، وَ أَحْيَوْا سُنَنَ الْجَبَّارِينَ؟

–Sizin üçün keçən dövrlərdə ibrət vardır *(ki, keçmişlərin bu dünyadan necə üzülüşmələrinə nəzər salasınız)*. Haradadır Əmaliqə və onların övladları.[19] Haradadır *(Misir şahları olmuş)* Fironlar və övladları? Haradadır peyğəmbərləri öldürən, Allahın elçilərinin hökmlərini söndürən *(məhv edən)* və zalımların ənənələrini diriltdən *(həmin əsasda davranan)* Rəss şəhərlərinin əhalisi?

Cahillik odur ki, insan cahillik aləmindəki ehkamlara əməl etsin.

Quranda "Əhzab" surəsinin 33-cü ayəsində maraqlı və incə bir məqama rast gəlirik. Bu ayənin əvvəlində Həzrət Peyğəmbərin (s) zövcələrinə xitab olunur və onlar bir sıra ehkamlara dəvət edilir. O zamanlar qadınlar hicab bağlayarkən örpəyin bir ucunu qatlayıb boyunlarına atardılar. Belə olduqda saçlarının, sinələrinin və boyunlarının bir hissəsi görünərdi. Allah-təala bu ayədə belə buyurur:

وَقَرْنَ فِي بُيُوتِكُنَّ وَلَا تَبَرَّجْنَ تَبَرُّجَ الْجَاهِلِيَّةِ الْأُولَى وَأَقِمْنَ الصَّلَاةَ وَآتِينَ الزَّكَاةَ وَأَطِعْنَ اللَّهَ وَرَسُولَهُ

–Vüqarla öz evlərinizdə qərar tutun, ilkin cahillik dövründəki *(qadınların)* çıxdığı kimi *(bəzək-düzəkli, hicaba riayət etmədən)* camaat arasına çıxmayın, namaz qılın və zəkat verin, Allaha və Onun Rəsuluna itaət edin.

Ayədəki diqqəti cəlb edən maraqlı məqam "ilkin və yaxud birinci cahillik" ifadəsidir. Burada qarşıya belə bir sual çıxır ki, bəs ikinci

---

[19] Əmaliqə İmliq ibn Lavəz ibn İrəm ibn Sam ibn Nuhun övladlarından ibarət böyük bir dəstə olublar ki, Yəmən və Hicazda padşahlıq ediblər. Sonralar onların kökü kəsilib.

cahillik nədir? Yəni əgər birinci cahillik dövrü vardırsa, deməli ikinci cahillik dövrü də olmalıdır və görəsən, o hansıdır?

Ayədə işlənmiş "ilkin cahillik" İslamdan öncəki cahillik dövrünə işarədir. İlkin cahillik dövrü ifadəsində məqsəd budur ki, yəni siz elə bir iş görməyin ki, ikinci cahillik dövrü də yaransın. Birinci (İslamdan öncəki) cahillik dövründə bütpərəstlik, dünyaya bağlılıq, qətl, qarət, baş kəsmək, qan tökmək, qadınların pis vəziyyətə düşməsi, haram yeməklər, haram oyunlar kimi fəsadlar var idi. Bu fəsadlardan çəkinmək lazımdır ki, ikinci cahillik dövrünə yol açılmasın. Tarixdə insanlar pul və vəzifə naminə çox oyunlardan çıxdılar, hər bir işə əl atdılar. Hətta pula görə İmam Hüseynin (ə) başını belə kəsdilər.

İmamın (ə) başını kəsdikdən sonra onun başını sandığın içinə qoyub Xuliyə verdilər. Xuli İmamın (ə) başını götürdü və o həzrətin ailə üzvlərini də yalın dəvələrin üstünə mindirərək Kufədən Şama tərəf yola düşdü. Kufədən Şama gedən yolun üstündəki yaşayış məntəqələrinin camaatı Həzrət Peyğəmbərin (s) Əhli-beytini (ə) tanıyırdılar. Buna görə də onlar elə bir yolla getdilər ki, orada Əhli-beyti (ə) tanıyan olmasın.

Həmin yolun üstündə bir kilsə var idi. Kilsənin rahibi pəncərədən çölə baxırdı. Birdən gözü uzaqdan gələn karvana sataşdı. Elə o an Allah onun gözlərinə karvandakı sandıqdan göylərə nur qalxdığını göstərdi. Karvan ora yaxınlaşdı və gecəni orada qalmağı qərara aldılar. Rahib kilsədən çıxıb karvanın haradan gəldiyini soruşdu. Onlar dedilər: "Kufədən gəlirik. Orada bir qrup adam hakimiyyət əleyhinə mübarizəyə qalxmışdı. Hökumət qoşunları onları öldürdü və ailə üzvlərini isə əsir götürdülər."

Rahib soruşdu: "Bəs o sandıqdakı nədir?" Dedilər: "Həmin dəstənin rəhbərinin kəsilmiş başıdır." Rahib dedi: "İndi ki, gecəni burada qalmağı qərara almısınız, o sandığı bircə gecəlik mənə verə bilərsinizmi? Mən onu əmanət kimi saxlayıb səhər özünüzə qaytararam." Dedilər: "Bunu gərək karvanın rəhbərindən soruşasan." Rahib dedi: "Karvanın rəhbəri kimdir?" Ona Xulini göstərib dedilər: "Bax odur." Rahib Xuliyə yaxınlaşıb dedi: "O sandığı bu gecəlik mənə verə bilərsinizmi?" Xuli dedi: "Pulunu

ver, götür.” Rahib dedi: “Atamdan miras olaraq müəyyən qədər pul qalıb. Həmin pulu son günlərim üçün saxlamışdım. İndi ki belə oldu, həmin pulu sənə verərəm.”

Rahib həmin pulu onlara verib sandığı özü ilə apardı. Sandığı qarşısına qoyub onun ağzını açanda başla üz-üzə dayanıb dedi: “Səndən göylərə nur ucaldığını görmüşəm. Xahiş edirəm özünü mənə tanıtdır.” Elə bu zaman İmam Hüseynin (ə) dodaqları tərpənərək buyurdu: “Mən susuzam.” Rahib dedi: “Tanımadım səni.” İmam (ə) buyurdu: “Mən məzlumam.” Rahib dedi: “Yenə də tanımadım səni.” İmam (ə) buyurdu: “Mən Məhəmməd Mustafanın oğluyam.” Rahib dedi: “İndi tanıdım səni. Mən İslam Peyğəmbərinin (s) adını eşitmişəm. Mən gecəni səhərə qədər sənə və ailə üzvlərinə xidmət edəcəyəm. Səndən bir xahişim var. İstəyirəm ki, qiyamət günündə mənə də şəfaət edəsən.” İmam (ə) buyurdu: “Biz möminlərə şəfaət edəcəyimizə söz vermişik. Əgər iman gətirsən, sənə də şəfaət edərik.”

Rahib bu sözləri eşitdikdə İslam dinini qəbul edib iman gətirdi və səhərə qədər İmamın (ə) başına və onun ailə üzvlərinə qulluq etdi. Səhərisi gün Xulinin adamları gəlib İmamın (ə) başını ondan geri istədilər.

*Rahib dedi: kəsik başı məndən ayırmayın,*
*Alsaz da barı yolda ona nizə vurmayın.*
*İncili qoymuşam yerə, Quranı tutmuşam,*
*Məryəmdən əl çəkib, Zəhranı tutmuşam.*

İkinci cahillik dövrü pul və vəzifəpərəstlik dövrüdür, minlərlə insanın qanına susamaq, şəhərləri və kəndləri xaraba qoymaq dövrüdür. Birinci cahillik dövründə bugünkü qədər insan öldürülməmişdir. Birinci cahillik dövründə qadınlar başlarına örpək atırdılar, sadəcə olaraq boğazları və azacıq saçları görünərdi. Amma bu gün dünyanın ən inkişaf etmiş ölkələrinə baxdıqda açıq-aydın şəkildə görürük ki, qadınları lüt halda vitrinlərə düzüb başlarının üstünə də qiymətlərini yazıblar. Birinci cahillik dövründə belə işlər yox idi.

Birinci cahillik dövrü ilə ikinci cahillik dövrünü fərqləndirən cəhətlərdən biri budur ki, o vaxtın cahilləri kafirlər idi və onlar küfrün arxasınca gedirdilər. İkinci cahillik dövründə isə onlar İslam adı altında hər bir cinayətə əl atırlar.

İmam Hüseyni (ə) atdan yerə saldıqdan sonra düşmən qoşunu qarət məqsədilə xeymələrə hücum çəkdi. Xeymələrdə isə təxminən 84 nəfər qadın, qız-uşaq var idi. Düşmən qoşununun sayı isə otuz min nəfər idi. İmam (ə) onların xeymələrə sarı hücum çəkdiyini görüb səsləndi.

يَا شِيعَةَ آلِ أَبِي سُفْيَانَ إِنْ لَمْ يَكُنْ لَكُمْ دِينٌ وَكُنْتُمْ لَا تَخَافُونَ الْمَعَادَ فَكُونُوا أَحْرَاراً فِي دُنْيَاكُمْ وَارْجِعُوا إِلَى أَحْسَابِكُمْ إِنْ كُنْتُمْ عُرباً كَما تَزعَمُون

–Ey Ali-Əbu Süfyanın ardıcılları, əgər dininiz yoxdursa, məad və haqq-hesab günündən qorxunuz yoxdursa, heç olmasa dünyanızda azad olaraq yaşayın. Heç olmasa əsil-nəsəbinizin *(ata-babalarınızın tutduğu)* yolu gedin.

İmamın (ə) bu kəlamında birinci cahilliklə ikinci cahilliyin məsələsi açıq-aydın görünür. İmam (ə) bu sözlərilə onlara bildirirdi ki, ilkin cahillik dövründə heç bir vaxt qadınlara və xüsusilə kişinin gözü görə-görə onun ailəsinə hücum olunmazdı.

Kərbəlada İslam adı altında Həzrət Peyğəmbərin (s) balasının başını kəsdilər. Hətta altıaylıq körpəsini belə oxla vurub, əhli-beyt qadınlarının xeymələrini yandırdılar. Üç yaşında olan bir qız uşağı ətəyi yana-yana xeymədən çıxıb qaçmağa başladı.

Orada olanlardan biri deyir: “Gördüm ki, körpə bir qızcığazın ətəyi alovlanıb və onu söndürə bilmir. Tez özümü ona yetirdim. Qız məni görən kimi qorxusundan salam verdi. Ona dedim: “Qorxma, sənə kömək etmək istəyirəm.” Qız mənə dedi: “Ey Şeyx, mənim ətəyimə əl vurma. Mən Əli Əkbərin bacısıyam. İmkan vermərəm ki, ətəyimə naməhrəm əli toxunsun. Sən mənə Nəcəf yolunu göstər.” Dedim: “Nəcəfə nə üçün getmək istəyirsən?” Dedi: “Gedirəm babam Əliyə (ə) şikayət edəm.” Dedim: “Yol uzaqdır və qaranlığa düşərsən.”

Dedi: “Elə isə Nəhri-Əlqəmi mənə göstər.” Dedim: “Orada nə işin var?” Dedi: “Gedirəm əmim Əbülfəzlə şikayət edəm.”

İmam Hüseyn (ə) bu azğın tayfaya başa salırdı ki, birinci cahillik dövründə sizin ata-babalarınız qadınlara hücum etməzdilər. Əgər amma dininiz yoxdursa, qiyamətdən qorxmursunuzsa, hes olmasa dünyada azad insanlar olun. Heç olmasa öz ata-babalarınızın tutduğu yolla gedin.

قَالَ عَلِيٌّ(ع): مُوتُوا قَبلَ أَن تَمُوتُوا

–Həzrət Əli (ə) buyurur: “Ölməzdən əvvəl ölün.”

Hədisin mənası budur ki, təbii ölümdən əvvəl nəfsinizi öldürün. Heyvaniyyət aləmində ölün ki, insanlıqla diri qalasınız. Digər bir hədisdə də belə buyurulur:

مُت بِالإِرَادَة تُحْيِ بِالطَّبِيعَةِ

–Öz iradənlə öl *(nəfsini öldür)* ki, həyat tapasan.

# HƏZRƏT İMAM ƏLİNİN (Ə) ŞƏHADƏTİ

## İmam Əlinin (ə) vəsiyyəti

## Liqaullah (Allahla görüş)

بِسْمِ اللهِ الرَّحْمَنِ الرَّحِيمِ. الْحَمْدُ لِلَّهِ عَلَى مَا عَرَّفَنَا مِنْ نَفْسِهِ، وَ أَلْهَمَنَا مِنْ شُكْرِهِ، وَ فَتَحَ لَنَا مِنْ أَبْوَابِ الْعِلْمِ بِرُبُوبِيَّتِهِ، وَ دَلَّنَا عَلَيْهِ مِنَ الْإِخْلَاصِ لَهُ فِي تَوْحِيدِهِ، وَ جَنَّبَنَا مِنَ الْإِلْحَادِ وَ الشَّكِّ فِي أَمْرِهِ. والصَّلاةُ والسَّلامُ على عَبدِهِ وَرَسُولِه البشيرِ النَّذيرِ، السِّراج المنيرِ، سَيِّدِ الأنبِياءِ وَالْمُرسَلِين اَبِي القَاسِمِ مُحَمَّد. وَعَلى آلِهِ الأَطيَبِينَ الأَطهَرِين، سِيَّمَا بَقِيَّةِ اللهِ فِي الأَرَضِين. اَللّهُمَّ عَجِّل فَرَجَهُم وَانصُر شِيعَتَهُم وَاَهلِك اَعدائَهُم مِنَ الاَوَّلِينَ وَالآخِرِين. آمِينَ رَبَّ العَالَمِين.

Mübarək ramazan ayının 20-si İslam dünyasında ürəkağrıdan bir hadisə ilə yaddaşlara yazıldı. Həmin gün Həzrət Peyğəmbərin (s) canişini, Allahın yer üzərində insanlara təyin etdiyi İmam (ə) balalarını başına toplayıb onlara son vəsiyyətini edirdi. O həzrət Allah evinin içində dünyaya gəldiyindən Kəbənin, həcc və təvafın duzu olduğu kimi, şəhadəti də ramazan və qədr gecələrinin duzudur. O həzrətin şəhid olması ramazan ayının və qədr gecələrinin mənəvi dəyərlərini daha da artırır. Belə ki, insanları ibrətə, etibara və bəsirətli olmağa vadar edir. Həzrət Əli (ə) ramazan ayının 19-cu gecəsi sübh namazını qılarkən başından yaralandı. O zamanlarda Xəvaric adlı bir cərəyan yaranmışdı. Onlar öz aralarında məsləhətləşib belə qərara almışdılar ki, ramazan ayının 19-cu gecəsi Həzrət Əlini (ə) qətlə yetirsinlər. Əlbəttə, bu cərəyanın uzun bir tarixi vardır ki, kitablarda onun barəsində geniş şəkildə yazılmışdır.

Həzrət Əlinin (ə) qılınc zərbəsi alması və dünyadan getməsi iki gün (ramazan ayının 19-21-i) ərzində baş verdi. Bu iki gün ərzində İmama (ə) baş çəkmək üçün gələnlər çox idi. Lakin həkim xəstəni narahat etməməyi tapşırmışdı. Buna görə də gələnlərin hamısını İmamla (ə) görüşə buraxmırdılar. Lakin bir qrup tanınmış və yaxın insanlar o həzrətlə görüşüb söhbət edirdilər. Həzrət Əli (ə) bu iki gün ərzində iki dəfə vəsiyyət etmiş və onun vəsiyyətlərini yazmışdılar. Həmin vəsiyyətlərdən biri “Nəhcül-bəlağə”də 47-ci məktubdadır ki,

orada oğlu İmam Həsənə (ə) və İmam Hüseynə (ə) xitab edərək bütün eşidənləri (bu vəsiyyəti oxuyanları) nəzərdə tutur.

İkinci vəsiyyətnaməsi isə “Nəhcül-bəlağə”nin 23-cü məktubudur. Həzrət (ə) bu vəsiyyətdə bütün insanları nəzərdə tutaraq üç mətləbdən ibarət olan bir vəsiyyət etmişdir. Bu bəhsdə də əsas sözümüz ikinci vəsiyyətnamənin axırıncı mətləbi ilə bağlıdır və həmin mətləbə toxunmaq istərdim. Həzrət (ə) belə buyurur:

وَ اللّهِ ما فَجَاَنى مِنَ الْمَوْتِ وَارِدٌ كَرِهْتُهُ، وَ لا طالِعٌ اَنْكَرْتُهُ. وَ ما كُنْتُ اِلاّ كَقارِب وَرَدَ، وَ طالِب وَجَدَ "وَ ما عِنْدَاللّهِ خَيْرٌ لِلاَْبْرارِ."

–Allaha and olsun ki, bu faciəli ölümlə mənim yanıma xoşlamadığım *(bir şey)* gəlməyəcək və *(ondan sonra)* istəmədiyim bir şey aşkar olmayacaq. *(Ölümə hazıram. Çünki ölümün arxasında əbədi səadət var və mən bu dünyadakı həyata vurulmamışam.)* Mən *(ölümə münasibətdə susuz adamın)* su axtararaq *(onu)* tapan və bir şeyin arzusunda olub *(onu)* əldə edən şəxs kimiyəm. *(Çünki gözəllik və xoşbəxtlik ölümdən sonradır, necə ki, Qurani-kərimin “Ali-İmran” surəsinin 198-ci ayəsində buyurulur:)* «وَمَا عِندَ اللهِ خَيْرٌ لِّلاَبْرَارِ» – “Allah yanında olan *(əbədi)* nemətlər yaxşı əməl sahibləri üçün *(dünya mallarından)* daha xeyirlidir.”

Həzrət Əlinin (ə) qılınc zərbəsi almamışdan əvvəl də ölümə münasibəti barədə bir sıra kəlamları olmuşdur. Hətta ölümün aşiqi olmasını da bəyan etmişdir. Bu mənada ki, o həzrət ölümü əbədi həyat hesab edirdi. O, ölümü məşuqun öz məşuqəsinə qovuşması kimi qəbul edirdi. Ölüm o deyil ki, insanı torpağın altına qoymaqla tamamlansın. Həzrət Əlinin (ə) nəzərində ölüm vüsala yetişmək deməkdir. O həzrət “Nəhcül-bəlağə”nin 62-ci məktubunda belə buyurmuşdur:

وَ اِنّى اِلى لِقاءِ اللّهِ لَمَشْتاقٌ

–Mən Allahla görüşü arzulayır və ümidvarcasına gözləyirəm.

“Nəhcül-bəlağə”nin 179-cu xütbəsində belə buyurmuşdur:

وَ اِنَّ اَحَبَّ ما اَنَا لاق اِلَىَّ الْمَوْتُ

–Mənim üçün mənimlə görüşməsini istədiyim ən sevimli şey ölümdür.

“Nəhcül-bəlağə”nin 5-ci xütbəsində belə ölümə münasibət bildirərək belə buyurmuşdur:

واللهِ لَإبْنُ اَبى طالِب آنَسُ بِالْمَوْتِ مِنَ الطِّفْلِ بِثَدْيِ اُمِّهِ

–And olsun Allaha, Əbu Talib oğlunun *(mənim)* ölümə meyli südəmər uşağın anasının döşünə olan meylindən daha artıqdır.

## “Liqaullah” nədir?

Qeyd olundu ki, Həzrət Əli (ə) ölümü özü üçün “Liqaullah” hesab edirdi. Sual oluna bilər ki, “Liqaullah” nədir? Bu sözün lüğətdə mənası “Allahla görüş” deməkdir. Liqaullah elə bir məsələdir ki, böyük alimlər, arif və müctəhidlər bu haqda söhbət edib kitablar yazmışlar. Mərhum Feyz Kaşani bu barədə dərin və geniş bəhslər açmışdır. Mərhum İmam Xomeyni “Qırx hədis” kitabında “Liqaullah” mövzusunu gözəl və ətraflı şəkildə açıqlamışdır. Həmçinin mərhum Mirzə Cavadağa Məliki Təbrizi də yalnız bu mövzuya həsr olunmuş 300 səhifəlik bir kitab yazmışdır. Belə ki, onun yazdığı bu kitabı böyük alimlər dəstəkləmiş və öz yazılarında ondan sitatlar belə gətirmişlər. Xüsusilə İmam Xomeyni (r) öz kitabında Məliki Təbrizinin kitabından da bəhs etmişdir. Ayətullah Həsənzadə Amili həmin kitabdan söz açaraq belə yazmışdır: “Eşqin mənasını axtaran o kitabı oxusun.” Bir sözlə desək, İslamın nəhəng alim və şəxsiyyətləri liqaullah barədə dərin mənalı fikirlər söyləmiş və kitablar yazmışlar.

Bu bəhsimizdə Həzrət Əlinin (ə) şəhadət istəyindən söz açmaq istərdim. Amma müqəddimə üçün “Liqaullah” mövzusu barədə azacıq da olsa bəhs etmək məcburiyyətindəyəm.

“Liqaullah”ın (Allahla görüşün) bir mənası budur ki, insan bəsirət və qəlbinin gözü ilə Onun pak zatını (nişanələrini) müşahidə edə bilsin. Bu, Həzrət Əlinin (ə) axtardığı həmin görüşdür. Ölüm də Allahla görüşmək üçün bir vasitədir. Necə ki, İmam Hüseyn (ə) Kərbəlada səhabələrinə belə buyurdu:

صَبْراً يا بَنِي الكِرامِ فَمَا الْمَوتُ اِلاّ قَنْطَرَةٌ

–Ey kəramətli və hörmətli kişilərin övladları! Səbir edin. Ölüm körpüdən savayı başqa bir şey deyil.

İmam (ə) bununla başa salırdı ki, əsas insanın bu taydan o taya keçə bilməsidir. İmam Əlinin (ə) ölümə meylinin südəmər uşağın anasının döşünə olan meylindən daha artıq olması o demək deyildir ki, o həzrət ölüb torpaqda dəfn edilməsini istəyir. Bütün bunlar Allahla görüşmək üçün bir vasitədir. İnsan Allahın pak zatını nə qədər çox dərk edə bilsə, büna liqaullah deyilir. İmanın həqiqəti odur ki, insan hər yerə baxdıqda Allahı görsün. Necə ki, "Bəqərə" surəsinin 115-ci ayəsində belə oxuyuruq:

فَأَيْنَمَا تُوَلُّواْ فَثَمَّ وَجْهُ اللّهِ

–Hansı tərəfə yönəlsəniz *(üz tutsanız),* Allah oradadır.

Həzrət Əli (ə) bu barədə belə buyurur:

ما رَأَيتُ شَيئاً اِلاّ وَ رَأَيتُ اللّهَ قَبلَهُ وَ بَعدَهُ وَ مَعَهُ

–Elə bir şey yoxdur ki, ona baxdıqda ondan qabaq, onunla birgə və ondan sonra Allahı *(ın nişanələrini)* görməyim.

Bir gün o həzrətdən soruşdular: "Sən Allahı görürsənmi?" İmam (ə) buyurdu: "Mən görmədiyim Allaha ibadət etmərəm."

Həzrət Əli (ə) zahiri gözlərlə deyil, qəlbinin gözü ilə Allahı görürdü. Çünki zahiri gözlərin Allahı görməyə qüdrət və qabiliyyəti yoxdur. Deməli, qəlbin gözü ilə Onun əzəmətini, qüdrətini, cəlalını və nişanələrini müşahidə etməyə "Liqaullah" deyilir.

"Üsuli-Kafi"də İmam Sadiqdən (ə) belə bir hədis nəql olunmuşdur:

...إِنَّ رُوحَ الْمُؤْمِنِ لَأَشَدُّ اتِّصَالًا بِرُوحِ اللَّهِ مِنِ اتِّصَالِ شُعَاعِ الشَّمْسِ بِهَا

–Doğrudan da, möminin ruhunun Allahın ruhuna bağlılığı Günəşin şüasının Günəşə bağlılığından daha möhkəmdir.

Bu bağlılığın qalması və ya qırılması da insanın öz əlindədir. Əgər qırılsa, insan Allahdan uzaq düşəcək. Belə olduqda Allah "Ey iman gətirənlər!" xitabı ilə bizi səsləyəcək. Yəni ey uzaq düşüb qalan möminlər. İnsan günah etdikcə Allahdan uzaq düşür və aradakı

pərdələr çoxalır. Amma aradan bütün pərdələri qaldıran insanların ruhu Allaha bağlı olacaqdır.

"Liqaullah" mövzusu barədə xülasə də olsa bəhsimizin müqəddiməsi üçün yetərlidir. Amma bu barədə danışası olsaq, geniş bir mövzu açmalı olacağıq.

## "Liqaullah"ın (Allahla görüşün) ləzzəti

Allahla görüşməyin ləzzəti elə bir şeydir ki, aləmdə olan (yeməklər, içməklər, cənnət nemətləri, hurilər və s.) bütün ləzzətlərin heç biri ona çata bilməz. Əlbəttə, bir daha qeyd edim ki, "Liqaullah"ın ləzzətini yalnız onun əhli başa düşər. Bunu deməklə kimisə anlatmaq mümkün deyil. Hər bir insan bu mərhələyə çatdıqdan sonra onun nə olduğunu başa düşə bilər.

Allah-təala Musa Peyğəmbərə (ə) kitab göndərəcəyini vəd etmişdi. Musa (ə) da bunun üçün Tur dağına gedib ibadət etməli idi. O, bir dəstə insanla dağa sarı yollandı. Dağın ətəyinə çatar-çatmaz Həzrət Musa (ə) yoldaşlarını geridə qoyub iri addımlarla və tələsə-tələsə yeriməyə başladı. Allahdan ona belə bir xitab gəldi: "Ya Musa, yoldaşlarını arxada qoyub hara tələsirsən? Axı sən onlarla birgə gəlirdin." Musa (ə) ərz etdi: "İlahi, Sənin görüşünün və razılığının sevinci hər şeyi yadımdan çıxartdı."

"Taha" surəsinin 83-84-cü ayələrində bu məsələ belə bəyan olunmuşdur:

وَمَا أَعْجَلَكَ عَن قَوْمِكَ يَا مُوسَى. قَالَ هُمْ أُولَاء عَلَى أَثَرِي وَعَجِلْتُ إِلَيْكَ رَبِّ لِتَرْضَى

–Musa qövmünün seçilmiş nümayəndələri ilə Tur dağına gələndə mənzilbaşına onlardan tez çatdı. Ona belə xitab olundu: "Ey Musa, səni nə tələsdirdi ki, qövmündən qabaq gəldin?"

Dedi: "İndi onlar da mənim arxamca gəlirlər. Ey Rəbbim, mən Sənə tərəf tələsdim ki, məndən razı qalasan."

İmam Sadiq (ə) Həzrət Musanın (ə) oradakı halını və sevincini belə bəyan etmişdir:

المشتاقُ لا يَشتَهي طَعاماً، ولا يَلتَذُّ شَراباً، ولا يَستَطيبُ رُقاداً، ولا يَأنَسُ حَميماً، ولا يَأوي داراً، ولا يَسكُنُ عُمراناً، ولا يَلبَسُ لَيِّناً، ولا يَقِرُّ قَراراً، ويَعبُدُ اللهَ لَيلاً ونَهاراً راجِياً بِأَن يَصِلَ إلى مَا اشتاقَ إلَيهِ، ويُناجِيَهُ بِلِسانِ الشَّوقِ مُعَبِّراً عَمّا في سَريرَتِهِ، كَما أخبَرَ اللهُ تَعالى عَن موسَى عليه السّلام في ميعادِ رَبِّهِ بِقَولِهِ: وَ عَجِلْتُ إِلَيْكَ رَبِّ لِتَرْضَى.

–Allaha aşiq olan insan nə yeməyə, nə içməyə meyl edər. Gözünə yuxu getməz, heç kimlə dost olmaz, heç bir abadlığı özünə mənzil seçməz. Əyninə yumşaq paltar geyməz, heç bir qərarı olmaz. Gecə-gündüz Allaha ibadət edər, arzuladığına *(Allaha)* çatmağa tələsər. Daxili aləmindən xəbər verən aşiqanə dili ilə Onunla razü-niyaz edər. Necə ki, Allah-təala Musa ibn İmranla görüşü haqda belə buyurmuşdur: “İlahi, Sənə doğru tələsdim ki, razı qalasan.”

İslam Peyğəmbərindən (s) belə nəql olunur ki, Allah-təala Həzrət Musaya (ə) üç gün ərzində yüz iyirmi dörd min kəlmə öyrətdi. Həmin üç gün ərzində onun yadına nə yemək, nə də içmək düşmədi.

Həzrət Musa (ə) Allahla söhbət edib qayıtdıqdan sonra camaatın danışığından xoşu gəlmirdi. Çünki Allahla söhbət etməyin ləzzəti o qədər ona təsir etmişdi ki, başqalarının sözlərindən acığı gəlirdi.

Allahla görüş elə bir haldır ki, onun nə olduğunu yalnız bu halı yaşayanlar bilir. Bu halın nə olduğunu Həzrət Əli (ə) bilir. Əlbəttə, Allahla görüşün iki forması vardır ki, biri elə bu dünyadadır. Yəni Allaha ibadət və səcdə etməklə bu məqama yetişmək olar. Amma ikincisi isə öləndən sonradır ki, insan Allahına qovuşur. Həzrət Əlinin (ə) ölümdən xoşu gəlməsinin səbəbi də məhz elə Allahla görüşün bu ikinci mərhələsinə yetişmək idi.

Həzrət Əli (ə) “Nəhcül-bəlağə”nin 184-cü xütbəsində möminlərin xüsusiyyətləri barədə söhbət edərkən belə buyurur:

أَمَّا اللَّيْلَ فَصَافُّونَ أَقْدَامَهُمْ تَالِينَ لِأَجْزَاءِ الْقُرْآنِ يُرَتِّلُونَهَا تَرْتِيلًا يُحَزِّنُونَ بِهِ

–Gecə olanda *(namaz üçün)* ayaq üstə duraraq Quranın ayələrini diqqət və düşüncə ilə oxuyarlar və onu oxumaq və barəsində düşünməklə özlərini qəmləndirərlər.

عَظُمَ الْخَالِقُ فِي أَنْفُسِهِمْ فَصَغُرَ مَا دُونَهُ فِي أَعْيُنِهِمْ

–Onların nəzərində Allah böyük, Ondan başqası isə *(hər nə olmasından asılı olmayaraq)* kiçikdir.

Günlərin birində Həzrət Peyğəmbər (s) Həzrət Əliyə (ə) buyurdu: "Ya Əli, gecə namazı nurdur."

Həzrət Əli (ə) bu sözü eşitdikdən sonra ömrünün axırına qədər, hətta "Leylətül-hərir" kimi çətin anlarda da belə gecə namazını tərk etmədi. Gecələr Allahla münacat edib Onun eşqindən və qorxusundan elə ağlayardı ki, gözlərinin suyu saqqalından süzülüb sinəsini isladardı. Bəzən də o qədər ağlayardı ki, haldan gedib yerə yıxılardı.

Kumeyl ibn Ziyad deyir: "Bir gün Əlini (ə) səcdəyə gedib "Kumeyl" duasını oxuduğunu gördüm. Səcdədən qalxdıqda gördük ki, gözyaşları üz və saqqalından süzülərək torpağı palçıq olanadək isladıb.

Əlbəttə ki, Allahla görüşün mənasını və ləzzətini Həzrət Əli (ə) bilər. O bilər ki, Allahla görüşün şirinliyi necə olur.

Əbu Dərda deyir: "Günlərin birində dayanıb Həzrət Əlinin (ə) ibadət və münacatına tamaşa edirdim. Birdən gördüm ki, özündən gedib yerə yıxıldı. Ona yaxınlaşıb bədənini tərpətdim və elə bildim ki, dünyasını dəyişib. Tez qaçıb Xanım Zəhraya (s.ə) dedim: "Xanım, Əli (ə) dünyasını dəyişdi." Xanım (s.ə) buyurdu: "Xeyr, o ölməyib. Allahın qorxusundan özündən gedib. Gedin, onu ayıldıb evə gətirin."

Siffeyn müharibəsində İmamın (ə) ayağına ox batmışdı. Həkim gəlib baxdıqda gördü ki, bu oxu çıxartmaq üçün ayağının əti kəsilməlidir. Belə olan halda da o, şiddətli ağrılar çəkəcəkdir. İmam Həsən (ə) razı olmayıb həkimə dedi: "Gecəyarısı onun ibadətlə məşğul olan vaxtında gəlib oxu ayağından çıxararsan." Gecəyarısı Həzrət Əli (ə) ibadətə başladı. Həkim gəlib o haldaca İmamın (ə) ayağının ətini kəsdi və oxu çıxartdı.

Kitablardan birində belə qeyd olunur ki, İmam (ə) namazı qurtardıqdan sonra namaz qıldığı yerə baxıb soruşdu: "Bura nə üçün

qan içindədir?” Dedilər: “Ya Əmirəlmöminin, ayağından oxu çıxaranda sən çox qan itirdin.”

عَنْ نَوْفٍ الْبَكَالِيِّ قَالَ: «رَأَيْتُ أَمِيرَ الْمُؤْمِنِينَ(ع) ذَاتَ لَيْلَةٍ وَ قَدْ خَرَجَ مِنْ فِرَاشِهِ فَنَظَرَ فِي النُّجُومِ فَقَالَ لِي يَا نَوْفُ أَرَاقِدٌ أَنْتَ أَمْ رَامِقٌ؟ فَقُلْتُ بَلْ رَامِقٌ؟ فَقَالَ قَالَ يَا نَوْفُ طُوبَى لِلزَّاهِدِينَ فِي الدُّنْيَا الرَّاغِبِينَ فِي الْآخِرَةِ

يَا نَوْفُ إِنَّ دَاوُدَ ع قَامَ فِي مِثْلِ هَذِهِ السَّاعَةِ مِنَ اللَّيْلِ فَقَالَ إِنَّهَا لَسَاعَةٌ لَا يَدْعُو فِيهَا عَبْدٌ إِلَّا اسْتُجِيبَ لَهُ...

–Nauf *(ibn Fəzalə)* Bikalidən belə nəql edilib: “Bir gecə gördüm ki, Əmirəl-möminin əleyhissalam “Ali-İmran” surəsinin axırıncı ayələrini oxuya-oxuya çölə çıxdı və ulduzlara baxaraq belə buyurdu: “Ey Nauf, yatmısan, yoxsa oyaqsan?” Dedim: “Oyağam, ey Əmirəl-möminin.”

Buyurdu: “Ey Nauf, dünyada zahid olub axirətə ürək bağlayanların xoş halına!..

Ey Nauf, Davud əleyhissalam gecənin bu saatında *(səhərə yaxın Allah-təala ilə razü-niyaz üçün)* qalxaraq dedi: “Bu elə bir saatdır ki, dua edən hər bir kəsin duası qəbul olar.”[20]

Ayətullah Mürtəza Mütəhhəri bu rəvayətin “Nəhcül-bəlağə”də olmayan bir hissəsini başqa rəvayətlərə əsasən belə nəql edir:

يَا نَوف اِنْ طَالَ بُكائُكَ فِى هَذِه اللَّيلَة مَخافَةً مِنَ الله قَرَّت عَيناكَ غَداً بَينَ يَدَىِ اللهِ عَزَّوَجَلّ.

يَا نَوف اِنَّهُ لَيسَ مِن قَطرَةٍ قَطَرَت مِن عَينِ رَجُلٍ مِن خَشيَةِ الله اِلّا اَطفَأَت بِحَاراً مِنَ النّيرانِ

اِنَّهُ لَيسَ مِن رَجُلٍ اَعظم مَنزِلَة عِندَاللهِ من رَجُلٍ بَكى مِن خَشيةِ اللهِ وَاَحَبّ فِى اللهِ وَاَبغَضَ فِى الله

–Ey Nauf, əgər bu gecə Allahın qorxusundan çox ağlasan, sabah *(qiyamət günü)* Allahın məhzərində gözlərin aydın olacaq.

---

[20] Nəhcül-bəlağə, 101-ci kəlam.

Ey Nauf, kim Allahın qorxusundan gözyaşı axıtsa, onun bir damlası dəryalar qədər od-alovu *(cəhənnəm alovunu)* söndürər. Allahın yanında ən sevimli şəxs odur ki, Allahın qorxusundan gözyaşı axıdıb sevməyi və nifrəti də Allaha görə olsun.

### Həzrət Əlinin (ə) şəhadət istəyi

Həzrət Əli (ə) ömrünün axırına qədər şəhadətə yetişmək arzusunda olmuşdur. Sual oluna bilər ki, nə üçün o həzrət şəhid olmasını istəyirdi? Cavab belədir ki, şəhadət Allahla görüş üçün ən önəmli vasitədir. Ona görə də Həzrət Əli (ə) Allahın görüşünə çatmaq üçün bu vasitənin arzusunda olub.

Ühüd müharibəsində Həzrət Əli (ə) şəhadətə yetişmədiyi üçün narahat oldu. Döyüş sona çatdıqdan sonra Həzrət Peyğəmbər (s) Əlini (ə) pərt halda gördü. Səbəbini soruşduqda Həzrət Əli (ə) ərz etdi: “Ya Rəsulallah, döyüş qurtardı, amma mən şəhid olmadım.”

“Nəhcül-bəlağə”nin 155-ci xütbəsində belə buyurulur:

فَقُلْتُ: يَا رَسُولَ اللهِ، أَوَلَيْسَ قَدْ قُلْتَ لِي يَوْمَ أُحُدٍ حَيْثُ اسْتُشْهِدَ مَنِ اسْتُشْهِدَ مِنَ الْمُسْلِمِينَ، وَحِيزَتْ عَنِّي الشَّهَادَةُ، فَشَقَّ ذلِکَ عَلَيَّ، فَقُلْتَ لِي: «أَبْشِرْ، فَإِنَّ الشَّهَادَةَ مِنْ وَرَائِکَ»؟ فَقَالَ لِي: «إِنَّ ذلِکَ لَکَذلِکَ، فَکَيْفَ صَبْرُکَ إِذَنْ»؟ فَقُلْتُ: يَا رَسُولَ اللهِ، لَيسَ هذَا مِنْ مَوَاطِنِ الصَّبْرِ، وَلکِنْ مِنْ مَوَاطِنِ الْبُشْرَي وَالشُّکْرِ.

–Sonra dedim: “Ya Peyğəmbər! Ühüd günündə bir dəstə müsəlman şəhadət məqamına çatanda, mən Allah yolunda öldürülməkdən saxlandıqda, öldürülməməyim mənə ağır gələndə *(buna görə qəmgin olanda)* mənə “müjdələr olsun sənə ki, bundan sonra şəhid olacaqsan”, – deyə buyurmadınmı?” Sonra mənə buyurdu: “Dediklərin doğrudur. Şəhidliyi qəbul edərkən dözümün necə olacaq?” Dedim ki, “ya Peyğəmbər! Bu iş səbrlik deyil, müjdə və şükürdür. *(Allah yolunda öldürülmək mənim üçün ən böyük nemət və ilahi bəxşişdir.”)*

Odur ki, liqaullah barədə saatlarla bəhs etmək olar. Bu mövzu ilə bağlı olan bütün söhbətlərin və yazılan kitabların hamısını bir yerə toplasaq görərik ki, Həzrət Əlinin (ə) bircə cümləsi onu təsdiqləyərək

möhrünü vurdu. İbadət mehrabında qılınc zərbəsi başına dəyərkən belə buyurdu:

بِسمِ اللهِ وَبِاللهِ وَعَلَى مِلَّةِ رَسُولِ اللهِ فُزتُ وَرَبِّ الكَعبَةِ

–Allahın adı, Allahın köməyi və Allahın Peyğəmbərinin təriqəti ilə başlayıram! And olsun Kəbənin Rəbbinə ki, muradıma çatdım!

Belə rəvayət olunur ki, Həzrət Əlini (ə) qılınc zərbəsi ilə vurub yaraladıqdan sonra o, yerə yıxılmış bir vəziyyətdə "Taha" surəsinin 55-ci ayəsini oxuyurdu:

مِنْهَا خَلَقْنَاكُمْ وَفِيهَا نُعِيدُكُمْ وَمِنْهَا نُخْرِجُكُمْ تَارَةً أُخْرَى

–Sizi ondan *(torpaqdan)* yaratdıq, *(öləndən sonra)* ona qaytaracaq və bir daha *(qiyamətdə)* ondan çıxaracağıq.

Həzrət Əlinin (ə) başına zərbə dəyən zaman Cəbrayıl (ə) səslənib dedi:

تَهَدَّمَت وَاللَّهِ اَركانُ الْهُدَى

–And olsun Allaha, hidayətin sütunları qırıldı!

## İMAM HÜSEYNİN (Ə) ŞƏHADƏTİ (ƏRBƏİN)
## (İmam Hüseynin (ə) fəzilətləri)

بِسْمِ اللهِ الرَّحْمَنِ الرَّحِيمِ. الْحَمْدُ لِلَّهِ عَلَى مَا عَرَّفَنَا مِنْ نَفْسِهِ، وَ أَلْهَمَنَا مِنْ شُكْرِهِ، وَ فَتَحَ لَنَا مِنْ أَبْوَابِ الْعِلْمِ بِرُبُوبِيَّتِهِ، وَ دَلَّنَا عَلَيْهِ مِنَ الْإِخْلَاصِ لَهُ فِي تَوْحِيدِهِ، وَ جَنَّبَنَا مِنَ الْإِلْحَادِ وَ الشَّكِّ فِي أَمْرِهِ. والصَّلاةُ والسَّلامُ على عَبدِهِ وَرَسُولِه البشيرِ النَّذيرِ، السِّراج المنيرِ، سَيِّدِ الاَنبياءِ وَالْمُرسَلِين ا مُحَمَّدٍ وَ آلِهِ الْأَئِمَّةِ الأَطيَبِينَ الأَطهَرِين، سِيَّمَا بَقِيَّةِ اللهِ فِي الأَرَضِين. اَللّهُمَّ عَجِّل فَرَجَهُم وَانصُر شِيعَتَهُم وَاَهلِك اَعدائَهُم مِنَ الاَوَّلِينَ وَالآخِرِين. آمِينَ رَبَّ العَالَمِين.

Allah-təala "Yunis" surəsinin 57-ci ayəsində bütün insanlara xitab edərək belə buyurur:

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءَتْكُم مَّوْعِظَةٌ مِّن رَّبِّكُمْ وَشِفَاءٌ لِّمَا فِي الصُّدُورِ وَهُدًى وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ

–Ey insanlar, şübhəsiz, Rəbbiniz tərəfindən sizin üçün bir öyüd-nəsihət *(başdan-başa öyüd-nəsihət olan bir kitab),* sinələrdə olan *(xarab əqidələr və rəzil sifətlər)* üçün bir şəfa və möminlər üçün bir hidayət və mərhəmət gəlmişdir.

Bu ayədə insanlara açıq-aydın şəkildə başa salınır ki, Quran sizin üçün ən gözəl öyüd-nəsihətdir. Dərdlərinizin dərmanı, ruhi xəstəliklərinizin əlacı və bütün çətinliklərinizin hamısının müalicəsi bu kitabdadır. Həmçinin iman gətirənlər üçün hidayət və mərhəmət kitabıdır. Əgər möminlər dildə imandan danışdıqları kimi, özlərini əməldə də bu kitabla uyğunlaşdırsalar, o zaman inkişaf, tərəqqi və izzət onlarla olacaqdır.

قَالَ رَسُولُ اللهِ(ص): إِذَا الْتَبَسَتْ عَلَيْكُمُ الْفِتَن كَقِطَعِ اللَّيْلِ الْمُظْلِمِ فَعَلَيْكُمْ بِالْقُرْآنِ

–Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Çaşqınlıq və fitnələr üstünüzə qaranlıq gecə kimi üz tutduqda *(hücum çəkdikdə)* Qurandan möhkəm yapışın *(Qurana pənah aparın).*

İnsanların hidayət olunub nicat tapması həm Quran, həm də Əhli-beytlə (ə) bağlıdır. Çünki Quran və Əhli-beyt (ə) bir-birinin ayrılmaz hissəsidir. Kim bunları bir-birindən ayırmaq istəyirsə, deməli, insanların zəlalət və azğınlığı üçün çalışır. Çünki Quran və Əhli-beyti (ə) bir-birindən ayırmaq insanın yolunu itirməsi deməkdir.

قَالَ رَسُولُ اللهِ(ص):إنَّما مَثَلُ أهلِ بيتي فِيكُمْ كَمَثَلِ سَفينةِ نُوحٍ ؛ مَنْ رَكِبَها نَجا، و مَنْ تَخَلَّفَ عَنها غَرِقَ .

–Həzrət Peyğəmbər (s) buyurur: "Əhli-beytimin sizin aranızdakı məsəli Nuhun (ə) gəmisinə bənzəyir. Ona minən xilas olar, minməyən isə *(dəryada)* həlak olar."[21]

Sual oluna bilər ki, Həzrət Peyğəmbər (s) nə üçün öz Əhli-beytini (ə) Nuhun (ə) gəmisinə bənzətmişdir? Başqa gəmilərə bənzətmək olmazdımı? Cavab belədir ki, insan evində rahat əyləşdiyi halda gəmiyə minməsinə nə ehtiyac var? Amma Nuhun (ə) gəmisi başqa gəmilərdən fərqlidir. Həzrət Nuh Peyğəmbər (ə) uzun müddət (Quranın buyurduğuna əsasən, 950 il) camaatı Allaha tərəf dəvət etdi. Bəzi tarixi mənbələrdə yazırlar ki, bu müddət ərzində cəmi 80 nəfər ona iman gətirdi. İman gətirənlərdən savayı başqa heç bir kəs Nuhun (ə) sözlərinə qulaq asmaq istəmirdi. Axırda o, Allaha belə ərz etdi: "İlahi, uzun müddətdir ki, mən onları Sənə sarı çağırıram. Amma onlar məni eşitmək belə istəmirlər. Onlar hidayət olunmaq niyyətində deyillər. İlahi, onlara elə bir bəla göndər ki, həmin bəlaya düçar olduqlarını öz gözləri ilə görsünlər."

Allah-təala onun duasını qəbul edib buyurdu: "Elə isə bir gəmi düzəlt."

Nuh Peyğəmbər (s) elə bir gəmi düzəltdi ki, iman gətirənlər onun içində yerləşə bilsin. Əlbəttə, Quranın buyurduğuna əsasən, gəmi hazır olduqdan sonra Allah- təala ona xitab edərək buyurdu: "Ailəni gəmiyə mindir." Burada ailə dedikdə, onun həyat yoldaşı və yaxud oğlu kimi ailə üzvləri nəzərdə tutulmur. Allah-təala Nuha iman gətirənləri onun ailəsi hesab edirdi. Onlardan başqa hamısı yerdə qaldı və su hər yeri ağuşuna aldıqda boğulub öldülər. Beləcə, kim Nuhun (ə) gəmisinə mindisə, o da nicat tapdı. Kim o gəmiyə minmədisə, həlak oldu. Hətta Nuhun (ə) iman gətirməyən bir oğlu da

---

[21] Biharül-ənvar, 23-cü cild, səh.105, həd.3.

boğulub öldü. O, boğularkən qışqırıb atasını səsləyərək dedi: "Allah sənə ailənlə birgə gəmiyə minməyi tapşırmışdı. Mən də sənin oğlunam."

"Hud" surəsinin 45-46-cı ayələrində bu barədə belə oxuyuruq:

وَنَادَى نُوحٌ رَّبَّهُ فَقَالَ رَبِّ إِنَّ ابُنِي مِنْ أَهْلِي وَإِنَّ وَعْدَكَ الْحَقُّ وَأَنتَ أَحْكَمُ الْحَاكِمِينَ. قَالَ يَا نُوحُ إِنَّهُ لَيْسَ مِنْ أَهْلِكَ إِنَّهُ عَمَلٌ غَيْرُ صَالِحٍ فَلاَ تَسْأَلْنِ مَا لَيْسَ لَكَ بِهِ عِلْمٌ إِنِّي أَعِظُكَ أَن تَكُونَ مِنَ الْجَاهِلِينَ

–Nuh öz Rəbbini çağırıb dedi: "Ey Rəbbim, oğlum mənim ailəmdəndir. Və həqiqətən *(mənim ailəmin nicatı barədəki)* Sənin vədin haqdır və Sən hakimlərin ən yaxşısısan. (Bu kəlam Nuhun oğlunun nicatını istəməsi üçün bir müqəddimədir.)

*(Allah)* buyurdu: "Ey Nuh, o sənin ailəndən deyil o *(başdan-başa)* qeyri-saleh *(nalayiq)* əməldir! Buna görə də Məndən bilmədiyin şeyi istəmə. Mən nadanlardan olmayasan deyə sənə öyüd verirəm."

Su hər tərəfə dolduqdan sonra gəmi yavaş-yavaş hərəkətə gəldi. Həzrət Nuhla (ə) birgə gəmidə olanlardan başqa hamısı boğulub öldülər. Buna görə də İslam Peyğəmbəri (s) öz Əhli-beytini Nuhun (ə) gəmisinə bənzədərək buyurmuşdur: "Əhli-beytimin sizin aranızdakı məsəli Nuhun (ə) gəmisinə bənzəyir. Ona minən xilas olar, minməyən isə (dəryada) həlak olar."

Şəban ayında "Şəbaniyyə" dualarında belə oxuyuruq:

اَللّهُمَّ صَلِّ عَلى مُحَمَّد وَآلِ مُحَمَّد الْفُلْكِ الْجارِيَةِ فِي اللُّجَجِ الْغامِرَةِ، يَأْمَنُ مَنْ رَكِبَها، وَيَغْرَقُ مَنْ تَرَكَها الْمُتَقَدِّمُ لَهُمْ مارِقٌ، وَالْمُتَاَخِّرُ عَنْهُمْ زاهِقٌ، وَاللاّزِمُ لَهُمْ لاحِقٌ

–İlahi, Sənin salam və salavatın olsun Məhəmmədə və onun Əhli-beytinə. Onlar qorxulu dalğalar üzərində üzən gəmidir. Bu gəmiyə minən əmin-amanlıqda, onu tərk edən isə həlak oldu. Onlardan qabağa keçən imandan çıxdı. Onlardan geri qalan məhv oldu. Onlarla birgə hərəkət etmək lazımdır.

Deməli, ayə və hədislərdən açıq-aydın şəkildə görürük ki, insanların hidayət və nicatı Quran və Əhli-beytdədir (ə).

## İmam Hüseynin (ə) fəziləti

İmam Hüseynin (ə) Əhli-beytə (ə) daxil olanlar arasında xüsusi yeri vardır. Həzrət Peyğəmbər (s) onun barəsində belə buyurur: "Ərşdə belə yazılmışdır:

إِنَّ الحُسَيْنَ مِصْبَاحُ الهُدَى وَ سَفِينَةُ النَّجَاةِ

–Həqiqətən, Hüseyn hidayət çırağı və nicat gəmisidir."

İmam Hüseynin (ə) ziyarətnaməsində də bu məsələyə işarə olunmuşdur.

السَّلامُ عَلَيْكَ يا عَلَيْكَ يا سَفِينَةَ النَّجاةِ

–Salam olsun sənə, ey nicat gəmisi!

Həzrət Peyğəmbərin (s) kəlamlarında Əhli-beytin (ə) hamısı nicat gəmisi kimi qeyd edilir. Amma İmam Hüseyn (ə) xüsusi qeyd olunmuşdur.

Əhməd ibn Hənbəl "Müsnəd"ində belə yazmışdır: "Hüseyn (ə) uşaq ikən məscidə daxil oldu. Peyğəmbər (s) onu gördükdə minbərdən enib onu qucağına aldı və özü ilə minbərə çıxartdı. Sonra üzünü camaata tutaraq belə buyurdu:

اَيُّهَا النَّاسُ هذَا الحُسَيْنُ بْنُ عَلِيٍّ فَاعرِفُوهُ

–Ey camaat, bu Hüseyn ibn Əlidir, onu tanıyın."

Bu hədisdən də açıq-aydın görürük ki, Həzrət Peyğəmbər (s) İmam Hüseyni (ə) tanımağı xüsusi olaraq vurğulayır. Həzrət Peyğəmbər (s) onu bir sıra xüsusiyyətlərinə görə xüsusi olaraq camaata tanıtdırır.

İbn Yəfur deyir ki, günlərin birində İmam Sadiqi (ə) ziyarət etmək üçün Kufədən Mədinəyə yollandım. İmamı (ə) ziyarət etdikdən sonra dedim: "Ey Peyğəmbər övladı, bura gəlmək üçün yolda çox çətinliklər gördüm." İmam (ə) buyurdu: "Allaha xatir gördüyün işlərin çətinliklərindən şikayətlənmə."

Mən susub bir söz demədim. Sonra İmam (ə) buyurdu: "Nə üçün əzəməti məndən daha böyük olan insanın ziyarətinə getmədin?"

Öz-özümə düşündüm ki, Allahın İmam Sadiq (ə) kimi yer üzündə olan höccətindən əzəmətli kim ola bilər? Görəsən, ondan böyük kim ola bilər ki, onun ziyarətinə gedim?

Soruşdum: “Ey Peyğəmbər övladı, yer üzünün imamı sənsən. Allah sənin itaətini bizə vacib buyurub. Bu dövrdə səndən böyük və əzəmətli kim ola bilər?”

İmam (ə) buyurdu: “O, Hüseyn ibn Əlidir (ə). Onun ziyarəti mənim ziyarətimdən üstündür.”

İmam Hüseynin (ə) gördüyü iş böyük olduğuna görə onun əzəməti də böyükdür.

Həzrət Əli (ə) buyurmuşdur: “Hər bir insanın qiyməti onun əməli qədərdir.”

İmam Hüseyn (ə) Allaha beyət etmişdi. Allahla beyət etdiyi əli heç vaxt düşmənə uzatmadı. Hər şeyindən keçdi, amma Yezidə beyət etmədi. İmam (ə) bu işi özü görməklə yanaşı, camaata da öyrətdi.

İmam Hüseyn (ə) Məkkədən Kufəyə hərəkət edərkən ona dedilər ki, gəl sən Kufəyə getmə. Səni öldürəcəklər. İmam (ə) isə belə buyurdu: “Siz elə bilirsiniz ki, mən hara getdiyimi bilmirəm? Mən indidən görürəm ki, Kufənin ac canavarları öz qarınlarını mənim bədənimin əti ilə doyururlar. Bu gün mənim vəzifəm bu yolu getməkdir.”

İbn Abbas deyir: “Günlərin birində yuxuda gördüm ki, Məscidül-Hərama Cəbrayıl (ə) nazil olub və Kəbənin yanında dayanıb. Hüseyn ibn Əli (ə) bir əli ilə onun əlindən tutub və digər əli ilə camaatı səsləyərək belə buyurur: “Gəlin, Allaha beyət edin.”

Yuxudan ayıldım və gördüklərim məni təəccübləndirdi. Bir qədər düşündükdən sonra təəccübümün əsassız olduğunu başa düşdüm. Çünki İmam Hüseyn (ə) Allahın yer üzündəki höccəti və Həzrət Peyğəmbərin (s) canişinidir. O, öz vəzifəsini yerinə yetirir və camaatı da Allaha sarı dəvət edir.

Sanki cümlənin əvvəlində dırnaq qoyulmuş, sonunda isə qoyulmamışdır. Yəni hələ mövzu davam edir. Mənası budur ki, İmamın (ə) dəvəti və ona beyət davam edir. Bu günədək həm İmam Hüseynin (ə) dəvəti, həm də insanların ona beyəti davam etməkdədir. İmam Hüseyn (ə) Kərbəlada insanları səsləyərək buyurdu: “Mənə kömək edən bir kəs

varmı? Allahın Rəsulunun (s) hərəmini (ailəsini) müdafiə edən bir kimsə varmı? Bizim barəmizdə Allahdan qorxan, Onun təkliyini qəbul edən bir kimsə varmı?”

İmam Hüseynin (ə) bu çağırışları təkcə o dövrə aid deyil. Bu günün özündə də o çağırışlar davam etməkdədir. Həmçinin o çağırışlara səs verənlər də davam edir.

Ziyarətnaməsində “Ləbbeyk” kəlməsi olan yeganə imam Həzrət Hüseyn ibn Əlidir (ə). Yəni İmam Hüseyndən (ə) başqa heç bir imamın ziyarətnaməsində “ləbbeyk” kəlməsi işlənməmişdir.

لَبَّيْكَ دَاعِيَ اللَّهِ إِنْ كَانَ لَمْ يُجِبْكَ بَدَنِي عِنْدَ اسْتِغَاثَتِكَ وَ لِسَانِي عِنْدَ اسْتِنْصَارِكَ فَقَدْ أَجَابَكَ قَلْبِي وَ سَمْعِي وَ بَصَرِي...

–Ləbbeyk, ey *(məni)* Allaha sarı çağıran! Əgər sənin köməyinə *(o dövrdə yaşamadığım üçün)* bədənimlə gələ bilmədimsə və dilimlə çağırışına cavab verə bilmədimsə, amma bu gün hər an qəlbim, qulağım və gözümlə sənə cavab verib “ləbbeyk” deyirəm.

Əgər insan məhərrəm ayında qara geyinib İmam Hüseynə (ə) əza tutursa, gözyaşı tökərək yas saxlayırsa, onun ziyarətinə gedirsə, deməli, bu əzadarlıq və gözyaşları ilə onun çağırışına cavab verib “ləbbeyk” deyir.

Beləcə, qiyamət gününə qədər həm İmam Hüseynin (ə) çağırışı, həm də ona səs verənlər (çağırışına “ləbbeyk” deyənlər) davam edəcək. Buna görə də aləmləri yaradan Pərvərdigar İmam Hüseynin (ə) ziyarət və əzadarlığına xüsusi fəzilət ayırmışdır.

قَالَ الصَّادِقُ(ع): إِنَّ الْبُكَاءَ وَ الْجَزَعَ مَكْرُوهٌ لِلْعَبْدِ فِي كُلِّ مَا جَزِعَ– مَا خَلَا الْبُكَاءَ عَلَى الْحُسَيْنِ بْنِ عَلِيٍّ عَلَيهِمَا السَّلَامُ– فَإِنَّهُ فِيهِ مَأْجُور

–İmam Sadiq (ə) buyurur: “Bəndəyə İmam Hüseyn əleyhissalam üçün ağlamaq və şivən salmaqdan başqa hər bir ağlamaq və şivən etmək məkruhdur. Çünki onun üçün ağlamağa əcr və savab verilər.”

قَالَ الصَّادِقُ(ع): مَنْ ذُكِرَ الْحُسَيْنُ عِنْدَهُ فَخَرَجَ مِنْ عَيْنِهِ مِنَ الدُّمُوعِ مِقْدَارُ جَنَاحِ ذُبَابٍ كَانَ ثَوَابُهُ عَلَى اللَّهِ عَزَّ وَ جَلَّ وَ لَمْ يَرْضَ لَهُ بِدُونِ الْجَنَّه.

–İmam Sadiq (ə) buyurur: “Kimin yanında İmam Hüseynin (ə) adı çəkilərkən *(ağlayaraq)* gözündən milçəyin qanadı qədər yaş çıxsa, onun savabı Allah yanındadır. *(Bu gözyaşının savabının nə qədər olduğunu yalnız Allah bilir.)* Allah həmin şəxsə verəcəyi savabın cənnətdən az olmasına razı olmaz.”

Həzrət Peyğəmbər (s) buyurur: “Allah-təala məndən soruşdu: “Ey Məhəmməd, Hüseyni sevirsənmi?” Ərz etdim: “İlahi, bəli, o, mənim gözümün nuru, gülüm və qəlbimin meyvəsidir.” Allah-təala buyurdu:

بُورِکَ مِنْ مَوْلُودٍ عَلَيْهِ بَرَكَاتِى وَ صَلَوَاتِي وَ رَحْمَتِي وَ رِضْوَانِي

–Bu övlad mübarəkdir. Mənim bərəkətim, salam-salavatım, rəhmət və rizvanım olsun ona.

وَ لَعْنَتِي وَ سَخَطِي وَ عَذَابِي وَ خِزْيِي وَ نَكَالِي عَلَى مَنْ قَتَلَهُ وَ نَاصَبَهُ وَ نَاوَاهُ وَ نَازَعَهُ أَمَا إِنَّهُ سَيِّدُ الشُّهَدَاءِ مِنَ الْأَوَّلِينَ وَ الْآخِرِينَ فِي الدُّنْيَا وَ الْآخِرَةِ

–Mənim lənətim, qəzəbim, əzabım olsun onu öldürənə, onunla düşmən olana, onunla müharibəyə qalxana. Hüseyn əvvəldən axıra dünyada və axirətdə bütün şəhidlərin ağasıdır.

Hədislərdə möminlərə də göstəriş verilmişdir ki, su içdiyiniz zaman İmam Hüseynin (ə) qatillərinə lənət oxuyun.

Davud adlı bir mömin deyir: “Günlərin birində İmam Sadiqin (ə) hüzuruna getmişdim. İmam (ə) içməyə su istədi. Su gətirdilər və İmam (ə) bir qədər su içdikdən sonra halı dəyişildi və gözləri yaşla doldu. Sonra mənə baxıb dedi: “Allah Hüseynin (ə) qatilinə lənət etsin.” Sonra belə buyurdu:

ما مِنْ عَبْدٍ شَرَبَ الْماءَ فَذَكَرَ الحُسَيْنُ وَ لَعَنَ قاتِلَهُ اِلّا كُتِبَ لَهُ مِأةَ اَلْفَ حَسَنَة وَ حَطَّ عَنْهُ مِأةَ اَلْفَ سَيِّئةً وَ رَفَعَ لَهُ مِائَةَ أَلْفِ دَرَجَةٍ

–Elə bir bəndə yoxdur ki, su içərkən Hüseyni (ə) yad edib onun qatilinə lənət oxuduqda Allah ona yüz min savab yazıb, yüz min günahını bağışlamasın və dərəcəsini yüz min dəfə yüksəltməsin.”

*Sərin su dəyəndə susuz ləblərə,*
*Salam deyin təşnələb Əsğərə.*

*İçəndə sərin su deyin lənəti,*
*Fəratın yolun bağlayan ləşkərə.*

İmam Hüseynin (ə) qəbrini ziyarət etməyin də böyük savabı vardır. Kim onun qəbrini Allaha xatir ziyarət edərsə, Allah-təala həmin şəxsi cəhənnəm odundan xilas edər.

قَالَ الصَّادِقُ(ع): مَنْ زَارَ قَبْرَ الْحُسَين (عليه السلام)، لِلّهِ و فِي اللهِ اَعْتَقَهُ مِنَ النَّار و آمَنَهُ يَوْمَ الفَزَعِ الأَكْبَرْ

–İmam Sadiq (ə) buyurur: "Kim Allaha xatir Onun yolunda Hüseynin (ə) qəbrini ziyarət etsə, Allah həmin şəxsi cəhənnəm atəşindən azad edər və qiyamət günü onu əmin-amanlıqda saxlayar."

Müaviyə ibn Vəhəb deyir: "Günlərin birində Həzrət İmam Sadiqin (ə) hüzuruna getmişdim. İmam (ə) mənə buyurdu:

يَا مُعَاوِيَةُ لَا تَدَعْ زِيَارَةَ قَبْرِ الْحُسَيْنِ لِخَوْفٍ... أَمَا تُحِبُّ أَنْ يَرَى اللَّهُ شَخْصَكَ وَ سَوَادَكَ فِيمَنْ يَدْعُو لَهُ رَسُولُ اللَّهِ ص وَ عَلِيٌّ وَ فَاطِمَةُ وَالْأَئِمَّةُ... مَنْ يَدْعُو لِزُوَّارِهِ فِي السَّمَاءِ أَكْثَرُ مِمَّنْ يَدْعُو لَهُمْ فِي الْأَرْضِ

–Canının qorxusuna görə İmam Hüseynin (ə) qəbrinin ziyarətini tərk etmə... İstəməzsən ki, Allah-təala səni Peyğəmbərin (s), Əlinin (ə), Fatimənin (s.ə) və imamların barələrində dua etdiyi kəslərin cərgəsində qərar versin?.. Göylərdə Hüseynin (ə) zəvvarlarına dua edənlər yerdə dua edənlərdən daha çoxdur…

فَلَا يَزُورُهُ زَائِرٌ إِلَّا اسْتَقْبَلُوهُ وَ لَا يُوَدِّعُهُ مُوَدِّعٌ إِلَّا شَيَّعُوهُ وَ لَا يَمْرَضُ إِلَّا عَادُوهُ وَ لَا يَمُوتُ إِلَّا صَلَّوْا عَلَى جِنَازَتِهِ وَ اسْتَغْفَرُوا لَهُ بَعْدَ مَوْتِهِ

–Onu ziyarət edən elə bir zəvvar yoxdur ki, *(orada məmur olan)* mələklər onu qarşılamasın, *(ziyarətdən)* qayıdarkən yola salmasın, xəstələnərkən ona baş çəkməsin, dünyasını dəyişdikdə ona cənazə namazı qılmasın, öləndən sonra onun üçün Allahdan bağışlanmaq diləməsinlər.

Hədislərdə də açıq-aydın görürük ki, Allah-təala İmam Hüseynə (ə) belə imtiyazlı bir məqam və fəzilət bəxş etmişdir. Çünki onun gördüyü iş İslamın bu günə qədər davam etməsinə səbəb olmuşdur.

İmam Hüseynin (ə) qəbrinin ziyarətinin çox böyük savabı, həmçinin bir çox təsirləri və xüsusiyyətləri vardır. Hədislərdə belə nəql olunur ki, kim onun ziyarətinə getsə, gedib qayıdana qədər olan günləri Allah həmin şəxsin ömründən hesab etməz.

قَالَ الصَّادِقُ(ع): اِنَّ اَيامَ زائِرِي الْحُسَينِ عليه السلام لاتُحْسَبُ مِنْ اَعْمارِهِمْ وَ لاتُعَدُّ مِنْ آجالِهِمْ

–İmam Sadiq (ə) buyurur: “İmam Hüseyni (ə) ziyarət edənlərin günləri ömürlərdən və əcəllərdən hesab olunmaz.”

قَالَ الصَّادِقُ(ع): يُنَادِي مُنَادٍ يَوْمَ الْقِيَامَةِ أَيْنَ شِيعَةُ آلِ مُحَمَّدٍ فَيَقُومُ عُنُقٌ مِنَ النَّاسِ لَا يُحْصِيهِمْ إِلَّا اللَّهُ تَعَالَى فَيَقُومُونَ نَاحِيَةً مِنَ النَّاسِ ثُمَّ يُنَادِي مُنَادٍ أَيْنَ زُوَّارُ قَبْرِ الْحُسَيْنِ فَيَقُومُ أُنَاسٌ كَثِيرٌ فَيُقَالُ لَهُمْ خُذُوا بِيَدِ مَنْ أَحْبَبْتُمْ انْطَلِقُوا بِهِمْ إِلَى الْجَنَّةِ فَيَأْخُذُ الرَّجُلُ مَنْ أَحَبَّ حَتَّى إِنَّ الرَّجُلَ مِنَ النَّاسِ يَقُولُ لِرَجُلٍ يَا فُلَانُ أَمَا تَعْرِفُنِي أَنَا الَّذِي قُمْتُ لَكَ يَوْمَ كَذَا وَكَذَا فَيُدْخِلُهُ الْجَنَّةَ لَا يُدْفَعُ وَلَا يُمْنَعُ.

–İmam Sadiq (ə) buyurur: “Qiyamət günü carçı nida edib səslənər: Hardadır ali-Məhəmməd şiələri?” Camaatın içindən bir dəstə insan ayağa qalxar… sonra yenə də carçı səslənib deyər: “Hardadır Hüseynin (ə) qəbrini ziyarət edənlər?” Yenə böyük bir dəstə insan ayağa qalxar. Onlara deyilər: “İstədiyiniz insanın əlindən tutub cənnətə aparın.” Onlar da sevdiyi insanların əlindən tutub cənnətə aparacaqlar. Hətta camaatın içindən bir nəfər onların *(İmam Hüseynin (ə) zəvvarlarından)* birinə deyəcək: “Filankəs, məni tanımadınmı? Yadındadırmı filan yerdə filan vaxt sən gələndə hörmət edib ayağa qalxdım və yerimi sənə verdim?” O deyəcək: “Bəli, yadımdadır.” Sonra onun da əlindən tutub cənnətə aparacaq.”

Hədislərdə belə nəql olunur ki, İmam Hüseynin (ə) ziyarətinə getmək üçün insanın xərclədiyi pulu Allah-təala on min bərabərində hesab edər.

فَإِذَا حُشِرَ قِيلَ لَهُ لَكَ بِكُلِّ دِرْهَمٍ عَشَرَةُ آلَافِ دِرْهَمٍ وَ إِنَّ اللَّهَ نَظَرَ لَكَ وَ ذَخَرَهَا لَكَ عِنْدَهُ.

–İmam Hüseynin (ə) ziyarəti yolunda pul xərcələyən insan qiyamət günü qəbirdən qalxarkən ona deyilər: “Sənin İmam Hüseynin (ə) ziyarəti yolunda xərclədiyin hər bir dirhəm on min dirhəm qədər dəyərləndirilib. Allah-təala ona rəhmət nəzəri ilə baxar və xərclədiyi pulları Öz yanında onun üçün saxlayar.”

Qorxulu və təhlükəli vəziyyətdə İmam Hüseynin (ə) ziyarətinə getməyin xüsusi fəzilət və şərafəti vardır. Bu fəzilətlərdən əlavə, İmam Hüseynin (ə) ziyarətinə piyada getməyin savab və şərafəti tamamilə başqadır.

قَالَ الصَّادِقُ(ع): مَنْ خَرَجَ مِن مَنزِلِه يُرِيدُ زِيارَةَ قَبرِ الْحُسَينِ(عليه‌السلام) إنْ كَانَ مَاشِياً كَتَبَ اللهُ لَهُ بِكُلِّ خُطْوَةٍ حَسَنَةٌ وَ مُحِيَ عَنْهُ سَيِّئَةٌ... إِذَا صَارَ فِي الْحَيْرِ كَتَبَهُ اللهُ مِنَ الْمُفْلِحِينَ الْمُنْجِحِينَ حَتَّى إِذَا قَضَى مَنَاسِكَهُ كَتَبَهُ اللهُ مِنَ الْفَائِزِين إِذَا أَرَادَ الِانْصِرَافَ أَتَاهُ مَلَكٌ فَقَالَ لَهُ إِنَّ رَسُولَ اللهِ يُقْرِئُكَ السَّلَامَ وَ يَقُولُ لَكَ اسْتَأْنِفِ الْعَمَلَ فَقَدْ غَفَرَ اللهُ لَكَ مَا مَضَى

–İmam Sadiq (ə) buyurur: “Kim evindən çıxıb İmam Hüseynin (ə) qəbrini ziyarət etmək üçün piyada yol getsə, Allah-təala onun hər addımına bir savab yazar və bir günahını pozar… Hüseynin (ə) qəbrinin ziyarətinə çatdıqda isə Allah-təala onun adını xoşbəxtlərin sırasına yazar. Ziyarət edib qayıtdıqda isə Allah-təala onun adını nicat tapanların cərgəsinə yazar.”

İmam Hüseynin (ə) qəbrini ziyarət edib qayıdarkən bir mələk gəlib onun qarşısında dayanaraq belə deyər: “Allahın Peyğəmbəri (s) sənə salam göndərir və buyurur: “Allah bu günə qədər etdiyin bütün günahlarını bağışladı.”

Ümumiyyətlə, ilin bütün günlərində İmam Hüseynin (ə) qəbrini ziyarət etməyin savabı var. Lakin bəzi günlər vardır ki, həmin günlər ziyarət etməyin savabı tamamilə başqadır. Ərəfə günü, rəcəb ayında, Fitr bayramının axşamı, Qurban bayramının axşamı, şəban ayının 15-i, aşura günü və ərbəin (İmamın (ə) qırxı) günündə İmam Hüseyni (ə) ziyarət etməyin xüsusi savab və fəzilətləri vardır.

Hədislərdə belə nəql olunur ki, mömінin əlamətlərindən biri də (imkan daxilində) İmam Hüseynin (ə) qəbrini ərbəin günü ziyarət etməkdir.

Allah-təala belə fəzilət, əzəmət və şərafəti Hüseyn ibn Əliyə (ə) mərhəmət etmişdir. Həmçinin onun zəvvarlarını da şərafətləndirmişdir. İmam Hüseynin (ə) dəvətini və çağırışını ləbbeyk deyib qəbul edənlər qiyamətədək davam edəcəkdir. Bu qapı hamının üzünə açıqdır...

## İMAM CƏFƏR SADİQİN (Ə) ŞƏHADƏTİ
## (İmam Sadiqin (ə) nəsihəti)

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلْمُتَّقِينَ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَنْبِياءِ وَالْمُرْسَلِينَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى اَهلِ بَيْتِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ سِيَّما بَقِيَّةِ اللهِ فِي الأَرَضِين، وَاللَّعنُ عَلى أَعْدائِهِمْ أَجْمَعِينَ اِلى قِيامِ يَوْمِ الدِّينِ.

Ötən bəhsdə biz İmam Sadiqin (ə) bir neçə xüsusiyyətindən söz açdıq. Bir qayda olaraq, Həzrət Peyğəmbərin (s) və məsum imamların mövlud və şəhadət günlərində onların fəzilətləri və xüsusiyyətlərindən danışılır. Amma onların kəlamlarına, adətən, az yer verilir. Bu böyük şəxsiyyətlərin buyurduqları kəlamlara, onların çıxışlarına, məktublarına və nəsihətlərinə də ayrı-ayrı kitablarda yer verilmişdir. Burada çox yaxşı olardı ki, Həzrət İmam Sadiqin (ə) nəsihətlərindən biri barədə söz açaq.

Kufə şəhərindən bir qrup mömin İmam Sadiqi (ə) ziyarət etmək məqsədilə Mədinəyə gəlirlər. Mədinədə qaldıqları müddət ərzində hər gün İmam Sadiqin (ə) hüzuruna gəlib o həzrəti ziyarət edirdilər. Onlar həm İmamın (ə) kəlamlarını dinləyir, həm də o həzrətə müxtəlif suallar verirdilər. Axırıncı gün, yəni artıq getmək ərəfəsində İmamla (ə) vidalaşmaq üçün yenə də o həzrətin hüzuruna gəlirlər. Təşəkkür və qədirdanlıq etdikdən sonra belə ərz edirlər: "Ey Peyğəmbər övladı, biz Kufəyə qayıdırıq. Bir də sizin ziyarətinizə nə vaxt nail olacağımızı bilmirik. Buna görə də sizi bu gün axırıncı dəfə ziyarət etdiyimiz üçün bizə tövsiyələr verməyinizi xahiş edirik. Elə bir tövsiyə istəyirik ki, həmişə yadımızda saxlayıb ona əməl edək."

İmam Sadiq (ə) "Bismillah"dan və Həzrət Peyğəmbərə (s) salam-salavatdan sonra onlara buyurdu:

أُوصِيكُمْ بِتَقْوَى اللهِ وَالْعَمَلِ بِطَاعَتِهِ وَاجْتِنَابِ مَعَاصِيهِ وَأَدَاءِ الْأَمَانَةِ لِمَنِ ائْتَمَنَكُمْ وَحُسْنِ الصِّحَابَةِ لِمَنْ صَحِبْتُمُوهُ وَأَنْ تَكُونُوا لَنَا دُعَاةً صَامِتِينَ

فَقَالُوا يَا ابْنَ رَسُولِ اللَّهِ وَكَيْفَ نَدْعُو إِلَيْكُمْ وَنَحْنُ صُمُوتٌ؟

قَالَ تَعْمَلُونَ بِمَا أَمَرْنَاكُمْ بِهِ مِنَ الْعَمَلِ بِطَاعَةِ اللَّهِ وَتَتَنَاهَوْنَ عَنْ مَعَاصِي اللَّهِ وَتُعَامِلُونَ النَّاسَ بِالصِّدْقِ وَالْعَدْلِ...

–Sizə təqvalı olmağı tövsiyə edirəm. Allaha itaət edin və günahlardan çəkinin. Sizə əmanət tapşıranda əmanəti sahibinə qaytarın. Əmanətə xəyanət etməyin. Öz dostlarınızla gözəl şəkildə dostluq edin. Sakit qalmaqla camaatı bizə sarı yönəldin.

Soruşdular: "Ey Peyğəmbər övladı, sakit qalmaqla camaatı sizə sarı necə yönəldə bilərik?"

İmam (ə) buyurdu: "Allahın itaəti və günahlarla bağlı sizə əmr etdiklərimizə riayət edib, insanlarla sədaqət və ədalət əsasında davranmaqla."

Bu tövsiyəsində İmam Sadiq (ə) bir neçə əsas və mühüm mətləbə işarə etmişdir. Burada çox yaxşı olar ki, həmin mətləbləri qısaca da olsa şərh edək.

**1. Təqva**

İmam Sadiq (ə) onlara tövsiyə edərkən ilk növbədə təqva məsələsini qeyd etdi. Təqva həm Allahın, həm Həzrət Peyğəmbərimizin (s), həm də məsum imamlarımızın əməldə insanlara ilk söz və tövsiyəsidir. "Təğabun" surəsinin 16-cı ayəsində belə buyurulur:

فَاتَّقُوا اللَّهَ مَا اسْتَطَعْتُمْ

–Allahdan bacardığınız qədər qorxun *(təqvalı olun).*

Bir neçə məsələ vardır ki, onlar üçün yuxarı hədd müəyyən olunmamışdır. Yəni nə qədər çox olsa da, daha çox olmasının yeri var. Amma elə məsələlər də vardır ki, onların müəyyən həddi olmalıdır, yəni həddindən az və ya çox ola bilməz.

İnsan üçün hədd müəyyən olunmayan məsələlərdən biri Quran oxumaq barəsindədir.

فَاقْرَؤُوا مَا تَيَسَّرَ مِنَ الْقُرْآنِ

–Qurandan müyəssər olanı oxuyun.

Yəni bacardığınız və imkanınız olduğu qədər Quran oxuyun.

İkincisi, Allahı zikr edib xatırlamaqdır ki, bunun üçün də müəyyən hədd qoyulmayıb. İnsan Allahı hər bir halda və nə qədər çox xatırlasa, yenə də yeri vardır.

Hədd müəyyən olunmayan məsələlərdən biri də təqvadır ki, qeyd olunan ayədə bunu bir daha görürük. Bu ayədə təqva üçün müəyyən hədd qoyulmayıb. Belə deyirlər ki, bacardığınız qədər təqvalı olun. Cümə namazına pişnamazlıq edənlərə həmişə vacibdir ki, xütbənin

əvvəlində camaatı təqvaya dəvət edərək desin: “Sizə və özümə Allahdan qorxmağı (təqvalı olmağı) tövsiyə edirəm.”

Hətta bəzi müctəhidlər buyururlar ki, pişnamaz cümə namazının hər iki xütbəsinin əvvəlində bu sözü deməlidir. Amma bəzi müctəhidlər xütbələrin birində deyilməsinin kifayət olduğunu söyləmişlər. Hər bir halda cümə namazını qılan pişnamaz üçün xütbənin əvvəlində camaatı və özünü təqvalı olmağa dəvət etməsi vacibdir.

Quran oxuyarkən təqva sözünə çox rast gəlirik. Səhifələri çevirdikcə Allahın insanları təkrarən və təkidlə təqvalı olmağa dəvət etməsinə rast gəlirik.

Böyük ustadlardan biri öz ustadının yanına gəlib dedi: “Mənə geniş və əhatəli şəkildə nəsihət etməyinizi xahiş edirəm.”

Ustad dedi: “Sənə elə bir şeyi nəsihət edirəm ki, Allah da onu insanların birincisindən axırıncısına qədər tövsiyə etmişdir.” Sonra ustad “Nisa” surəsinin 131-ci ayəsini onun üçün oxudu:

وَلَقَدْ وَصَّيْنَا الَّذِينَ أُوتُواْ الْكِتَابَ مِن قَبْلِكُمْ وَإِيَّاكُمْ أَنِ اتَّقُواْ اللّهَ

–Biz sizdən əvvəl kitab verilənlərə də, sizə də Allahdan qorxmağınızı *(təqvalı olmağınızı)* tövsiyə etdik.

Təqva o qədər mühüm bir məsələdir ki, Allah-təala onu ilk yaranmış insan olan Adəmdən tutmuş qiyamət gününə qədər gələn insanların hamısına tövsiyə etmişdir.

Böyük ustad və arif insanlardan biri təqva barədə belə yazır:

اِنَّ خَيْرَ الدُّنْيا وَالآخِرَة جُمِعَت تَحْتَ كَلِمَةٍ واحِدَة وَ هِيَ: التَّقْوَى

–Dünya və axirətin xeyri bir kəlmənin altında cəmləşərək qərar tutmuşdur. Həmin kəlmə isə təqvadır.

Odur ki, İmam Sadiq (ə) də nəsihət edərkən ilk növbədə təqvanı tövsiyə edir. Yəni əgər möminsinizsə, əgər bizim şiələrimizsinizsə, əgər üstünüzdə bizim adımızı daşıyırsınızsa, o zaman ilk növbədə gərək təqvalı olasınız.

**2. Allaha itaət etmək və günahlardan çəkinmək**

İmam Sadiqin (ə) həmin nəsihət zamanı ikinci tövsiyə etdiyi məsələ Allahın əmrlərinə itaət etmək və onun qadağan etdiyi məsələlərdən də çəkinməkdir. Yəni mömin insan Allah-təalanın Quranda namaz, oruc, həcc və s. kimi vacib etdiyi bütün əməllərin hər

birinə riayət etməli və çəkindirdiyi hər bir şeydən də çəkinməlidir. Quranı başdan-başa oxuyarkən iki siyahıya rast gəlirik. Onlardan biri ağ, digəri isə qaradır. Bütün vacib əməllərin hamısı ağ siyahıda, haram və günahların hamısı isə qara siyahıdadır. Bəzən işlətdiyimiz "Adın qara siyahıya düşməsin" ifadəsinin bir mənası da budur ki, yəni adın Quranda olan qara siyahıya düşməsin. Əlbəttə, bu məsəlin bir mənası da odur ki, insan öldükdən sonra axirət dünyasında bəzilərinin adı ağ siyahıda, bəzilərinin adı isə qara siyahıda olur.

Odur ki, insan vacib əməlləri yerinə yetirməklə adını ağ siyahıya yazdırmalıdır, yəni günahlardan çəkinməklə adını qara siyahıdan çıxartmalıdır.

### 3. Əmanəti sahibinə qaytarmaq

İmamın (ə) nəsihətində üçüncü mühüm yerdə dayanan əmanətdarlıqdır. İmam (ə) möminlərə tövsiyə edərək başa salır ki, kimsə sizə əmanət tapşırdıqda onu olduğu kimi sahibinə qaytarmaq lazımdır. Əlbəttə, haram əməllərin içində əmanətə xəyanət məsələsi də vardır. Amma İmam (ə) bunu ayrıca qeyd etməklə bu məsələyə xüsusi diqqət göstərməyin vacibliyini təkidlə irəli sürür. Əmanətə heç bir vəchlə xəyanət etmək olmaz. Allah-təala "Möminun" surəsində möminlərin bir sıra xüsusiyyətlərindən söz açaraq buyurur:

قَدْ أَفْلَحَ الْمُؤْمِنُونَ. الَّذِينَ هُمْ فِي صَلَاتِهِمْ خَاشِعُونَ. وَالَّذِينَ هُمْ عَنِ اللَّغْوِ مُعْرِضُونَ. وَالَّذِينَ هُمْ لِلزَّكَاةِ فَاعِلُونَ. وَالَّذِينَ هُمْ لِفُرُوجِهِمْ حَافِظُونَ. إِلَّا عَلَى أَزْوَاجِهِمْ أوْ مَا مَلَكَتْ أَيْمَانُهُمْ فَإِنَّهُمْ غَيْرُ مَلُومِينَ. فَمَنِ ابْتَغَى وَرَاء ذَلِكَ فَأُوْلَئِكَ هُمُ الْعَادُونَ. وَالَّذِينَ هُمْ لِأَمَانَاتِهِمْ وَعَهْدِهِمْ رَاعُونَ

–Həqiqətən, iman gətirənlər nicat tapmışlar.

O kəslər ki, namazlarında *(həm ürəkləri, həm də bədənləri ilə)* itaətkardırlar.

Və o kəslər ki, bütün pis və çirkin (iş)lərdən üz döndərirlər.

Və o kəslər ki, zəkat verir və nəfslərini təmizləyirlər.

Və o kəslər ki, öz şəhvət qüvvələrini cilovlayırlar.

Öz zövcələrinə və kənizlərinə qarşı istisna olmaqla ki, onlar qınanmazlar.

Odur ki, bundan *(bu ikisindən)* başqasını axtaranlar həddi aşanlardır.

Və o kəslər ki, əmanətlərinə və əhd-peymanlarına riayət edirlər. *(Onlara tapşırılan əmanətə xəyanət etməz və verdikləri sözü yerinə yetirərlər.)*

Odur ki, əmanətə heç bir vaxt xəyanət etmək olmaz. Hədislərdə belə nəql olunur ki, əmanət hər nə olursa-olsun və əmanət tapşıran kim olursa-olsun, o əmanəti vaxtında sahibinə qaytarmaq lazımdır. Hətta əmanət tapşıran şəxs kafir və düşmən də olsa belə, onun əmanətinə xəyanət etmək olmaz. Əmanətin kim tərəfindən verilməsi mühüm deyil, mühüm olan odur ki, insan əmanəti vaxtında sahibinə qaytarmaqla öz möminliyini sübut etsin.

**4. Gözəl dostluq**

İmam Sadiq (ə) nəsihətində önə çəkdiyi məsələlərdən dördüncüsü gözəl dostluq və yoldaşlıqdır. Yəni insan dostluq və yoldaşlıq etdiyi insanlarla gözəl rəftar və təmiz yoldaşlıq etməlidir. Belə ki, öz yoldaşının inciyib narahat olmasına heç bir vaxt yol verməməlidir.

**5. Əməllərin gözəlləşdirilməsi**

İmam Sadiq (ə) öz nəsihətində möminlərə tövsiyə edərək başa salır ki, camaatı dildə danışmaqla deyil, əməllərinizlə Allahın dininə sarı dəvət edin. Yəni camaat möminlərin əməli surətdə Allaha itaət edib günahlardan çəkinmələrinə baxmaqla dinə, Əhli-beytə (ə) tərəf yönəlməlidir. Əgər bir insan möminin gözlərinin xəyanət etmədiyini, dilinin şirinliyini, əməllərinin gözəlliyini görsə, təbiidir ki, ondan xoşu gələr və bu hal ona müsbət təsir göstərər. Əks-təqdirdə isə təsir mənfi olacaqdır. Yəni məsələn, əgər özünü mömin hesab edən bir şəxs başqasının namusuna pis gözlə baxırsa, müxtəlif günahlar edirsə, aydındır ki, onun möminliyindən də heç bir əsər-əlamət qalmaz.

Günlərin birində bir nəfər Həzrət Peyğəmbərin (s) hüzuruna gəlib dedi: “Ya Rəsulallah, filankəs qonşusunun namusuna baxır. Əgər əlinə fürsət düşsə, hətta onunla günah iş də görər.” Həzrət Peyğəmbər (s) bu sözləri eşitdikdə qəzəblənərək buyurdu: “Onu mənim yanıma çağırın.” Bir nəfər dedi: “Ya Rəsulallah, o, sizin şiələrinizdəndir. O, sizi sevən insandır.” Həzrət Peyğəmbər (s) bu sözü eşitdikdə yenə də acıqlanaraq buyurdu: “O, bizim şiəmizdir, demə. Bu, yalandır. Bizim həqiqi şiələrimiz ardımızca gələnlər və əməllərində bizə tabe olanlardır.” (Başqasının namusuna baxan adam necə bizim şiəmiz ola bilər?)

Odur ki, İmam Sadiq (ə) nəsihət edərək bildirir ki, öz əməllərinizə elə diqqət edin ki, camaat sizin dilinizdən, gözlərinizdən və bütün hərəkətlərinizdən onlara ziyan dəyməyəcəyini görsünlər.

**6. Camaatla sədaqət və ədalətlə rəftar etmək**

İmam Sadiq (ə) həmin nəsihətində həmçinin möminləri camaatla sədaqət və ədalətlə rəftar etməyə çağırır. Yəni momin elə olmalıdır ki, camaat onu görəndə ona qarşı pis niyyətli olduğunu və nəsə pis bir iş görəcəyini düşünməsin.

Əmarə Həmdaninin qızı Sudə Həzrət Əlinin (ə) şəhadətindən sonra Müaviyəyə onun göndərdiyi hakim Bosr ibn Ərtatdan şikayət etdi.

Müaviyə soruşdu: "Axı o, nə iş görür?"

Sudə dedi: "Məgər bilmirsən? O, bizim adamlarımızı öldürür, malımızı qarət edir. Malımız və namusumuz onun əlindən amanda deyil. O kimdir ki, sən onu bizə hakim təyin etmisən?"

Müaviyə ona cavab verməyib sözü dəyişərək dedi: "Sənin Siffeyn döyüşündə camaatı bizim əleyhimizə qaldırmağın yadımdan çıxmayıb."

Sudə də onun bu sözünə əhəmiyyət verməyərək dedi: "Mən sənə göndərdiyin adamdan şikayət etdim. Əgər sən bu şikayətimizə baxıb onu geri çağırsan, sənin üçün yaxşı olar. Yox, əgər geri çağırmasan, nə edəcəyimizi yaxşı bilirik."

Müaviyə dedi: "Ey Sudə, məni hədələyirsən? Bosr ibn Ərtatı üstünüzə göndərərəm və o da əlindən gələn zülmü sizə əsirgəməz."

Sudə başını aşağı salıb bu şeri oxudu:

صَلَّى الْالهُ عَلى جِسْمٍ تَضَمَّنَها        قَبْرٌ فَاصْبَحَ فِيهِ الْعِزُّ مَدْفونا

–Ya Rəbb, salam göndər sən o pak bədənə ki, izzət *(ədalət)* dəfn oldu onunla sanki. Ömrü boyu bircə an da olsa zülm etmədi. İmanla gəldi, imanla getdi.

Müaviyə soruşdu: "Kimi nəzərdə tutursan?"

Sudə dedi: "Sən yaxşı bilirsən ki, mən kimin barəsində danışıram. And olsun Allaha, o, Əmirəlmöminin Əli (ə) idi. Onun xilafəti dövründə bir nümayəndəsi ədalətdən kənar rəftar etdiyi üçün Həzrətin (ə) yanına şikayətə getdim. Xidmətinə çatdığım vaxt Həzrət (ə) namaz qılmağa hazırlaşırdı. Elə bu vaxt məni görüb dayandı və mehribanlıqla gəlişimin səbəbini soruşdu. Mən onun nümayəndəsinin ədalətsizliyi haqda danışdım. Bu sözləri eşitdikdə Həzrətin (ə) gözləri yaşardı, üzünü göyə tutub dedi: "Ey qahir və qadir olan Allah! Sən bilirsən ki, mən həmin şəxsi xalqa zülm-sitəm üçün göndərməmişəm."

Sonra isə bir dəri parçası çıxarıb həmin nümayəndəyə məzəmmətli bir məktub yazdı. Əmr etdi ki, həmin şəxs bir daha onun adından xalqın qapısına getməsin və onun yerinə bir başqası göndəriləcək.

Odur ki, ədalət insan cəmiyyətinə həyat bəxş edər və izzətə çatdırar. Zülm isə küfrdən daha pisdir. Hədislərdə belə nəql olunur

ki, hakimiyyət küfrlə qalar, amma zülmlə qalmaz. Ədalət insanın hər iki dünyasını abad edər və insanı izzətə çatdırar.

Tarixi mənbələrdə yazılır ki, bir gün Məlikşah öz adamları ilə ova çıxmışdı. Qarşılarında böyük bir çay gördülər. Çayın üstündən keçən körpüdən digər tərəfə adlayıb oradakı böyük bir çəmənlikdə əyləşdilər. Nökərlər ətrafı gəzərkən yiyəsiz qalmış bir inəyi tutub kəsdilər və onun dərisini soyaraq ətini də bişirib yedilər. Sən demə, həmin inək orada yaşayan yaşlı bir qadının imiş. Onun var-dövləti bircə elə bu inək idi ki, onun südü ilə dolanırdı. Qadına xəbər yetişdi ki, Məlikşahın adamları onun inəyini kəsib yeyiblər. Odur ki, qadın gəlib həmin körpünün üstündə dayanır. Çünki bilirdi ki, əvvəl-axır Məlikşah həmin körpünün üstündən keçib geri qayıdacaq.

Bir müddət keçmişdi ki, Məlikşah öz adamları ilə həmin körpüyə yaxınlaşır. Qadın onun qarşısında dayanıb deyir: "Ey Məlikşah, mənim haqqımı bu körpünün üstündə verirsən, yoxsa sirat körpüsünün üstündə verəcəksən?"

Məlikşah soruşur: "Sənin məndə hansı haqqın var?"

Qadın deyir: "Mənim olan-qalan bircə inəyim var idi. Sənin ətrafındakı zalım adamların onu kəsib yeyiblər və heç mənə xəbər də etmədilər."

Məlikşah qadının bu sözlərini eşitdikdə narahat olub dərhal atından yerə düşdü. Öz adamlarını ətrafına toplayıb soruşdu: "Bu qadının inəyini kim kəsib?"

Həmin adam tapıldıqdan sonra Məlikşah onu cəzalandırdı və üzünü qadına tutub dedi: "Sənə yüz inək versəm, razı olarsanmı?" Qadın dedi: "Razı olaram."

Məlikşah göstəriş verdi ki, o qadına yüz inək versinlər.

Bu hadisənin üstündən illər ötdükdən sonra Məlikşah dünyasını dəyişdi. Həmin yaşlı qadın onun ölüm xəbərini eşitdikdə gedib onun qəbrinin kənarında dayandı. Sonra üzünü onun qəbrinə qoyub dedi: "İlahi, bu insan mənimlə ədalətlə rəftar etdi. Amma özünü dünyaya ədalətli bir insan kimi tanıtdırmamışdı. Hamı onun zalım olduğunu bilirdi. Amma mənimlə ədalətlə rəftar etdiyi üçün sirat körpüsündə ona nicat ver."

Bu hadisənin üstündən uzun müddət keçdikdən sonra ariflərdən biri deyir: "Gecələrin birində Məlikşahı yuxuda gördüm. Onun vəziyyəti çox yaxşı idi. Ondan səbəbini soruşduqda belə dedi: "Qoca arvad mənə şəfaət etdi və nicat tapdım."

Bu əhvalatı danışmaqda məqsədim ədalətli rəftarın təsirlərini və xüsusiyyətlərini çatdırmaqdır. Ədalət insanda olan elə bir xüsusiyyətdir ki, həm bu dünyada, həm də axirətdə insana öz təsirini göstərərək ona nicat bəxş edər.

İmam Sadiq (ə) Kufədən gəlmiş möminlərə etdiyi nəsihətində buyurur: "Atam İmam Baqir (ə) belə buyurardı: Əvvəllər heç belə deyildi. Amma indi vəziyyət dəyişib. Qabaq imam-camaat axtardıqda bizim şiələrimizin arasından seçilərdi. Adil bir insan axtardıqda yenə də bizim şiələrimizin arasından tapılardı. Nümunəvi bir alim, yaxud gözəl xasiyyətli bir insan axtararkən bizim şiələrimizin arasından çıxırdı."

Sonra İmam Sadiq (ə) buyurdu: "Siz də çalışın belə olun ki, nümunəvi bir insan axtardıqda sizi göstərsinlər."

كُونُوا لَنا زَينَا وَلا تَكُونُوا عَلينَا شَينَا

– Öz əməllərinizlə bizə zinət olun, abrımızı aparmayın.

## İMAM MUSEYİ KAZİMİN (Ə) ŞƏHADƏTİ
## (İmam Museyi Kazimin (ə) fəzilətləri)

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ الْحَمْدُ للهِ الَّذي عَلا في تَوَحُّدِهِ وَدَنا في تَفَرُّدِهِ وَجَلَّ في سُلْطانِهِ وَعَظُمَ في أَرْكانِهِ اَلصَّلاةُ وَالسَّلامُ عَلَى رَسُولِهِ نَبِيِّ الرَّحمَة وَ سِراجِ الأُمَّة اَبي القَاسِمِ الْمُصطَفَى مُحَمَّد وَ عَلى وَصِيِّهِ اَميرِالْمُؤْمِنِين وَ عَلى فاطِمَةَ سَيِّدَةِ نِساءِ الْعَالَمِين وَعَلى الْحَسَنِ وَالْحُسَين وَالأَئِمةِ التِّسْعَةِ الْمَعصُومِينَ مِن اَوْلادِ الْحُسَين اَللّهُمَّ صَلِّ عَلَيهِم صَلاةً تَامَّة نَامِيةً زَاكِيَة

Həzrət Musa ibn Cəfər əl-Kazim hicri qəməri tarixi ilə 128-ci ilin səfər ayının 7-də Məkkə ilə Mədinə arasında yerləşən Əbva adlı məntəqədə dünyaya göz açmışdır. Həzrətin (ə) atasının adı İmam Cəfər Sadiq (ə), anasının adı isə Həmidə (s.ə) xanımdır. İmam Musa ibn Cəfər (ə) bir neçə məşhur ləqəblə tanınmışdır. Əlbəttə, o həzrət müəyyən səbəblərə görə ləqəblərlə təltif olunmuşdur. Onun bir ləqəbi Kazimdir ki, "qəzəbini boğan" mənasını ifadə edir. Həzrət Peyğəmbər (s) və digər imamlarda olduğu kimi, İmam Museyi Kazim (ə) də bu meydanın qəhrəmanıdır.

Həzrətin (ə) bir ləqəbi "Babəl-həvaci", yəni "Hacətlər qapısı"dır. Ona görə ki, Həzrət (ə) əsla maddi və mənəvi cəhətdən ona ehtiyac əlini uzadan heç bir insanı əliboş qaytarmazdı. Kim onun qapısına gəlirdisə, əliboş qayıtmırdı. İmam Museyi Kazim (ə) dünyasını dəyişdikdən sonra da belə onun kəraməti davam etməkdədir. Belə ki, istək və hacəti olan hər bir kəs sədaqət, pak ürək və təmiz niyyətlə o həzrətə təvəssül edərsə, əliboş qayıtmaz.

O həzrətin ləqəblərindən biri də "Əbdüs-saleh", yəni "Saleh bəndə"dir. Onun Allah-təala qarşısında übudiyyət və bəndəçiliyi mükəmməl idi. Übudiyyət o demək deyildir ki, insan Allaha şükür etsin, salavat desin və zikr etsin. Übudiyyət və bəndəçilik bunlardan fərqlidir. Zikr etməyə gəldikdə isə, ağaclar, daşlar, insanın əynindəki paltarlar və digər varlıqlar da həmişə Allaha zikr edir. Quranda bu barədə belə oxuyuruq:

يُسَبِّحُ لِلَّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ

–Göylərdə və yerdə nə varsa *(hamısı)* Allaha daim *(dil və hal ilə)* zikr edir.

Amma onların zikr etməsinə übudiyyət deyilmir. Übudiyyət və bəndəçilik yalnız insana məxsusdur. Allaha əbd (bəndə) olmaq insan üçün izzət, şərafət, kəramət, əzəmət, şövkət və səadətdir.

Harun ər-Rəşid İmam Museyi Kazimi (ə) zindana saldırmışdı. Günlərin birində bir qadını yanına çağırıb dedi: "Musa ibn Cəfərin yanına get və ona qulluq etmək üçün gəldiyini söylə." Sonra o qadını bəzəyib-düzəyib zindana İmamın (ə) yanına yolladılar. Məqsədləri də bu idi ki, əgər İmam (ə) həmin qadına meyl göstərsə, bu yolla onu ələ alsınlar. Əgər daha artıq meyl göstərsə, camaat içində onu biabır etsinlər.

Beləcə, həmin qadın zindana, yəni İmamın (ə) yanına gəlib dedi: "Mən sizə qulluq etmək üçün gəlmişəm."

İmam (ə) isə ona etina etməyib namazını qılmağa başladı. Bir namazı qılıb qurtardıqdan sonra yenə də qıldı və beləliklə o qədər namaz qıldı ki, həmin qadın da namaza başladı. İmamın (ə) Allah qarşısındakı ibadəti o qadına elə təsir göstərmişdi ki, qadın da Allaha aşiq olaraq ibadət edirdi.

Harun vəziyyəti öyrənmək üçün bir nəfəri də zindana göndərdi. Həmin şəxs zindanın qapısını açdıqda gördü ki, qadın səcdəyə gedib və ibadətlə məşğuldur. Tez gedib Haruna bu barədə məlumat verdilər. Harun qadını yanına çağırtdırıb soruşdu: "Biz səni ora nə üçün göndərmişdik?" Qadın dedi: "Məni bir əbdin (bəndənin) yanına göndərmişdiniz. O da mənə übudiyyəti (bəndəçiliyi) öyrətdi.

Deməli, übudiyyət odur ki, başqalarına da təsir etmiş olsun. Əgər taxta, daş, dəniz və digər canlılar Allaha zikr edirsə, özləri üçün edirlər. Onlar başqalarına təsir göstərə bilmir. Amma əbd (bəndə) odur ki, onun bəndəçiliyi başqasına da təsir göstərir. Əbdin (bəndənin) nəfəsi belə insanı tərbiyə edib bəndəçiliyə sövq edir. Buna görə də İslam Peyğəmbəri (s) barədə danışarkən birinci onun bəndəçiliyi, sonra isə

peyğəmbərliyi qeyd olunur: “Məhəmməd (s) Allahın bəndəsi və rəsuludur.” Buna görə də o, insanları hidayət edə bilir. Bəzi insanlar elə düşünürlər ki, iki rükət namaz qılmaqla, oruc tutmaqla özlərini əbdlərə (bəndələrə) qoşmuşlar. Amma başqaları ilə ünsiyyətdə olarkən görürsən ki, həmin o insanlar buna təsir göstərirlər. Halbuki bəndə odur ki, ona təsir göstərmək mümkün olmasın və o, hamıya təsir göstərə bilsin.

İmam Museyi Kazimin (ə) ləqəblərindən biri də “Alim” ləqəbidir. O həzrət dünyaya gələndən şəhid olanadək alim olaraq qaldı.

Yaqub Sərrac deyir: “Bir gün İmam Sadiqin (ə) hüzuruna getdim. Gördüm ki, o həzrət bir beşiyin kənarında əyləşib beşikdəki uşaqla söhbət edir. Mən kənardan ona baxır və heyrət içində donub qalmışdım. İmam (ə) uşaqla söhbət etdikdən sonra mənim heyrət içində olduğumu gördü. Bildi ki, onun uşaqla etdiyi söhbətdən heyrətlənmişəm. Amma o həzrətin əzəməti məni tutmuşdu. Buna görə də cürət edib uşaqla nə danışdığını soruşa bilmirdim. İmam (ə) mənə buyurdu: “Gəl, bu uşağa salam ver.” Mən beşiyə yaxınlaşıb uşağa salam verdim. Uşaq da mənə baxıb çox fəsahətlə salamıma cavab verdikdən sonra buyurdu: “Yaqub, dünən sənin bir qızın olub. Onun adını da Hümeyra qoymusan. Allahın bu addan xoşu gəlmir. Get onun adını dəyiş.”

Mən heyrətimdən yerimdə donub qaldım və halım dəyişdi. Doğrudan da dünən mənim bir qızım olmuşdu və adını da Hümeyra qoymuşdum.

İmam Sadiq (ə) mənə buyurdu: “Ey Yaqub, sən bu uşağın əmrinə itaət etsən, hidayət olunarsan. Bu uşaq sizin yeddinci imamınızdır – Musa ibn Cəfərdir.

Mən onlardan ayrılıb evə qayıtdım və qızımın adını dəyişdirdim.”

İmam Museyi Kazim (ə) zindanda olarkən Yusif və Məhəmməd ibn Həsən adlı iki tanınmış əhli-sünnə alimi o həzrətdən elmi məsələləri soruşmaq üçün Harundan izn aldılar. Onlara izn verildikdən sonra İmamın (ə) hüzuruna getdilər. Onlar belə nəql edirlər ki, yenicə əyləşmişdik ki, zindanbaşı gəlib İmama (ə) dedi: “Ey

Peyğəmbər övladı, mənim növbəmin vaxtı qurtardı. Mən indi gedirəm və bir də sabah gələcəyəm. Nə qulluğunuz olsa, hazıram."

Zindanbaşı getdikdən sonra İmam (ə) üzünü bizə tutub buyurdu: "Gecə bir insanın ömrünün qurtaracağı halda sabaha özü üçün tədbir hazırlamasına təəccüb etmirsinizmi?"

İmamın (ə) bu sözlərindən sonra bir-birimizin üzünə baxıb heç bir söz demədən oradan çıxdıq. Çöldə bir-birimizə dedik ki, biz ondan elmi bir məsələni soruşmağa gəlmişik, amma o, bizə qeybdən xəbər verir.

Axşam bir nəfəri həmin zindanbaşının evinə yolladıq ki, orada nə baş verdiyini öyrənsin. Həmin adam onun evinə gedib gecəyarısı qayıtdı. Ondan nə baş verdiyini soruşduqda dedi: "Zindanbaşı dünyasını dəyişdi."

Səhərisi gün yenə də zindana, yəni İmamın (ə) yanına gedib dedik: "Biz dünən sizdən elmi bir məsələni soruşmaq üçün gəlmişdik. Siz gecə zindanbaşının dünyasını dəyişəcəyi haqda xəbər verdiniz. Gecə onun evinə adam göndərdik və siz deyən sözlər düz çıxdı. Siz bu elmi haradan öyrənmisiniz?"

İmam (ə) buyurdu: "Bu elmi cəddim Həzrət Peyğəmbər (s) öz canişini Əli ibn Əbu Talibə (ə) vermiş və o da həmin elmi bizə vermişdir. Bu elmi öyrənməyin başqa bir yolu yoxdur. Kimsə bu elmi öyrənə bilməz."

Əli ibn Yəqtin Harun ər-Rəşidin vəzirlərindən biri idi. O, Harunun ətrafında olan insanlar içərisində Cəfəri məzhəbinə məxsus yeganə bir şəxs idi. Həm də İmam Museyi Kazimin (ə) xalis və səmimi müridlərindən biri idi. Əli ibn Yəqtin Harunun sarayında işləmək üçün İmamdan (ə) icazə almışdı. Amma bunu sarayda heç bir kəsə demirdi. Çünki Harunun bundan xəbəri olsaydı, o, problemlərlə üzləşə bilərdi. Əli ibn Yəqtin Həzrət Musa ibn Cəfər əl-Kazımı (ə) sevir, onun imamətini qəbul edir və əlinə fürsət düşən kimi Həzrətin (ə) ziyarətinə gedirdi. Amma görüşmək imkanı olmadıqda nəyisə soruşmaq, habelə xüms vermək kimi məsələlərlə bağlı etibar etdiyi yaxın adamlarını İmamın (ə) yanına göndərərdi.

Günlərin birində Harun ər-Rəşid üçün hədiyyə olaraq gözəl və qiymətli bir libas gətirirlər. Bu libasların arasında xəz və qızılla

toxunmuş bir rida da var idi. Harun həmin libası Əli ibn Yəqtinə bağışladı. Əli ibn Yəqtin  həmin libası evə aparır və bir neçə gündən sonra üzərinə başqa hədiyyələr də əlavə edərək yığdığı xüms pullarını da üstünə qoyub bir nəfərlə İmam Kazıma (ə) göndərir. İmam (ə) hədiyyələri və pulu ondan qəbul edib həmin paltarı başqa bir adamla Əli ibn Yəqtinə qaytarır və ona göndərdiyi məktubda belə yazır: “Paltarı evində saxla, bir gün sənin lazımın olacaq.”

Əli ibn Yəqtin İmam (ə) buyurduğu kimi həmin paltarı evə aparıb sandığa qoyur. Bilirdi ki, İmam Museyi Kazim (ə) hikmətsiz bir iş görməz.

Saray xidmətçilərindən birisi Əli ibn Yəqtinin İmam Museyi Kazıma (ə) nəsə göndərdiyindən xəbər tutaraq birbaşa Harunun yanına gedib deyir: “Əli ibn Yəqtin Musa ibn Cəfərin imamətinə inanır və hər il malının xümsünü ona göndərir. Hətta sizin bağışladığınız libası da ona göndərmişdir.” Harun qəzəblənib Əli ibn Yəqtini yanına çağıraraq ona bağışladığı libasın harada olduğunu soruşur. Əli ibn Yəqtin deyir: “Paltar evdədir, onu ətirli bir parçaya büküb sandıqda saxlamışam. Hər sübh və axşam açıb baxıram, təbərrük kimi öpürəm.” Əgər lazımdırsa, bir nəfər çağırın sandığın açarını ona verim gedib evimdən gətirsin. Harun öz işçilərindən birinə göstəriş verir ki, gedib onu gətirsin. Əli ibn Yəqtin açarı ona verib deyir: “Filan otaqda, filan sandıqda parçaya bükülüb. Get, onu gətir.”

Xidmətçi gedib deyilən yerdən libası götürüb gətirir. Harun paltarın ətirlənmiş parçaya büküldüyünü görüb sakitləşir və Əli ibn Yəqtinə deyir: “Onu geri qaytar, daha sənin haqqında heç bir kəsin pis sözünü qəbul etmərəm.” Sonra Harun öz vəzirinə başqa hədiyyələr də verir. Xəbərçilik edən xidmətçini isə cəzalandırır.

Əli ibn Yəqtin orada başa düşür ki, İmam Museyi Kazim (ə) həmin libası nə üçün geri qaytarmışdı.

İmam Museyi Kazim (ə) yeri gələndə sözünü sərt və kəskin şəkildə deməyi də çox yaxşı bacarırdı. Kimliyindən asılı olmayaraq zalım bir insana zalım olduğunu birbaşa üzünə deyərdi.

Günlərin birində Harun Həzrət İmam Museyi Kazimi (ə) saraya dəvət etmişdi. Əyləşib söhbət edirdilər. Harun İmamdan (ə) soruşdu: “Bilirsənmi bu saray kimindir?” İmam (ə) buyurdu: “Bura fasiq insanların hökmdarlıq etdikləri saraydır. Quranın bu ayəsi sizin kimi insanlar barədədir:

سَأَصْرِفُ عَنْ آيَاتِيَ الَّذِينَ يَتَكَبَّرُونَ فِي الأَرْضِ بِغَيْرِ الْحَقِّ وَإِن يَرَوْاْ كُلَّ آيَةٍ لاَّ يُؤْمِنُواْ بِهَا وَإِن يَرَوْاْ سَبِيلَ الرُّشْدِ لاَ يَتَّخِذُوهُ سَبِيلاً وَإِن يَرَوْاْ سَبِيلَ الْغَيِّ يَتَّخِذُوهُ سَبِيلاً ذَلِكَ بِأَنَّهُمْ كَذَّبُواْ بِآيَاتِنَا وَكَانُواْ عَنْهَا غَافِلِينَ

–Tezliklə yer üzündə nahaq yerə təkəbbürlülük edən, hər hansı bir ayə və möcüzə görəndə iman gətirməyən, hidayət yolunu görəndə onunla getməyən və azğınlıq yolunu gördükdə isə onunla gedən kəsləri Öz ayələrimdən yayındıracağam *(ayələrimlə mübarizə etmək qüdrətini onlardan alacağam).* Bu (iş), onların Bizim ayə və nişanələrimizi təkzib etdiklərinə və onlardan *(onları görməkdən)* qafil olduqlarına görədir.[22]

Uzun söz-söhbətdən sonra axırda Harun dedi: “Sən mənim kafir olduğumu güman edirsən?”

İmam (ə) buyurdu: “Xeyr. Mən deyirəm ki, sən Allahın bu ayədə buyurduğu adamsan.

أَلَمْ تَرَ إِلَى الَّذِينَ بَدَّلُواْ نِعْمَةَ اللهِ كُفْرًا وَأَحَلُّواْ قَوْمَهُمْ دَارَ الْبَوَارِ

–Məgər Allahın nemətlərini *(nemətlərin şükrünü)* nankorluğa dəyişənlərin və öz qövmlərini *(onlara tabe olanları)* həlakət diyarına salanların halına baxmadınmı?!”[23]

Harun danışmağa bir söz tapmayıb susdu.

Başqa bir məclisdə Harun İmam Museyi Kazimə (ə) dedi: “Fədəyi sizə qaytarmaq istəyirəm. Onun sahəsi nə qədərdir?” İmam (ə) buyurdu: “Sən onu bizə qaytarmayacaqsan.” Harun dedi: “Onun

---

[22] Əraf surəsi, 146-cı ayə.
[23] İbrahim surəsi, 28-ci ayə.

ərazisinin haradan hara qədər olduğunu mənə deyin. Mən onu qaytaracağam.” İmam (ə) buyurdu: “Sən dediyin sözə əməl etməyəcəksən.” Axırda Harun Həzrətin (ə) cəddi Həzrət Peyğəmbərə (s) and içərək sahəni qaytaracağına söz verib İmamdan (ə) Fədəyin ərazisinin nə qədər olduğunu söyləməsini xahiş etdi.

İmam Kazim (ə) buyurdu: “Fədəyin əhatə etdiyi sahə Ədəndən (Yəməndən) tutmuş Səmərqəndə qədər, digər tərəfdən də Afrikadan tutmuş Xəzər dənizinə kimi uzanır.” Harun bu məntəqələrin adını bir-bir eşitdikcə rəng verib rəng almağa başladı. Həddən artıq qəzəblənib dedi: “Belə olan halda bizə bir şey qalmır ki!” İmam (ə) buyurdu: “Bilirdim ki, qəbul etməyəcəksən və elə buna görə də demək istəmirdim.”

İmam Kazim (ə) bu cavabı ilə Haruna bildirmək istəyirdi ki, Fədək İslam dövlətinin bütün sahəsini əhatə edən simvolik ifadədir. Yəni bu hakimiyyəti Allah-təala Əhli-beytin (ə) ixtiyarında qoymuşdur. Əgər Harun Fədəyi verməli olsaydı, onda gərək bütün hakimiyyəti də İmam Kazimə (ə) qaytaraydı.

Bir gün Harun ər-Rəşid yaşıllıq və səfalı bir yerdə əyləşib səmaya baxırdı. Buludların ötdüyünü görüb dedi: “Ey buludlar, hara gedirsiniz? İstəyirsiniz gecə gedin, istəyirsinizsə gündüz gedin. Bilin ki, nə qədər getsəniz də, mənim məmləkətimdən kənara çıxa bilməyəcəksiniz.”

Elə bu zaman Bəhlul gəlir və Harunun söylədiyi bu sözləri eşidib deyir: “Harun, məgər bu məmləkət və hakimiyyət səninkidirmi?”

Harun dedi: “Bəs kimindir?

Bəhlul dedi: “Aləmdə gördüyün hər bir şey, oturduğun sarayın da zindana saldığın və əl-qolunu zəncirlə bağladığın Seyidindir. Bütün bunları sən qəsb etmisən. Sənin tikdirdiyin binanın hər bir kərpici də məzlumların ah-naləsinin odu ilə bişərək hazır olub. Bu sarayı tikdirmək üçün bilirsənmi nə qədər insana zülm etmisən? Sən elə başa düşürsən ki, bütün bunlar sənindir.”

Həzrət Musa ibn Cəfər əl-Kazım yer üzünün höccəti və imamıdır. Allah-təala ona qüdrət, elm və ixtiyar vermişdir. Lakin Allahın

məsləhəti budur ki, insanlar təbii surətdə istədikləri yolu seçib getsinlər. İmam Kazim (ə) də Allahın yer üzündə nümayəndəsi olduğu üçün hər bir işi Allahın məsləhətinə uyğun qaydada görərdi.

# FƏZİLƏTLİ VƏ ƏLAMƏTDAR GÜNLƏR

## RƏCƏB AYININ FƏZİLƏTLƏRİ

### Dua

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُللهِ اَلَّذِي جَعَلَ الدُعاءَ مِفْتاحاً لِرَحْمَتِهِ وَوَسِيلَةً لِلْفَوْزِ بِقُرْبَتِهِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ بَرِيَّتِهِ سَيِّدِنا وَ نَبِيِّنا مُحَمَّدٍ وَآلِهِ سِيَّما بَقِيَّةِ اللهِ فِي أَرَضِهِ اَللّهُمَّ اللْعَن أَعْدائِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ

Allah-təala "Furqan" surəsinin 77-ci ayəsində İslam Peyğəmbərinə (s) xitab edərək belə buyurur:

قُلْ مَا يَعْبَأُ بِكُمْ رَبِّي لَوْلَا دُعَاؤُكُمْ فَقَدْ كَذَّبْتُمْ فَسَوْفَ يَكُونُ لِزَامً

–*(Ey Rəsulum)* de: "Əgər sizin dualarınız olmasa, Rəbbim yanında dəyər və qiymətiniz olmaz. Siz *(nazil olan kitabı və göndərilən Peyğəmbəri)* təkzib etdiniz. Buna görə də *(bu təkzib və əməlləriniz)* tezliklə *(sizin üçün)* ayrılmaz və daimi bir əzab olacaqdır."

Məlumdur ki, Allah-təala dua üçün bir əcr və savab təyin edib. Kim dua edirsə, deməli, Allahla münacat edir və Onunla danışır. Dua insanların Allahla danışığıdır. Əlbəttə, bu danışıq və söhbətlər qarşılıqlıdır. Allah da insanla söhbət edir. Quran Allahın insanla etdiyi söhbət, dua isə insanın Onunla danışması deməkdir.

Bəzi dualar vardır ki, onlara "məsur" dualar deyilir. Məsələn, Kumeyl, Nüdbə, Əbu Həmzə Sumali, Cövşən kəbir, Təvəssül duası və s. Bu duaları bizə məsumlar öyrətmişlər. Bundan əlavə, insanların Allahdan dilədiyi istəklərin hamısı da bir növ duadır. Bütün bunların hamısının özünəməxsus dərəcəsi, əcr və savabı vardır.

Dua barədə ikinci məsələ budur ki, Allah insanın etdiyi hər bir duanı eşidir və qəbul edir. Qəbul etmək də belədir ki, duaların bəzisini tez qəbul edir, bəzisini gec qəbul edir, bəzisini isə sonraya saxlayır. Çünki insan üçün nəyin məsləhətli olduğunu O, daha yaxşı bilir. Bu məsələ də aydın bir məsələdir.

Üçüncü və daha mühüm olan məsələ isə budur ki, hər bir dua istər "məsur" dualar olsun, istər insanın Allahdan dilədiyi istəklər olsun, əgər dildə söylədiklərini qəlbləri də təsdiqləsə, bu dua həmin şəxslərə xüsusi mənəviyyat və ruhaniyyət bəxş edər. Yəni dua etməyin əcri və insanın istədiklərinə nail olması öz yerində, amma insanın Allaha yalvara-yalvara dua etməsi, hacətlərini istəməsi həm də onda mənəviyyat və ruhaniyyət yaradır. Belə olduqda insan nurun içərisinə qərq olur və nuraniyyət tapdığını artıq hiss etməyə başlayır.

Dua edilən hal insana bir şərafət bəxş edir və insan hiss edir ki, bu mənəvi bağlılıq, mənəvi rabitə və bu nuraniyyət ona bir şərafət bəxş etmişdir. Hər bir halda əgər insanın dili ilə qəlbi bir olmasa, heç bir nəticə də hasil olmayacaqdır. Çünki dil deyən zaman qulaq başqa bir şeyə qulaq asırsa, yaxud göz başqa yerə baxırsa, ürəyində başqa bir şey fikirləşirsə, artıq buna dua deyilməz. Bu, sadəcə olaraq dildə deyilən bir sözə bənzəyir ki, belə sözlərin də heç bir mənası yoxdur. Yox, əgər dil ilə qəlb həmahəng olsa, o zaman insan anlayar ki, bundan öncə etdiyi yüngül və mənasız əməllər səhv imiş.

İnsan keçmişdə etdiyi pis əməllərinə görə öz-özlüyündə xəcalət çəkirsə, utanırsa və hətta buna görə tər tökürsə, deməli, həmin şəxsdə yavaş-yavaş nuraniyyət hissi oyanmaq üzrədir. Belə olanda insan Allahdan başqasından bir şey istəməkdə zillət hissinin olduğunu başa düşür. Məsələn, insan birindən pul, kömək və başqa şeylər istədikdə onda artıq zillət hissi yaranır. Amma əksinə olaraq həmin şeyləri Allahdan istədikdə, o zaman insanda izzət hissi baş qaldırır. Bu, duanın həqiqi mənasıdır. Dua edəndə insan özündə izzət hissi yarandığını görür. İnsan özünü çox nurani, şərafətli və izzətli hiss edir.

Nəticə budur ki, dua həm tələbdir (istəməkdir), həm də mətlubdur (istəniləndir). Bir var ki, insan bir şeyi istəyir və istədiyini də alır. Amma dua isə özü həm tələbdir, həm də mətlubdur. Duada hər ikisi mövcuddur. Dua həm vəsilədir və həm də nəticədir. Başqa nəsnələrdə bunların hər ikisi yoxdur. Dua həm müqəddimədir, həm də nəticədir. Müqəddimə nəticəyə yetişmək üçün bir vasitədir. Duada

bunların hər ikisi mövcuddur. Bir sözlə desək, duanın özü də bir növ ibadətdir. Dua etdikdə insana nə veriləcəyini, nələrin hasil olacağını, nə qədər savab qazanılacağını bir kənara qoysaq belə dua edərkən insan ibadət halında olur. Yəni onun nəticəsindən əlavə, dua həm də özü bir ibadətdir.

عَنِ الْإِمَامُ الصَّادِقِ(ع) أَنَّهُ سُئِلَ: مَا تَقُولُ فِي رَجُلَيْنِ دَخَلَا الْمَسْجِدَ جَمِيعاً، كَانَ أَحَدِهِمَا أَكْثَرُ صَلَاةٍ، وَ الْآخَرُ دُعَاءً فَأَيُّهُمَا أَفْضَلُ؟ قَالَ "كُلٌّ حَسَنٌ". لكِنِ السَّائِلِ عَادٍ وَ سَأَلَ الْإِمَامِ(ع): قَدْ عَلِمَتْ، وَ لَكِنَّ أَيُّهُمَا أَفْضَلُ؟ أَجَابَ الْإِمَامِ(ع): "أَكْثَرُهُمَا دُعَاءً، أَما تَسْمَعُ قَوْلَ اللَّهِ تَعَالَى: "اُدْعُونِي أَسْتَجِبْ لَكُمْ إِنَّ الَّذِينَ يَسْتَكْبِرُونَ عَنْ عِبادَتِي سَيَدْخُلُونَ جَهَنَّمَ داخِرِينَ" . ثُمَّ أَضَافَ بَعْدَ ذَلِكَ: "هِيَ الْعِبَادَةُ الْكُبْرى"

–İmam Sadiqdən (ə) soruşdular: “İki nəfər məscidə daxil olur. Onlardan biri namaz qılmaqla məşğul olur, digəri isə Allaha dua edir. Bu əməllərin hansı fəzilətlidir.” Həzrət (ə) cavabı xülasə edərək buyurdu: “Hər ikisi gözəldir.” Sual verən şəxs bu cavaba qane olmayıb yenə də soruşdu: “Mən bunların yaxşı əməl olduğunu bilirəm. Lakin bunlardan hansı daha fəzilətlidir?” Həzrət (ə) buyurdu: “Hansının əməlində duası daha çoxdur, o fəzilətlidir. Allah-təalanın kəlamını eşitməmisənmi: “Məni çağırın ki, Mən də duanızı qəbul edim. Əlbəttə, Mənə ibadət etməyi özünə sığışdırmayanlar tezliklə xar və xəcalətli şəkildə cəhənnəmə daxil olacaqlar.” Sonra İmam (ə) buyurdu: “Dua çox böyük ibadətdir.”

Yəni dua həm insanın istədiklərinə müqəddimədir, həm də özü də bir ibadətdir. İnsan bununla istədiyini almaqla yanaşı, etdiyi dua onun üçün ibadət yazılır. Buna görə də dua həm tələbdir və həm də mətlubdur.

قَالَ رَسُولُ اللَّهِ(ص): يَدْخُلُ الْجَنَّةَ رَجُلَانِ كَانَا يَعْمَلَانِ عَمَلًا وَاحِداً، فَيَرَى أَحَدُهُمَا صَاحِبَهُ فَوْقَهُ فَيَقُولُ: يَا رَبِّ! بِمَا أَعْطَيْتُهُ، وَ كَانَ عَمَلُنَا وَاحِداً؟ فَيَقُولُ اللَّهُ تَبارَكَ وَ تَعَالَى: سَأَلَنِي وَ لَمْ تَسْأَلْنِي...

–Həzrət Peyğəmbər (s) buyurur: "İki nəfər cənnətə daxil olur. Dünyada onların hər ikisinin əməlləri eyni idi. *(Hər ikisinin namazı və orucları səhih olmuşdur.)* Biri görür ki, dostu ondan yuxarı dərəcədə yer tutmuşdur. Buna görə də deyir: "Ey mənim Rəbbim! Bizim əməlimiz eyni olduğu halda nəyə görə onun dərəcəsi məndən üstündür?" Allah-təala buyurar: "O, Məndən çox istəyirdi, sən isə Məndən heç nə istəmirdin." *(O, çox yalvarırdı, çox dua edirdi, lakin sənin duaların ondan az idi.)*

Dua barədə olan ikinci mətləb duanın şərtləridir. Əlbəttə, qeyd etmək lazımdır ki, duanın bir neçə şərti vardır. Burada onlardan ən mühüm olanlarından bir neçəsini diqqətinizə çatdırmaq istərdim. Təbiidir ki, hər bir dua edən, "Kumeyl" duasını oxuyan hər bir kəs Həzrət Əli (ə) kimi ola bilməz. "Kumeyl" duası elə həmin duadır. Amma bu o demək deyildir ki, bu duanı oxuyan ya Kumeyl, ya da Həzrət Əli (ə) kimi ola bilər. Odur ki, duanın müxtəlif şərtləri vardır və dua həmin şərtlər əsasında oxunmalıdır.

### 1. Allahı dərk etmək

Dua etməyin əsas və mühüm şərtlərindən birincisi budur ki, insan əzəmətli Allahı dərk edə bilsin. Yəni Allahı tanısın. Hər kimin Allaha dərki nə qədər olsa, duasının qiyməti də o qədər olacaq.

Bir gün Həzrət Əlidən (ə) soruşdular: "Ya Əli (ə), yenicə dünyaya gələn uşaq dünyasını dəyişdiyi kimi[24] sən də uşaqlığında dünyadan getmək istərdinmi?" Həzrət (ə) buyurdu: "Xeyr, mən onu istəməzdim. Mən yaşayıb və məni yaradanı tanımaq istərdim. Mən Onu tanımamış ölmək istəməzdim. Mən onu tanımamış cənnət quşu olmaq istəmirəm. Mən Onu tanıyıb və Onun izni ilə cənnətə daxil olmaq istəyirəm."

Bu sözü hamımız deyə bilərik. Amma bu sözümüzün nə qədər doğru olub-olmaması sual altındadır. Bu sözü sədaqətlə Həzrət Əli (ə) kimi şəxsiyyətlər söyləyə bilər. Odur ki, insan dua edərkən ilk

[24] Hədislərdə qeyd olunur ki, yenicə dünyaya gəlmiş uşaq dünyasını dəyişsə, o, cənnət quşu hesab olunar.

növbədə dua etdiyi, çağırdığı və qarşısında dayandığı kəsi tanımalıdır.

عَنِ الْإِمَامِ الصَّادِقِ(ع) و قَد سَأَلَهُ قومٌ : نَدعو فلا يُستَجابُ لَنا؟! .: لأنَّكُم تَدعونَ مَن لا تَعرِفونَهُ.

–Bir dəstə adam İmam Sadiqin (ə) hüzuruna gəlib soruşdular: “Etdiyimiz dualar nə üçün qəbul olunmur?” Həzrət (ə) buyurdu: “Çünki çağırdığınız kəsi tanımırsınız.”

قَالَ الْإِمَامُ عَلَي(ع): سَكِّنُوا فِي أَنْفُسِكُمْ مَعْرِفَةَ ما تَعْبُدُونَ، حَتَّى يَنْفَعُكُمْ مَا تُحَرِّكُونَ مِنَ الْجَوارِحِ بِعِبَادَةِ مَنْ تَعْرِفُونَ.

–Həzrət Əli (ə) buyurmuşdur: “İbadət etdiyiniz kəsin mərifətini qəlbinizə yerləşdirin. *(Bu mərifətlə)* etdiyiniz ibadətlərin hamısının *(səcdələr, rüku, qiyam, oruc tutmaq, təvaf etmək, Minada qalmaq, Ərəfatda vüquf etmək, malınız ilə olunan ibadətlər, xüms, ehsan və sair)* faydasını görəcəksiniz.”

Həzrət Peyğəmbər (s) bu barədə bir fikir vurğulamışdır. Bu ifadədə tanımağın mənası açıqlanır. O həzrət bu cümlə ilə mərifətin nə olduğunu bizlərə öyrədir.

قَالَ اللَّهُ عَزَّ وَجِلَ : مَنْ سَأَلَنِي وَ هُوَ يَعْلَمُ أَنِّي أَضُرُّ وَ أَنْفَعُ اسْتَجَبْتُ لَهُ

–Allah-təala buyurmuşdur: “Məni çağıran, fayda və zərərin yalnız Mənim əlimdə olduğunu bilən hər bir şəxsin dualarını qəbul edərəm.”

İnsan bilməlidir ki, kimliyindən asılı olmayaraq, hər bir kəs Allaha möhtacdır və hər şey Allahın ixtiyarındadır. İnsan bilməlidir ki, onun həyatı, ölümü, diriliyi, gələcəyi yalnız Allahın əlindədir. Əgər insan Ona qoşulsa, onda (bu həyatdan) bir nəticə alacaq.

**2. Əməl**

Dua etməyin əsas şərtlərindən ikincisi budur ki, insan öz mərifətini əməli ilə sübut etsin. İlahi, yeri, göyü Sən yaratmısan, ağaclar qışda ölmüş idi, yayda isə yenidən Sən onlara həyat verdin, meşələri, dəryaları və hər bir şeyi Sən xəlq etmisən. İnsan bunları bilir, lakin əməli ilə mərifətini sübut etmir. Bunları biləndən sonra insanın əməllərində də

müəyyən bir fərq olmalıdır. İnsan hər bir şeyin Allahın ixtiyarında olduğunu biləndən sonra gərək ibadəti də layiqincə yerinə yetirsin. Bu barədə Allah-təala “Bəqərə” surəsinin 40-cı ayəsində belə buyurur:

وَأَوْفُواْ بِعَهْدِي أُوفِ بِعَهْدِكُمْ

–Mənim əhd-peymanıma vəfa edin, Mən də sizin əhd-peymanınıza vəfa edim.

Siz Mənə söz vermisiniz və Mən də sizə bir söz vermişəm. Siz Mənə söz vermisiniz ki, Mənə ibadət edəcəksiniz, Mən də sizə söz vermişəm ki, siz hər nə istəsəniz, sizə verəcəyəm. Siz öz əhdinizə əməl edin, Mən də Öz əhdimə əməl edim.

İmam Sadiqdən (ə) soruşdular: “Allah-təala “Məni çağırın, Mən də dualarınızı qəbul edim” – dediyi halda nə üçün dualarımız qəbul olunmur?” Həzrət (ə) buyurdu:

لأنّكُم لا تَفونَ للّهِ بِعَهْدِهِ و أنّ اللّهَ يقولُ: «أوْفُوا بِعَهْدِي أُوْفِ بِعَهْدِكُم»، واللّهِ لَو وَفَيْتُم للّهِ لَوَفى اللّهُ لَكُم .

–Çünki siz Allahla olan əhd-peymana vəfa etmirsiniz. Halbuki Allah-təala buyurmuşdur: “Mənim əhd-peymanıma vəfa edin, Mən də sizin əhd-peymanınıza vəfa edim.” And olsun Allaha, siz Allahın əhdinə vafa etsəydiniz, O da sizin əhdinizə vəfa edərdi.”

### 3. Ürəkdən dua etmək

Duanın əsas şərtlərindən biri budur ki, insan gərək ürəkdən və diqqətlə dua etsin.

Günlərin birində bir nəfər İslam Peyğəmbərinin (s) yanına gəlib soruşdu: “Ey Allahın Rəsulu, ismi-əzəm nədir?” (O şəxs eşitmişdi ki, dua zamanı ismi-əzəmi deyəndə dualar qəbul olar.) Həzrət Peyğəmbər (s) həmin şəxsin nə istədiyini dərhal bildi və buyurdu:

كُلُّ اسمٍ مِن أسماءِ اللهِ أعظَمُ ، فَفَرِّغْ قَلبَكَ مِن كُلِّ ما سِواهُ و ادْعُهُ بِأيِّ اسمٍ شِئتَ .

–Allahın bütün adları əzəmdir. Qəlbini Ondan başqa hər şeydən təmizlə və Onu istədiyin adı ilə çağır.

Odur ki, insan qəlbini təmizlədikdən sonra istədiyinə nail olar və Allah onun dualarını qəbul edər.

Mərhum Ayətullah Əşrəf Mazandəraninin şagirdlərindən biri deyir: "Mən Məşhəd şəhərinə İmam Rzanın (ə) ziyarətinə gedərkən ustadımın yanına gəldim və bildirdim ki, İmam Rzanın (ə) ziyarətinə gedirəm. Ayətullah Mazandərani mənə dedi ki, İmama (ə) mənim salamımı yetir və o həzrətə de ki, gözünün ucu ilə bizə də bir lütf nəzəri ilə baxsın.

Mən Məşhəd şəhərinə yollandım. Bir neçə gün İmam Rzanın(ə) hərəmini ziyarət etdikdən sonra Ayətullah Mazandəraninin salamını Həzrətə (ə) çatdırdım. Həmin gecə yuxuda Həzrət İmamı (ə) gördüm. İmam (ə) mənə buyurdu: "Əşrəf Mazandəraniyə mənim salamımı yetir və bu şeiri ona oxu:

*Saf ol, güzgü kimi pəri camallıları özünə cəlb eylə.*
*Süpürgə çək evə, təmizlə, sonra qonaq tələb eylə.*

Yəni həmişə əməllərin düzgün olmalıdır, qəlbin bütün çirkinliklərdən pak və təmiz olduqdan sonra bizi çağır.

Mən yuxudan ayıldım və yuxuda gördüklərimi yadımda saxladım. Geri qayıtdıqdan sonra Ayətullah Mazandəraninin evinə getdim. Qapını döydüm. Ayətullah Mazandərani özü qapını açdı. Mən ona salam verdim. O da salamımı alandan sonra üzümə baxıb gülümsəyərək İmamın (ə) oxuduğu şeiri oxudu.

Mən təəccübdən yerimdəcə donub qaldım və sonra sağollaşıb evə qayıtdım."

Həyatda belə hallar çox olur. Biz onları eşidirik və görürük.

Odur ki, daxilimizdəki maneələri aradan qaldırmalı və batinimizi təmiz saxlamalıyıq. İnsan dua edən zaman bədənində olan bütün hüceyrələr də gərək dua etsin. İnsan bütün vücudu ilə dua etməlidir. Mərhum ustad Mürtəza Mütəhhəri demişdir: "Bədənin suya ehtiyacı olan zaman bədənin bütün üzvləri əl-ələ verib suya ehtiyac olduğunu bildirirlər. Boğaz quruyur, dil quruyur, bədən su tələb edir. Yəni bütün hüceyrələr susuzluq hissi ilə su tələb edirlər. Su qəbul edəndən sonra göz işıqlanır, dilin və boğazın quruluğu aradan gedir, ürəyin

yanğısı sönür və bədən rahatlaşır. Dua edəndə də gərək bədən üzvlərinin hamısı əl-ələ versin. Dil dua edərkən göz başqa yerə baxırsa, qulağın diqqəti başqa yerə yönəlirsə o duadan bir şey hasil olmaz. Əgər onların hamısı əl-ələ verib birlikdə yalvararaq Allahdan istəsələr, o zaman insan öz istədiyinə nail olacaqdır."

أَمَّن يُجِيبُ الْمُضْطَرَّ إِذَا دَعَاهُ وَيَكْشِفُ السُّوءَ

–*(O şəriklərmi yaxşıdır),* yoxsa darda qalan bir kimsə Onu çağırdığı *(dua etdiyi)* zaman ona cavab verən kəs?[25]

Ayədəki "Muztərr" sözünün mənası bədən hüceyrələrinin əl-ələ verib birlikdə ehtiyaclarını istəməsidir. İstəklərini alandan sonra isə onlar sakit olurlar. İmam Sadiq (ə) bu barədə çox qiymətli bir kəlam buyurmuşdur:

إذا اقشَعَرَّ جِلدُكَ و دَمَعَتْ عَيناكَ و وَجِلَ قلبُكَ فَدُونَكَ دُونَكَ فقد قُصِدَ قَصدُكَ .

–Bədəninin lərzəyə düşdüyü, gözlərindən yaş töküldüyü və qəlbinin döyüntüsünün artdığı zamanı *(dua etmək üçün)* qənimət bil ki, dualarının qəbul olunması üçün sənə fürsət verilmişdir.

**4. İnsanın istəyinin Allahın iradəsi ilə üst-üstə düşməsi**

Dua etməyin dördüncü mühüm şərti budur ki, insanın istəyi Allahın iradəsinin əksinə olmamalıdır. Allahın iki cür iradəsi vardır: Biri təkvini, digəri isə təşrii iradə. Onun təkvini iradəsi xilqət və yaradılışda olan iradəsidir. Təşrii iradə isə şəriətdə (Quranda) olan iradədir. İnsanın istəyi bu iradələrin heç birinin əleyhinə olmamalıdır. Məsələn, insan təkvini iradəyə müdaxilə edərək duasında "İlahi, qiyamət gününə qədər məni öldürmə" deməməlidir. Yaxud "İlahi, mən ailə qurmaq istəmirəm, amma mənə bir övlad nəsib et", –deyə dua etməməlidir. Çünki bu hallar Allahın iradə və istəyinə uyğun deyil. Kimliyindən asılı olmayaraq hər kim Allahın təkvini iradəsinin əleyhinə olan bir şeyə dua etsə, duası qəbul olunmaz. Hətta

[25] Nəml surəsi, 62-ci ayə.

Həzrət Peyğəmbər (s) də bu kimi dualar etsə, yenə də qəbul edilməyəcək.

Bir gün İslam Peyğəmbəri (s) İmam Həsəni (ə) qucağına alıb çiynində otuzdurdu. Həzrət Peyğəmbər (s) nəvələrini çox istəyirdi. Elə o haldaca Allaha dua edərək dedi: “İlahi, mən bu uşağı sevirəm, Səndə onu sev. Elə et ki, bütün insanlar bunu sevsin.” Allahdan ona belə xitab gəldi: “Ey Mənim peyğəmbərim! Sən onu sevirsən, Mən də sevirəm. Lakin bütün insanların onu sevməsi mümkün deyil. Çünki insanlar ixtiyar sahibidir. Mən onları azad yaratmışam. Bu qanunu poza bilmərəm. İnsanlar onu sevməkdə azaddırlar. Kim istər sevər, kim istər sevməz.” Həzrət Peyğəmbərin (s) bu istəyi qəbul olunmadı. Çünki bu, xilqətə aid olan təkvini iradədir.

Allahın ikinci iradəsi şəriətə aiddir. Allah istəyir ki, insan həm özünün, həm də digərlərinin yaxşı yaşaması üçün onları yaxşı əməllərə dəvət etsin, pis əməllərdən isə çəkindirsin. Əgər insan yaxşı əməllərə dəvət edib, pis əməllərdən isə çəkindirmirsə, bunun nəticəsində zalım bir insan ona hakim kəsildikdə dua edib deyir ki, “İlahi, bu zalımı məhv elə.” Təbiidir ki, Allah onun etdiyi duanı qəbul etməz. Çünki insan özü-özünü tora salmışdır.

Təsəvvür edin ki, sükan arxasında əyləşən bir şəxsin idarə etdiyi maşın bir neçə yolayrıcına gəlib çatmaqdadır. Sürücü nəzərdə tutulan ünvana getmək üçün körpünün altından keçməlidir. Ona görə də sürücü hələ körpüyə çatmamışdan qabaq qərarını qəbul edib hansı yolla gedəcəyini əvvəlcədən düşünməlidir. Lakin o, buna əhəmiyyət verməyib körpünün üstü ilə gedir. Fürsəti əldən verdikdən və körpünün üstünə çıxdıqdan sonra səhv gəldiyini başa düşür və deyir: “İlahi, məni o biri yola qaytar.” Aydındır ki, belə bir dua və istək heç bir vaxt qəbul olunmaz. Çünki həmin sürücünün bunu öncədən düşünməyə vaxtı var idi. Əvvəlcədən düşünüb hansı yolla gedəcəyini müəyyən etməliydi. Geri qayıtmaq üçün isə bir neçə kilometr irəli gedib yenidən qayıtması lazım gələcək.

Həzrət Əmirəlmöminin Əli (ə) ömrünün son günlərində öz övladlarını ətrafına toplayıb vəsiyyət etdi. Həmin vəsiyyətdə belə bir fikir də vardır:

لا تَتْرُكُوا الْأَمْرَ بْالْمَعْرُوفِ وَ النَّهی عَنِ الْمُنْكَرِ فَيُوَلَّى عَلَيْكُمْ أَشْرارُكُمْ ثُمَّ تَدْعُونَ فَلا يُسْتَجابُ لَكُمْ

–Əmr be məruf və nəhy əz münkəri tərk etməyin ki, pislər *(şər insanlar)* sizə hakim kəsilərlər. Sonra nə qədər dua etsəniz də, müstəcab olmaz.

**5. Dua edənin məkanı və paltarı qəsb edilmiş olmamalıdır**

Duanın ən mühüm şərtlərindən biri də budur ki, dua edən insanın paltarı və yeri qəsb edilmiş olmasın və haram tikə yeməsin. Əgər bu şərtlər yerinə yetirilməsə, duadan heç bir nəticə almaq mümkün olmayacaq.

قَالَ الصَّادِقُ(ع): إذا أَرَادَ أحدُكُم أن يُستَجابَ لَهُ فَلْيُطَيِّبْ كَسبَهُ و لْيَخرُجْ مِن مَظالِمِ الناسِ ، و إنَّ اللّهَ لا يُرفَعُ إلَيهِ دُعاءُ عبدٍ و في بَطنِهِ حرامٌ أو عندَهُ مَظلِمَةٌ لِأَحَدٍ مِن خَلقِهِ .

–İmam Sadiq (ə) buyurur: "Duasının qəbul olunmasını istəyən kəs qazancını təmizləməli və insanlardan qəsb etdiklərini onlara qaytarmalıdır. Qarnında haram mal, yaxud boynunda başqasının haqqı olan şəxsin duası Allah dərgahına ucalmaz."

***Nəticə:*** Əlbəttə, duanın bundan başqa şərtləri də vardır ki, yuxarıda qısaca olaraq bir neçəsini qeyd etdik. Əgər dua edən insanın Allaha mərifəti olsa, dili ilə qəlbi həmahəng olsa, insanlardan çəkilib yalnız Allaha qovuşa bilsə və halal-harama riayət edərək dua etsə, bu duadan aldığı ləzzəti heç bir şeydən və dünyanın heç bir yerindən ala bilməz. Amma bunu təkcə dildə deməklə həmin insan o həzzi yaşaya bilməz. Duanın ləzzətini o məqama yüksələnlər dərk edib başa düşə bilərlər. Məcnunun Leyliyə olan məhəbbətini sözlə ifadə etmək mümkün deyil. Bunu başa düşmək üçün insan gərək özü Məcnun olsun və yalnız bu halda o, başa düşər ki, Məcnun nə üçün Leylinin gəzdiyi küçələrin divarlarını öpürdü.

Mərhum ustad Mürtəza Mütəhhəri demişdir: "İnsan bir peşəni öyrəndikdən sonra ilk işindən çox ləzzət alır. Məsələn, bir nəfər həkimliyi oxuyub qurtardıqdan sonra ilk xəstəni müalicə edib sağaltdıqda bunu uzun illər təhsilinin nəticəsi kimi dəyərləndirərək çox böyük sevinc hissi keçirir. Buna görə də gördüyü işdən ləzzət alır. İman və duanın şərtlərini əldə edəndən sonra Allahın mərhəmətini qazanan şəxsin aldığı ləzzəti kənar bir insana başa salmaq mümkün deyil. Elə buna görə də buyurulur ki, "dua çox böyük bir ibadətdir."

Rəcəb ayı yuxarıda qeyd olunan hal və ləzzəti əldə etmək üçün böyük fürsətlərdən biridir. İnsanların bu halı tapmaları üçün Allah-təala əvvəl rəcəb ayını, sonra şəban ayını və ardınca da ramazan ayını yaratmışdır. Bu, insanların əlinə düşən böyük bir fürsətdir ki, Allah-təala onu bizlərə mərhəmət etmişdir. Bunu etməyə də bilərdi. Kim rəcəb ayının birinci cümə axşamını oruc tutsa və rəqaib gecəsinin namazını qılsa, dünyasını dəyişəndən sonra qiyamət gününə qədər qorxmamaq üçün Allah bir mələyi onun yanına göndərər. Bu, Allah-təalanın insana bir lütfüdür.

Bir gün İslam Peyğəmbəri (s) səhabələri ilə birgə bir qəbiristanlıqdan keçirdi. Birdən qəbirlərin birinin kənarında dayanıb dua etdi. Səhabələr soruşdular: "Ya Rəsulallah, nə üçün bu qəbrin kənarında dayandın?" Həzrət Peyğəmbər (s) buyurdu: "Bu qəbrin sahibinə əzab verilir. Mən onun səsini eşidirəm. Buna görə də onun üçün Allaha dua etdim." Sonra isə belə buyurdu: "And olsun Allaha, qəbirdə əzab çəkən bu insan əgər rəcəb ayında bir gün oruc tutsaydı, ona qəbirdə belə əzab verilməzdi."

Bu aylar və günlər Allah-təalanın bizə verdiyi fürsətlərdir. Aylar, günlər, saatlar və dəqiqələr keçir, lakin insanlar buna heç bir əhəmiyyət vermirlər.

İslam Peyğəmbəri (s) buyurmuşdur: "Allah ərşdə bir mələk xəlq etmişdir. Onun işi yalnız rəcəb ayında gecə sübhə kimi insanları çağırmaqdır. O, gecələr yatanlara baxır və deyir: "Ey insanlar, Allahı zikr edən insanların xoş halına. Allaha ibadət edən insanların xoş

halına." Bu mələkin adı Daidir. (Allah "hər kim Məni çağırsa, onu eşidərəm" – deyə söyləmişdir.)

İslam Peyğəmbəri (s) daha sonra buyurur: "Allah-təala buyurmuşdur ki, Mən rəcəb ayını yaratdım və onu Özüm ilə insanlar arasında bir ip və vasitə qərar verdim. Hər kim bu ipin o biri ucundan yapışsa, gəlib Mənə çatacaqdır."

Bu ayda insanların tövbə etməsi, istiğfar etməsi, gün ərzində yetmiş dəfə sübh və yetmiş dəfə gecə "Əstəğfirullahə Rəbbi və ətubu ileyh" kəlməsini söyləməsi tövsiyə olunmuşdur. Həmçinin bu ay Quran oxumaq, insanların bir-birilərini bağışlamaları tövsiyə edilmişdir. Məsələn, kim birisinin qeybətini edibsə, dalınca danışıbsa, onu bağışlasın ki, Allah da həmin şəxsi bağışlasın.

Rəcəb ayında sədəqə vermək, yoxsulların qayğısına qalmaq, İmam Hüseynin (ə) ziyarətinə getmək, belə bir imkan olmadıqda isə uzaqdan ziyarətnaməni oxumaq tövsiyə olunmuşdur. Bu ayın özünəməxsus zikrləri vardır. Bu ay min dəfə "La ilahə illəllah" kəlməsini, həmçinin "İxlas" surəsini yüz və ya min dəfə oxumaq tövsiyə edilir. Salavat göndərmək məsələsində isə hədd-hüdud olmamalıdır.

Bu ayın birinci günü, ikinci günü, üçüncü günü oruc tutmağın savabı çoxdur. Xüsusilə həftənin cümə axşamı, cümə və şənbə günləri ardıcıl olaraq oruc tutan şəxsə Allah-təala 900 ilin ibadətinin savabını verər. Rəcəb ayının 13[26], 14 və 15-də oruc tutmağın savabının isə həddi-hüdudu yoxdur. Yəni bu o deməkdir ki, onun savabının nə qədər olduğunu yalnız Allah-təala bilir.

Bu, Allahın bizə verdiyi fürsət və böyük bir nemətdir. Bu ayın özünəməxsus namazları da vardır. Allah bunları yerinə yetirməyi bizlərə qismət etsin. İnşallah!

---

[26] Həzrət Əlinin (ə) viladət günü.

## ŞƏBAN AYININ FƏZİLƏTLƏRİ
## (“Rəd” surəsinin 29-cu ayəsi)

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَالْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَنْبياءِ وَالْمُرْسَلِيْنَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى اَهلِ بَيْتِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ وَلاسِيَّما بَقِيَّةِ اللهِ فِى الأَرَضِين وَاللَّعنُ الدّائِم عَلى أَعْدائِهِمْ أَجْمَعِينَ اِلى يَوْمِ الدِّينِ

Şəban ayı mübarək və bərəkətli aylardan biridir. Bundan əlavə, bu ay mübarək insanların mövludları ilə bağlı olduğundan İslam dünyasında əhəmiyyətli sayılan aylardan biridir. Şəban ayının 3-ü İmam Hüseynin (ə) dünyaya gəldiyi gündür. Bu mövlud münasibətilə İslam Peyğəmbərinin (s) gözü işıqlanır. O həzrət İmam Hüseyni (ə) görəndə bir gözü ağlasa da, digər gözü gülür. Şəban ayının 4-ü Əbülfəzl Abbasın (ə) dünyaya gəldiyi gündür. İslam tarixində bu şəxsin mübarək adı və İslamın inkişafında o həzrətin oynadığı böyük rol bütün tarixçilərə və tarix yazanlara bəllidir. Bu ad heç bir vaxt unudulmayan bir addır. İmam Səccad (ə) onun haqqında buyurur: “Allahın məhzərində əmim Əbülfəzlin məqamı, şərafəti o qədər yüksəkdir ki, qiyamət günü bütün şəhidlər onun məqamına qibtə edəcəklər.”

Belə bir şərəfli şəxsiyyət şəban ayının 4-də dünyaya gəlmişdir. Şəban ayının 5-də Əli ibn Hüseyn Zeynalabidin (İmam Səccad(ə)) dünyaya gəlmişdir. Həmçinin bu ayın 15-də on ikinci imamımız, əsrin imamı Höccət ibn Həsən (ə.c) dünyaya gəlmişdir. Qeyd etdiyimiz şəxsiyyətlərin vücudu şəban ayına daha çox şərafət və fəzilət bəxş edir.

Allah-təala “Rəd” surəsinin 29-cu ayəsində buyurur:

الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ طُوبَى لَهُمْ وَحُسْنُ مَآبٍ

–Şadlıq və sevinc, pak həyat, tuba ağacı iman gətirən və yaxşı işlər görən kəslərə məxsusdur və onların gözəl bir dönüşləri vardır.

Bu ayədə bəyan olunur ki, Allah-təala iman gətirən və əməlləri ilə öz imanlarını sübut edən insanlara “tuba” verəcəkdir. “Tuba” nə deməkdir? “Tuba” kəlməsinin bir mənası səadət, izzət, şərafət, paklıq

və gözəllik deməkdir. Bəzi kitablarda isə “tuba” kəlməsinin gözaydınlığı, sevinc və şadlıq mənasında işləndiyi qeyd olunmuşdur. Bir hədisdə isə onun cənnət mənasını verdiyi bildirilmişdir.

“طُوبَى لَهُمْ أَيْ اَلْجَنَّةُ لَهُمْ” – “Allahın cənnəti onlarındır”. Burada “tuba” dedikdə cənnət nəzərdə tutulur.

Bu ayənin təfsirində onu daha gözəl izah edən hədislər nəql olunmuşdur. Əbu Bəsir İmam Sadiqdən (ə) nəql edərək deyir: “Bir gün o həzrətdən soruşdum: “Ayədə işlənmiş tuba nə deməkdir?”

Həzrət (ə) buyurdu:

شَجَرَةٌ فِي الْجَنَّةِ أَصْلُهَا فِي دَارِ عَلِيٌّ بْنُ أَبِي طَالِبٍ (عَلَيْهِ السَّلَامُ) وَ لَيْسَ مُؤْمِنِ الَّا وَفِيٌّ دَارِهِ غُصْنٌ مِنْ أَغْصَانِهَا وَ ذَلِكَ قَوْلُ اللَّهِ عَزّوجلّ: "طُوبَى لَهُمْ وَ حُسْنُ مَآبٍ"

–Cənnətdə bir ağacdır ki, onun kökü Əli ibn Əbu Talibin (ə) evindədir və onun qol-budağı hər bir möminin evindən sallanacaqdır. Bu, Allah-təalanın buyurduğu həmin kəlamdır: “Tuba onlara məxsusdur və onların gözəl bir dönüşləri vardır.”

Digər bir hədisdə “tuba” barədə şəxsən Həzrət Peyğəmbərin (s) özündən soruşulur və o həzrət də onun mənasını açıqlayır.

سُئِلَ رَسُولُ اللَّهِ (صَلَّى اللَّهُ عَلَيْهِ وَ آلِهِ) عَنْ طُوبَى، قَالَ: هِيَ شَجَرَةٌ أَصْلُهَا فِي دَارِي وَ فَرْعُهَا عَلَى أَهْلِ الْجَنَّةِ.

ثُمَّ سُئِلَ عَنْهَا مَرَّةً أُخْرَى فَقَالَ: هِيَ فِي دَارِ عَلَيٍّ. فَقِيلَ لَهُ فِي ذَلِكَ ؟ فَقَالَ: اِنَّ دَارِي وَ دَارُ عَلَيٍّ فِي الْجَنَّةِ بِمَكَانٍ وَاحِدٍ

–İslam Peyğəmbərindən (s) “tuba” barədə soruşduqda Həzrət (s) buyurdu: “O, bir ağacdır ki, onun kökü mənim evimdədir, qol-budaqları isə cənnət əhlinin həyətlərinə sallanacaq.”

Sonra *(başqa bir vaxt)* yenə də “tuba” haqda soruşduqda Həzrət Peyğəmbər (s) buyurdu: “Onun kökü Əlinin (ə) evindədir.” Dedilər: “Ya Rəsulallah, bir dəfə soruşduqda söylədin ki, o, bir ağacdır, kökü mənim evimdədir. Bir daha soruşduqda söylədin ki, onun kökü Əlinin (ə) evindədir. Bunların hansı düzdür?” Həzrət (s) buyurdu:

“Həqiqətən, cənnətdə mənimlə Əlinin (ə) evi bir məkandadır. Mənim evim və məkanım Əlinin (ə) evi ilə eynidir.”

Bu, Allahın möminlərə bəxş etdiyi bir neməti və bərəkətidir.

Quranda üç surədə – “Saffat”, “Duxan” və başqa bir surədə bu ağac barədə söhbət açılmışdır ki, onun adı zəqqumdur.

“Saffat” surəsinin 62-ci ayəsində oxuyuruq:

أَذَلِكَ خَيْرٌ نُّزُلًا أَمْ شَجَرَةُ الزَّقُّومِ

–Qonaq olmağa *(ziyafət üçün)* bu, daha yaxşıdır, ya *(cəhənnəmdəkilərin qonaqlığı üçün olan)* “zəqqum” ağacı?!

Allah-təala bu ayədən öncəki ayələrdə cənnət və onun nemətlərindən söz açdıqdan sonra buyurur: “Qonaq olmağa (ziyafət üçün) bu, daha yaxşıdır, ya (cəhənnəmdəkilərin qonaqlığı üçün olan) “zəqqum” ağacı?!” Sonra isə həmin ağacın barəsində söz açılır.

إِنَّا جَعَلْنَاهَا فِتْنَةً لِّلظَّالِمِينَ. إِنَّهَا شَجَرَةٌ تَخْرُجُ فِي أَصْلِ الْجَحِيمِ. طَلْعُهَا كَأَنَّهُ رُؤُوسُ الشَّيَاطِينِ. فَإِنَّهُمْ لَآكِلُونَ مِنْهَا فَمَالِؤُونَ مِنْهَا الْبُطُونَ.

–Həqiqətən, Biz onu zalımlar üçün bir əzab vasitəsi etdik. O, elə bir ağacdır ki, cəhənnəmin lap dibindən baş qaldırar *(gövdəsi onun səthində bitər və budaqları yuxarı təbəqələrə çatar).* Tumurcuqları sanki şeytanların başlarıdır *(olduqca çirkin və zərərlidir).* Həqiqətən, onlar ondan o qədər yeyərlər ki, qarınlarını onunla doldurarlar.

“Duxan” surəsinin 43-50-ci ayələrində bu ağac barəsində belə oxuyuruq:

إِنَّ شَجَرَةَ الزَّقُّومِ. طَعَامُ الْأَثِيمِ. كَالْمُهْلِ يَغْلِي فِي الْبُطُونِ. كَغَلْيِ الْحَمِيمِ. خُذُوهُ فَاعْتِلُوهُ إِلَى سَوَاءِ الْجَحِيمِ. ثُمَّ صُبُّوا فَوْقَ رَأْسِهِ مِنْ عَذَابِ الْحَمِيمِ. ذُقْ إِنَّكَ أَنتَ الْعَزِيزُ الْكَرِيمُ. إِنَّ هَذَا مَا كُنتُم بِهِ تَمْتَرُونَ.

–Şübhəsiz, *(cəhənnəmin dibində bitən və budaqları onun bütün təbəqələrinə çatan)* zəqqum ağacı peşəsi günah olan kəsin yeməyidir. O, qarınlarda qaynayan əridilmiş mis kimidir. Qaynar suyun qaynaması kimi! Onu tutun və zorla cəhənnəmin ortasına çəkin.

Sonra başının ortasından bütünlüklə əzab və işgəncə olan qaynar su tökün.

*(Və deyin:)* “Dad ki, doğrudan da sən *(dünyada)* həmin qüdrətli və möhtərəmsən!” Bu, sizin, *(dünyada)* barəsində şübhə etdiyinizdir *(həmin əzabdır).*

Deməli, görürük ki, Qurani-kərimdə iki ağac haqda söz açılmışdır. Onlardan biri tuba ağacıdır ki, Həzrət Peyğəmbər (s) onun nə olduğunu bizə izah etmişdir. İkincisi isə zəqqum ağacıdır ki, Allah-təala Özü onun nə olduğu barədə həmin ayələrdə məlumat verir.

## Şəban ayının fəzilətləri

İslam Peyğəmbəri (s) şəban ayının çox şərafətli bir ay olduğunu söyləmiş və bu mübarək ayın ona aid olduğunu qeyd etmişdir. Bu ayın özünəməxsus fəzilət və əməlləri vardır. Həmçinin bu ayda edilən günahın cəzası digər aylardakı günahlardan daha çoxdur.

Həzrət Peyğəmbər (s) buyurur: “Şəban ayının ilk günü Allahın əmri ilə cənnət qapıları açılır və Onun əmri ilə tuba ağacı öz şaxələrini bu dünyada insanlara yaxınlaşdırır. Bir carçı səmadan səslənərək “Ey insanlar, yapışın bu ağacdan. Allahın neməti başınızın üstündədir, yapışın ondan. Ondan istifadə etməklə cənnətə yaxınlaşın!” – deyə insanları çağırır.

Həmçinin zəqqum ağacının qol-budaqları bu ayda insanlara yaxınlaşar. Carçı səslənərək “Ey insanlar, bu ağacdan qorxun və bu ağacdan uzaq olun!” – deyə insanlara bildirir.

Sonra Həzrət Peyğəmbər (s) şəban ayında kimlərin tuba ağacına yaxınlaşacağını və kimlərin də zəqqum ağacına yaxınlaşacağını bir-bir sayır. Onlardan bir neçəsinə diqqət yetirək:

### Tuba ağacına yaxınlaşmağın səbəbləri

1. Hər bir xeyir əməl edən insan malik olduğu xeyir əməlləri qədər tuba ağacına yaxınlaşır.

2. Şəban ayında müstəhəb olan namazların vasitəsilə insan tuba ağacına yaxınlaşır. Şəban ayının özünəməxsus müstəhəb namazları vardır.

3. Şəban ayında oruc tutan şəxs tuba ağacına yaxınlaşmış olur. Şəban ayının bütün günlərini oruc tutmaq müstəhəbdir. İslam Peyğəmbəri (s) şəban ayında həmişə oruc tutardı. Həzrət Əli (ə) buyurmuşdur: "İslam Peyğəmbəri (s) şəban ayında oruc tutmağı sifariş edən gündən bəri bir dəfə də olsun şəban ayında oruc tutmağı tərk etməmişəm və ölən günə qədər tərk etməyəcəyəm."

Bu ayda həftənin birinci və dördüncü günü oruc tutmağın çox böyük savabı vardır. Şəban ayının bütün günlərini oruc tuta bilməyən insanlara bu iki günü oruc tutmaq təkid olunmuşdur. Dördüncü günün orucu xüsusi təkid edilmişdir.

4. Şəban ayında küsənləri barışdıran insanlar tuba ağacına yaxınlaşar.

5. Valideynlərinə hörmət edən şəxslər, onlara qulluq edənlər bu ibadətin vasitəsilə tuba ağacına yaxınlaşırlar. Valideynə xidmət etmək, qulluq etmək insan üçün ibadət sayılır. Əgər bir kəs valideynlərini narahat edibsə, incidibsə, gərək onlardan üzr istəsin, halallıq alsın və onlarla barışsın.

6. Bu ayda borcu olan və borclarını ödəyə bilməyən insanların borclarının bir miqdarını, yaxud hamısını bağışlamaqla özünü tuba ağacına yaxınlaşdırmış olur. Həmçinin borclu şəxslər borclarını ödəməklə tuba ağacına yaxınlaşa bilərlər.

7. Yetimlərin başına sığal çəkməklə və onların ehtiyaclarını ödəməklə insan bu ayda tuba ağacına yaxınlaşa bilər.

8. Möminlərin abrını qorumaqla tuba ağacına yaxınlaşmaq olar. Bir möminin təhqir olunduğunu gördükdə onu müdafiə etməyin savabı çoxdur. Bu vasitə ilə insan özünü tuba ağacına yaxınlaşdıra bilər.

9. Bu ayda Quran oxumaq insanın tuba ağacına yaxınlaşmasına səbəb olar.

10. Allahı zikr etmək və Ona şükür etməklə tuba ağacına yaxınlaşmaq mümkündür.

11. Şəban ayında imkanı və adamı olmayan xəstələrin ziyarətinə (istər evlərdə olsunlar, istər xəstəxanalarda olsunlar) getmək və onların əhval-ruhiyyələrini soruşmaq, onlara hədiyyə, gül və yemək aparmaq, onları şad etmək insanın tuba ağacına yaxınlaşmasına səbəb olur.

12. Bu ayda vəfat edən möminin dəfnində iştirak etmək, əzalı və əzizlərini itirmiş şəxslərə başsağlığı vermək, məclislərində iştirak etmək insanı tuba ağacına yaxınlaşdırar.

**Zəqqum ağacına yaxınlaşmağın səbəbləri**

Bir sıra işlər də vardır ki, insanın zəqqum ağacına yaxınlaşmasına səbəb olar. Həmin işlər aşağıdakılardır:

1. Vacib namazları yerinə yetirməmək. Namaz qılmayan insanlar saatlar və dəqiqələr keçdikcə zəqqum ağacına yaxınlaşırlar.

2. İmkan olduğu halda kasıb şəxslərə kömək etməmək insanın zəqqum ağacının əzabına yaxınlaşmasına səbəb olar.

3. İnsanın ondan üzr istəyənin üzrünü qəbul etməməsi də o işlərdəndir ki, insanın zəqqum ağacına yaxınlaşmasına səbəb olur. Daha yaxşı olar ki, üzr istəyən insan ondan üzr istəməmiş onu bağışlasın. Hər gün yatmazdan öncə sizin qeybətinizi edənləri, böhtan atanları, sözünüzü danışanları və hər bir pislik edənlərin hamısını halal edin. Bu, çox gözəl bir əməldir.

Bir gün dostlardan biri mənə dedi ki, filan alimin dalınca danışmışam və üzüm gəlmir gedib ondan halallıq alım. Səndən xahiş edirəm, mənim əvəzimə ondan halallıq al. Bir gün cümə namazında həmin alimlə görüşdüm. Bir az söhbətdən sonra dedim ki, bir dostumuz sənin dalınca danışıb, indi üzü gəlmir, utanır sənin üzünə baxmağa. Səndən halallıq istəyir.

O, əvvəlcə zarafatca dedi: "Pullu adamdırsa, ondan pul alaq, sonra halallıq verək." Elə bu sözü demişdi ki, bir də gördüm gözlərindən yaş axa-axa dedi: "Təkçə bir nəfər mənim qapıma gəlib məndən bağış-

lanmaq istəyir. Əgər onu bağışlamasam, Allaha necə deyərəm ki, “İlahi məni bağışla!” Sonra isə “Halal xoşu olsun” – söyləyib üzünü göyə tutaraq dedi: “İlahi, Sən də məni bağışla!”

Bütün insanlar belə olsa, gör nə gözəl olar. Bütün insanlar bir-birilərinin səhvlərini bağışlasa, bir-birilərinə hörmətlə yanaşsalar, Allahın da onlardan xoşu gələr. Elə buna görə də İslam Peyğəmbəri (s) buyurur: “Sənin qapına gələrək üzr istəyib bağışlanmaq istəyəni əgər bağışlamasan, bu halda özünü zəqqum ağacına yaxınlaşdırırsan.”

4. Ata ilə övladın arasını vuran və onları bir-birindən ayıran şəxs özünü zəqqum ağacına yaxınlaşdırmış olur. Yaxud ata öz övladından küsərsə və ya əksinə, övlad atasından küsərsə, belə insanlar da özlərini zəqqum ağacına yaxınlaşdırırlar.

5. Qonşusunu narahat edən şəxslər özlərini zəqqum ağacına yaxınlaşdırırlar. Hətta qonşu kafir bir şəxs olsa da belə onu incitmək olmaz. Qonşu istər kafir olsun, istər mömin olsun, onun ehtiramını saxlamaq lazımdır.

6. Borclu olan insan imkanı olduğu halda borcunu ödəməzsə, özünü zəqqum ağacına yaxınlaşdırır.

7. Mömininin abrını aparan hər bir şəxs özünü zəqqum ağacına yaxınlaşdırır.

8. Keçmişdə etdiyi günahları xatırlayıb danışan və danışığından ləzzət alan şəxs özünü zəqqum ağacına yaxınlaşdırmış olur. Cavanlıqda etdiyi günahları bəziləri dilinə gətirmirlər, bəziləri isə danışırlar və bu danışıqlarından da həzz alırlar. Hədislərdə belə nəql olunur ki, keçmişdəki eyş-işrətləri yada salmaq onların yarısını etmək kimidir.

Əgər şəban ayında hər nə qədər pis əməllərdən çəkinsən, hər nə qədər yaxşı əməllər yerinə yetirsən, Allah-təala səni rəhmətinə, bərəkətinə yaxınlaşdırar. Həzrət Peyğəmbər (s) buyurur: “Bacardığınız qədər bu ayda oruc tutun, namaz qılın, sədəqə verin, tövbə edin, salavat göndərin. Hər kim bu ayda birinci və dördüncü gününü oruc tutsa, Allah onun iyirmi dünya hacətini və iyirmi axirət

hacətini qəbul edər. Hər bir insan şəban ayında bu təkid olunmuş əməlləri yerinə yetirə bilsə, çox böyük bir fəzilət əldə etmiş olar.”

Hədislərdə belə nəql olunur ki, şəban ayının hər cümə axşamı günü Allah-təala mələklərə göyləri bəzəməyi əmr edər. Mələklər ərşi bəzədikdən sonra deyərlər: “İlahi, bu gün oruc tutanları bağışla.” Allah onların dualarını qəbul edər və həmin gün oruc tutanların hamısını bağışlayar.

Şəban ayı çox şərafətli aydır. Allah-təala bu ayda Öz bəndələrini bağışlamaq istəyir. Həzrət Peyğəmbər (s) elə buna görə təkidlə buyurur ki, bu işləri görsəniz, Allah sizi həm bağışlayar, həm dünyanızı və həm də axirətinizi abad edər.

Bu ayın xüsusi zikrləri, xüsusi namazları və duaları vardır ki, dua kitablarında qeyd olunmuşdur.

# MÜBARƏK RAMAZAN AYI
## (Mübarək ramazan ayı və orucun fəzilətləri)

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ لِلّهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَالْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَنْبياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلَى اَهلِ بَيْتِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ سِيَّما بَقِيَّةِ اللهِ فِى الأَرَضِين وَاللَّعنُ عَلى أَعْدائِهِمْ أَجْمَعِينَ اِلى قِيامِ يَوْمِ الدِّينِ.

Mərhum Seyid ibn Tavus "İqbalul-əmal" əsərində İslam Peyğəmbərinin (s) barəsində belə yazır:

اِنَّهُ كَانَ إِذَا دَخَلَ شَهْرُ رَمَضَانَ تَغَيَّرَ لَوْنُهُ وَ كَثُرَتْ صَلاَتُهُ، وَ اِبْتَهَلَ فِي الدُّعَاءِ وَ اَشْفَقَ مِنْهُ

–Mübarək ramazan ayı daxil olduqda Həzrət Peyğəmbərin (s) çöhrəsinin rəngi dəyişərdi. *(Başqa aylara nisbətən)* Çox namaz qılar və daha şövqlə dua edərdi.

Həzrət Peyğəmbərin (s) bu hallarından başa düşülürdü ki, həmin ay çox əhəmiyyətli bir aydır. O həzrət ramazan ayının fəzilətləri barədə söhbət edərkən möminləri başa salaraq belə buyurardı:

قَدْ دُعِيتُمْ فِيهِ إِلَى ضِيَافَةِ اللهِ

–Siz bu ayda Allahın qonaqlığına dəvət olunmusunuz.

Yəni fikirləşməyin ki, bu ayda təkcə oruc tutmaqla kifayətlənirsiniz. Bu ilahi dəvətdə sizin bütün hərəkətləriniz yazılır. Aldığınız hər bir nəfəsinizə zikr və təsbih savabı yazılır. Hətta yuxularınız belə ibadət hesab olunur. Bu ayda etdiyiniz dualar qəbul olunur. Allah-təala bu ay yerinə yetirilən hər bir vacib əmələ görə başqa aylardakı 70 vacib əməlin savabını verir. Ramazan ayı Allahın ziyafət ayıdır.

Həzrət Peyğəmbər (s) buyurur: "Bu ay Qurandan oxunan bir ayə digər aylarda xətm olunan bütöv bir Quranın savabına bərabərdir.

Məsələn, "Bismillahir-Rəhmanir-Rəhim" və yaxud "Qul huvəllahu əhəd", yəni bunlar hərəsi bir ayədir. Bunları ramazan ayında oxumağın savabı, məsələn, şəvval ayında bütöv Quranı xətm etməyin savabı ilə eynidir.

İnsanlar təbiətən belədirlər ki, bəzi hallarda darıxırlar. Darıxarkən isə bəziləri gəzməyə gedir, bəziləri əyləncə ilə məşğul olur, bəziləri də müxtəlif işlərlə başlarını qatırlar. Lakin möminlər darıxanda qalxıb bir neçə rükət namaz qılırlar, ibadət edirlər, Quran oxuyurlar və bununla da ürəkləri sakit olur. Əgər namaz qılmaqla ürək sakitləşirsə, deməli həmin ürək nurlu bir ürəkdir və bu ürəkdə namazın xüsusi yeri vardır. Namaz insanın birbaşa olaraq ruhuna təsir göstərə bilir. Bu cür namazların xüsusi bir adı və ya qılınma qaydası yoxdur. Niyyət edib "qürbətən iləllah" sübh namazı kimi iki rükət namaz qılmaq çox yaxşıdır. İnsan istəsə hədiyyə namazı da qıla bilər. Məsələn, niyyət edib deyə bilər ki, "iki rükət namaz qılıb Peyğəmbərə (s) və yaxud digər məsumlara hədiyyə edirəm, qürbətən iləllah". Həmçinin digər peyğəmbərlər üçün də hədiyyə namazları qılmaq olar. Odur ki, hər kim mübarək ramazan ayında iki rükət namaz qılsa, hədislərdə nəql olunduğu kimi, Allah-təala həmin şəxsi cəhənnəm odundan xilas edər.

Həzrət Peyğəmbər (s) buyurmuşdur ki, kim bu ayda əxlaqını və xasiyyətini gözəlləşdirsə, sirat körpüsündən asanlıqla keçər. Məsələn, bəzi insanlar öz əxlaq və xasiyyətlərinə nəzər yetirib pis xasiyyətlərini tərgitməyə çalışırlar. Kimsə özünün söyüş söyən olduğunu bildiyinə görə, oturub düşünür və bu ayda həmin xasiyyətini islah edəcəyinə qərar verir.

Allah Ayətullahul-uzma Bürucerdiyə rəhmət eləsin! O, İslam aləmində tanınmış böyük müctəhidlərdən biri idi. Bəzən o, özünü belə cərimələndirirdi. Belə ki, tələbələrə dərs dediyi zaman bəzi tələbələr ona çoxlu suallar verərdilər. O da bundan əsəbiləşərdi və əsəbiləşdiyinə görə də özünə cərimə təyin etmişdi. Hətta belə bir qərar qəbul etmişdi ki, əgər bir də əsəbiləşsəm, bir il oruc tutacağam. Bir gün tələbələrdən biri ona çoxlu sual verdi. Mərhum Bürucerdi çox əsəbiləşdi və buna görə də bir il oruc tutdu.

Əgər insan özünə nəzarət etməsə, məhv olar. Elə buna görə də özünə diqqət və nəzarət etmək ("müraqibət") sifariş olunmuşdur. Mərhum Əllamə Təbatəbayi deyir ki, özümə çoxlu nəzarət etdiyim

günün gecələri ibadətdən çox ləzzət alırdım. Lakin az nəzarət etdiyim günün gecələri isə ibadətdən az ləzzət alırdım. Təbiidir ki, özünə diqqət və nəzarət etmək insana belə müsbət təsir göstərir.

Elə buna görə də İslam Peyğəmbəri (s) buyurur ki, kim xasiyyətini bu ay gözəlləşdirsə, sirat körpüsündən keçməyə icazə almış olar. Çünki bu şəxs ramazan ayında özünü islah etmişdir.

Ramazan ayının daxil olmasını təsdiq edən əsas faktor ayın görünməsidir ki, bu haqda da İslam firqələrinin fətvaları fərqlidir. Bəzi firqələr deyirlər ki, əgər elmi baxımdan ayın çıxması sübut olunsa, kifayət edər. Şiə nəzəriyyəsinə əsasən isə Ay gözlə görünməlidir.

İslam Peyğəmbəri (s) həmişə ramazan ayı daxil olanda çıxıb səmaya baxardı. Ayı görəndən sonra üzünü qibləyə tutaraq əllərini qaldırıb dua edərdi. Həmin duada belə deyilir:

اللَّهُمَّ ارْزُقْنَا صِيَامَهُ وَ قِيَامَهُ وَ تِلَاوَةَ الْقُرْآنِ فِيهِ. اللَّهُمَّ سَلِّمْهُ لَنَا وَ تَسَلَّمْهُ مِنَّا وَ سَلِّمْنَا فِيهِ

–İlahi, məni bu ayın orucunu tutmağa və namazlarını qılmağa və bu ayda Quran oxumağa müvəffəq elə. İlahi, əmniyyət və imanla, salamatlıqla, İslamla və sənin sevib razı olduğun işlərə tələsməklə bu ayı bizlərə yeniləşdir. *(Yəni ayın əvvəlini və axırını düz təyin edim. Ay nə vaxt başlayıb və nə vaxt qurtaracağını dəqiq bilim. Bu ayın hamısını oruc tuta bilim. Və bu ayda elədiyim bütün əməlləri məndən qəbul elə. Və bizi bu ayda sağlam elə, yəni səfərə getməyə məcbur olmayım, xəstələnməyim və bu ayı oruc tutmağa müvəffəq olum.)*

Həzrət Peyğəmbər (s) bu duanı öz səhabələrinə də öyrədirdi.

Üsamə ibn Zeyd deyir: "Bir gün Həzrət Peyğəmbər (s) mənə belə buyurdu:

يَا أُسَامَةُ، عَلَيْكَ بِطَرِيقِ الْجَنَّةِ، وَإِيَّاكَ أَنْ تُخْتَلَجَ عَنْهَا

–Ey Üsamə! Sənə cənnətin yolunu seçməyini tövsiyə edirəm! Bu yolu əldən çıxartma. *(Yəni məbada ürəyini başqa şeyə məşğul edib cənnəti yaddan çıxarasan!)*

Soruşdum: “Ey Allahın Rəsulu! Cənnətin yolunu mənə tövsiyə etdiniz. Bəs cənnətə aparan ən yaxın yol hansı yoldur?” Həzrət (s) buyurdu:

الظَّمَأُ فِي الْهَوَاجِرِ، وَ كَسْرُ النُّفُوسْ عَنْ لَذَّةِ الدُّنْيا

–İsti havalarda susuz qalmaq *(yəni oruc tutmaq)* və nəfsini dünya ləzzətlərindən sındırmaq.

Dünyanın ləzzətlərinə diqqət etdikdə görürük ki, onların heç birində davamiyyət yoxdur. Dünyanın ləzzəti bir neçə dəqiqəlikdir. Yeməklərinin də, geyimlərinin də və şəhvətinin də ləzzəti bir neçə dəqiqəlikdir. Bu müvəqqəti ləzzətlərdən uzaq olmaq lazımdır. İnsanın şəxsiyyəti onun zahiri görkəmi ilə ölçülmür.

Həzrət Peyğəmbər (s) daha sonra buyurdu:

عَلَيْكَ بِالصَّوْمِ فَإِنَّهُ جُنَّةٌ مِنَ النَّارِ

–Sənə oruc tutmağı tövsiyə edirəm! Həqiqətən o, *(cəhənnəm)* odunun pərdəsidir *(maneədir).*

فَإِنِ اسْتَطَعْتَ أَنْ يَأْتِيَكَ الْمَوْتُ وَبَطْنُكَ جَائِعٌ فَافْعَلْ

–Üsamə sənə tövsiyə edirəm ki, ölümün sənə üz gətirdiyi gün qarnını ac saxlamağı bacarsan *(oruc olsan)* çox gözəl olar.” *(Ağız oruc olduğu halda dünyanı dəyişmək əvəzsiz bir şeydir.)* Cənnətin yaxın yolu bunlardır.

Məaz ibn Cəbəl deyir: “Təbuk döyüşündə mən Həzrət Peyğəmbərin (s) yanında idim. Hava çox isti idi. Havanın istiliyi insanın bədənini yandırırdı. Həzrət Peyğəmbərə (s) ərz etdim: “Ya Rəsulallah, sizdən bir məsələni soruşmaq istəyirəm.” Həzrət (s) buyurdu: “Buyur, soruş.” Dedim: “Mənə elə bir əməl öyrət ki, məni cəhənnəmdən xilas etsin və cənnətə aparsın.” Həzrət (s) buyurdu: “Bu sözləri yadında saxla:

تَعْبُدُ اللَّهَ وَلَا تُشْرِكْ بِهِ شَيْئًا وَتُقِيمُ الصَّلَاةَ الْمَكْتُوبَة وَتُؤْتِي الزَّكَاةَ الْمَفْرُوضَةَ وَتَصُومُ شَهْرَ رَمَضَانَ

–Allah ibadət elə və Allaha şərik qoşma. Sənə vacib olan namazları yerinə yetir, malının vacib olan zəkatını ver və ramazan ayının orucunu tut. *(Əgər bunları yerinə yetirsən, cəhənnəm odundan xilas olarsan və cənnətə gedərsən.)*

Sonra Həzrət Peyğəmbər (s) buyurdu: “Ey Məaz, istəyirsənmi bir şey də deyim?” Dedim: “Bəli, ya Rəsulallah.” Həzrət (s) buyurdu:

الصَّوْمُ جُنَّةٌ مِنَ النّارِ وَالصَّدَقَةُ تُكَفّي الْخَطِيئَةَ وَ قِيامُ الرَّجُلِ في جَوْفِ اللَّيْلِ يَبْتَغِ وَجْهَ الله

–Oruc cəhənnəm qarşısında bir sipərdir *(qalxandır).* (Oruc cəhənnəmin insana yaxınlaşmasına mane olar. Allah-təala orucluğa elə bir güc bəxş edib ki, o, cəhənnəmə qalib gələ bilir.) Sədəqə *(kiçik)* xətaların kəffarəsidir. Gecəyarısı namaz qılan şəxs Allahın razılığını qazanmış olar. *(Bacardığın qədər gecənin hamısını yatma. Gecə keçər, gündüz keçər və ömür bitər sərmayə əldən gedər, sonra peşman olarsan. Gecənin bir aləmi qalx və ibadət elə, səcdə et, qibləyə üz tutaraq dua et. Ruhun təmizlənsin və qəlbin nurlansın.)*

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ لِلَّهِ مَائِدَةً مَا لَا عَيْنٌ رَأَتْ، وَ لَا أُذُنٌ سَمِعَتْ، وَ لَا خَطَرَ عَلَى قَلْبِ بَشَرٍ، لَا يَقْعُدُ عَلَيْهَا إِلَّا الصَّائِمُونَ

–Həzrət Peyğəmbər (s) buyurur: “Allahın *(cənnətdə)* bir süfrəsi vardır ki, onu nə bir göz görüb, nə bir qulaq onu eşidib və nə də heç bir bəşərin qəlbi onu təsəvvür edə bilib. O süfrədə oruc tutanlardan başqa heç kim əyləşməyəcək.”

Allah-təala bu süfrəni yalnız möminlər üçün hazırlamışdır. Başqalarının orada əyləşmək ixtiyarı yoxdur.

Həzrət Peyğəmbərdən (s) belə nəql olunub ki, Allah-təala bəzi mələklərə qəbiristanlıqda dəfn olunanlara xitabən belə söyləməyi tapşırmışdır: “Kimə qibtə edirsiniz?” Ölülər deyərlər: “Məsciddə əyləşib namaz qılan şəxslərə. Bizim vaxtımız qurtarıb, artıq biz namaz qıla bilmirik. Oruc tutanlara, lakin biz oruc tuta bilmirik. Əgər dünyaya qayıtmağımıza icazə versələr, oruc tutmağın nə olduğunu bilərik.”

Biz bu dünyada orucun nə olduğunu hələ anlamamışıq. Biz yalnız ona əməl edirik. Onun nuraniyyətini hələ dərk etməmişik. Öləndən sonra onun nə olduğunu və hansı fəzilətə malik olduğunu biləcəyik. Məsələn, elə bil ki, bazara qızıl almağa getmisən. Qızılı və ona bənzər sarı dəmirləri düzürlər sənin qarşına. Lakin qiymətləri sənə göstər-

mirlər. Sən əlini atıb bir sarı dəmiri götürürsən. Qiymətləri aşkar etdikdən sonra görürsən ki, qızıl qalıb, sən qızıl əvəzinə dəmiri seçmisən. Həm Həzrət Peyğəmbər (s), həm də məsum imamlarımız bu dünyada həmin qızılları insanlara göstərərək başa salmışlar ki, onları sarı dəmirlə səhv salmasınlar.

Odur ki, oruc tutmaq insan üçün ən qiymətli və ən dəyərli əməllərdəndir. Oruc tutmağın savabı çoxdur, xüsusilə isti havalarda, isti aylarda.

قَالَ الصَّادِقُ(ع): مَن صامَ لِلّهِ عَزَّ وَ جَلَّ يوماً فِي شِدَّةِ الحَرِّ فَأَصابَهُ ظَمَأٌ، وَكَّلَ اللّهُ بِهِ أَلفَ مَلَكٍ يَمسَحونَ وَجهَهُ ويُبَشِّرونَهُ، حَتّى إِذَا أَفطَرَ. قَالَ اللّهُ عَزَّ وَ جَلّ لَهُ: «مَا أَطيَبَ رِيحَكَ ورَوحَكَ! مَلائِكَتِي، اِشهَدوا أَنّي قَد غَفَرتُ لَهُ

–İmam Sadiq (ə) buyurur: "Hər kəs isti günlərdə Allaha xatir oruc tutsa və istinin şiddətindən susasa, Allah-təala min mələyə iftara qədər onun üzünə əl çəkmək və onu müjdələmək əmrini verər. *(İftar zamanı)* Allah-təala həmin şəxsə buyurar: "Sənin ruhundan necə də gözəl qoxu gəlir. Sonra mələklərə buyurar: Mənim mələklərim, şahid olun ki, Mən onu bağışladım."

Biz isə o mələkləri görmürük. Yerlə göyün arası mələklə doludur, lakin biz onları görmürük. Ruhumuzu görmədiyimiz kimi, mələkləri də görmürük. Biri dünyasını dəyişəndə ruhu bədənindən çıxıb gedir, lakin orada olanlar onu görmürlər. Mələklər cövhərdir, cövhər isə bu gözlərlə görünməz.

Elə buna görə də Həzrət Peyğəmbər (s) oruc tutmağı insanlara təkidlə tövsiyə edirdi. İsti havada, uzun günlərdə, başqalarının onun yanında yemək yediyi bir halda birisinin oruc tutmasının daha çox savabı vardır. Hədislərdə belə nəql olunur:

قَالَ رَسُولُ اللَّهِ (ص) : مَا مِنْ صَائِمٍ يَحْضُرُ قَوْماً يَطْعَمُونَ إِلَّا سَبَّحَتْ أَعْضَاؤُهُ

–Peyğəmbər (s) buyurmuşdur: "Hər kim oruc olsa və başqaları onun yanında yemək yesələr, oruc tutan adamın bütün bədən üzvləri Allaha zikr edən sayılar."

Bir qadın oruc olduğu halda uşağa süd verirsə, ya ailəsi üçün yemək hazırlayırsa, yaxud evdə oruc tutmayan qocaya yemək verirsə, bunun özünəməxsus savabı vardır. Əgər qadınlar bunun savabını dərk etsələr, yaşlılara, qaynana və qaynataya xidmət etməkdən heç bir vaxt yorulmazlar. İnsan öləndən sonra məchullar məlum olacaq.

Ümmi Əmmarə deyir: "Bir gün Peyğəmbər (s) bizə qonaq gəlmişdi. Onun üçün yemək hazırladıq. Bəzi səhabələri oruc tutmuşdular. Həzrət Peyğəmbər (s) buyurdu: "Oruc adamın yanında oruc tutmayanlar hər nə qədər yemək yesələr, mələklər oruc tutanlara iftara qədər salam və salavat göndərərlər." Mələklərin salam və salavatının mənası budur ki, Allahdan onun bağışlanmasını istəyərlər."

Oruc tutan insanın iftar açması onun ruhuna ləzzət bəxş edir. Tövsiyə olunur ki, iftar vaxtı oruc tutan hər bir insan iftar etməmişdən öncə dua edib sonra iftarını açsın. Hədislərdə belə nəql olunub ki, Allah hər oruc tutan adamın ən azı bir duasını qəbul edər.

Hər kim oruc tutsa və iftar vaxtı iftarını açsa, ömrünün axırına qədər Allahın bütün əmrlərini yerinə yetirsə, ölüm vaxtı ağzı oruc olsa və gündüz ölsə, Allah ona ən yüksək dərəcədə yer verər. Yox əgər həmin adam axşam ölsə, Allah onu tövbə edənlərin cərgəsində qəbul edər. Qiyamət günü oruc tutduğuna görə ona şəfaət etməyə icazə verilər.

Həzrət Peyğəmbər (s) buyurur: "Cənnət dörd kəsin müştaqındadır (həvəsindədir). Onlardan biri də ramazan ayında oruc tutan şəxsdir." Cənnət onları gözləyir.

Bu savabları əldə etməyin şərti təqvadır. Çünki oruc tutmaqda məqsəd pak və təqvalı olmaqdır. Oruc tutmaqda məqsəd günahları və savab əməlləri tanımaqdır. Hər kim özünü haramdan çəkindirsə, haram danışıqdan, haram yeməkdən, haram imzalamaqdan və haram yazmaqdan çəkindirə bilsə, bu zaman o fəziləti əldə edə bilər.

## ZİLHƏCCƏ AYI
## (ƏRƏFƏ GÜNÜNÜN FƏZİLƏTLƏRİ)

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ الذي جَعَلَ الْحمدَ ثَمَناً لِنعمَائِه، ومَعاذاً مِن بَلائِهِ، وَوَسِيلاً إِلى جِنانِهِ، وَسَبَباً لِزِيادَةِ إِحسَانِهِ. اَلصَّلاةُ وَ السّلامُ عَلى رَسُولِهِ نَبِيِّ الرَّحمة، وَإِمَامِ الأُمة حَبِيبِنَا وَ حَبِيبِ الهى العَالَمِينَ اَبِى القَاسِمِ مُحَمَّد وَ عَلى اَهلِ بَيتِهِ الطَّيِّبِينَ الطَّاهِرِين سِيَّما عَلى سُلالَةِ النُّبُوَّةِ وَ بَقِيَّةِ الْعِتْرَةِ صَاحِبِ الزَّمَانِ وَ مُظْهِرِ الْإِيمَانِ وَ مُعْلِنِ أَحْكَامِ الْقُرْآنِ حُجَّةِ ابنِ الْحَسَن عَجَّلَ الله تَعالَى فَرَجَهُ الشَّرِيف

Zilhəccə ayının 9-u Ərəfə günü kimi tanınmışdır. Zilhəccə ayı İslam aləmində müqəddəs və bərəkətli aylardan, Ərəfə günü də müqəddəs və dəyərli günlərdən biridir.

Bu barədə söhbətimizə başlamazdan öncə "Nəhl" surəsinin 95-97-ci ayələrini diqqətinizə çatdırmaq istərdim. Allah-təala həmin ayələrdə belə buyurur:

وَلاَ تَشْتَرُواْ بِعَهْدِ اللهِ ثَمَنًا قَلِيلاً إِنَّمَا عِندَ اللهِ هُوَ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ تَعْلَمُونَ. مَا عِندَكُمْ يَنفَدُ وَمَا عِندَ اللهِ بَاقٍ وَلَنَجْزِيَنَّ الَّذِينَ صَبَرُواْ أَجْرَهُم بِأَحْسَنِ مَا كَانُواْ يَعْمَلُونَ.

–Allahın əhdini ucuz qiymətə satmayın. *(Onun əhdlərini pozmaqla dünya malı əldə etməyin.)* Həqiqətən, əgər bilsəniz, Allah yanında olan sizin üçün daha yaxşıdır.[27]

مَا عِندَكُمْ يَنفَدُ وَمَا عِندَ اللهِ بَاقٍ وَلَنَجْزِيَنَّ الَّذِينَ صَبَرُواْ أَجْرَهُم بِأَحْسَنِ مَا كَانُواْ يَعْمَلُونَ

–Sizin yanınızda olan tükənir və puç olur. Allahın yanında olan isə daimi və əbədidir. Və *(dini vəzifələri yerinə yetirməkdə)* səbir etmiş kəslərin çox gözəl əməlləri müqabilində mükafatlarını verəcəyik.[28]

مَنْ عَمِلَ صَالِحًا مِّن ذَكَرٍ أَوْ أُنثَى وَهُوَ مُؤْمِنٌ فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُم بِأَحْسَنِ مَا كَانُواْ يَعْمَلُونَ

–Hər kim – kişi, yaxud qadın – imanı olan halda yaxşı iş görsə (saleh əməl etsə), onu şübhəsiz, *(dünyada)* pak bir həyatla yaşadacaq

[27] Nəhl surəsi, 95-ci ayə.
[28] Nəhl surəsi, 96-cı ayə.

və *(axirətdə)* çox gözəl olan əməllərinin müqabilində mükafatlarını verəcəyik.[29]

Bu ayələrin nazil olma səbəbi barədə İbn Abbas belə deyir: “Bir nəfər Həzrət Peyğəmbərin (s) məhzərinə gəlib dedi: “Ya Rəsulallah, mənim İmrəül-Qeys adlı tanınmış və camaat arasında hörməti olan bir qonşum var. O, mənim torpaqlarımdan bir miqdarını qəsb etmişdir. Digər qonşularım, dost-tanışlarım onun qəsb etdiyi həmin torpaq sahəsinin mənə məxsus olduğunu bilirlər. Lakin İmrəül-Qeysdən qorxub çəkindiklərinə görə sənin yanına gəlib bu məsələni təsdiq etməyə çəkinirlər.”

Həzrət Peyğəmbər (s) bir nəfəri göndərib İmrəül-Qeysi məhzərinə çağırtdırdı. O, Həzrətin (s) məhzərinə gəlib əyləşdi. Həzrət (s) bu məsələ haqda söhbət açdıqda İmrəül-Qeys belə bir şeyin olmadığını söylədi və torpağı qəsb etməsini danıb dedi: “Həmin torpaqlar mənim özümə məxsusdur. Bu qonşu isə mənə şər atır.”

Həzrət (s) ona buyurdu: “Elə isə and içməlisən.”

Torpaqları qəsb olunan şəxs İmrəül-Qeysin and içəcəyindən qorxub dedi:[30] “Ya Rəsulallah, onun imanı yoxdur. Bu insan nə müsəlmandır, nə də mömin. Torpaqları qəsb edib və özü üçün istifadə edir. Buna görə də hər nəyə desən and içər. Onun andının etibarı da yoxdur.”

Həzrət Peyğəmbər (s) buyurdu: “Ya gərək sən gedib şahidlərini gətirəsən, ya da bu, and içməlidir.” İmrəül-Qeys and içməyə hazırlaşırdı ki, Həzrət Peyğəmbər (s) ona nəsihət edərək buyurdu: “And içmək elə də asan bir iş deyil. Bir az bu barədə fikirləş. Mən sənə düşünmək üçün vaxt verirəm. Get fikirləş, sonra gəlib and içərsən. And içəndən sonra da torpaqlar sənin özündə qalacaq.”

Onlar ayağa qalxıb getmək istəyərkən yuxarıda qeyd olunan ayələrdən 95-96-cı ayələr nazil oldu. Bu ayələr nazil olduqdan sonra İmrəül-Qeys dedi: “Ya Rəsulallah, bu kişi düz deyir. Mən yalan danışırdım. Onun torpaqlarını mən qəsb etmişəm. İndi onun

---

[29] Nəhl surəsi, 97-ci ayə.
[30] Çünki bilirdi ki, İmrəül-Qeys and isçə də, içməsə də torpaqlarını qaytarmayacaq.

torpaqlarının hamısını qaytarmağa hazıram. Gəlib ölçsün və onun nə qədər torpağı varsa, hamısını qaytarıram. Üstəlik onun torpaqlarından neçə il istifadə etdiyimə görə bir o qədər də öz torpağımdan ona verməyə hazıram.”

İmrəül-Qeys bu sözləri deyəndən sonra 97-ci ayə nazil oldu.

مَنْ عَمِلَ صَالِحًا مِّن ذَكَرٍ أَوْ أُنثَى وَهُوَ مُؤْمِنٌ فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُم بِأَحْسَنِ مَا كَانُواْ يَعْمَلُونَ

–Hər kim – kişi, yaxud qadın – imanı olan halda yaxşı iş görsə (saleh əməl etsə), onu şübhəsiz, *(dünyada)* pak bir həyatla yaşadacaq və *(axirətdə)* çox gözəl olan əməllərinin müqabilində mükafatlarını verəcəyik.[31]

Bu ayədə olan mətləblərdən biri budur ki, saleh əməl imanla birgə olmalıdır. Əgər əməl insanda imanla yanaşı olmasa, həmin əməlin onun üçün heç bir faydası olmayacaq. Səbəblərindən biri budur ki, imansız əməl aludə və çirkinləşdiyi üçün sahibinə xeyir dəyməyəcək. Yəni iman olmadıqda insanın yaxşı əməli Allaha xatir olmadıqda riya, minnət və s. kimi çirkinliklərə aludə olacaq. Əməl murdar və çirkin olduqda onun heç bir xeyri və faydası olmaz. İkinci səbəb isə budur ki, Quranın buyurduğuna əsasən, yaxşı və saleh əməl ixlaslı və təqvalı insanlardan qəbul olunur. Deməli, əgər iman olmasa, saleh əməllər qəbul edilməyəcək.

Burada sual oluna bilər ki, imanla olan saleh əməlin insana faydası nədir? Bu sualın cavabı elə həmin ayədə açıq-aşkar bəyan olunmuşdur.

İmanlı halda saleh əməlin insana bir faydası budur ki, insana bu dünyada pak bir həyat bəxş edər. Allah-təala onun ruzisini halaldan əta edər, yolunu açıq edər və belə bir insanın həyatı əvvəldən-axıradək pak olar. İkinci faydası isə insanın axirətinə aiddir. Yəni hər kimdə imanla saleh əməl yanaşı olarsa, Allah-təala onun əməllərini

---

[31] Nəhl surəsi, 97-ci ayə.

ən yaxşı mükafatla dəyərləndirəcək. Yəni Allah-təala bu bəndənin digər yaxşı əməllərini dəyərləndirdikdə ən yüksək dəyəri olan əməlin dəyəri ilə qiymətləndirər. Çünki bəndənin bütün əməlləri eyni dərəcədə və eyni dəyərdə olmur. Axirət günü Allah-təala əməlisaleh mömin insanın bütün əməllərini ən yaxşı və dəyərli əməlin qiyməti kimi mükafatlandıracaq.

Bunu daha dəqiq diqqətə çatdırmaq üçün kiçik bir misalı qeyd edirəm. Məsələn, bir nəfər bazarda hər növ dəmir materiallarının alveri ilə məşğul olur. Bu materialların içində aliminium, mis, polad, latun, gümüş və hətta qızıl da var. Onun satdığı bu materialların ən bahalısı qızıldır. Satdığı bütün dəmirlərin hamısını qızıl qiymətinə alsalar, onun üçün necə böyük bir mükafat olar? Eləcə də Allah-təala imanlı və saleh əməli olan bəndənin bütün əməllərini ən dəyərli əməlin qiymətinə alacaq və bu onun üçün ən gözəl mükafat olacaqdır.

Odur ki, insan Allahın hüzuruna pak və xalis əməllə gedərsə, Allah-təala onun əməllərini ən qiymətli əməlin dəyəri ilə qəbul edəcəkdir. Amma hər hansı bir əməldə zərrə qədər riya olsa, Allah-təala həmin əməli qəbul etməyəcək.

## Zilhəccə ayının fəzilətləri

İnsanın dünyada istənilən ay və gün ərzindəki saleh əməllərinin dəyəri axirət günündə daha dəyərli qiymətlə mükafatlandırılacaqdır. Lakin zilhəccə digər aylardan tamamilə seçilir. Zilhəccə ayı iki xüsusiyyətinə görə başqa aylardan fərqlənir. Onlardan biri insanın tərbiyə və əxlaqi cəhətdən təkmilləşməsinə daha çox şərait yaradır. Mərhum Mirzə Cavadağa Məliki "əl-Müraqibat" kitabında belə deyir: "Mərhələ-mərhələ təkamül yolunu tutub kamilliyə doğru gedən ariflərin diqqət yetirdikləri mərhələlərdən biri də məhz zilhəccə ayının ilk on günüdür."

Zilhəccə ayının ilk on günündə insan mənəvi cəhətdən daha çox və daha sürətlə inkişaf edə bilər. Azacıq özünə diqqət yetirməklə səbir edib özünü günahlardan saxlaya bilsə, bu ay ona özünü düzəltmək

üçün imkan yaradar. Əgər insan özünə diqqət yetirsə, onun təkamülə doğru irəliləməsinin qarşısını alan günahları haqda düşünüb bu maneələri aradan qaldıra bilsə, demək mənəviyyat aləmində inkişaf etmişdir. Alimlər hədislərə əsasən bu qənaətə gəlmişlər ki, zilhəccə ayının ilk ongünlüyü insanı tərbiyə etməkdə və əxlaqını gözəl-ləşdirməkdə ramazan ayı qədər qüdrətlidir. Yəni ramazan ayı elə fəzilətli bir aydır ki, hətta insanın nəfəsi, yatmağı belə ibadət hesab olunur. Xüsusilə ramazan ayında olan Qədr gecəsinin fəziləti barədə hamının məlumatı vardır. Zilhəccə ayının ilk ongünlüyündə elə bir qüdrət vardır ki, ramazan ayı kimi əzəmətli və fəzilətli bir ayın qarşısında dayana bilir.

Zilhəccə ayının başqa aylardan ikinci fərqi budur ki, Allahın bu ayda insana verdiyi qiymət və dərəcə daha çoxdur. Yəni insanın cənnətdəki dərəcələrini artırır.

Həmçinin ramazan, məhərrəm və digər aylarda insanın əməl-lərinin savabı qeyd olunmuşdur. Yəni Allah-təala hansı əmələ görə insana nə qədər savab verəcəyini Özü müəyyən edir. Məsələn, filan əməlin filan savabı və yaxud filan qədər savabı var. Amma zilhəccə ayında Allah-təala savab və qiymət təyin etməyi insanın öz ixtiyarına qoymuşdur. Bu barədə nümunə üçün bir hədisi diqqətinizə çatdırı-ram.

Həzrət Əlidən (ə) zilhəccə ayının ilk ongünlüyündə oxunan bir dua nəql olunmuşdur ki, hər gün on dəfə oxunmalıdır. Bu duada Allahın insana nə qədər savab verməsi insanın öz ixtiyarına qoyulmuşdur. Həmin dua belədir:

لا إِلَهَ إِلا اللَّهُ عَدَدَ اللَّيَالِي وَ الدُّهُورِ لا إِلَهَ إِلا اللَّهُ عَدَدَ أَمْوَاجِ الْبُحُورِ

لا إِلَهَ إِلا اللَّهُ وَ رَحْمَتُهُ خَيْرٌ مِمَّا يَجْمَعُونَ

لا إِلَهَ إِلا اللَّهُ عَدَدَ الشَّوْكِ وَ الشَّجَرِ

لا إِلَهَ إِلا اللَّهُ عَدَدَ الشَّعْرِ وَ الْوَبَرِ

لا إِلَهَ إِلا اللَّهُ عَدَدَ الْحَجَرِ وَ الْمَدَرِ

لا إِلَهَ إِلا اللَّهُ عَدَدَ لَمْحِ الْعُيُونِ

لا إِلَهَ إِلا اللَّهُ فِي اللَّيْلِ إِذَا عَسْعَسَ فِي الصُّبْحِ إِذَا تَنَفَّسَ

لا إِلَهَ إِلا اللَّهُ عَدَدَ الرِّيَاحِ فِي الْبَرَارِي وَ الصُّخُورِ

لا إِلَهَ إِلا اللَّهُ مِنَ الْيَوْمِ إِلَى يَوْمِ يُنْفَخُ فِي الصُّورِ

–La ilahə illəllah (Allahdan başqa heç bir tanrı yoxdur!) (Mənə) gecə və zamanların hesabı (sayı) qədər (savab ver).

La ilahə illəllah! (Mənə) dəryadakı dalğaların sayı qədər (savab ver).

La ilahə illəllah! (Mənə) rəhməti toplanılan şeylərdən (mal, sərvət...) daha xeyirli olanı ver.

La ilahə illəllah! (Mənə) tikan və ağacların (sayı) qədər (savab ver).

La ilahə illəllah! (Mənə) tük və kürklərin, daş və çınqılların sayı qədər (savab ver).

La ilahə illəllah! (Mənə insanların) göz qırpımlarının sayı qədər (savab ver).

La ilahə illəllah! (Mənə) zülmətə dönən gecələrin və nur saçan sabahların sayı qədər (savab ver).

La ilahə illəllah! (Mənə) səhra və aranlardakı küləklərin sayı qədər (savab ver).

La ilahə illəllah! (Mənə) bu gündən sur çalınacağı zamana (qiyamətə) qədər olan günlərin sayı qədər (savab ver).

Bu duanı oxuduqda həqiqətən zilhəccə ayının fəzilət və üstünlüyünün şahidi oluruq. Allah-təala bu mübarək ayda rəhmət qapılarını bəndəsinin üzünə açıq qoymuşdur. Çox təəssüflər olsun ki, bəzi insanlar özlərini Allahın bu mərhəmətindən uzaqlaşdırmışlar.

Çox qəribəsi budur ki, bu mübarək günlərdə o qədər əzəmət və dəyər vardır ki, insan bircə “La ilahə illəllah!” kəlməsini zikr etməklə Allahdan nə qədər savab alacağını özü müəyyənləşdirir.

Allah-təala rəhmət qapılarını bəndələrinin üzünə belə açmışdır. Lakin təəssüflər olsun ki, bəzi bəndələr bu qapıların heç birindən içəri daxil

olmaq istəmirlər. Özlərini Allahın mərhəmətindən uzaqlaşdırmışlar. Hətta gün ərzində yarımca saat öz mənəviyyatı ilə məşğul olmağa vaxt ayırmağı belə düşünmürlər. Odur ki, zilhəccə ayının ilk ongünlüyü insanın mənəviyyatını düzəltməsi və kamilliyə çatması üçün ən münasib günlərdəndir.

## Ərəfə gününün fəziləti

Zilhəccə ayının 9-u Ərəfə günüdür. İnsanın bu gün harada olmasından asılı olmayaraq, öz mənəviyyatı ilə məşğul olması çox əhəmiyyətlidir. Xüsusilə insanın həmin gün Ərəfatda olmasının daha çox fəzilət və şərafəti vardır. Ərəfə günü Ərəfatda olmağın heç bir əvəzi yoxdur. Həcc ziyarətinə yollanan insan əgər Ərəfə günü (bilərəkdən və yaxud bilməyərəkdən, üzrlü və yaxud üzrsüz yerə) Ərəfatda iştirak etməsə, onun bütün həcc ziyarəti batil olar. Çünki Ərəfatda qalmaq həccin əsas əməllərindən biridir. Bunun üçün kəffarə də vermək lazım deyil. Gərək gələn il yenidən həcc ziyarətinə getsin və əməlləri olduğu kimi yerinə yetirsin.

Ənəs ibn Malik deyir: “Bir dəfə Həzrət Peyğəmbərlə (s) birgə həcc ziyarətinə getmişdik. Ərəfatda axşamüstü Həzrət Peyğəmbər (s) Bilalı çağırıb göstəriş verdi ki, hamını səsləyib toplasın. Bilal bütün adamları oraya topladıqdan sonra Həzrət Peyğəmbər (s) üzünü camaata tutaraq belə buyurdu:

مَعْشَرَ النَّاسِ! أَتَانِي جِبْرِيلُ عَلَيْهِ السَّلامُ آنِفًا، فَأَقْرَأَنِي مِنْ رَبِّي السَّلامَ ، وَقَالَ: إِنَّ اللَّهَ عَزَّوَجَلّ غَفَرَ لأَهْلِ عَرَفَاتٍ و أَهْلِ الْمَشعَرِ.

فَقَامَ عُمَرُ بْنُ الخَطَّابِ فَقَالَ يَا رَسُولَ اللهِ هَذَا لَنَا خَاصَّةً ؟

قَالَ: هَذَا لَكُمْ، وَلِمَنْ أَتَى مِنْ بَعْدِكُمْ إِلَى يَوْمِ القِيَامَةِ .

–Camaat! Elə indicə cənab Cəbrayıl mənim yanıma gəldi və Allahın salamını mənə yetirdi. Sonra dedi: “Allah-təala bütün Ərəfat və Məşər əhlini bağışladı.”

Ömər ayağa qalxıb soruşdu: “Ya Rəsulallah, Allahın bu məğfirəti yalnız bizə aiddirmi?”

Həzrət Peyğəmbər (s) buyurdu: "Sizə və qiyamət gününə qədər Ərəfatda iştirak edənlərin hamısına aiddir."

Ərəfat elə bir yerdir ki, Allah-təala orada olan insanların hamısını bağışlayır. Hər kəs Ərəfatdan çıxdıqdan sonra Allahın birdən onu bağışlamayacağını  təsəvvürünə gətirsə, bu, çox böyük günahdır.

Əgər bir insanın həccə getməyə imkanı çatmasa və Ərəfə günü Ərəfatda iştirak edə bilməsə, bu gün üçün ən yaxşı məkan Kərbəladır. Ərəfə günü Kərbəlada İmam Hüseynin (ə) qəbrinin kənarında əyləşib Allahla münacat etməyin insan üçün çox böyük əhəmiyyəti vardır. Ərəfə günü İmamın (ə) qəbrinin kənarında əyləşib o həzrətdən miras qalmış "Ərəfə" duasını oxumaqdan fəzilətli əməl ola bilərmi? Xoş o kəslərin halına ki, Ərəfə gününü Ərəfatda və yaxud İmam Hüseynin (ə) qəbrinin kənarında Allahla münacat edirlər.

Əgər Ərəfə günü bir insanın əli Ərəfata və yaxud Kərbəlaya çatmasa, hər bir yerdə olursa-olsun, Allahla münacat edə bilər. Həmin gün Allahın mərhəmətinin yer üzərinə nazil olduğu bir gündür. Hədislərdə belə nəql olunur ki, şeytanın ən çox təhqir olunduğu gün Ərəfə günüdür. Şeytan heç bir gün Ərəfə günü qədər aciz qalmamışdır. Çünki həmin gün Allahın bəndələri bağışlaması nəticəsində şeytanın bütün planları alt-üst olur.

Ərəfə günü duaların Allah dərgahında qəbul olunduğu gündür. Ərəfə günü Həzrət Peyğəmbər (s) məsciddə namaz qılarkən bir nəfər hörmətsizlik edərək o həzrətin qarşısından keçdi. Elə bu anda həmin şəxs yerə yıxılıb öldü. Həzrət Peyğəmbər (s) namazı qurtaran kimi üzünü səhabələrə tutub soruşdu: "Kim bu adama nifrin etdi!" Bir nəfər dedi: "Ya Rəsulallah, o, sənə hörmətsizlik etdiyi üçün mən dedim ki, Allah, onun ömrünü kəs! Həzrət Peyğəmbər (s) buyurdu: "Sənin etdiyin dua elə bir vaxta düşdü ki, həmin vaxtda edilən dua geri qayıtmaz."

Bəşər və Bəşir iki qardaş idilər. Onlar deyirlər ki, günlərin birində həcc ziyarətinə yollanmışdıq. Ərəfə günü İmam Hüseyn (ə) öz xeyməsindən çıxıb ailəsi və dostları ilə birgə Ərəfatdakı "Cəbəlür-rəhmət" dağının üzərində dayandı. Üzünü qibləyə tutub əllərini qaldıraraq Ərəfə duasını oxumağa başladı. Rəvayətçi deyir: "Duanın axırlarında İmamın (ə)

gözlərinə baxdıqda sanki bir kasa qana baxırdım. O qədər ağlamışdı ki, gözləri tamamilə qanla dolmuşdu.”

Zilhəccə ayının ilk doqquz günü oruc tutmaq çox fəzilətlidir. Amma Ərəfə günü oruc tutmağın fəziləti daha çoxdur. Belə ki, bu gün oruc tutmağın fəziləti doxsan ilin kəffarəsinə bərabərdir. Ərəfə günü dua oxumaq, Allahla münacat etmək bu günün fəzilətli əməllərindəndir. Dua kitablarında qeyd olunmuşdur ki, əgər bir insan oruc tutduqda zəifləsə və daha dualar oxuya bilməsə, o zaman oruc tutmamalı və daha çox duaya üstünlük verməlidir. Buradan bilirik ki, Ərəfə günü dua oxumaq insan üçün daha əhəmiyyətlidir.

Allah-təala Ərəfə gününün şərafətinə xatir dualarımızı qəbul etsin! Amin!

# MƏBƏS GÜNÜ
# (Peyğəmbərin (s) risaləti)

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَالْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَنْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى اَهلِ بَيْتِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ وَلاسِيَّما بَقِيَّةِ اللهِ فِى الأَرَضِين وَلَعْنَةُ اللهِ عَلى أَعْدائِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ.

Rəcəb ayının 27-ci mübarək və çox gözəl günlərdən biridir. Bütün bəşəriyyət aləmində, xüsusilə, İslam dünyasında bu gün əlamətdar və müstəsna bir gündür. Bu gün Həzrət Məhəmmədin (s) peyğəmbərlik missiyasını həyata keçirməyə başladığı ilk gündür. Məhz bu gündən etibarən İslam dini vasitəsilə insanların hidayəti, izzəti, səadəti, kamillik və təkamül prosesi başlanır və bu din qiyamət gününə qədər davam edəcəkdir. Bu gözəl bayram münasibətilə bütün dünya müsəlmanlarını təbrik edir və Allahdan mərhəmət, məğfirət, bərəkət, dünya və axirət xoşbəxtliyi diləyirəm.

İslam dininin əvvəlki dinlərdən və İslam Peyğəmbərinin (s) özündən əvvəlki peyğəmbərlərdən fərqləri vardır. İslam dinində Həzrət Peyğəmbərin (s) nübüvvətində onun özünəməxsus əlamət və xüsusiyyətləri var ki, keçmiş dinlərdə bu xüsusiyyətlər olmayıb. Həmin əlamətlər və xüsusiyyətlər yalnız İslam dininə aiddir. Burada yaxşı olardı ki, həmin xüsusiyyətlərin bir neçəsi haqda söz açaq.

### 1. Həzrət Məhəmməd (s) ümumbəşəri peyğəmbərdir

Birincisi budur ki, İslam dini Yer kürəsində yaşayan bütün insanların hamısına aiddir. Həmçinin İslam Peyğəmbəri (s) də Yer kürəsindəki bütün insanların hamısının peyğəmbəridir. Amma keçmiş peyğəmbərlər belə deyildilər. Keçmiş dinləri gətirən peyğəmbərlər bir qövmün və ya bir dildə danışan tayfanın, xalqın peyğəmbərləri olmuşlar. Allah-təala "Səbə" surəsinin 28-ci ayəsində belə buyurur:

وَمَا أَرْسَلْنَاكَ إِلَّا كَافَّةً لِلنَّاسِ

– *(Ya Rəsulum!)* Biz səni bütün insanlara göndərdik.

Allah-təala "Nisa" surəsinin 170-ci ayəsində bütün insanlara xitab edərək buyurur:

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءَكُمُ الرَّسُولُ بِالْحَقِّ مِنْ رَبِّكُمْ فَآمِنُوا خَيْرًا لَكُمْ

–Ey insanlar! Peyğəmbər Rəbbinizdən sizə haqla (Quranı) gətirdi. *(Ona)* iman gətirin! Bu, sizin üçün xeyirli olar.

Bu ayələr bizə bir daha başa salır və öyrədir ki, İslam Peyğəmbəri (s) bütün insanlar üçün göndərilmişdir. Əlbəttə, onu da qeyd etmək lazımdır ki, bütün insanları hidayət etmək üçün göndərilən İslam Peyğəmbəri (s) Yer kürəsində bir məkanda məskunlaşmalıdır. Həmin yaşadığı yerdə isə camaatın danışdığı bir dil vardır. Sual oluna bilər ki, bəs nə üçün Həzrət Peyğəmbər (s) Ərəbistanda məskunlaşdı və nə üçün ərəb dilində danışdı? Bu sualın geniş elmi cavabı vardır. Qısaca desək, ərəb dili çox zəngin və əhatəli bir dil olduğu üçün Quran da məhz bu dildə nazil olub. Amma suala sadə dildə cavab versək, belə deyə bilərik ki, Həzrət Peyğəmbər (s) bu Yer kürəsinin bir yerində yaşamalıydı, ya yox? O, hansısa bir dildə danışmalıydı, ya yox? Əgər Azərbaycanda olsaydı və azəri dilində danışsaydı, onda yenə də sual ortaya çıxacaqdı ki, nə üçün burada yaşayır və nə üçün Quran azəri dilində nazil olub? Bu məsələ ətrafında mübahisə və müzakirələr təbiidir ki, sonsuza qədər uzana bilər. Buna görə də zənnimizcə, onun harada yaşamasını və Quranın hansı dildə nazil olmasını da Allah Özü təyin edir.

Bütün bunlara baxmayaraq, İslam Peyğəmbəri (s) ümumbəşəri peyğəmbərdir və söylədiklərinin hamısı bütün insanlara aiddir.

Quranın ərəb dilində nazil olmasına baxmayaraq, Allah-təala "Ənam" surəsinin 19-cu ayəsində Həzrət Peyğəmbərin (s) dilindən belə buyurur:

وَأُوحِيَ إِلَيَّ هَٰذَا الْقُرْآنُ لِأُنْذِرَكُمْ بِهِ وَمَنْ بَلَغَ

–Bu Quran mənə vəhy olunub ki, onun vasitəsilə *(həm)* sizi və *(həm də bəşər nəslinin kökü kəsilənədək)* onun çatdığı hər bir kəsi *(cəhənnəm atəşindən)* qorxudam.

Bu ayədən də açıq-aydın şəkildə bəlli olur ki, Həzrət Peyğəmbərin (s) hidayəti hansısa bir qəbilə və tayfa ilə məhdudlaşmır. Həzrət Peyğəmbər (s) Quran vasitəsilə bütün insanları hidayət edir və onları aqibətin acınacaqlı olacağından xəbərdar edir. Həzrət Peyğəmbərin (s) məktubları və danışıqları ərəb dilində olmuş və yaşadığı yer də Məkkə və Mədinə şəhərləri idi. Peyğəmbərlikdən qabaq başqa ölkələrə səfərləri olmuşdur. Amma Peyğəmbər(s) seçildikdən sonra 13 il Məkkədə, 10 il də Mədinədə yaşamış və elə oradaca dünyasını dəyişmişdir.

Deməli, İslam Peyğəmbərinin (s) ümumbəşəri bir peyğəmbər olması onun xüsusi özəlliklərindəndir.

**2. İslam Peyğəmbəri (s) sonuncu peyğəmbərdir**

İslam dini və Həzrət Peyğəmbərin (s) ikinci xüsusiyyəti budur ki, onun gətirdiyi din əbədi bir dindir. İslam Peyğəmbərinin (s) nübüvvəti bütün nübüvvətlərə, onun şəriəti bütün şəriətlərin hamısına son qoydu. Onun gətirdiyi kitab özündən əvvəlki kitabların üzərindən xətt çəkdi. İslam sonuncu din olaraq Allah-təala tərəfindən təyin olundu və bu dinin peyğəmbəri olan Məhəmməd Peyğəmbər (s) də sonuncu peyğəmbər seçildi. İslam dini sonuncu din və İslam Peyğəmbəri (s) də sonuncu peyğəmbər olduğundan qiyamətə qədər heç bir din və başqa heç bir peyğəmbər də bir daha gəlməyəcəkdir. Əgər birdən hansısa ağıldankəm bir insan ayağa qalxıb özünü peyğəmbər elan etsə, bilin ki, onun iddiası puçdur. Tarix boyu peyğəmbərlik iddiasına düşənlərə çox rast gəlmək olur. Amma Allah-təala Həzrət Məhəmmədlə (s) peyğəmbərliyə xitam verdi. Qiyamət gününə qədər bütün insanların peyğəmbəri də məhz odur. Allah-təala "Əhzab" surəsinin 40-cı ayəsində belə buyurur:

مَا كَانَ مُحَمَّدٌ أَبَا أَحَدٍ مِنْ رِجَالِكُمْ وَلَٰكِنْ رَسُولَ اللَّهِ وَخَاتَمَ النَّبِيِّينَ وَكَانَ اللَّهُ بِكُلِّ شَيْءٍ عَلِيمًا

–Məhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Rəsulu *(elçisi)* və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir!

Həzrət Peyğəmbər (s) "Təbuk" müharibəsinə gedərkən Həzrət Əlini (ə) Mədinədə öz yerinə təyin etdi. O, Həzrət Peyğəmbərə (s) dedi: "Ey Allahın Rəsulu! Məni öz yerinə qoydun (məni özündən ayırdın), halbuki mən heç bir müharibədə səndən ayrılmamışam!"

Allahın Rəsulu (s) buyurdu:

يا عَلِيّ اَلا تَرْضى اَنْ تَكُونَ مِنّي بِمَنْزِلَةِ هارُونَ مِنْ مُوسى اِلاّ اَنَّهُ لا نَبِيَّ بَعْدِى

–Ya Əli! Razı olmazsanmı ki, səninlə mənim nisbətim Harunla Musanın nisbəti kimi olsun? Bu fərqlə ki, məndən sonra bir peyğəmbər yoxdur. *(Yəni sən də Harun kimi peyğəmbərlikdən başqa bütün məqamlara sahibsən!)*

Bu hədisdə həm Həzrət Əlinin (ə) Həzrət Peyğəmbərin (s) canişini olmasına, həm də o həzrətdən sonra bir daha peyğəmbər olmayacağına işarə edilir. Bundan əlavə, Həzrət Peyğəmbərin (s) sonuncu peyğəmbər olmasına dair hədislərə rast gəlmək mümkündür. Həm onun özü sonuncu peyğəmbərdir və həm də gətirdiyi din və şəriət də sonuncudur.

حَلَالُ مُحَمَّدٍ حَلَالٌ أَبَداً إِلَى يَوْمِ الْقِيَمَةِ، وَ حَرَامُهُ حَرَامٌ أَبَداً إِلَى يَوْمِ الْقِيَمَةِ

–Məhəmmədin halalı qiyamət gününə qədər halal, haramı isə qiyamət gününə qədər haramdır!

Yəni İslam Peyğəmbərinin (s) gətirdiyi şəriət qiyamətə qədər yaşayacaq. Amma keçmiş peyğəmbərlərin şəriəti ondan sonra gələn peyğəmbərə qədər qüvvədə qalırdı. Məsələn, Musa Peyğəmbərin (ə) şəriəti İsa Peyğəmbər (ə) gələnə qədər qüvvədə idi. İsa (ə) gəldikdən sonra Musanın (ə) şəriəti qüvvədən düşdü. Həmçinin İsanın (ə) şəriəti İslam Peyğəmbəri (s) gələnə qədər qüvvədə qalmışdı. Həzrət Məhəmməd (s) peyğəmbərliyə yetişdikdə İsanın (ə) şəriəti qüvvədən düşdü və Həzrət Məhəmmədin (s) gətirdiyi şəriət qüvvəyə mindi. Beləliklə, İslam dini sonuncu din və Həzrət Məhəmməd (s) sonuncu peyğəmbər olduğundan onun şəriəti qiyamətə qədər də qüvvədə qalacaqdır.

### 3. İslam dini ən mükəmməl dindir

İslamın keçmiş dinlərdən digər fərqi budur ki, bu din mükəmməl bir dindir. Amma keçmiş dinlərdə belə bir mükəmməllik yox idi. Çünki insanlar hələ o mərhələdə deyildilər ki, bəzi ehkamları qavraya bilsinlər. Amma İslam dini ən mükəmməl din olaraq Həzrət Məhəmməd Peyğəmbər (s) tərəfindən insanlara çatdırıldı. İslam şəriəti bütün suallara cavab verə bilir. Bu din nazil olduqdan bəri heç bir sualın cavabında aciz qalmayıb və qalmayacaq da. Alimlərin hər bir elmi sualına İslam dini layiqli cavab vermək iqtidarındadır. Elm, texnika, sənət, təbabət və digər elmlər barədə İslamda ətraflı söz açılmışdır. İslam dinində bir çox məsələlər mövcuddur ki, elm inkişaf etdikcə insanlar bu dinin dəyər və qiymətini daha çox anlamağa başlayırlar. Bəzən Avropa ölkələrində hansısa alim konfransda öz yeni kəşfini açıqlayır. Halbuki sonradan onlara da məlum olur ki, sən demə, İslam dini 1400 il bundan əvvəl həmin məsələni qeyd etmişdir.

Almaniyada keçirilən konfransların birində amerikalı ruhani bir alim orada çıxış edirdi. Onun çıxışı sırf xristianlıq və dini məsələlərdən ibarət idi. Mən də onun çıxışlarına diqqətlə qulaq asırdım. Bir gün konfransdan sonra əyləşib söhbət edirdik. Söz əsnasında alman alimlərindən biri bizim ölkədə camaatın dilində belə bir ifadə var: “Yer üzünün rəhbərliyi və hakimiyyəti ən kamil və layiqli insanlarındır.” O, həmçinin bildirdi ki, bu ifadə Almaniyada ən məşhur deyimdir. Mən onların birindən soruşdum: “Bu ifadənin yaranma tarixini bilirsinizmi?” Dedilər ki, bəlkə də yüz ildən çox olar. Dedim: “Onun tarixini dəqiqləşdirib mənə söyləyə bilərsinizmi.” Həmin alim Almaniyada yaşayan yaşlı insanlardan bu ifadənin tarixini soruşduqda onlar təxminən 200 il olduğunu bildirdilər. Sonra mənə dedilər ki, bu ifadənin təxminən 200 illik tarixi var. Mən onlara dedim: “Bu ifadə Quranın bir ayəsinin tərcüməsidir ki, 1400 il bundan qabaq nazil olmuşdur. Quranın buyurduğuna əsasən, hakimiyyət və rəhbərlik saleh insanlarındır. Saleh ləyaqətli və mükəmməl insanlara deyilir.”

Həyatda minlərlə bu kimi məsələlərə rast gəlmək olur. Məsələn, hansısa bir alim illər boyu ömrünü hansısa elmi bir məsələyə sərf

etdikdən sonra baxıb görür ki, bu illər ərzində zəhmət çəkib qənaətə gəldiyi həmin məsələ Quranda mövcud imiş.

Mənim sinif yoldaşlarımdan biri oxuyub həkim oldu. Sonra təhsilini xaricdə davam etdirib öz sahəsində böyük mütəxəssis kimi tanındı. O, ixtisasca ağız-boğaz həkimidir. Həm də Amerikada həkimlər şurasının üzvüdür. Bəzən onunla rastlaşanda oturub bir qədər söhbət edirik. Bəzən də mən ona tibb barədə hədislərdən danışıram. Bir gün onunla söhbət edərkən məndən öz sahəsinə uyğun bir neçə hədis söyləməyimi xahiş etdi. Mən hədislərə uyğun olaraq ona bir məsələni danışdım. Dedim ki, Allahın yaratdığı ruzilərdə insan üçün müəyyən qədər pay ayrılmışdır. Məsələn, əgər bir insanın ömrü 70 ildirsə, Allah hər ruzidən bu yetmiş ilə görə onun üçün ruzi payları ayırmışdır. Əgər insan bu paylardan çox istifadə etsə xəstəliyə tutular. Məsələn, əgər yetmiş il ərzində gündə bir qram duz yeməlidirsə, amma iki-üç qram yemişsə, deməli xəstəliyə tutulacaqdır. Çünki təyin olunmuş ruzisini vaxtından əvvəl yeyib qurtarmışdır. Bütün ərzaqlar da belədir.

Sonra onun üçün Həzrət Peyğəmbərin (s) və İmam Sadiqin (ə) bu hədisini oxudum:

المِعدَة بَيتُ كلِّ داءٍ، وَ الحَمِيَة رَاس كلِّ دَواءٍ

–Mədə bütün xəstəliklərin yuvası, pəhriz *(az yemək və münasib olmayan yeməklərdən çəkinmək)* bütün dərmanların başıdır.

Dostum deyir: Günlərin birində yenə də həkim həmkarlarımla iclasımız oldu. İclasdan sonra oturub ordan-burdan söhbət edirdik. Mən səndən eşitdiyim hədisləri onlara danışdım. Onlar məni dinlədikdən sonra 1400 il bundan əvvəl təbabət sahəsində belə kəlamların olduğunu eşidib çox təəccübləndilər. Yekdilliklə dedilər ki, elm bütün bunları qəbul edir və bu sözlər həqiqətdir.

Odur ki, İslam dini mükəmməl bir dindir və bütün elmi sahələri də özündə ehtiva etmişdir. Allah-təala "Ənam" surəsinin 59-cu ayəsində belə buyurur:

وَلَا رَطْبٍ وَلَا يَابِسٍ إِلَّا فِي كِتَابٍ مُبِينٍ

– *(Kainatda)* yaş-quru *(yaşdan quruya)* elə bir şey yoxdur ki, açıq-aydın kitabda olmasın!

Odur ki, İslam dini ən mükəmməl bir dindir. Onun elmi, ehkamları, qanunları və rəhbərliyi də kamildir. Allah-təala "Maidə" surəsinin 3-cü ayəsində belə buyurur:

الْيَوْمَ يَئِسَ الَّذِينَ كَفَرُوا مِنْ دِينِكُمْ فَلَا تَخْشَوْهُمْ وَاخْشَوْنِ ۚ الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ

–Bu gün kafirlər dininizdən (*onu məhv edə bilmədikləri üçün)* əllərini üzdülər. Onlardan qorxmayın, Məndən qorxun! Bu gün dininizi sizin üçün kamil etdim…

Qeyd olundu ki, İslam dininin və İslam Peyğəmbərinin (s) başqa dinlərlə və peyğəmbərlərlə bir sıra fərqləri vardır. Yuxarıda ba fərqlərdən üçünə işarə etdik. Amma burada deyilməsi lazım olan bir mətləbə də diqqət yetirək. Həmin mətləb də budur ki, Həzrət Peyğəmbər (s) bəşəriyyət üçün əbədi və mükəmməl bir din gətirmişdir. Dünyasını dəyişərkən öz yerinə kimisə canişin qoymalıydımı? Əgər desələr ki, lazım deyildi, bu yanlışdır. Çünki o həzrət bir neçə günlüyünə Təbuk müharibəsinə gedərkən Həzrət Əlini (ə) Mədinədə öz yerinə təyin etmişdi. Bəs, necə ola bilərdi ki, dünyadan həmişəlik köçdüyünü bilə-bilə öz yerinə kimisə təyin etməsin. Belə olduqda gətirdiyi din də özbaşına qalardı.

Hədislərdə belə nəql olunur ki, yer üzündə elə bir zaman yoxdur ki, həmin dövrdə Allahın höccəti olmasın. Dünyada ilk yaranmış insan (Adəm) Allahın peyğəmbəri və höccəti olub. Dünyadan ən sonuncu gedən insan da Allahın höccəti olmalıdır. Yəni bütün insanların hamısı bu iki höccətin arasında dünyaya gəlib-getməlidirlər. Qiyamət günü heç bir insan deyə bilməz ki, mən bir dövrdə yaşamışam ki, həmin dövrdə Allahın höccəti olmayıb.

Əhməd ibn Hənbəl "Müsnəd"ində (1-ci cild, səh. 99-da) Həzrət Peyğəmbərdən (s) belə nəql edir:

لَو لَا يَبقَ مِنَ الدُّنيا إلاّ يَومٌ واحِدٌ، لَطَوَّلَ الله ذلِكَ اليَومَ حَتّى يَخرُجَ رَجُلٌ من وُلدِي فَيَملَؤُها قِسطا وعَدلاً

–Əgər dünyanın ömründən yalnız bircə gün qalmış olsa belə, Allah o günü övladlarımdan biri zühur edənə qədər uzadacaq. Sonra o, yer üzünü ədalətlə doldurar.

Mümkün deyil ki, Allah-təala bu aləmi və insanları yaratsın və sonra da onları Firon kimi cahillərin ixtiyarına buraxsın. Allah-təala insanları əbəs yerə yaratmayıb. Onlar üçün dinlər və peyğəmbərlər göndərib ki, sonuncu din İslam və sonuncu peyğəmbər Həzrət Məhəmməddir (s). Həzrət Peyğəmbər (s) dünyadan getməzdən əvvəl Allahın əmri bu oldu ki, Əli ibn Əbu Talibi (ə) öz yerinə canişin təyin etsin və ondan sonra da Həzrət Əlinin (ə) on bir övladı insanlara imamlıq etməliydilər. Həzrət Əli (ə) buyurmuşdur:

لا تَخلُو الأَرضُ مِن قائِمٍ للہ بِحُجَّةٍ، إمّا ظاهِرا مَشهورا وإمّا خائِفا مَغمورا

–Yer istər aşkar və adı ilə tanınan, istər qorxu içində *(təhlükəli şəraitdə)* adsız olan hər hansı bir höccətdən boş qalmaz. Elə bir şəxs olmalıdır ki, Allahın höccətləri və dəlilləri aradan getməsin.

Beləliklə, bütün insanlara vacibdir ki, Allahın göndərdiyi bu dini qəbul edərək onun hökmlərinə riayət etsinlər. Allahın nazil etdiyi hökmlər insanın həm dünyasının, həm axirətinin, həm cisminin və həm də ruhunun xeyrinədir.

# QƏDİR-XUM
## Vilayət bayramı

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. اَلْحَمْدُلِلّهِ الّذى جَعَلَنا مِنَ الْمُتَمَسِّكينَ بِوِلايَةِ اَميرِالْمُؤْمِنينَ وَالاَئِمَّةِ عَلَيْهِمُ السَّلامُ. الْحَمْدُلله الَّذي اَكْرَمَنا بِهذَا الْيَوْمِ وَجَعَلَنا مِنَ الْمُوفينَ بِعَهْدِهِ اِلَيْنا وَميثاقِهِ الَّذى واثَقَنا بِهِ مِنْ وِلايَةِ وُلاةِ اَمْرِهِ وَالْقَوّامِ بِقِسْطِهِ، وَلَمْ يَجْعَلْنا مِنَ الْجاحِدينَ وَالْمُكَذِّبينَ بِيَوْمِ الدِّينَ. وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَنْبِياءِ وَالْمُرْسَلِيَنَ اَبي الْقَاسِمِ الْمُصطَفى مُحَمَّد وَعَلَى آله الطّاهِرِينَ وَاللَّعنُ عَلى أَعْدائِهِمْ أَجْمَعِينَ اِلى قِيامِ يَوْمِ الدِّينِ.

أَعُوذُ بِاللهِ مِنَ الشّيطانِ الرَّجِيم. يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ وَإِن لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ وَاللهُ يَعْصِمُكَ مِنَ النَّاسِ إِنَّ اللهَ لاَ يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ

Zilhəccə ayının 18-i İslam dünyasında əlamətdar bir gündür. Bəzi hədislərə əsasən, bu gün İslam aləminin ən önəmli və mühüm bayramıdır. Bu əlamətdar bayram münasibətilə bütün İslam əhlini təbrik edir və Allah-təaladan hamıya mərhəmət və bərəkət diləyirəm. Gün o gün olsun ki, Ğədir-Xum bayramını İmam Zamanın (ə.c) hüzurunda və o həzrətlə birgə qeyd edək. Gün o gün olsun ki, işğal olunmuş torpaqlar təcavüzkarlardan azad olunsun və oradakı qaranlıq məscidlərdə çıraq yandırıb bu mübarək bayramı həmin məscidlərdə qeyd edək.

Ğədir-Xum bayramı ilə əlaqədar olaraq "Maidə" surəsinin 67-ci ayəsindən söz açmaq istərdim. Öncə bu ayənin özü barədə bir neçə fikri diqqətinizə çatdırdıqdan sonra onun şərhi ilə bağlı qısaca da olsa bəzi məqamlardan bəhs etmək lap yerinə düşərdi.

Hamıya aydındır ki, bu aləmdəki bütün nemətlər insanlara Allah-təala tərəfindən bəxş edilmişdir. İnsanın vücudu, bədən üzvləri, sağlamlığı və yaradılış aləmindəki hər bir şey Allah tərəfindəndir. Allah-təala "Nəhl" surəsinin 53-cü ayəsində belə buyurur:

وَمَا بِكُم مِّن نِّعْمَةٍ فَمِنَ اللهِ

–Və malik olduğunuz hər bir nemət Allah tərəfindəndir.

Bunu da qeyd etmək lazımdır ki, Allahın bəxş etdiyi nemətlər məhdud deyildir. Yəni Allah-təalanın nemətlərinin sayı-hesabı yoxdur. Həmin surənin 18-ci ayəsində belə buyurulur:

وَإِن تَعُدُّواْ نِعْمَةَ اللّهِ لاَ تُحْصُوهَا

–Və əgər Allahın nemətlərini saysanız, sayıb qurtara bilməzsiniz.

Allahın bəxş etdiyi nemətlərin bəzisi maddi (zahiri), bəzisi isə mənəvi (batini) nemətlərdir. Hər iki nemət barədə ayə və hədislərdə kifayət qədər söz açılmışdır. Nümunə üçün bu barədə bir neçə ayə və hədisi diqqətinizə çatdırmaq istəyirəm. “Maidə” surəsinin 110-cu ayəsində İsa Peyğəmbərə (ə) bəxş olunan zahiri və ya maddi nemətlər barədə belə oxuyuruq:

إِذْ قَالَ اللّهُ يَا عِيسى ابْنَ مَرْيَمَ اذْكُرْ نِعْمَتِي عَلَيْكَ وَعَلَى وَالِدَتِكَ إِذْ أَيَّدتُّكَ بِرُوحِ الْقُدُسِ تُكَلِّمُ النَّاسَ فِي الْمَهْدِ وَكَهْلاً وَإِذْ عَلَّمْتُكَ الْكِتَابَ وَالْحِكْمَةَ وَالتَّوْرَاةَ وَالإِنجِيلَ وَإِذْ تَخْلُقُ مِنَ الطِّينِ كَهَيْئَةِ الطَّيْرِ بِإِذْنِي فَتَنفُخُ فِيهَا فَتَكُونُ طَيْرًا بِإِذْنِي وَتُبْرِىءُ الأَكْمَهَ وَالأَبْرَصَ بِإِذْنِي وَإِذْ تُخْرِجُ الْمَوتَى بِإِذْنِي...

– (Yada sal) o zaman(ı) ki, Allah dedi: “Ey Məryəm oğlu İsa, Mənim sənə və anana olan nemətimi xatırla, o zaman ki, səni Ruhul-Qudusla qüvvətləndirdim və sən camaatla beşikdə ikən və orta yaşlarında danışırdın; o zaman ki, sənə kitab (öz kitabını və səmavi kitabları), şəriət hökmlərini, əqli elmləri, Tövratı və İncili öyrətdim; o zaman ki, Mənim (yaradılış) iznimlə gildən quş şəklinə bənzər (bir şey) düzəldir, sonra ona üfürürdün və o, Mənim iznim və iradəmlə quş olurdu; Mənim iznimlə anadangəlmə kora və cüzamlı xəstəyə şəfa verirdin; o zaman ki, Mənim iznimlə ölüləri (qəbirdən diri) çıxarırdın…

Həmçinin Allah-təala Bəni-İsrailə əta etdiyi nemətlərə işarə edərək “Bəqərə” surəsinin 40-cı ayəsində belə buyurur:

يَا بَنِي إِسْرَائِيلَ اذْكُرُواْ نِعْمَتِيَ الَّتِي أَنْعَمْتُ عَلَيْكُمْ

–Ey İsrail övladları, sizə verdiyim nemətləri yadınıza salın.

Həqiqətən, Allah-təala insanlara saysız-hesabsız nemətlər bəxş etmişdir. Mal-dövlət, sərvət, cansağlığı, həyat, ruzi və bir çox nemətlər vardır ki, saymaqla qurtarmaz.

قَالَ عَلِيٌّ(ع): وَ إِنَّ مِنَ النِّعَمِ سَعَةَ الْمَالِ وَ أَفْضَلُ مِنْ سَعَةِ الْمَالِ صِحَّةُ الْبَدَنِ

–Həzrət Əli (ə) buyurur: "Bilin ki, sərvət və mal-dövlət bir nemətdir, ondan üstün isə bədənin sağlamlığıdır."

İbn Abbas deyir: "Həzrət Peyğəmbər (s) buyurmuşdur: "İnsanın gözəlliyi ilahi bir nemətdir."

Mənəvi nemətlərə gəldikdə isə, onların da həddi-hüdudu yoxdur. Hətta Allah- təalanın insanların eyiblərini gizlətməsi belə çox böyük nemətlərdəndir.

قَالَ رَسُولُ اللهِ(ص): فَمَا سَتَرَ مِنْ عَوْرَتِكَ وَلَوْ أَبْدَاهَا لَقَلاكَ أَهْلُكَ فَمَنْ سِوَاهُمْ

–Həzrət Peyğəmbər (s) buyurur: "(Mənəvi nemətlərdən biri də budur ki,) əgər Allah sənin eyiblərini və (çirkinliklərini) örtməsəydi, ailən sənə nifrət edərdi, mən hələ başqalarını demirəm."

Günaha rəğbətsizlik və insanın əlinin günaha çatmaması Allah-təala tərəfindən olan böyük nemətdir.

قَالَ عَلِيٌّ(ع): إِنَّ مِنَ النِّعمَة تَعَذُّرَ الْمَعاصِي

–Həzrət Əli (ə) buyurur: "Günaha batmamaq (əlin günaha çatmaması) nemətlərdən biridir."

Bəzən insan günah etmək fikrinə düşdükdə Allah-təala onun üçün elə bir şərait yaradır ki, həmin günahı edə bilməsin. Əgər Allah-təala həmin anda insanı azacıq boşlasa, insanı şeytanın qoşunu aparar. Şeytanın qoşunu hücum edərkən insanı həmin hücumdan qoruyan Allahdır. Əlbəttə, bunun da bir sıra səbəbləri vardır.

Həmçinin qəlbləri bir-birinə yaxınlaşdıran ülfət, vəhdət, qardaşlıq, İslam bayrağı altında birləşib bütün kin-küdurətləri və düşmənçilikləri bir kənara qoymaq Allahın insanlara bəxş etdiyi böyük nemətlərdəndir. Necə ki, tarixdə də açıq-aydın bunun şahidi olmuşuq. Ovs və xəzrəc kimi bir-birinə düşmən olan iki böyük qəbilə İslam bayrağı altında birləşərək mehriban və səmimi olmuşdular.

Həmçinin bütün müsəlmanlar namaz qılarkən “Salam olsun bizə və Allahın saleh bəndələrinə” – deyirlər. Bütün bunların hamısı Allahın insana bəxş etdiyi mənəvi nemətlərdir. Əgər kimsə bu mənəvi nemətdən uzaq düşürsə, öz-özünü məhrum etmiş olur.

Həmçinin insanın qəlbində yaranan Allahın eşq və məhəbbəti də ən böyük nemətdir.

قَالَ الإمامُ الصّادقُ(ع): ما أَنْعَمَ اللهُ عزّ و جلّ على عَبدٍ أجَلَّ مِن أنْ لا يَكونَ في قَلبِهِ مَع اللهِ عزّ و جلّ غَيْرُهُ.

–İmam Sadiq (ə) buyurmuşdur: “Bəndənin ürəyində Allahdan başqa heç nəyin olmaması Allahın bəndəyə verdiyi ən böyük nemətdir.”

## Peyğəmbərlik və imamət ən böyük nemətdir

Allahın insana bəxş etdiyi mənəvi nemətlər o qədər çoxdur ki, saymaqla hesaba gəlməz. Əlbəttə, onu da qeyd etmək lazımdır ki, bütün bu mənəvi nemətlərin hər birinin öz dərəcəsi vardır. Yəni onların hamısı eyni dərəcədə deyil. Quran ayələrinə əsasən mənəvi nemətlərin içərisində hamısından böyük və yüksək əhəmiyyətə malik olan nemət peyğəmbərlik və imamətdir. Yəni Həzrət Məhəmmədin (s) peyğəmbərliyi, eləcə də ondan sonra Həzrət Əlinin (ə) və onun on bir övladının insanlara imamlığı və rəhbərliyi Allahın insanlara bəxş etdiyi ən böyük nemətdir. Buna görə də bu iki nemət barədə danışarkən Allah-təala insanlara minnət qoyur. Halbuki elə bir nemət yoxdur ki, Allah onu bəxş etdiyi üçün insanlara minnət qoysun. Amma bu iki nemətə görə minnət sözü işlənmişdir. Allah-təala “Ali-İmran” surəsinin 164-cü ayəsində Həzrət Peyğəmbərin (s) peyğəmbərliyi barədə belə buyurur:

لَقَدْ مَنَّ اللهُ عَلَى الْمُؤمِنِينَ إِذْ بَعَثَ فِيهِمْ رَسُولاً مِّنْ أَنفُسِهِمْ

–Şübhəsiz, Allah möminlərin boynuna onlara (mələklərdən və cinlərdən deyil) özlərindən bir peyğəmbər göndərən zaman minnət qoydu.

Ayədə işlənmiş «مَنَّ» – "mənnə" kəlməsi "ağır tərəzi daşı"na deyilir. "Minnət" kəlməsi də bu sözdən götürülmüşdür. Hər bir ağır nemət barəsində minnət sözü işlədilir. Odur ki, ayədə İslam Peyğəmbərinin (s) insanlar üçün göndərilməsində minnət sözündən istifadə olunmuşdur. Həmçinin imamət barədə də minnət sözü işlədilir. "Qəsəs" surəsinin 5-ci ayəsində belə buyurulur:

وَنُرِيدُ أَن نَّمُنَّ عَلَى الَّذِينَ اسْتُضْعِفُوا فِي الْأَرْضِ وَنَجْعَلَهُمْ أَئِمَّةً وَنَجْعَلَهُمُ الْوَارِثِينَ

–Biz iradə etmişik ki, yer üzünün zəif saxlanılanlarına minnət qoyaraq onları (camaatın) imamları və yer üzünün varisləri qərar verək.

Əgər ayələrə diqqətlə baxsaq görərik ki, Həzrət Peyğəmbərin (s) barəsindəki minnət «مَنَّ» – "mənnə", imam barəsindəki minnət «نَمُنَّ» – "nəmunnə" kəlməsi ilə ifadə edilmişdir. Yəni İslam Peyğəmbəri (s) sonuncu peyğəmbər olduğu və onunla da peyğəmbərliyə xitam verildiyi üçün oradakı minnət kəlməsi keçmiş zamanda işlənmişdir. Amma imamın imamlığı qiyamətə qədər davam etdiyindən onun barəsində işlənmiş minnət sözündə isə davamiyyət vardır.

Mələklərdə insanla Allah arasında vasitəçi olub feyzi Allahdan alaraq insanlara çatdırmaq imkanı və qüdrəti yoxdur. Mələklər insanları və cəmiyyəti idarə edə bilməzlər. Amma məsum bir vəziyyətdə həmin feyzi Allahdan alan, məsum halda onu bəşərə çatdıran və özü də həmin vəziyyətdə ona əməl edən şəxs Həzrət Peyğəmbər (s) və onun canişinidir. Çünki Allahdan ehkamı alan şəxsdə ismət və məsumluq olmalıdır. Ona görə ki, əgər Həzrət Peyğəmbərin (s) səhv etməsinə ehtimal verilərsə, o zaman bütün vəhylər və ayələr şübhə və sual altına düşər. Əgər Quranın 6666 ayəsinin birində səhv edildiyinə dair bir ehtimal irəli sürülsə, o zaman insan hansı ayəni oxusa fikirləşəcək ki, bəlkə elə həmin yanlışlıq bu ayədədir. Belə olduqda o zaman heç bir ayənin etibarı qalmayacaq. Buna görə də Allah tərəfindən nazil olan ayəni qəbul edən şəxs mütləq şəkildə məsum olmalıdır. Yəni o, heç bir səhv və

xətaya yol verməməlidir. Həmçinin əməllərində və camaata çatdırılmasında da məsum olması mütləqdir. Əgər ayəni məsum halda qəbul edib camaata çatdırarkən səhvə yol verərsə, bu da olmaz. Buna görə də həm Həzrət Peyğəmbər (s), həm də onun yerində əyləşən imam da məsum olmalıdır. Həzrət Peyğəmbərin (s) risaləti və imamın imamlığı bircə sözün altında cəm olmuşdur. Əgər hər ikisini bircə kəlmə ilə ifadə etmək istəsək, buna "vilayət" deyilir.

Odur ki, Allah-təala cəhənnəm və cənnət barədə söz açdıqda minnət sözünü işlətmir. Əzəmətli göylərin, ərşin və yerin yaradılışında minnət sözü işlətməmişdir. Bir sözlə, yaratdığı heç bir şey barəsində minnət sözündən istifadə etməmişdir. Çünki onların heç birinin əzəməti risalətin və imamətin əzəmətinə çata bilməz. Yalnız qeyd etdiyimiz bu iki məsələ barəsində Allah-təala minnət sözünü işlətmişdir.

Amma Ğədir-Xum məsələsində Həzrət Əlinin (ə) vilayəti barədə Quranda elə bir ibarət işlədilmişdir ki, ondan savayı başqa heç bir yerdə nəzərə çarpmır. Həzrət Peyğəmbər (s) Həzrət Əlini (ə) öz yerinə, insanlara imam təyin etdikdən sonra Allah-təala "Maidə" surəsinin 3-cü ayəsini nazil etdi.

الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الإِسْلاَمَ دِينًا

–Bu gün dininizi sizin üçün kamilləşdirdim, sizə Öz nemətimi tamamladım və (möhkəm və sabit) bir din kimi sizin üçün İslamı qəbul etdim.

Bu ayədə deyilmir ki, sizə nemət verdim. Deyilir ki, sizə Öz nemətimi tamamladım. Bu ifadə yalnız və yalnız Həzrət Əlinin (ə) vilayəti barədə işlədilmişdir.

İslam Peyğəmbərinin (s) risaləti mükəmməl olduğu kimi, Həzrət Əlinin (ə) və ondan sonrakı on bir məsum imamın vilayəti də mükəmməldir. Belə olduqda bu barədə olan hədislərin mənasını başa düşmək çox asandır. Yəni əgər risalət və imamət mənəvi nemətlər arasında zirvədə dayanırsa və Allah-təala Həzrət Əlinin (ə) vilayəti barədə Öz nemətini tamamlayıb dini mükəmməlləşdirirsə, o zaman

aydın olur ki, bütün bayramların içərisində Ğədir-Xum bayramı birinci yerdə dayanır.

İndi isə “Maidə” surəsinin 3-cü ayəsinə diqqət yetirək. Allah-təala bu ayədə belə buyurur:

حُرِّمَتْ عَلَيْكُمُ الْمَيْتَةُ وَالْدَّمُ وَلَحْمُ الْخِنْزِيرِ وَمَا أُهِلَّ لِغَيْرِ اللّهِ بِهِ وَالْمُنْخَنِقَةُ وَالْمَوْقُوذَةُ وَالْمُتَرَدِّيَةُ وَالنَّطِيحَةُ وَمَا أَكَلَ السَّبُعُ إِلاَّ مَا ذَكَّيْتُمْ وَمَا ذُبِحَ عَلَى النُّصُبِ وَأَن تَسْتَقْسِمُواْ بِالأَزْلاَمِ ذَلِكُمْ فِسْقٌ الْيَوْمَ يَئِسَ الَّذِينَ كَفَرُواْ مِن دِينِكُمْ فَلاَ تَخْشَوْهُمْ وَاخْشَوْنِ الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الإِسْلاَمَ دِينًا فَمَنِ اضْطُرَّ فِي مَخْمَصَةٍ غَيْرَ مُتَجَانِفٍ لِّإِثْمٍ فَإِنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ

–Ölmüş (kəsilmədən murdar olmuş) heyvan, qan, donuz əti, (kəsilən zaman başı üzərində) Allahdan qeyrisinin adı çəkilmiş, boğulmuş, vurmaqla öldürülmüş, hündürlükdən yıxılaraq ölmüş, başqa bir heyvanın buynuzu vasitəsilə ölmüş və yırtıcı heyvanın öldürərək yediyi heyvan – (yuxarıda qeyd edilən heyvanların əti halal olanlarından canı çıxmamış) şəriət qanunu ilə kəsə bildikləriniz istisna olmaqla – (bunları yemək,) həmçinin, müqəddəs daşın üzərində (ya bütlər üçün) kəsilmiş heyvan(ın ətini yemək) və eləcə də (heyvanın ətini) qumar oxları ilə bölmək sizə haram oldu. Bu əməllərin hamısı Allaha qarşı itaətsizlikdir. Bu gün kafirlər sizin dininiz(i məhv edib aradan apara biləcəklərin)dən ümidlərini kəsib-lər. Odur ki, onlardan qorxmayın, Məndən qorxun. Bu gün dininizi sizin üçün kamilləşdirdim, sizə Öz nemətimi tamamladım və (möhkəm və sabit) bir din kimi sizin üçün İslamı bəyəndim. Beləliklə, əgər kimsə qəhətlik və şiddətli aclıq halında günaha meyli olmadan (həmin haram şeylərin bəzilərindən yeməyə) məcbur olsa, Allah çox bağışlayan və mehribandır.

Məgər Allah-təala donuzun, qanın, murdar olmuş heyvanın barəsində buyururmu ki, sizə Öz nemətimi tamamladım? Məgər donuzun haram edilməsi barəsində buyururmu ki, bu gün kafirlər sizin dininiz(i məhv edib aradan apara biləcəklərin)dən ümidlərini kəsiblər? Məgər murdar şeylərin haram olunması barəsində buyu-

rurmu ki, (möhkəm və sabit) bir din kimi sizin üçün İslamı bəyəndim? Belə bir şey ola bilərmi ki, donuzun ətinin haram edilməsi ilə düşmənlər İslam əhlindən ümidlərini kəssinlər?

Əlbəttə ki, belə deyil. Allah-təala donuzun, qanın, murdar olunmuş heyvanın haram edilməsi ilə deyil, məhz Həzrət Əlinin (ə) imaməti ilə düşmənləri məyus edir, nemətini tamamlayır, İslamı mükəmməl bir din olaraq insanlar üçün bəyənir. Bəs, nə üçün bu ayəni izah edənlərin bəzisi haqq-həqiqəti gizlədirlər? Nə üçün Quranın buyurduğunu bir kənara qoyaraq ayəni öz istədikləri tərəfə yozurlar? Quran və iman odur ki, insan üçün siyasəti müəyyənləşdirsin. Amma əgər insan öz siyasəti ilə iman müəyyən etmək istəsə, axırda dünyadan imansız gedəcək.

İslam Peyğəmbəri (s) sonuncu həcc ilində Mədinədə bütün qəbilə və şəhərlərə həm yazılı, həm bə şifahi şəkildə elan etdi ki, kimin imkanı varsa bu il həcc ziyarətinə yollansın. Həm də bildirdi ki, bu il onun axırıncı həcc səfəridir. Həzrət Peyğəmbərin (s) bu elanını eşidən bütün qəbilələrin tanınmış, imkanlı və eləcə də imkanı çatan müsəlmanlarının hamısı Məkkəyə yollandılar. Həmin il həcc ziyarətində təxminən 120 min insan iştirak edirdi. O vaxtlara görə bu rəqəm kifayət qədər böyük bir nəticə hesab olunurdu. Həzrət Peyğəmbər (s) özü ilə ailəsini və övladlarını da aparmışdı.

Camaat Həzrət Peyğəmbərin (s) elanından belə başa düşmüşdü ki, o həzrətin sonuncu həcci olduğu üçün həcc məsələləri barədə onlara nə isə deyəcəkdir. Çünki Həzrət Peyğəmbər (s) hamını xəbərdar edərkən mühüm bir məsələnin olduğunu da vurğulamışdı. Hamı təəccüb içində gözləyirdi ki, görəsən, Həzrət Peyğəmbər (s) onlara nə buyuracaqdır.

Beləliklə, müsəlmanlar hamılıqla bütün həcc əməllərini yerinə yetirdikdən sonra Həzrət Peyğəmbər (s) elan etdi ki, bütün ölkələrdən və qəbilələrdən gələnlərin hamısı, həmçinin məkkəlilər də mənimlə birgə şəhərdən çıxsınlar. Hamı bir-birindən soruşurdu ki, görəsən, Həzrət Peyğəmbərin (s) bizimlə nə işi olacaq? Amma bu sualın cavabını heç bir kəs bilmirdi. Beləcə, hamı bir nəfər kimi Məkkədən çıxıb yola düzəldilər.

Camaat Ğədir-Xum adlanan məntəqəyə çatdıqda Həzrət Peyğəmbər (s) dayandı və göstəriş verdi ki, irəlidə gedənlər geri qayıtsınlar. Onlar geri qayıtdılar və oturub arxada qalanların da gəlib çatmasını gözlədilər. Hamı həmin məntəqəyə toplaşdıqdan sonra Həzrət Peyğəmbər (s) göstəriş verdi ki, onun üçün hündür bir yer hazırlasınlar. Bir neçə nəfər dəvələrin yəhərlərini bir-birinin üstünə yığaraq hündür bir yer düzəltdilər.

Hava o qədər isti idi ki, bəzi zəvvarlar əbalarının bir hissəsini ayaqlarının altına, bir hissəsini də başlarının üstünə tutmuşdular ki, qumun və günəşin istisi onları yandırmasın. Beləliklə, günorta namazı qılındıqdan sonra Həzrət Peyğəmbər (s) onun üçün düzəldilmiş həmin hündür yerə çıxıb xütbə oxudu. Həmin xütbənin bir hissəsini ötən bəhsimizdə artıq qeyd etmişik. Həzrət Peyğəmbər (s) üzünü camaata tutub buyurdu:

–Ey camaat! Bilirsinizmi ki, Allah mənim himayədarım, mən də sizin himayədarınızam? Bilirsinizmi ki, mən sizə özünüzdən yaxınam?

Hamı bir ağızdan "doğru buyurursan, ey Allahın Rəsulu", – deyərək deyilənləri təsdiqlədilər.

Sonra Həzrət Peyğəmbər (s) Həzrət Əlinin (ə) əlindən tutaraq yuxarı qaldırıb buyurdu: "Mən kimin mövlasıyamsa, bu Əli də onun mövlasıdır. Ey mənim Allahım, onunla dost olanla dost ol, ona düşmən olanlarla düşmən ol. Ona kömək edənə kömək et, onu alçaldanı alçalt. Onu inkar edənlərə lənət et və ona qarşı vuruşanlara qəzəbini göstər."

Həzrət Peyğəmbər (s) bununla camaata başa salmaq istəyirdi ki, öz vilayət və rəhbərliyini Həzrət Əliyə (ə) verir. Yəni necə ki, Həzrət Peyğəmbər (s) müsəlmanlara özlərindən daha yaxındırsa və onların ağasıdırsa, Həzrət Əli (ə) də eləcə onların ağasıdır. Həzrət Peyğəmbərin (s) müsəlmanlar üzərində nə dərəcədə vilayəti varsa, həmin dərəcədə də Həzrət Əlinin (ə) insanlar üzərində vilayət və rəhbərliyi vardır. Mövla və vilayətin mənası o deyil ki, bundan sonra Əli (ə) sizin dostunuzdur və onu sevmək vacibdir. Bəziləri "mövla" sözünü

dost və sevmək kimi mənalandırırlar. Əgər sevmək mənasında olsaydı da belə yenə də onu sevmədilər. Bu necə sevməkdir ki, altıaylıq südəmər körpəsinə qədər balalarını Kərbəlada doğradılar. Nəinki onu sevmədilər, hətta onun vilayətini də qəbul etmədilər. Halbuki Həzrət Peyğəmbər (s) Ğədir-Xumda Allahın əmri ilə Həzrət Əlini (ə) özündən sonra bütün dünya müsəlmanlarının rəhbəri və imamı təyin etmişdi.

"Maidə" surəsinin 67-ci ayəsində olan mətləblərdən biri də budur ki, bu ayə həmin yerdə üç mərhələdə Həzrət Peyğəmbərə (s) nazil oldu. Birinci mərhələdə belə buyurulmuşdur:

يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ

–Ey Peyğəmbər, Rəbbin tərəfindən sənə nazil olanı çatdır!

İkinci mərhələdə buyurulur:

وَإِن لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ

–Əgər (bunu) etməsən, (elə bil ki,) Onun (heç bir) tapşırığını çatdırmamısan.

Burada deyilmir ki, əgər bu işi görməsən, öz peyğəmbərliyini yerinə yetirməmisən. Deyilir ki, əgər bunu etməsən, yəni sənə deyiləni burada camaata çatdırmasan, deməli Allahın heç bir tapşırığını yerinə yetirməmisən. Belə olduqda peyğəmbərlərin cərgəsindən çıxarılacaqsan.

İslam Peyğəmbəri (s) iyirmi üç il Allahın ayələrini insanlara çatdırmışdır. Bu yolda onun çəkdiyi zəhmət və əziyyətlər bütün digər peyğəmbərlərin zəhmətlərindən daha çox olmuşdur. Heç bir vaxt bu əziyyətləri dilinə gətirməzdi. İyirmi üç il müddətində bircə dəfə bu barədə belə buyurmuşdu: "Heç bir peyğəmbərə mənim qədər əziyyət verilməmişdir."

Bütün bunlara baxmayaraq, öz ümməti üçün həmişə dua edib Allahdan onların hidayət olunmasını diləyərdi. Digər peyğəmbərlər kimi öz qövmünə nifrin edib Allahdan onlara bəla istəmədi. Quran ayələrinə əsasən, Həzrət Nuh (ə) min ildən bir qədər az, yəni 950 il peyğəmbərlik etmişdir və camaatı Allaha sarı çağırmışdır. Bu müddət

ərzində cəmi 80 nəfər ona iman gətirmişdi. Yerdə qalanları isə inadkarlıq edərək onu ələ salar və incidərdilər.

İslam Peyğəmbəri (s) Həzrət Nuhun (ə) çəkdiyi əziyyətlərdən daha çox əziyyət çəkmişdir. Bunu deməkdə məqsədimiz odur ki, deməli Ğədir-Xumdakı məsələ o qədər mühüm və əhəmiyyətli bir məsələ idi ki, əgər Həzrət Peyğəmbər (s) Allahın o tapşırığını yerinə yetirməsəydi, onun çəkdiyi bütün əziyyətlərinin hamısı puç olub gedəcəkdi. Yəni əgər orada Həzrət Peyğəmbər (s) ona nazil olanı camaata çatdırmasaydı, Allahın risalətini yerinə yetirməmiş hesab ediləcəkdi. Həmin mühüm məsələ isə, qeyd etdiyimiz kimi, imamət məsələsiydi. Yəni əgər risalətdən imaməti ayırsan, deməli, risalətdən risaləti ayırmış olursan. Belə olduqda isə dindən heç bir əsər-əlamət qalmayacaqdı.

Üçüncü mərhələdə isə Allah-təala Həzrət Peyğəmbərə (s) ürək-dirək verərək belə buyurur:

وَاللّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ إِنَّ اللّهَ لاَ يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ

–Allah səni insanlardan (onların fitnə və şərindən) qoruyacaq. Şübhəsiz, Allah kafirlərin dəstəsini hidayət etməz.

Ayənin bu üçüncü hissəsində bir mətləb qeyd olunur. Həmin mətləb budur ki, görəsən nə üçün Allah-təala Həzrət Peyğəmbərə (s) təsəlli verərək buyurur ki, Allah səni insanlardan (onların fitnə və şərindən) qoruyacaq? Görəsən, Həzrət Peyğəmbər (s) nədən qorxurdu ki, Allah ona belə ürək-dirək verirdi? Cavab belədir ki, peyğəmbərlərə qorxmaq və müharibələrdən qaçmaq haramdır. Quranda bu barədə möminlər üçün iki mərhələ bəyan olunmuşdur. Bir ayədə buyurulur ki, bir mömin on nəfərin qarşısında dayanmalı və qaçmamalıdır. Yəni əgər bir mömin on nəfərin qabağından qaçsa, haramdır. Amma on beş nəfərin qabağından qaçsa, eybi yoxdur.

Sonra işi yüngülləşdirərək buyurulur ki, bir mömin iki nəfərin qarşısından qaçmamalıdır. Yəni əgər mömin iki nəfərin qabağından qaçsa, haramdır. Qarşı tərəf iki nəfərdən çox olsa və mömin onların qabağından qaçsa, bağışlana bilər. Amma peyğəmbər üçün belə bir

güzəşt yoxdur. Əgər peyğəmbər təkcə yer üzünün bütün insanları ilə qarşı-qarşıya dayansa, yenə də onların qarşısından qorxub qaça bilməz. Əgər belədirsə, bəs onda Həzrət Peyğəmbər (s) Ğədir-Xumda nədən qorxurdu? Deməli, görünür ki, bu məsələ müharibə və ya güclə bağlı olan bir məsələ deyildi. Yəni burada başqa bir məsələ vardır. Həzrət Peyğəmbərin (s) qorxusu çox güman ki, insanların düşüncəsi və təfəkkürü məsələsi ilə bağlı idi. Digər peyğəmbərlər də bu kimi məsələlərlə rastlaşmışlar.

Nümunə üçün Qurandan bir neçə ayəyə diqqət yetirək. Həzrət Musa (ə) beş ülul-əzm peyğəmbərdən biridir. O, həm də qorxmayan insanlardan biri idi. Təsəvvür edin, qarşıda dəniz, arxada da Fironun ordusu. Ya dənizdə boğulub ölməlidirlər, ya da Firon onları öldürməlidir. Bütün bunlara baxmayaraq, Həzrət Musa (ə) orada zərrə qədər də olsa belə qorxmadı. Həzrət Musanın (ə) ətrafında olanlar dedilər: "Ey Musa, bizi iki ölümdən biri gözləyir. Ya suda boğulacağıq, ya da Fironun qoşunu bizi məhv edəcək." Həzrət Musa (ə) onları ölüm qorxusu qarşısında səbrə dəvət etmədi. Əksinə, izzətlə buyurdu ki, Rəbbim bizə nicat verəcək.

"Şüəra" surəsinin 61-66-cı ayələrində oxuyuruq:

فَلَمَّا تَرَاءى الْجَمْعَانِ قَالَ أَصْحَابُ مُوسَى إِنَّا لَمُدْرَكُونَ. قَالَ كَلَّا إِنَّ مَعِيَ رَبِّي سَيَهْدِينِ. فَأَوْحَيْنَا إِلَى مُوسَى أَنِ اضْرِب بِّعَصَاكَ الْبَحْرَ فَانفَلَقَ فَكَانَ كُلُّ فِرْقٍ كَالطَّوْدِ الْعَظِيمِ. وَأَزْلَفْنَا ثَمَّ الْآخَرِينَ. وَأَنجَيْنَا مُوسَى وَمَن مَّعَهُ أَجْمَعِينَ. ثُمَّ أَغْرَقْنَا الْآخَرِينَ

–O iki dəstə bir-birilərini gördükdə Musanın adamları dedilər: "Şübhəsiz, biz artıq yaxalanmaqdayıq." Musa dedi: "Belə deyildir, şübhəsiz, Rəbbim mənimlədir, tezliklə mənə (nicat yolunu) göstərəcəkdir." Sonra Musaya vəhy etdik ki: "Öz əsanla dənizə vur." Dəniz bölündü və (iki yolun arasında olan) hər bir hissə böyük bir dağ kimi oldu. O biri dəstəni də (Fironun adamlarını) oraya yaxınlaşdırdıq. Musaya və onunla birgə olanların hamısına nicat verdik. Sonra o biri dəstəni (suda) qərq etdik."

Amma bəzi ayələrdə Musanın (ə) qorxduğu barədə söz açılmışdır. "Əraf" surəsinin 115-116-cı ayələrində belə oxuyuruq:

قَالُواْ يَا مُوسَى إِمَّا أَن تُلْقِيَ وَإِمَّا أَن نَّكُونَ نَحْنُ الْمُلْقِينَ. قَالَ أَلْقُوْاْ فَلَمَّا أَلْقَوْاْ سَحَرُواْ أَعْيُنَ النَّاسِ وَاسْتَرْهَبُوهُمْ وَجَاءوا بِسِحْرٍ عَظِيمٍ

– (Sehrbazlar) dedilər: “Ey Musa, ya sən (öz cadugərlik vasitələrini) at, ya da biz ataq.” Dedi: “Siz atın.” Beləliklə elə ki, (cadugərlik alətlərini) atdılar, camaatın gözlərini (sehrlə) bağladılar və onları çox qorxutdular və böyük bir sehr yaratdılar.

“Taha” surəsinin 66-68-ci ayələrində bu barədə yenə belə buyurulur:

قَالَ بَلْ أَلْقُوا فَإِذَا حِبَالُهُمْ وَعِصِيُّهُمْ يُخَيَّلُ إِلَيْهِ مِن سِحْرِهِمْ أَنَّهَا تَسْعَى. فَأَوْجَسَ فِي نَفْسِهِ خِيفَةً مُّوسَى. قُلْنَا لَا تَخَفْ إِنَّكَ أَنتَ الْأَعْلَى

–Musa dedi: “Xeyr, siz atın.” (Onlar atdılar.) Beləliklə, onların kəndir və əsaları sehr nəticəsində birdən Musanın xəyalında sürətlə (ora-bura) gedən təsəvvürü yaratdı.

Belə olan halda Musa qəlbində bir qorxu hiss etdi.

Dedik: “Qorxma, şübhəsiz, sən özün üstünsən.”

Bu ayənin barəsində Həzrət Əlidən (ə) soruşdular: “Ya Əmirəl-möminin, Musa (ə) orada nədən qorxurdu?” Həzrət (ə) buyurdu: “Musa (ə) Firondan, onun ordusundan və yaxud sehrbazların sehrindən qorxmurdu. Tamaşaya gələn camaatın cadu ilə möcüzəni bir-birindən ayıra bilməyəcəyindən qorxurdu.” (Yəni Həzrət Musa (ə) bilirdi ki, əsanı yerə atdıqda möcüzə baş verəcək və Fironun cadugərləri məğlub olacaqlar. Amma camaatın bu möcüzə ilə cadunu ayırd edə bilməyəcəyindən və Fironun adamlarının camaatın fikirlərində başqa təsəvvürlər yaradacağından qorxurdu.)

Bəs, İslam Peyğəmbərinin (s) Ğədir-Xumdakı qorxusunun səbəbi nə ilə bağlı idi? Həzrət Peyğəmbər (s) Həzrət Əlini (ə) özündən sonra rəhbər təyin etdikdə camaatın bunu qəbul etməməsinə görə qorxurdu. Yəni camaat deyə bilərdi ki, Həzrət Peyğəmbər (s) özündən sonra kürəkənini bizə rəhbər təyin etdi. Həzrət Peyğəmbər (s) camaatın imansızlığından və müxtəlif şayiələr yaymasından qorxurdu. Allah-təala Həzrət Peyğəmbərə (s) təsəlli verərək onu

camaatın fitnə və hiylələrindən qoruyacağına zəmanət verdi. Odur ki, Həzrət Peyğəmbər (s) orada Həzrət Əlini (ə) ümmətə imam və rəhbər təyin etdikdən sonra başda ağsaqqallar olmaqla hamı gəlib onu təbrik etdi.

Faktiki olaraq Ğədir-Xumda hamı Həzrət Əlini (ə) ümmətə imam təyin olunması münasibətilə təbrik edərək öz razılıqlarını bildirdilər. Sonradan kimsə onunla müxalifətçilik etdisə, bu, tamamilə başqa bir məsələdir. Bəziləri əvvəlcə onu qəbul etmələrinə baxmayaraq, sonradan ondan imtina etdilər. Ancaq onların imtina etmələri heç də həqiqəti dəyişməz. Məsələn, bəzən görünür ki, on il namaz qılan bir gənci elə yoldan çıxarırlar ki, toyunda camaata içki verir. Bu, başqa məsələdir. Ğədir-Xumda hamı gəlib bir-bir Həzrət Əlini (ə) təbrik etdilər. Bu, Allahın Öz işi idi ki, Həzrət Peyğəmbərə (s) verdiyi zəmanəti yerinə yetirdi. Əgər bundan sonra kimsə başqa cür düşünürsə və yaxud kimsə kimisə yoldan çıxarırsa, bu məsələnin Allaha nə aidiyyatı var? Allah insanlara imam təyin etdi və höccətini hamıya tamamladı. Ondan sonra camaat nə edəcəksə, artıq özü qərar qəbul etməlidir.

Bütün peyğəmbərlər, xüsusilə, ülul-əzm peyğəmbərlər öz yerlərinə canişin və vəsi təyin etmişlər. Həzrət Adəm (ə) Şiysi, Həzrət Nuh (ə ) Samı, Həzrət İbrahim (ə) İsmayılı, Həzrət Musa (ə) Yuşə ibn Nunu, Həzrət İsa (ə) Şəmunu öz yerinə canişin təyin etdilər. Necə ola bilərdi ki, İslam Peyğəmbəri (s) dünyadan köçdüyü və ondan sonra heç bir peyğəmbərin gəlməyəcəyi bir halda kimisə öz yerinə təyin etməsin? Aydın məsələdir ki, Ğədir-Xum kimi böyük və əhəmiyyətli bir hadisənin baş verdiyi gündə Həzrət Peyğəmbər (s) Allahın əmri ilə Əli ibn Əbi Talibi (ə) öz yerinə canişin və imam təyin etdi.

Hədislərdə belə nəql olunur ki, kim zilhəccə ayının ilk on gecəsində məğrib və işa namazları arasında iki rükət xüsusi namazı[32] qılsa, həcc ziyarətində olan hacıların savabına şərik olar. Sual oluna

---

[32] Sübh namazı kimi iki rükətdən ibarətdir. Hər bir rükətdə "Həmd" və "İxlas" surələri oxunur və "İxlas" surəsindən sonra "Əraf" surəsinin 142-ci ayəsi oxunur. Sonra rüku və səcdələrə olduğu kimi riayət edilir.

bilər ki, həccə gedən şəxs neçə gün istinin altında əziyyət çəkərək ziyarətlə məşğul olur. Ərəfatda, Minada qalır. Şeytana daş atmaq üçün uzun məsafə qət edir. Təvafda camaatın sıxlığından əziyyət çəkir. Necə ola bilər ki, insan evində rahat oturub bu iki rükət namazı qılmaqla onların savabına şərik olsun? Bunun hikməti elə həmin namazda oxunan "Əraf" surəsinin 142-ci ayəsindən bəlli olur.

وَوَاعَدْنَا مُوسَىٰ ثَلَاثِينَ لَيْلَةً وَأَتْمَمْنَاهَا بِعَشْرٍ فَتَمَّ مِيقَاتُ رَبِّهِ أَرْبَعِينَ لَيْلَةً وَقَالَ مُوسَىٰ لِأَخِيهِ هَارُونَ اخْلُفْنِي فِي قَوْمِي وَأَصْلِحْ وَلَا تَتَّبِعْ سَبِيلَ الْمُفْسِدِينَ

–Musa ilə otuz gecə (oruc tutub dua edəcəyi, bunun müqabilində ona Tövratı nazil edəcəyimiz və özü ilə danışacağımız) barədə vədələşdik, sonra ona daha bir on gün də əlavə etdik. Beləliklə, Rəbbinin (ibadət üçün) təyin etdiyi müddət tam qırx gecə-gündüz oldu. Musa qardaşı Haruna dedi: "Sən tayfam içində mənim xəlifəm ol, (camaatı) islah etməyə çalış və (yer üzündə) fitnə-fəsad törədənlərin yolu ilə getmə!"

Yəni necə ola bilər ki, Həzrət Musa (ə) qırx günlüyünə qövmünün arasından gedərkən öz yerinə qardaşı Harunu canişin təyin edir, amma İslam Peyğəmbəri (s) əbədi olaraq dünyadan getdiyi bir halda öz yerinə canişin və imam təyin etməsin?

Əgər insan həmin "qırx gecə"dən vilayəti başa düşsə, qıldığı həmin iki rükət namazın savabı həcc ziyarətində olan hacıların savabına bərabər, bəlkə ondan daha çoxdur.

## Ğədir-Xum gününün əməlləri

Qeyd olunduğu kimi, zilhəccə ayının 18-i Ğədir-Xum bayramıdır. Bu gün şadlıq etmək və möminləri sevindirmək, qohum-əqrəbaya baş çəkmək, möminləri ziyarət etmək müstəhəbdir. Həmçinin alimləri, xüsusilə seyidləri ziyarət etməyin savabı vardır. Həmin gün möminlərin bir-birinə hədiyyə verməsi müstəhəb əməllərdəndir. Möminlər bir-biri ilə görüşərkən bu buanı oxumaq müstəhəbdir.

اَلْحَمدُ اللهِ الذَّي جَعَلنَا مِنَ الْمُتَمَسِّكِينَ بِوِلايَةِ اَمِيرِ الْمُؤمِنِين وَالاَئِمَّة عَلَيهِمُ السَّلام

–Həmd və şükürlər olsun o Allaha ki, bizi Əmirəlmöminin Əlinin (ə) və (onun övladlarından olan) imamların ətəyindən tutanlardan qərar verib.

Ğədir-Xum günündə bir dirhəm (yaxud bir manat) sədəqə verməyin savabı yüz min dirhəmdən (yaxud yüz min manatdan) üstün sayılır. O gün bircə möminə yemək verməyin savabı bütün peyğəmbərlərə yemək verməyin savabı qədərdir. Həmin gün oruc tutmuş bir möminə iftar verməyin savabı on "fiam" insana iftar verməyin savabı qədərdir. Bir nəfər Həzrət Əlidən (ə) "fiam" kəlməsinin mənasını soruşduqda o həzrət buyurdu: "Hər bir "fiam" yüz min peyğəmbər və şəhidin sayı qədərdir."

Ğədir-Xum günündə möminlərin bir-biri ilə qardaşlıq əqdi oxuması müstəhəbdir. Ğədir-Xum günündə oruc tutmağın xüsusi savabı vardır. Bundan əlavə, həmin günün günorta namazına təxminən 30-40 dəqiqə qalmış iki rükətdən ibarət xüsusi bir müstəhəb namazı da vardır. Hər kəs Ğədir-Xum gününün qüslünü alıb günorta namazından qabaq bu namazı qılsa, elə bil Ğədir-Xum günündə Həzrət Peyğəmbərə (s) beyət edənlərin savabı qədər savab qazanar. Həmin namazın qaydası belədir: Sübh namazı kimi iki rükətdən ibarətdir. Hər rükətdə "Həmd" surəsindən sonra 10 dəfə "İxlas", 10 dəfə "Ayətəl-kürsi" və 10 dəfə "Qədr" surəsi oxunur.

# QURBAN BAYRAMI
## (Həzrət İbrahimin (ə) xüsusiyyətləri)

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ الذي جَعَلَ الْحَمدَ ثَمَناً لِنعمَائِه، ومَعاذاً مِن بَلائِهِ، وَ وَسِيلاً إِلى جِنَانِهِ، وَسَبَباً لِزِيادَةِ إِحسَانِهِ. اَلصَّلاةُ وَالسّلامُ عَلى رَسُولِهِ نَبِيّ الرَّحمَة، وَإِمَامِ الْأَئِمَّةِ وَ سِراجِ الأُمَّة حَبِيبِنَا وَ حَبِيبِ اِلهِى العَالَمِينَ اَبِى القَاسِمِ مُحَمَّد وَ عَلى اَهلِ بَيتِهِ مَصَابِيحِ الظُّلَم وَ عِصَمِ الْأُمَمْ وَ مَنارِ الْدّينِ الْواضِحَة وَ مَثاقِيلِ الْفَضْلِ الْرّاجِمَ وَ لا سِيَّما عَلى سُلالَةِ النُّبُوَّةِ وَ بَقِيَّةِ الْعِتْرَةِ وَالصَّفَّةِ صَاحِبِ الزَّمَانِ وَ مُظْهِرِ الْإِيمَانِ وَ مُعْلِنِ أَحْكَامِ الْقُرْآنِ اَلْحُجَّةِ الْقائِمِ الْامامِ الْمُنْتَظَرِ صَلَواتُ اللهِ وَ سَلامُهُ عَلَيهِ اَللّهُمَّ نَوِّرْ بِنُورِهِ كُلَّ ظُلْمَةِ وَهُدَّ بِرُكْنِهِ كُلَّ بِدْعَة وَاقْصِمْ بِهِ كُلَّ جَبّار وَاَخْمِدْ بِسَيْفِهِ كُلَّ نار وَاَذِلَّ بِسُلْطانِهِ كُلَّ سُلْطان. آمِينَ يا رَبَّ الْعالَمِين.

Qurban bayramı İslam aləmində ən böyük bayramlardan biridir. İslam dünyasında zilhəccə ayının onuncu günü Qurban bayramı adlandırılmışdır. Bu gün münasibətilə bütün dünya müsəlmanlarını təbrik edir və Allah-təaladan diləyirəm ki, müsəlmanlara xeyir və bərəkət nəsib etsin!

Qurban bayramı ilə bağlı bəzi ayə və hədislərə istinad edərək əziz möminlərin diqqətinə bir neçə kəlmə çatdırmaq istəyirəm. Allah-təala "Mümtəhinə" surəsinin 4-cü ayəsində buyurur:

قَدْ كَانَتْ لَكُمْ أُسْوَةٌ حَسَنَةٌ فِي إِبْرَاهِيمَ وَالَّذِينَ مَعَهُ إِذْ قَالُوا لِقَوْمِهِمْ إِنَّا بُرَآء مِنكُمْ وَمِمَّا تَعْبُدُونَ مِن دُونِ اللَّهِ كَفَرْنَا بِكُمْ وَبَدَا بَيْنَنَا وَبَيْنَكُمُ الْعَدَاوَةُ وَالْبَغْضَاء أَبَدًا حَتَّى تُؤْمِنُوا بِاللَّهِ وَحْدَهُ

–Şübhəsiz, İbrahim(in) və onunla birlikdə olanlar(ın rəftarın)da sizin üçün gözəl bir örnək vardır. O zaman onlar öz qövmlər(inin kafirlər)inə demişdilər: "Həqiqətən, biz sizdən və Allahdan başqa ibadət etdiklərinizdən uzağıq. Biz siz(in tanrılarınızı və ayininiz)i təkzib edirik. Və siz yeganə olan Allaha iman gətirməyincə həmişə bizimlə sizin aranızda ədavət və düşmənçilik olacaqdır."

Tərbiyə etməyin ən yaxşı üsulu insanın öz əməli ilə nümunə göstərməsidir. Biri var ki, tərbiyənin qayda-qanunlarından danışılsın,

biri də var ki, danışandan sonra əməli surətdə bir nümunə də göstərilsin. Əxlaq alimləri deyirlər ki, bu üsul ən təsiredici metodlardan biridir. Elə buna görə də peyğəmbərimiz, imamlarımız və böyük din xadimlərimiz həmişə insanları hidayət məsələlərində ən çox əməli üsluba üstünlük vermişlər. Onlar xütbə oxuyur, insanlar üçün moizələr və söhbətlər edirdilər, lakin öz əməlləri ilə də başqalarına nümunə göstərirdilər. Tərbiyədə əsas məsələ budur ki, insan dediyi sözlərlə yanaşı, həmin sözləri təsdiq edə biləcək nümunələr də göstərsin. Ona görə ki, hidayət olunmaq istəyən hər bir insan kimisə özünə örnək götürüb onun ardınca gedə bilsin. Həzrət Peyğəmbərin (s) və imamların sünnəsinin mənası da elə bundan ibarətdir. Həzrət Peyğəmbərin (s) və imamların sözlərinə, əməllərinə və onların dəstəkləməsinə sünnə deyilir və bu, bizim üçün höccətdir. Əgər Həzrət Peyğəmbər (s) "dəstəmazı belə almaq lazımdır", – deyə buyursa, bu söz bizim üçün höccətdir. Bu sözün qarşısında "niyə", "nə üçün" söyləmək və ya "mənə Qurandan dəlil gətir!" demək düzgün deyil və mənasızdır. Çünki Allah-təala Özü Quranda buyurur ki, Həzrət Peyğəmbər (s) hər nə deyirsə, Mənim sözümü buyurmuşdur və onu qəbul et.

Odur ki, Həzrət Peyğəmbər (s) hər nə buyursa, bizim üçün höccətdir. Məsələn, Həzrət Peyğəmbərin (s) necə dəstəmaz almasına baxıb öyrənmək höccətdir. Təqdir isə budur ki, məsələn, bir nəfər Həzrət Peyğəmbərin (s) yanında dəstəmaz alır və o həzrət də onun dəstəmaz almasına tamaşa edərək bir söz demir. Çünki əgər düzgün dəstəmaz almasaydı, Həzrət Peyğəmbər (s) mütləq ona etiraz edib doğru dəstəmaz almağın qaydasını başa salardı.

Belə məlum olur ki, Həzrət Peyğəmbərin (s) həm danışmağı höccətdir, həm də susmağı. Elə buna görə də onlar məsum olmalıdırlar. Peyğəmbərlərin ismətinin dəlillərindən biri də budur. Onlar məsum olduqlarına görə Qurani-kərim onları insanlar üçün örnək və nümunə kimi təqdim etmişdir. Allah-təala Qurani-kərimdə İslam Peyğəmbəri (s) və Həzrət İbrahim (ə) barəsində bu ifadəni zikr etmişdir:

لَقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ اللَّهِ أُسْوَةٌ حَسَنَةٌ

–Şübhəsiz, Allahın Rəsulunun rəftarında sizin üçün gözəl bir örnək vardır.[33]

Buradakı "üsvə" kəlməsi, yəni "ona bax", "o, nə edirsə, sən də onu yerinə yetir və ondan örnək götür" mənasını ifadə edir.

قَدْ كَانَتْ لَكُمْ أُسْوَةٌ حَسَنَةٌ فِي إِبْرَاهِيمَ

–Şübhəsiz, İbrahim(in) (rəftarın)da sizin üçün gözəl bir örnək vardır.

Baxın İbrahimin (ə) yol getməyinə, görün necə yol gedir? O, öz yolunu seçmişdir, görün hansı yolu seçmişdir?! Onun necə imtahan verməsinə baxaraq ondan öyrənin. Onun sözü, əməli, danışmağı və susmağı höccətdir. Sual oluna bilər ki, hansı cəhətdən İbrahimdən (ə) nümunə götürməliyik? Ayənin davamında bu məsələyə işarə olunaraq birincisi, tövhid məsələsində ondan nümunə götürülməsi təkid edilir.

وَالَّذِينَ مَعَهُ إِذْ قَالُوا لِقَوْمِهِمْ إِنَّا بُرَآء مِنكُمْ وَمِمَّا تَعْبُدُونَ مِن دُونِ اللَّهِ كَفَرْنَا بِكُمْ وَبَدَا بَيْنَنَا وَبَيْنَكُمُ الْعَدَاوَةُ وَالْبَغْضَاء أَبَدًا حَتَّى تُؤْمِنُوا بِاللَّهِ وَحْدَهُ

–O zaman onlar öz qövmlər(inin kafirlər)inə demişdilər: "Həqiqətən, biz sizdən və Allahdan başqa ibadət etdiklərinizdən uzağıq. Biz siz(in tanrılarınızı və ayininiz)i təkzib edirik. Və siz yeganə olan Allaha iman gətirməyincə həmişə bizimlə sizin aranızda ədavət və düşmənçilik olacaqdır."

Həzrət İbrahim (ə) də sözünün üstündə möhkəm dayandı. Çox təhlükələrə məruz qalmasına baxmayaraq, sözündən dönmədi.

Qurani-kərimdə Həzrət İbrahim (ə) haqda çoxlu ayələr mövcuddur. Quranda təxminən 69 dəfə onun adı çəkilmişdir. Allah-təala 25 surədə ondan söz açmış və Həzrət İbrahimdən (ə) nələri nümunə

---

[33] Əhzab surəsi, 21-ci ayə.

götürüb öyrənəcəyimizi həmin ayələrdə bəyan etmişdir. Onlardan bir neçəsinə diqqət yetirək.

Onlardan birincisi budur ki, o, Allahın qarşısında müti idi və Allah-təalaya itaət edirdi. "Müti", yəni Allah-təalanın qarşısında heç bir vaxt "niyə", "nə üçün" kəlmələrini işlətməyən şəxs deməkdir. Allahın buyurduğu hər bir əmri bütün varlığı ilə yerinə yetirirdi. Bu, "قَانِتًا لِلَّهِ" – "(İbrahim) Allah qarşısında itaətkar idi"[34] mənasını verir.

İkincisi, Həzrət İbrahim (ə) verdiyi sözə əməl edirdi. "وَإِبْرَاهِيمَ الَّذِي وَفَّى" – "Və (əhdə) çox vəfalı olan İbrahim..."[35]Dünyaya gəlməmişdən əvvəl Allaha söz vermişdir və öz sözünə də əməl edir. İnsanlara söz verib və sözünə də əməl edir. Özü-özünə söz verir və ona da əməl edir. İnsanın qiyməti bununla ölçülür. İnsanın qiyməti bədənindəki yağ (piy) və digər maddələrlə ölçülmür, onun hərəkəti (əməli) ilə müəyyən edilir.

Bir zaman alman alimlərindən biri insanın qiymətini müəyyən etmək qərarına gəlir. Normal bir insanı tərəzidə çəkir və onun çəkisi təxminən 60 kiloqram gəlir. Sonra həmin insanın bədənində olan əti, yağı, duzu, suyu və digər maddələri qiymətləndirir. Sonda belə bir qərara gəlir ki, həmin şəxsin ümumi dəyəri 120 marka təşkil edir.

Lakin insanın qiyməti bununla ölçülmür. Belə bir nəticə, heç şübhəsiz, həmin işi görənin ağlının məhsuludur. Görünür, həmin alim insanın son dərəcə qiymətli bir varlıq olduğunu dərk edə bilməyib. İnsanın qiyməti və dəyəri onun hərəkəti, fəaliyyəti və əməlləri ilə müəyyən edilir. Əgər insanın ağzından bir söz çıxsa, nəyin bahasına olursa-olsun öz sözünün üstündə dayanmalıdır. İslam Peyğəmbəri (s) peyğəmbərliyə seçilməmişdən öncə bir nəfərlə görüşmək üçün vədələşir. Həzrət (s) görüşəcəkləri yerə gəlir və həmin şəxsin orada olmadığını görür. Bununla belə, bir neçə saat onu gözləyir, amma o adam gəlib çıxmır. Beləcə, Həzrət Peyğəmbər (s) düz üç gün orada onu

---

[34] Nəhl surəsi, 120-ci ayə.
[35] Nəcm surəsi, 37-ci ayə.

gözləyir. Üç gündən sonra həmin şəxs gəlir və Həzrət Peyğəmbər (s) onunla görüşür. Bax, insanın dəyəri bundadır.

Üçüncüsü budur ki, Həzrət İbrahim (ə) Allah-təalanın mərhəmət etdiyi bütün nemətlərinə görə Ona daim şükür edərdi.

شَاكِرًا لِّأَنْعُمِهِ

–Allahın nemətlərinə şükür edən idi.[36]

Dördüncü xüsusiyyəti Həzrət İbrahimin (ə) həmişə doğru danışan bir insan olması idi.

وَاذْكُرْ فِي الْكِتَابِ إِبْرَاهِيمَ إِنَّهُ كَانَ صِدِّيقًا

–Və bu kitabda İbrahimi xatırla ki, o, çox doğru danışan idi.[37]

Siddiq o şəxsə deyilir ki, ağzından bircə kəlmə də olsa yalan çıxmasın.

Beşinci xüsusiyyəti Həzrət İbrahimin (ə) səbirli və ürəyi yanan bir insan olması idi.

إِنَّ إِبْرَاهِيمَ لَحَلِيمٌ أَوَّاهٌ

–Doğrudan da İbrahim çox həlim və camaata ürəyi yanan, dərindən ah çəkən idi.[38]

"أَوَّاهٌ" – "ürəyi yanan" və "mehriban" insana deyilir.

Həzrət İbrahimin (ə) altıncı xüsusiyyəti "مُّنِيبٌ", yəni həmişə Allaha təvəkkül edən bir insan olmasıydı.

Allah-təala Həzrət İbrahimin (ə) əxlaqi xüsusiyyətlərini bəyan etdikdən sonra buyurur:

وَاتَّخَذَ اللّهُ إِبْرَاهِيمَ خَلِيلاً

–Allah İbrahimi (Özünə) dost seçmişdir.[39]

Allah yer üzündə İbrahimi (ə) dost kimi qəbul etdi.

---

[36] Nəhl surəsi, 121-ci ayə.
[37] Məryəm surəsi, 41-ci ayə.
[38] Hud surəsi, 75-ci ayə.
[39] Nisa surəsi, 125-ci ayə.

Bir gün Həzrət İbrahim (ə) evinin qapısını açıb içəri daxil oldu. Həyətdə cavan və xoşsima bir oğlanın gəzişdiyini gördükdə çox təəccübləndi. Oğlanın yanına gəlib soruşdu: “Mənim həyətimə girməyə sənə kim icazə verib?” Oğlan dedi: “Mənə ev sahibi icazə verib.” Həzrət İbrahim (ə) öz-özünə fikirləşdi ki, ev sahibi mənəmsə, mən bu adama icazə verməmişəm. Yenə də oğlandan kimin icazəsi ilə həyətə girdiyini soruşduqda oğlan təkrarən həmin cavabı verdi: “Mənə ev sahibi icazə verib.”

Həzrət İbrahim (ə) üçüncü dəfə soruşmaq istədikdə başa düşdü ki, həmin oğlan Allahın əziz mələyi cənab Cəbrayıldır (ə). Dedi: “Cəbrayıl, xoş gəlmisən. Ev Allahındır, ev sahibi də Odur. Lakin bu dəfə gəlməkdə məqsədin nədir?” Cəbrayıl (ə) dedi: “Ya İbrahim(ə), Allah-təala yer üzündə özünə bir nəfəri dost seçib.” Həzrət İbrahim (ə) dedi: “Cəbrayıl, Allahın dostu kimdir? Onu mənə tanıtdır, mən də gedim ömrümün axırına qədər onun qulluğunda olum və ona xidmət edim.” Cəbrayıl (ə) dedi: “Ya İbrahim, Allah səni özünə dost seçmişdir.” Həzrət İbrahim Peyğəmbərin (ə) Allaha olan məhəbbəti hamıdan çox olduğuna görə Allah onu özü üçün dost seçdi.

Allah-təala Öz dostlarına yardım edər, onları qoruyar və hidayət edər. Tarixə diqqət yetirdikdə Həzrət İbrahimin (ə) həyatı boyu Allah-təala tərəfindən dəfələrlə necə qorunduğunu görürük. Onun həyat yoldaşı Sara xanım belə nəql edir: “Bir gün Həzrət İbrahim (ə) evdə un olmadığı üçün bir qab götürüb misirli[40] dostunun yanına getdi. İstəyirdi ki, ondan un alsın. Dostunun evi çox uzaqda idi. Lakin onu tapa bilməyib axşam evə əliboş qayıdır. Yolda “əliboş evə necə qayıdım?” – deyə düşünür və əlindəki qabı qumla doldurur. Evə gəlib çatanda görür ki, artıq yoldaşı yatıb. Qabı bir kənara qoyub həyat yoldaşı oyanmasın deyə yavaş-yavaş yerinə girib yatır. Səhər yuxudan oyananda evdən gözəl çörək ətrinin gəldiyini hiss edir. Həyat yoldaşından “bu çörəyi haradan gətirmisən, nə ilə bişirmisən?”

[40] Həzrət İbrahim (ə) gah Şamın Dəməşq şəhərində, gah da Misirdə yaşayırdı.

– deyə soruşur. Sara xanım onun cavabında deyir: “Misirli dostunun sənə verdiyi undan bişirmişəm.”

Burada Həzrət İbrahim (ə) çox gözəl bir söz deyir:

اِنَّهُ خَلِيلِي وَ لكِنْ لَيْسَ بِمِصْرِي

–Həqiqətən, O, mənim dostumdur, lakin misirli deyil.

Allah-təala Həzrət İbrahimi (ə) peyğəmbərlik məqamından əlavə, həm də imamət məqamına təyin etmək istəyirdi. Bu dəfə onu başqa yollarla imtahana çəkdi. Ona imamət məqamı verilməsi üçün bu imtahanlardan da keçməliydi. Allah-təala onu müxtəlif imtahanlarla sınağa çəkdi. Nümunə üçün bir neçəsinə diqqət yetirək.

1. Birincisi, Allah-təala onu malı ilə imtahan etdi.

Günlərin birində Həzrət İbrahim (ə) çöldə qoyun otararkən Cəbrayıl (ə) insan surətində onun yolu üstündə əyləşib Allaha zikr etməyə başlayır. Həzrət İbrahim (ə) ora yaxınlaşdıqda Cəbrayıl (ə) deyir: “Sübbuhun Quddus.” (“Allah pak və məsumdur”.) Həzrət İbrahim (ə) ondan soruşur: “Sən kimsən?” Cəbrayıl (ə) deyir: “Allah bəndəsi.” Həzrət İbrahim (ə) deyir: “Sənə o sözləri kim öyrədib?” Cəbrayıl (ə) deyir: “Öyrənmişəm.” Həzrət İbrahim (ə) deyir: “O sözlər mənim məşuqumun, dostumun adlarıdır. Onları bir də təkrar etmək olarmı?”

Cəbrayıl (ə) deyir: “Xeyr.” Həzrət İbrahim (ə) deyir: “Nə üçün?” Cəbrayıl (ə) deyir: “Qoyunlarının üçdə bir hissəsini ver mənə, deyim.” Həzrət İbrahim (ə) qoyunlarının üçdə birini ona verib həmin sözləri təkrar söyləməyi istəyir. Cəbrayıl (ə) qoyunların üçdə birini alıb bir dəfə də “Sübbuhun Quddus” deyir. Həzrət İbrahim (ə) deyir: “O sözləri bir də təkrar edə bilərsənmi?” Cəbrayıl (ə) deyir: “Qoyunlarının yarısını mənə ver, deyim.” Həzrət İbrahim (ə) qoyunların yarısını da verdi. Cəbrayıl (ə) o sözləri bir də təkrar etdi. Həzrət İbrahim (ə) dedi: “Bir də təkrar edə bilərsənmi?” Cəbrayıl (ə) dedi: “Qoyunların hamısını mənə versən, deyərəm.” Həzrət İbrahim (ə) dedi: “Qoyunların hamısı sənin. Amma o sözləri bir də təkrar et.” Bu zaman Cəbrayıl (ə) dedi: “Ey İbrahim, mən Cəbrayılam. Allah məni səni imtahan etmək üçün göndərib.”

İmamət məqamı çox yüksək bir məqamdır ki, elə-belə hər adama, hər ağsaqqala verilməz. Bu cür məsələlər saqqalın ağlığı və qaralığı ilə, yaxud yaşın azlığı və ya çox olması ilə ölçülmür.

2. İkincisi, Allah-təala onu canı ilə imtahan etdi. Nəmrudun göstərişi ilə neçə ay odun toplayıb böyük bir tonqal qaladılar. O qədər böyük tonqal qalamışdılar ki, ona yaxın durmaq olmurdu. Həzrət İbrahimi (ə) mancanağa qoyub atəşin içinə atmaq istəyəndə Cəbrayil (ə) nazil olub dedi: "İbrahim, sənin köməyə ehtiyacın varmı?" Sənə nə kömək edim, mənə aid nə qulluğun var?"

Həzrət İbrahim (ə) buyurdu:

أَمَّا إِلَيْكَ فَلَا. عِلْمُهُ بِحالي حَسْبِيَ عَنْ مَقَالِي

–Sənə heç bir ehtiyacım yoxdur. Onun mənim halımdan xəbərdar olması mənə bəs edər, mənim bir söz deməyimə ehtiyac qalmır.

Allahıma ehtiyacım var, sənə yox. Allahımın mənim halımdan xəbərdar olması mənə yetər. Allahım mənim bu halıma razı olduğu üçün mən də razıyam.

Beləliklə, onu tonqalın içinə atdılar. Allah-təala Quranda buyurur:

قُلْنَا يَا نَارُ كُونِي بَرْدًا وَسَلَامًا عَلَى إِبْرَاهِيمَ

– (Biz oda) buyurduq: "Ey od, İbrahimə soyuq və zərərsiz ol!"[41]

İmam Sadiq (ə) buyurub: "Tonqalın içində İbrahimin (ə) ətrafında güllər bitdi."

Nəmrud ailəsi ilə birlikdə sarayın eyvanından bu hadisəyə tamaşa edirdi. Nəmrudun doqquz yaşlı kiçik bir qızı var idi, o da bu hadisəni müşahidə edirdi. Nəmrud İbrahimin kim olduğunu yaxşı bilirdi, lakin qız onu tanımırdı. Qız elə düşünürdü ki, Həzrət İbrahim (ə) xain və ya cinayətkar olduğuna görə onu məhkum edirlər. Qız baxıb gördü ki, Həzrət İbrahim (ə) tonqalın içində yanmır. Yerindən uca səslə qışqıraraq soruşdu: "Ey İbrahim, sən nə dedin ki, atəş səni yandırmadı?" İbrahim (ə) buyurdu:

[41] Ənbiya surəsi, 69-cu ayə.

مَنْ قَالَ بِسْمِ اللَّهِ الرَّحْمنِ الرَّحِيمِ وَ دَخَلَ نَارَ لَا يُحْرِقُهُ النَّار

–Kim Bismillahir-Rəhmanir-Rəhim desə və atəşə daxil olsa, od onu yandırmaz.

Qız sarayın eyvanından aşağı enib qaça-qaça gəlib atəşin yanında dayandı və “Bismillahir-Rəhmanir-Rəhim” – deyib tonqalın içinə daxil oldu və gedib Həzrət İbrahimin (ə) yanında əyləşdi. İllər keçdikdən sonra Həzrət İbrahim (ə) həmin qızı öz oğlu üçün aldı. Onların nəslindən bir neçə peyğəmbər dünyaya gəldi.

3. Allah-təala Həzrət İbrahimi (ə) övladı ilə imtahan etdi. Allah-təala Həzrət İbrahimi (ə) yenə də imtahana çəkmək istədi, lakin bu dəfə imtahan çox çətin idi. Allah-təala “Saffat” surəsinin 101-ci ayəsindən 109-cu ayəsinə qədər olan ayələrdə bu barədə söz açmışdır.

فَبَشَّرْنَاهُ بِغُلَامٍ حَلِيمٍ

–Beləliklə, Biz onu həlim bir oğlan uşağı (İsmayıl) ilə müjdələdik.

Həzrət İbrahimin (ə) 90, həyat yoldaşının isə 70-dən çox yaşı var idi. Bu müddət ərzində Allah-təala onlara övlad verməmişdi. Sara xanımın Hacər adlı bir kənizi var idi. O, Həzrət İbrahimin (ə) övladı olmadığını, amma övlad arzusunda olduğunu bildiyi üçün Hacəri ona bağışladı. Bəzi hədislərdə belə nəql olunur ki, Həzrət İbrahim (ə) onun xahişi ilə Hacərlə evləndi. Bəziləri də yazırlar ki, bu iş Saranın öz istəyi ilə baş tutdu. Beləliklə, onlar ailə qurdular və Allah-təala onlara İsmayıl (ə) adlı bir övlad verdi. Bu övlad dünyaya gələndən sonra Sara xanım kədərləndi, lakin heç bir etiraz etmədi. Etiraz etməməsinə baxmayaraq, öz taleyinə görə qüssələnmişdi. Həzrət İbrahim (ə) bunu hiss etdi və işin çətinləşdiyini görüb “İlahi, indi mən nə edim?” – deyə Allahdan soruşdu.

Allah-təala ona onları, yəni Hacər ilə İsmayılı Məkkəyə aparmağı əmr etdi. Allah-təala İbrahimə (ə) yolu göstərməyi isə Cəbrayıla (ə) tapşırdı. Hər dəfə yamyaşıl və mənzərəli bir əraziyə çatanda “Buradır?” – deyə Həzrət İbrahim (ə) soruşurdu. Cəbrayıl (ə) isə “Xeyr, bura deyil”, – deyə cavab verirdi. Nəhayət, ağacı, suyu, yaşıllığı

və heç bir şeyi olmayan dağlıq bir yerə gəlib çatdılar. Su olmadığına görə hətta orada quşlar da yox idi. Cənab Cəbrayıl (ə) dedi: "Buradır."

Həzrət İbrahim (ə) Hacəri və övladını orada qoyub getməli idi. Sara ona tapşırmışdı ki, onları harada tərk etsən, tez qayıt və gərək atından yerə düşməyəsən. Həzrət İbrahim (ə) onları orada qoyub qayıtmaq istəyəndə Hacər dedi: "Bizi burada kimə tapşırıb gedirsən?" Həzrət İbrahim (ə) buyurdu: "Sizi burada, Allahın əmin-aman bir yerində qoyub getməyimə dair mənə göstəriş verən Allaha tapşırıb gedirəm. Sizi qorumağı O, çox yaxşı bilir. Mənə 90 yaşımda bu uşağı əta edənin Özü onu qorumağı da yaxşı bilir.

Həzrət İbrahim (ə) atından yerə düşmədən evinə qayıtdı. Onlardan bir az aralandıqdan sonra qəlbi kövrəldi və dönüb arxaya, onlara baxdı. Gördü ki, Hacər də həsrətlə onun dalınca baxmaqdadır. Həzrət İbrahim (ə) elə o haldaca Allaha belə dua etdi.

رَّبَّنَا إِنِّي أَسْكَنتُ مِن ذُرِّيَّتِي بِوَادٍ غَيْرِ ذِي زَرْعٍ عِندَ بَيْتِكَ الْمُحَرَّمِ رَبَّنَا لِيُقِيمُواْ الصَّلاَةَ

فَاجْعَلْ أَفْئِدَةً مِّنَ النَّاسِ تَهْوِي إِلَيْهِمْ وَارْزُقْهُم مِّنَ الثَّمَرَاتِ

–Ey Rəbbimiz, həqiqətən, mən övladlarımdan bəzisini (İsmayılı anası ilə birgə) Sənin möhtərəm və toxunulmaz evinin yanında, əkinsiz bir dərədə məskunlaşdırdım ki, namaz qılsınlar. Buna görə də elə et ki, insanların bir qisminin qəlbi onlara meyl etsin. Və müxtəlif məhsullardan onlara ruzi ver.[42]

Həzrət İbrahimin (ə) duasının nəticəsidir ki, bu gün bütün dünya müsəlmanlarının qəlbləri Ərəfata, Minaya, Məkkəyə və Məscidül-Hərama bağlıdır.

Həzrət İbrahim (ə) bu duanı edib yoluna düzəldi. Hacərlə uşaq həmin çöldə tək-tənha qaldılar. Hacərin yanında bir parça var idi. O, həmin parçanı bir taxtanın üstünə salaraq özləri üçün kölgəlik düzəltdi və onun altında oturdular. Bir az kölgəlikdə oturduqdan sonra həm özü, həm də uşaq acdılar. Susuzluq da bir tərəfdən onları

---

[42] İbrahim surəsi, 37-ci ayə.

əldən salmışdı. Hacər Səfa dağının üstünə çıxıb ətrafa göz gəzdirdi, lakin gözünə bir şey dəymədi. Uzaqdan gözünə ilğım kimi su görsənirdi. Yavaş-yavaş ona yaxınlaşanda orada heç bir şeyin olmadığını gördü. Beləliklə, gəlib Mərvə dağına çatdı. Dönüb arxaya baxanda yenə də gözünə su görsəndi. Qayıdıb həmin yerə gələndə yenə də orada suyun olmadığını gördü. Bu minvalla yeddi dəfə iki dağın arasında get-gəl elədi. Hacər "Ey insanlar! Burada bir canlı varmı?" – deyə ucadan səsləndi. Lakin onun səsinə səs verən yox idi. Uşağın yanına qayıtdı və gördü ki, uşaq ayağını o qədər yerə vurub ki, yerdən su çıxıb.

Bu gün Məkkədə hacıların içdiyi zəmzəm suyu həmin sudur. Həzrət İbrahimin (ə) dövründən[43] bu günə kimi hələ o bulaq qurumayıb. Həmin suyun yerdən çıxmasının üstündən təxminən 3000 il ötməsinə baxmayaraq, hələ də insanlar o sudan istifadə edirlər. İlk gündən necə gəlirdisə, yenə də əvvəlki kimi axmaqdadır.

Yerdən su çıxandan sonra yavaş-yavaş həmin yerə quşlar gəlməyə başladı. Tədricən yoldan ötən bəzi insanlar da gəlib onlara qoşuldular və onların yanında oturdular. Beləcə, yavaş-yavaş insanlar həmin suyun ətrafına yığıldılar. Həzrət İbrahim (ə) isə Allah-təalanın izni ilə arada bir gəlib onlara baş çəkir və yenidən qayıdırdı. Bir dəfə də Həzrət (ə) onların yanına gəlmək istəyəndə bir yuxu gördü. O gün zilhəccə ayının səkkizinci gününə təsadüf edirdi. Qurani-kərim onun yuxusunu belə bəyan edir:

فَلَمَّا بَلَغَ مَعَهُ السَّعْيَ قَالَ يَا بُنَيَّ إِنِّي أَرَى فِي الْمَنَامِ

–Oğlu onunla birlikdə işləmək və çalışmaq həddinə çatanda (İbrahim) dedi: "Əziz oğlum! Mən yuxuda hey görürəm ki..."

O dövrdə İsmayılın (ə) təxminən 13 yaşı var idi. Allah-təala yuxuda Həzrət İbrahimə (ə) buyurdu ki, "İbrahim, oğlunun başını kəs!" Həzrət İbrahim (ə) yuxudan oyandı və bunun Allahın bir əmri

---

[43] İbrahim (ə) İslam Peyğəmbərinin (s) 30-cu babasıdır. Yəni Peyğəmbərimiz (s) İbrahimin (ə) 30-cu nəvəsidir.

olduğunu başa düşdü. Çünki peyğəmbərlərin yuxuları yalan yuxu olmaz. Peyğəmbərlərlə adi insanların fərqlərindən biri də budur ki, onların gördükləri yuxular sadiq yuxular sayılır.

O günün axşamı, yəni Ərəfə gecəsi (zilhəccə ayının 8-də) Həzrət İbrahim (ə) həmin yuxunu təkrar gördü. Üçüncü gecə, yəni Qurban bayramının gecəsi (9-cu gün) yenə də həmin yuxunu təkrar gördü. Artıq heç bir şübhə qalmamışdı. Həzrət İbrahim (ə) oğlu ilə bu barədə söhbət etdi.

قَالَ يَا بُنَيَّ إِنِّي أَرَى فِي الْمَنَامِ أَنِّي أَذْبَحُكَ فَانظُرْ مَاذَا تَرَى قَالَ يَا أَبَتِ افْعَلْ مَا تُؤْمَرُ سَتَجِدُنِي إِن شَاء اللَّهُ مِنَ الصَّابِرِينَ

–(İbrahim) dedi: "Əziz oğlum! Mən yuxuda hey görürəm ki, sənin başını kəsirəm (boğazına bıçaq çəkirəm). Bəs sənin nəzərin nədir?" İsmayıl (ə) dedi: "Ey ata! Sənə əmr ediləni yerinə yetir. Allahın istəyi ilə məni səbirlilərdən görəcəksən!"

Həzrət İbrahim (ə) yuxusunu oğluna danışdıqdan sonra İsmayıl (ə) dedi: "Allah sənə nə əmr edibsə, onu da yerinə yetir. Lakin mənim səndən bir neçə xahişim var. (İsmayıl (ə) atasından beş şeyi xahiş etdi.) Onlardan biri budur ki, mənim əl-qolumu möhkəm bağlayarsan. Həm sənin işin rahat olar, həm də mən əl-qol atmaram. Yoxsa savabım azalar. İkincisi budur ki, bıçağı çox iti elə. Həm sənin işin asan olsun və həm də mən tez rahat olum. Üçüncüsü budur ki, başımı kəsəndə məni üzü üstə yerə uzadarsan. Qoy gözüm gözünü görməsin və sənin atalıq məhəbbətin coşmasın. Yoxsa mənə olan məhəbbətin bu işə mane olar. Dördüncüsü budur ki, köynəyi çıxart[44], qoy anam qan görməsin. Anam görsə, bu hala dözə bilməz. Beşincisi budur ki, mənim köynəyimi aparıb anama verərsən. O, darıxanda onu iyləyib ürəyi sakitləşər."

---

[44] İsmayılın (ə) "köynəyi çıxart" deyərkən kimi nəzərdə tutduğu hədislərdə qeyd olunmayıb.

Həzrət İbrahim (ə) onun qollarını bərk bağlayıb bıçağı itilədi və İsmayılı (ə) üzü üstə yerə uzadaraq başını kəsmək istədi. Qurani-kərim bu hadisəni belə nəql edir:

فَلَمَّا أَسْلَمَا وَتَلَّهُ لِلْجَبِينِ

–Beləliklə elə ki, onların hər ikisi (Allahın əmrinə) təslim oldular və o, oğlunu üzü üstə yerə yıxdı.

Həzrət İbrahim (ə) bıçağı oğlunun boğazına çəkib kəsmək istədikdə Cəbrayıl (ə) barmağı ilə bıçağı geri qaytarırdı. Həzrət İbrahim (ə) bıçağı onun boğazına çəkdikcə Cəbrayıl (ə) bıçağı geri qaytarırdı. İndiki "Xif" məscidinin[45] yerləşdiyi yerdən səs gəldi:

وَنَادَيْنَاهُ أَنْ يَا إِبْرَاهِيمُ قَدْ صَدَّقْتَ الرُّؤْيَا

–Biz ona xitab etdik ki: "Ey İbrahim! Həqiqətən, sən yuxunu həyata keçirdin."

Sonra Allah-təala buyurur:

وَفَدَيْنَاهُ بِذِبْحٍ عَظِيمٍ

–Və Biz ona böyük bir qurbanlıq fəda etdik.

Burada"عَظِيمٍ" kəlməsində məqsəd bir ehtimala əsasən budur ki, qoyun çox böyük idi. Bu kəlmənin digər mənası odur ki, Həzrət İbrahim (ə) bu işi ixlasla gördüyünə görə çox böyük bir iş görmüşdür və belə bir iş həmişə davamiyyətli olar. Bir mənası da budur ki, o bir qoyun bu gün gör neçə milyon qoyuna çevrilib?!

Cəbrayıl (ə) qoyunu gətirdi, Həzrət İbrahim (ə) İsmayılın (ə) qollarını açdı və həmin qoyunu kəsəndən sonra Cəbrayıl (ə) Həzrət İbrahimin (ə) verdiyi imtahana təəccüb edərək səsləndi: "Allahu Əkbər, Allahu Əkbər, Allahu Əkbər!" İsmayıl (ə) bunu eşidib səsləndi: "La ilahə illəllahu vallahu əkbər!" Sonra Həzrət İbrahim (ə) səsləndi: "Allahu Əkbər vəlillahil-həmdu əla ma hədana."

---

45 Xif məscidi Məkkə şəhərində, Minada yerləşir. Orada iki rükət namaz qılmağın çox savabı vardır.

Onların söylədiyi bu təkbir və zikrlər hazırda bütün müsəlmanların Qurban və Fitr bayramında zikr etdikləri müstəhəb əməllərdən sayılır.

Həzrət İbrahim (ə) bu imtahandan keçəndən sonra Allah-təala onu imamət məqamına seçdi və ona iki mükafat verdi. Onlardan biri budur ki: وَتَرَكْنَا عَلَيْهِ فِي الْآخِرِينَ

–Ondan sonrakı ümmətlərin arasında (tövhidə dəvət, şirk ilə mübarizə mücahidi, böyük fədakar və yeni kitab və şəriət sahibi kimi) yaxşı ad qoyduq.

Allah-təala buyurur ki, onun bu əməlini yaddan çıxmağa qoymayacağam və bu hadisəni İslam hərəkatlarına çevirəcəyəm. Həccə getməyi vacib edəcəyəm. Hər kəs əgər həccə getsə və Minada qurban kəsməsə, həcci batildir. Bunlar hamısı Həzrət İbrahimin (ə), İsmayılın (ə) və o imtahanın şərəfinədir. Allah o imtahanı əbədiləşdirdi və yaddaşlardan çıxmasına imkan verməyəcək.

Haram pul ilə Məkkəyə getmək həcci batil etməz. Məsələn, təyyarəyə və yaxud maşına haram pul verib həccə getmək həccin əməllərini batil etməz. Həmçinin orada haram pulla yemək yemək həccin əməllərinin pozulmasına səbəb olmaz. Əlbəttə, bu o demək deyil ki, haram pulla nəsə alıb yesə, eybi yoxdur. Haram elə haram olaraq qalır. Lakin haram pul iki yerdə həcci batil edər. Birincisi, əgər kəsilən qurbanlığın pulu haram olsa, həmin şəxsin həcci batil olar. İkincisi isə ehramın puludur. Həcc ziyarətini həyata keçirmək üçün bağlanılan ehramın pulu haram olsa, həmin həcc batil olar. Başqa libasların pulu əgər haram puldan olsa, haramlığı öz yerində qalır, lakin həcci batil etmir.

Allah-təala demək istəyir ki, bu imtahanı Mən dini ənənə kimi qoruyub saxlayacağam. Hacılar hər il bu əməli təkrar etməlidirlər.

Allahın Həzrət İbrahimə (ə) verdiyi ikinci mükafat isə odur ki:

سَلَامٌ عَلَى إِبْرَاهِيمَ

–Salam olsun İbrahimə!

Allahın insana salam verməsi nə gözəl bir mükafatdır?! Həzrət İbrahim (ə) oğlunu qurbangaha aparanda və şeytan bu əzəmətli imtahanı gördükdə bildi ki, əlindən heç bir iş gəlməyəcəkdir. Əvvəlcə Hacərin yanına gedib dedi: "Heç bilirsənmi uşağı hara aparır? Başını kəsməyə aparır." Hacər dedi: "O, çox mehriban atadır, heç bir vaxt uşağın başını kəsməz." Şeytan dedi: "Axı, İbrahim deyir ki, bunu Allahım mənə əmr etmişdir." Hacər dedi: "Əgər Allah əmr etmişdirsə, gərək itaət olunsun."

Şeytan gördü ki, hiyləsi baş tutmayacaq. Odur ki, Həzrət İsmayılın (ə) yanına gəlib dedi: "Heç bilirsənmi atan səni hara aparır? Sənin başını kəsmək istəyir." İsmayıl (ə) buyurdu: "O, mənim atamdır, mən ondan belə bir iş görməmişəm." Şeytan dedi: "Allahın əmrini yerinə yetirdiyini deyir." İsmayıl (ə) buyurdu: "Əgər Allah əmr etmişdirsə, gərək yerinə yetirilsin. Buna görə də qüssələnməyə gərək yoxdur."

Şeytan gördü ki, bu dəfə də hiyləsi baş tutmadı. Həzrət İbrahimin (ə) yanına gəldi. Həzrət İbrahim (ə) Müzdəlifədə idi. Şeytanı görüb oradan uzaqlaşdı. Şeytan da onun arxasınca düşdü. Gəlib Minada cəmarata çatdılar. Hər il hacıların həcc ziyarəti zamanı daş atdıqları divarlara "cəmərə" deyilir. Həmin cəmərənin birincisi kiçik cəmərə, ikincisi orta cəmərə və üçüncüsü  əqəbə cəmərəsi adlanır. Gəlib birincisinin yanına çatanda şeytan onları vəsvəsə etmək istədikdə Həzrət İbrahim (ə) ona yeddi dənə daş atdı. İkinci cəmərəyə çatanda şeytan yenidən gəldi və Həzrət İbrahim (ə) yenə də ona yeddi daş atdı. Üçüncüsünə çatanda şeytan bu dəfə də gəldi və Həzrət İbrahim (ə) yenə ona yeddi daş atdı. Bu dəfə şeytan məyus oldu və qayıdıb getdi.

Elə buna görə də hacılar hər il Məkkəyə gedəndə elə ki, Müzdəlifədən keçib Minaya daxil olurlar, gərək birincisi gedib şeytana daş atsınlar. Hacılar birincisi gərək şeytanı özlərindən uzaqlaşdırsınlar. Həccdə şeytanı özündən uzaqlaşdıran və onunla savaşıb gələn hər bir kəsə hacı deyərlər. Orada hər bir hacıya 49 dənə daş atmaq vacibdir. Qurban günü 7 dənə, sabahısı gün 21 dənə və o birisi gün də 21 dənə daş atmaq gərəkdir. Hacılar şeytana daş atdıqdan sonra qurbanlıqlarını kəsmək üçün qurbangaha gəlirlər.

Qurbanlarını kəsəndən sonra gəlib başlarını keçəl qırxdırırlar. İlk dəfə həccə gedənlər gərək başlarını keçəl qırxdırsınlar. Təkrar həccə gedənlər isə saçlarından bir miqdar kəsib götürsələr kifayət edər.

Əgər həccdə daş atsan, qurban kəssən və Həzrət İbrahimin (ə) tarixini yaşatsan, Allah-təala sənin bütün istəklərini qəbul edər. Həzrət Peyğəmbər (s) buyurur ki, təqvanın mənası elə budur. Allah-təala "Həcc" surəsinin 37-ci ayəsində belə buyurur:

لَن يَنَالَ اللَّهَ لُحُومُهَا وَلَا دِمَاؤُهَا وَلَٰكِن يَنَالُهُ التَّقْوَىٰ مِنكُمْ

–Allaha əsla onların əti və qanları çatmaz, əksinə Ona sizin tərəfinizdən (qəlb və batində olan) təqva çatar.[46]

Qurbanlığı kəsməklə iş bitmir. Qurbanlığı kəsəndən sonra pislikləri özündən uzaqlaşdırmaq lazımdır. Şeytana daş atmağın və Həcərül-əsvədə əl çəkməyin mənası budur ki, qayıdanda Allahın sözünə qulaq asacağam.

Hədislərdə belə nəql olunur ki, Həcərül-əsvəd yer üzündə "Allahın əli"dir. Hacılar Həcərül-əsvədə əlini çəkəndə sanki əllərini Allahın əlinə çəkirlər və Allaha söz verirlər ki, qayıdanda Sənin sözünə qulaq asacağam.

Hədislərdə belə nəql olunur ki, insan Minada başını qırxaraq Kəbədə təvaf edəndən sonra bir dəstə mələk gəlib əllərini onun çiyninə vurur və onu "Hacı" deyə səsləyir. Lakin hacılar bunu görmürlər. Mələklər deyərlər: "Hacı, hazırda anadan dünyaya gəldiyin kimisən, heç bir günahın yoxdur. Nə günahın var idisə, hamısı bağışlanıb."

Həccin bir nuru vardır ki, insanın qəlbində və üzündə yaranır. Hədislərdə belə nəql olunur ki, insan günah etməyənə qədər həmin nur onun qəlbində və üzündə qalar. Günah etdikdə isə o nur aradan gedər. İnsan var ki, o nuru özü ilə qəbrədək aparır və həmin nur da onu cənnətə çatdırır.

Elə buna görə də Allah-təala Həzrət İbrahimi (ə) bizə nümunə kimi təqdim etmişdir və bütün insanlardan onun tarixini oxumağı tələb edir. Ondan örnək almaq lazımdır.

---

[46] Həcc surəsi, 37-ci ayə.

# NOVRUZ BAYRAMI

بِسْمِ اللهِ الرَّحْمَنِ الرَّحِيمِ. الْحَمْدُ لِلَّهِ عَلَى مَا عَرَّفَنَا مِنْ نَفْسِهِ، وَ أَلْهَمَنَا مِنْ شُكْرِهِ، وَ فَتَحَ لَنَا مِنْ أَبْوَابِ الْعِلْمِ بِرُبُوبِيَّتِهِ، وَ دَلَّنَا عَلَيْهِ مِنَ الْإِخْلَاصِ لَهُ فِي تَوْحِيدِهِ، وَ جَنَّبَنَا مِنَ الْإِلْحَادِ وَ الشَّكِّ فِي أَمْرِهِ. والصَّلاةُ والسَّلامُ على عَبدِهِ وَرَسُولِه البشيرِ النَّذيرِ، السِّراج المنيرِ، سَيِّدِ الأنبياءِ وَالْمُرسَلِين مُحَمَّد وَ آلِهِ الْأَئِمَّةِ الأَطيَبِينَ الأَطهَرِين. اَللّهُمَّ عَجِّل فَرَجَهُم وَانصُر شِيعَتَهُم وَاَهلِك اَعدائَهُم مِنَ الاَوَّلِينَ وَالآخِرين. آمِينَ رَبَّ العَالَمِين.

Bəşər tarixində iki böyük hadisə xalqların, millətlərin tarixinin başlanğıcını müəyyən etmişdir. Onlardan bir Həzrət İsa Məsihin (ə) mövlududur ki, miladi təqvini onun doğum günündən hesablanır. İkincisi isə İslam Peyğəmbərinin (s) Məkkədən Mədinəyə hicrət etdiyi tarixi bir gündür ki, hicri qəməri və hicri şəmsi təqvimi həmin gündən hesablanmağa başlanılmışdır. Hicri təqvimi, ümumiyyətlə, müsəlmanların tarixini müəyyənləşdirir. Şəmsi ili qəməri ilindən il ərzində 10-11 gün çox olduğundan bir-biri ilə fərqlənirlər. Şəriət hökmləri qəməri tarixi ilə müəyyən olunmuşdur. Yəni ibadətlər, insanın həddi-büluğa çatması, namazın və orucun vacib olması qəməri tarixi ilə hesablanır. Bu məsələlərin hicri şəmsi və yaxud miladi ilinə heç bir aidiyyəti yoxdur. Lakin ilin fəsilləri isə günəş ili ilə müəyyən olunur. Bahar ilk fəsil olduğundan Novruz bayramı da ilin ilk günü sayılır. Sonra üç ay yay, üç ay payız və üç ay qış fəsli olur. Beləcə, fəsillər günəş ili ilə müəyyən edilir.

Novruz bayramı günəş ilinin birinci və baharın ilk günüdür. “Novruz” sözünün fars dilində mənası “yeni gün” deməkdir. Bəs, “yeni gün” nə deməkdir? Allahın günlərinin, həftə, ay və illərinin yenisi-köhnəsi yoxdur. Allahın bütün günləri yenidir. Bəs, sual oluna bilər ki, hansı günə yeni gün demək olar? Günün yeniliyi nədən asılıdır ki, ona yeni gün deyilir? Cavabı belədir ki, hər hansı bir gündə yeni, böyük və əzəmətli bir hadisə baş verərsə, o günə yeni gün deyilər. Eramızdan əvvəl, miladi və hicri tarixlərindən qabaq Təhmurisin oğlu Cəmşid taxta çıxdığı günü “yeni gün” adlandırdı. Həmin gün Cəmşid üçün yeni gün hesab olunurdu. Novruzun tarixi də

həmin gündən başlanır. Amma Novruzu təkcə onun adı ilə bağlamaq olmaz. Çünki Cəmşiddən qabaq və sonralar da tarixdə həmin gündə bir çox hadisələr baş vermişdir. Burada çox yaxşı olar ki, həmin hadisələrdən bir neçəsini diqqətinizə çatdırım.

Hədislərdə belə nəql olunur ki, Allah-təala Həzrət Adəmi (ə) yaratdığı gün baharın ilk günü idi.

Həmçinin Həzrət Nuhun (ə) gəmisinin Cudi dağına söykənib dayanması baharın birinci gününə təsadüf etmişdir.

Həzrət İbrahimin (ə) bütləri sındırdığı gün baharın ilk günü idi.

Ğədir-Xumda Həzrət Peyğəmbərin (s) Həzrət Əlinin (ə) əlindən tutaraq yuxarı qaldırıb onu özünə canişin təyin etdiyi gün də baharın ilk gününə təsadüf etmişdi.

Hədislərə əsasən, İmam Mehdinin (ə.c) zühuru da Novruz bayramı gününə təsadüf edəcəkdir.

Odur ki, Novruz bayramının tarixi min illər bundan öncə yaranmışdır ki, farsların da yeni il təqvimi həmin gündən, yəni Təhmurisin oğlu Cəmşidin taxta çıxdığı gündən hesablanır. Əlbəttə, Novruz bayramı İslamdan əvvəl baş vermiş tarixi bir hadisədir. Amma bizim üçün hansı hadisəyə əsasən Novruz bayramının yaranması əsas deyil. Bizi maraqlandıran ən əsas məsələ bütövlükdə İslamın Novruza münasibətidir.

## İslamda Novruz

Ümumiyyətlə, İslam ehkamları iki qismə bölünür ki, birinci qismə İslam dininin özü ilə bərabər gətirdiyi ehkamlardır. Yəni bu ehkamlar İslamdan öncə mövcud deyildi. Məsələn, namaz İslam dininin gətirdiyi ehkamlardan biridir. Keçmiş peyğəmbərlərin zamanında da namaz var idi, amma İslamın buyurduğu kimi, on yeddi rükət gündəlik vacib namazlar deyildi. Əvvəllər hicab məsələsi də İslam dininin tələb etdiyi hicabı xatırlatmırdı. Həmçinin təyəmmüm, qüsl, dəstəmaz, xüms və bir çox başqa məsələlər də var ki, onları İslam dini yaratmışdır. Buna görə də onlara İslamın yaratdığı hökmlər deyilir.

İkinci qismə isə İslamdan öncə mövcud olan hökmlər daxildir ki, İslam dini həmin hökmləri təsdiqləmişdir. Aydın məsələdir ki, İslamdan öncə də qəbilələr və tayfalar, müxtəlif cəmiyyətlər arasında bir sıra adət-ənənələr mövcud idi. İslam dini zühur etdikdən sonra bütün bu adət-ənənələri təhlil edərək pis adətləri rədd, yaxşı adətləri isə qəbul etdi. Yəni bu adət-ənənələri İslam özü ilə gətirməmişdi. Amma yaxşı adətlər olduğundan onları bəyənib təsdiqlədi.

Novruz bayramı da həmin məsələlərdən biri idi ki, İslam dini sonradan onu qəbul etdi. Lakin burada mühüm bir mətləbə də toxunmaq lazımdır. Həmin mətləb də budur ki, İslam yaxşı adət-ənənələri təsdiqləyərkən onları bir sıra şərtlər əsasında təsdiqləmişdir. İslamın hər hansı bir məsələni bəyənib təsdiq etməsinin üç əsas şərti var idi.

1. Birinci şərt bundan ibarət idi ki, təsdiq olunan hər hansı bir adət-ənənədə xurafat, şirk və dini dəyərlərə zidd heç bir cəhət olmamalıydı;

2. İkinci şərt bundan ibarət idi ki, hər hansı bir adət-ənənədə insanın müstəqilliyini şübhə altına salan hər bir faktor yolverilməz hesab edilirdi. Yəni bu adət-ənənələrdə müsəlmanın əcnəbi və ya biganə ölkələrə bağlılığı olmamalıydı. Müsəlmanın başqa ölkələrlə bağlılığına səbəb olan hər hansı bir məsələni İslam dini qəbul etmir. Amma hər hansı bir adət-ənənə müsəlmanın müstəqilliyini təsdiq edirsə, İslam dini də həmin adət-ənənəni bəyənir. Qiblənin dəyişdirilməsinin səbəblərindən biri də məhz bu məsələ idi. Həzrət Peyğəmbərə (s) demişdilər ki, əgər sənin dinin müstəqildirsə, bəs nə üçün üzünü bizim qibləyə tutub namaz qılırsan? Onların bu sözü Həzrət Peyğəmbəri (s) narahat etdi. Allah-təala Həzrət Peyğəmbərin (s) bu məsələyə görə qəmləndiyini gördükdə “Bəqərə” surəsinin 144-cü ayəsini nazil etdi:

قَدْ نَرَى تَقَلُّبَ وَجْهِكَ فِي السَّمَاء فَلَنُوَلِّيَنَّكَ قِبْلَةً تَرْضَاهَا فَوَلِّ وَجْهَكَ شَطْرَ الْمَسْجِدِ الْحَرَامِ وَحَيْثُ مَا كُنتُمْ فَوَلُّواْ وُجُوِهَكُمْ شَطْرَهُ

–Şübhəsiz, Biz sənin üzünün (bir işin baş verməsini gözləyən adam kimi) göydə o tərəf bu tərəfə çevrilməsini görürük və indi səni

razı qalacağın bir qibləyə tərəf döndəririk. Odur ki, üzünü Məscidül-Hərama tərəf döndər. Harada olsanız, üzünüzü ona tərəf döndərin.

Ona görə də müsəlmanların müstəqilliyini sual altına alan, onların başqalarına bağlılığına səbəb olan hər bir şeyi İslam dini təsdiq etmir.

3. Üçüncü şərt isə budur ki, hər bir adət-ənənədə və görülən işdə mənəvi dəyərlərə xüsusi diqqət yetirilməlidir. Çünki insanın vücudunun bir hissəsi maddiyyatla, digər hissəsi isə mənəviyyatla bağlıdır. Ona görə də insanın maddi cəhətdən qidalanıb, mənəvi cəhətdən ac qalması yolverilməzdir.

Nəticə etibarilə onu qeyd edə bilərik ki, hər hansı bir gün insanlar üçün böyük və əzəmətli hadisə baş verərsə, həmin günü bayram kimi dəyərləndirmək olar. Bayram isə odur ki, insan həmin gün daxilindəki nəfsani qüvvələrə qarşı mübarizədə qələbə çalsın. İnsanın daxilində mövcud olan və daim çəkişməkdə olan ağılla nəfsin mübarizəsində ağıl qalib gəlsin. Bax, elə belə bir gün insanın əsl bayramıdır. Bayram odur ki, insan pak mənəviyyatla təmin olunsun və onun mənəviyyatı daha da güclənsin. Bayram odur ki, insanın aqibəti cənnətlə təmin olunsun.

قَالَ عَلِيٌّ(ع): كُلُّ يَوْمٍ لا يُعْصَى اللهُ فِيهِ فَهُوَ عِيدٌ

–İmam Əli (ə) buyurur: "Hansı gün insan günah etmirsə, həmin gün onun üçün bayramdır."

Süveyd ibn Qəflə deyir: "Bayram günü[47] Həzrət Əlinin (ə) evinə getmişdim. Gördüm ki, o həzrətin süfrəsində bir qədər çörək və bir qab firni var. Ərz etdim: "Ya Əmirəlmöminin, nə üçün sənin süfrən bayram süfrəsinə bənzəmir?" Həzrət Əli (ə) üzünü mənə tutub buyurdu: "İnsanın bağışlandığı gün onun üçün bayramdır." (Yəni bayram o deyil ki, insanın süfrəsi rəngarəng olsun. Əsas odur ki, həmin gün insanın günahları bağışlansın. Əgər bir insanın günahları bağışlanmayıbsa, onun üçün nə bayram?)

[47]Rəvayətdə hansı bayram günü olduğu qeyd edilməyib.

Beləliklə, İslam dini Novruzu bu şərtlərlə təsdiq edir ki, onda xurafat, şirk və İslam dəyərlərinin əleyhinə heç bir cəhət olmasın, insanın günaha batmasına şərait yaratmasın. Belə olduqda Novruzu bayram kimi qeyd etmək olar. Bununla yanaşı, İslam dini insan mənəviyyatının təminatçısı olan bir neçə müstəhəb əməli də Novruz bayramına əlavə etmişdir. Həmin əməllər aşağıdakılardır:

1. Novruz bayramının qüslü ("Qürbətən iləllah" niyyətilə).
2. Baharın ilk günü oruc tutmaq.
3. Dörd rükətdən ibarət xüsusi namaz qılmaq.
4. İlin təhvil olması ilə əlaqədar bu duanı oxumaq:

يَا مُقَلِّبَ الْقُلُوبِ وَ الْأَبْصَارِ يَا مُدَبِّرَ الَّيْلِ وَ الْنَّهَار يَا مُحَوِّلَ الحَوْلِ وَ الْأَحْوَال حَوِّل حَالَنَا بِأَ حْسَنِ الْحَال

–Ey qəlblərin dəyişməsini və gözlərin hərəkətini idarə edən Allah! Ey gecəni gündüzlə ard-arda əvəzləyən Allah! Ey vaxtları və əhvalları dəyişdirən Allah! Bizim halımızı yaxşılığa doğru dəyiş!

Bundan əlavə, İslam dini insanlara bahar fəslindən ibrət almağı tövsiyə edir. Həzrət Peyğəmbər (s) buyurur: "Bahara daxil olduqda məadı (öldükdən sonra diriləcəyinizi) çox xatırlayın."

Sual oluna bilər ki, bəs, Həzrət Peyğəmbər (s) nə üçün bahar fəslində insanlara məadı daha çox xatırlamağı tövsiyə edir? Bu sualın cavabını "Fatir" surəsinin 9-cu ayəsində görmək mümkündür. Allah-təala bu ayədə belə buyurur:

وَاللَّهُ الَّذِي أَرْسَلَ الرِّيَاحَ فَتُثِيرُ سَحَابًا فَسُقْنَاهُ إِلَى بَلَدٍ مَّيِّتٍ فَأَحْيَيْنَا بِهِ الْأَرْضَ بَعْدَ مَوْتِهَا كَذَلِكَ النُّشُورُ

–Buludu hərəkətə gətirən küləkləri göndərən Allahdır, Biz onu (buludu) ölmüş (bitkiləri qurumuş) bir torpağa tərəf sövq etdik və onunla o torpağı öldükdən sonra dirilttdik (müxtəlif bitkilərin toxumlarını cücərtdik). (Qiyamət günü) dirilmə də belədir (torpağın köksündə parçalanıb dağılmış bədənlərin zərrələrini hərəkətə gətirərək, onları bir-birilərilə birləşdirəcək və dirildəcəyik).

Yəni insan ən çox baharın gəlişi zamanı təbiətin dirilib canlanmasının şahidi olur. Qış vaxtı milyardlarla ağac və bitkilərin hamısı ölür. Bahar gəldikdə isə hamısına yenidən can verilir. Eləcə də insanlar öldükdən sonra qiyamət günü Allah-təala onların hamısını yenidən dirildəcəkdir.

Odur ki, baharın gəlişi ilə əlaqədar olaraq insanlar bayram edirlər. Lakin insan bu fürsətdən (təbiətin öldükdən sonra dirilməsindən) ibrət götürüb mənəvi cəhətdən bəhrələnməlidir. Yəni insan özü də öldükdən sonra bir gün diriləcəyini düşünməli və bu dünyada həmin gün üçün tədarük görməlidir. Həzrət Peyğəmbər (s) buyurmuşdur ki, kim dünyanın dəyişilməsindən bəhrələnmirsə, qafil insandır.

Novruz barədə bir mətləbi də diqqətinizə çatdırmaq istərdim. Həmin mətləb də budur ki, İslam dini Novruz bayramına aid olan bəzi adətləri təsdiqləməklə yanaşı, həm də onların yerinə yetirilməsini təkidlə tələb edir. Həmin əməllərdən bəzisini diqqətinizə çatdırıram.

**1. Şadlıq etmək**

İslam dini insanların şad olmasını, xoşbəxtliyini istəyir və möminləri bir-birini təbəssümlə qarşılamağa çağırır. Hədislərdə belə nəql olunur ki, kim yaxşı bir əməllə mömini şad edib qəlbini sevindirsə, qəbrə qoyularkən həmin şadlıq canlandırılmış surətdə onun yanına gələr və qəbri işıqlandırar.

İmam Sadiq (ə) buyurur: “Kim mömininin qəmini aradan qaldırsa və çətinliyini həll etsə, Allah-təala axirət qəmlərini ondan uzaqlaşdırar və qəbirdən rahat qəlblə (şad halda) qaldırar.”[48]

İmam Sadiqdən (ə) belə rəvayət olunur ki, mömin qiyamət günü qəbirdən qalxarkən onunla bir surət də çıxar və hər an mömininin yanındadır. Mömin qiyamət gününün qorxulu səhnələrini görəndə həmin surət deyər: “Qorxma və kədərlənmə…” Beləliklə, hesab-

---

[48] Qəbrin həqiqəti, səh. 44.

kitabdan tez qurtarıb cənnətə daxil olar. Mömin ona deyər: “Sən kimsən?” Surət deyər: “Mən mömin qardaşının qəlbini sevindirdiyin həmin şadlıq və sevincəm.”

Allah-təala bəndələrin qəlbini sevindirən insanı sevər. Belə ki, həmin şəxsin dualarını da qəbul edər. İmam Sadiqin (ə) zamanında yaşayan bir şəxsin Allahdan çox böyük bir hacəti var idi. O, bu problemi həll etmək üçün həmin dövrdə yaşayan böyük övliyaların yanına gedərək neçə-neçə zikr və əməl öyrəndi. Bir müddət həmin zikr və əməllərə riayət etdikdən sonra günlərin birində Allah-təala onun hacətini inayət etdi və çətinliyini aradan qaldırdı. Amma həmin şəxs bilmək istəyirdi ki, hacətinin Allah dərgahında qəbul olunmasına bu zikr və əməllərdən hansı biri səbəb olmuşdur. Buna görə də o, İmam Sadiqin (ə) hüzuruna gəlib məsələni olduğu kimi Həzrətə (ə) danışaraq soruşdu: “Ey Allahın höccəti, düzdür, Allah mənim hacətimi yerinə yetirdi. Amma bilmək istərdim ki, riayət etdiyim bu zikr və əməllərin hansı biri mənim hacətimin yerinə yetirilməsinə səbəb olub.”

İmam (ə) buyurdu: “Onlardan heç biri.”

Həmin şəxs soruşdu: “Bəs necə oldu ki, Allah-təala mənim ən böyük istəyimi yerinə yetirdi.”

İmam (ə) buyurdu: “Yadındadırmı, sənin tanıdığın ailələrdən birində ərlə arvadın sözləri düz gəlmirdi? İş o yerə gəlib çatmışdı ki, artıq onlar boşanmağı qərara almışdılar. Onların 4-5 yaşında bir qızları da var idi. Sən onlara yaxın olduğun üçün aralarında vasitəçilik etdin və nəsihət edərək onları barışdırdın. Ailəni dağılmağa qoymadın. Bütün bunlar yadındadırmı?”

Dedi: “Bəli, yadımdadır.”

İmam (ə) buyurdu: “Sən onları barışdırdıqdan sonra həmin uşağın sənə baxıb sevincindən gülümsəməyi yadındadırmı?”

Dedi: “Bəli, yadımdadır.”

İmam (ə) buyurdu: “Allah-təala o uşağın gülümsəməyinə görə sənin həmin böyük hacətini həll etdi.”

Odur ki, İslam dini həm insanların şad olmalarını, həm də başqalarını şad etmələrini çox xoşlayır. Amma bunu da qeyd etmək lazımdır ki, insan axirətinin şadlığını da yadından çıxartmamalıdır. Biz bir müddət ana bətnində yaşamışıq. Bu dünyada da bir müddət yaşayıb əbədi həyata qovuşacağıq. Buna görə də insan dünyada elə bir iş görməməlidir ki, axirətin şadlığından məhrum olsun. Yəni dünyada şadlığın da bir həddi vardır. Şadlıq və sevinc o həddə olmamalıdır ki, insanı axirət günündə peşman etsin. Həzrət Əli (ə) bu barədə belə buyurmuşdur:

لا خَيرَ فِي لَذَّةٍ تُوجِبُ نَدَماً

–Peşmançılığa səbəb olan ləzzətdə xeyir olmaz.

Odur ki, insan elə bir şadlıq və sevinc içində yaşamalıdır ki, axirət günü etdiyi şadlığa görə peşman olmasın.

**2. Təmizlik**

İslam dini hər bir halda təmizliyi bəyəndiyi üçün Novruz bayramında da insanları təmizliyə riayət etməyə çağırır. Novruzda həmişə olduğu kimi, bugünkü gündə də insanlar bayramqabağı evdə təmizlik işləri ilə məşğul olar və köhnə əşyaları evdən çıxarardılar. Bundan əlavə, çox yaxşı olardı ki, insan gigienik qaydalara da riayət etsin. Həm bədənini, həm paltarlarını və həm də yaşadığı yeri təmiz saxlasın. Hədislərdə belə nəql olunur ki, axşam yemək yeyilən qabları yumadıqda içinə şeytanlar yığışar. Əlbəttə, bu hədisdə şeytanlar dedikdə mikroblar nəzərdə tutulur. Mikrob olan yerlərdə isə insanın xəstələnmə ehtimalı artır. İnsan təkcə öz təmizliyinə deyil, yaşadığı cəmiyyətin təmizliyinə də riayət etməlidir. Bədənin, paltarların və evin təmizliyinə riayət olunduğu kimi, insan ruhunun da təmizliyi ilə məşğul olmalıdır. Qəlbində olan kin-küdurəti, paxıllığı və təkəbbür kimi pislikləri də təmizləməlidir.  Allah-təala tövbə edənləri və pak insanları sevir.

### 3. Görüşlər və ziyarətlər

Novruz bayramının adət-ənənələrindən biri də budur ki, insanlar bir-birinin evinə qonaq gedər, ata-analarına, qohum-əqrəbalarına baş çəkər və qəbiristanlıq əhlini ziyarət edərlər. İslam dini bu əməlləri təsdiqləməklə yanaşı, həm də bu işləri daha tez-tez görməyi təkidlə tələb edir. Həmçinin həm diriləri, həm də ölüləri ziyarət etməyi təkidlə tövsiyə edir.

قَالَ عَلِيٌّ(ع): زُورُوا مَوتاكُم؛ فإنّهُم يَفرَحُونَ بِزِيارَتِكُم، و لْيَطلُبِ الرَّجُلُ حاجَتَهُ عِندَ قَبرِ أبيهِ و اُمِّهِ بعدَ ما يَدعُو لَهُما

–Həzrət Əli (ə) buyurur: "Ölülərinizi ziyarət edin. Çünki onlar sizin ziyarətinizdən şad olurlar. Əgər bir kəsin Allahdan istək və hacəti olsa, ata-anasının qəbrinin üstünə gedib valideyninə dua etsin və Allahdan (onlara xatir) öz hacətlərini diləsin."

Günlərin birində bir nəfər Həzrət Peyğəmbərin (s) hüzuruna gəlib ərz etdi: "Ya Rəsulallah, mən and içmişəm ki, cənnətə daxil olarkən onun qapısından və hurinin alnından öpəcəyəm. Öz andıma sadiq qalmaq üçün nə iş görməliyəm?" Həzrət Peyğəmbər (s) buyurdu: "Andına sadiq qalmaq üçün get ananın ayağının altından və atanın alnından öp." Həmin şəxs dedi: "Ya Rəsulallah, ata-anam həyatda olmadıqda nə edim?" Həzrət Peyğəmbər (s) buyurdu: "Elə isə get onların qəbrini öp."

Bundan əlavə, dinimiz bizə təkidlə bildirir ki, ata-ananızı ziyarət edin, qohum- əqrəbaya baş çəkin. Hədislərdə isə belə nəql olunur ki, bircə salamla olsa da belə qohum-əqrəbalarınıza baş çəkin. Əlbəttə, ən azından kiçik bir hədiyyə ilə qohum-əqrəbaya baş çəkməyin də öz yeri var.

Bir gün Həzrət Əlinin (ə) evinə hədiyyə gətirdilər. Həzrət (ə) soruşdu: "Bu nədir?" Dedilər: "Ya Əmirəlmöminin, bu gün Novruz bayramıdır. Ona görə də sənə hədiyyə gətirmişik." Həzrət (ə) hədiyyəni onlardan qəbul edib buyurdu: "Bizim hər günümüzü bizə Novruz edin."

**4. Yoxsula, kimsəsizə və yetimlərə baş çəkmək**

Novruz bayramında yoxsullara, çətinliyə düşənlərə, kimsəsizlərə və yetimlərə baş çəkmək tövsiyə olunur. Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Yoxsulları sevin və onlarla bir yerdə əyləşin.”

**5. Sədəqə vermək**

Novruz bayramında sədəqə vermək savab əməllərdən biridir. Ümumiyyətlə, İslam dini sədəqəyə çox böyük əhəmiyyət verir. Sədəqə elə bir əməldir ki, onu insandan şəxsən Allah Özü qəbul edir. Bütün aləmi idarə etmək üçün Allah-təala bir sıra mələklərə bəzi tapşırıqlar vermişdir. Məsələn, insanın dünyaya gəlməsində, canının alınmasında, insanın əməllərinə nəzarət olunmasında və s. məsələlərdə mələklərə müəyyən tapşırıqlar verib. Hədislərdə belə nəql olunur ki, göydən yağan hər damla yağışı iki mələk yerə gətirir. Amma sədəqə üçün heç bir mələyə göstəriş verilməyib. Sədəqə verən insandan həmin sədəqəni şəxsən Allah özü alır. Buna görə də hər bir gündə, xüsusilə də Novruz bayramında sədəqə verməyin çox böyük savabı vardır.

**6. Ömrü xatırlamaq**

Novruz bayramında tövsiyə və təkid olunmuş əməllərdən biri də insanın ömrünü xatırlamasıdır. Yəni insan bir il də ömründən keçdiyini fikirləşməlidir. Belə olduqda insan axirətini də düşünüb özü üçün azuqə toplamağa səy göstərər. Həzrət Əli (ə) bu barədə belə buyurmuşdur:

فَسَابِقُوا رَحِمَكُمُ اللَّهُ إِلَى مَنَازِلِكُمُ الَّتِي أُمِرْتُمْ أَنْ تَعْمُرُوهَا وَالَّتِي رَغِبْتُمْ فِيهَا وَدُعِيتُمْ إِلَيْهَا وَاسْتَتِمُّوا نِعَمَ اللَّهِ عَلَيْكُمْ بِالصَّبْرِ عَلَى طَاعَتِهِ وَالْمُجَانَبَةِ لِمَعْصِيَتِهِ فَإِنَّ غَداً مِنَ الْيَوْمِ قَرِيبٌ مَا أَسْرَعَ السَّاعَاتِ فِي الْيَوْمِ وَأَسْرَعَ الْأَيَّامَ فِي الشَّهْرِ وَأَسْرَعَ الشُّهُورَ فِي السَّنَةِ وَأَسْرَعَ السِّنِينَ فِي الْعُمُرِ

–Allah sizi bağışlasın, abadlaşdırılmasına əmr edildiyiniz, həvəsləndirildiyiniz və tərəfinə çağırıldığınız mənzillərinizə *(axirətə)* tərəf sürət alaraq yarışın. Allaha itaətə səbirlilik və itaətsizliklərdən uzaq

olmaqla Onun sizə olan nemətlərini kamilləşdirin.[49] Çünki sabah *(ölümün gəlib çatacağı zaman)* bu günə yaxındır. Günün saatları necə də sürətlə keçir; ayın günləri necə də tez arxada qalır; ilin keçməsində aylar necə də sürətlidir; ömrün illəri necə də tez keçir *(ki, onların tez keçmələri həyatın sona çatması və ölümün yaxınlaşması ilə nəticələnir)*.

**S O N!**

***Əssəlamu aleykum və rəhmətullahi və bərəkatuh***

[49] İbadətin çətinliklərinə səbir etmək və günahdan uzaqlaşmaqla özünüzü axirət nemətlərinin və əbədi cənnətin ləzzətlərinə layiq edin ki, o nemətlərin dünya nemətləri ilə birgə olması nəticəsində Allahın nemətlərindən tam bəhrələnmiş olasınız.

## Mündəricat

**MÖVLUDLAR** ........ 3
HƏZRƏT PEYĞƏMBƏR (S) VƏ İMAM SADİQİN (Ə) MÖVLUDU ........ 3
İslam Peyğəmbərinin (s) üç əsas xüsusiyyəti ........ 6
Vəhdət həftəsi ........ 11
HƏZRƏT FATİMEYİ ZƏHRANIN (S.Ə) MÖVLUDU ........ 15
NURANİYYƏT ........ 15
HƏZRƏT ƏLİNİN (Ə) MÖVLUDU ........ 27
(Həzrət Əlinin (ə) əxlaqı) ........ 27
İMAM RZANIN (Ə) MÖVLUDU ........ 43
(İmam Rzanın (ə) kəlamları) ........ 43

**ŞƏHADƏT VƏ VƏFAT GÜNLƏRİ** ........ 62
HƏZRƏT PEYĞƏMBƏR (S) VƏ İMAM HƏSƏNİN (Ə) ŞƏHADƏTİ GÜNÜ ........ 62
İNSANIN DİN VƏ İMANINA ZİYAN VERƏN AMİLLƏR ........ 62
HƏZRƏT PEYĞƏMBƏR (S) VƏ İMAM HƏSƏNİN (Ə) ŞƏHADƏTİ ........ 77
HƏYAT VƏ DİRİLİK ........ 77

**FƏZİLƏTLİ VƏ ƏLAMƏTDAR GÜNLƏR** ........ 128
RƏCƏB AYININ FƏZİLƏTLƏRİ ........ 128
Dua ........ 128

MÜBARƏK RAMAZAN AYI ........................................................... 148
(Mübarək ramazan ayı və orucun fəzilətləri) ........................................ 148
MƏBƏS GÜNÜ ........................................................................ 164
(Peyğəmbərin (s) risaləti) ........................................................ 164
ĞƏDİR-XUM ......................................................................... 172
Vilayət bayramı ................................................................... 172
QURBAN BAYRAMI .................................................................... 188
(Həzrət İbrahimin (ə) xüsusiyyətləri) .............................................. 188
NOVRUZ BAYRAMI .................................................................... 204